Azərbaycan Respublikası

Naxçıvan Muxtar Respublikası – 90

# HEYDƏR ƏLİYEV İRSİ – ƏBƏDİYAŞAR TƏLİM

Naxçıvan – 2014

**Fəxrəddin Səfərli**

*Heydər Əliyev irsi - əbədiyaşar təlim*

*AMEA Naxçıvan Bölməsi Rəyasət Heyətinin 24 aprel 2014-cü il tarixli, 8/8 saylı qərarı (protokol № 8) ilə çap olunur*

***Elmi redaktoru və öz sözün müəllifi:*** **İsmayıl Hacıyev**
*Əməkdar elm xadimi,*
*AMEA-nın həqiqi üzvü*

*Monoqrafiyada xalqımızın ümummilli lideri Heydər Əliyevin həyat və fəaliyyətinin müxtəlif məqamlarından bəhs edilir. Həmçinin, əsərdə muxtariyyət ərəfəsində Naxçıvanda ictimai-siyasi vəziyyət, bu zaman bölgənin erməni işğalından qorunmasında əhalinin rolu, Zəngəzurun Ermənistana verilməsi ilə Naxçıvanın blokadasının başlanması, ərazinin tarixi coğrafiyası,milli dəyərlərimiz və sair məsələlər şərh olunur.*

*Monoqrafiyadan Heydər Əliyev irsinin və Naxçıvan Muxtar Respublikasının tarix və mədəniyyətinin tədqiqi ilə məşğul olan tədqiqatçılar, magistrlər, doktorantlar faydalana bilərlər.*

***Fəxrəddin Səfərli. Heydər Əliyev irsi - əbədiyaşar təlim.*** *Naxçıvan-2014, "Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyi, 200 səh.*

4700000000
053-2014

© "Əcəmi" 2014.

## ÖN SÖZ

9 fevral 2014-cü ildə Naxçıvan Muxtar Respublikasının yaradılmasının 90 ili tamam oldu. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 14 yanvar 2014-cü ildə bu münasibətlə imzaladığı Sərəncama uyğun olaraq Naxçıvan Muxtar Respublikasının 90 illik yubileyi Naxçıvan şəhərində yüksək səviyyədə qeyd olundu. Yubiley mərasimində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iştirak və çıxış etdi. Çıxışında cənab Prezident 90 il bundan əvvəl Naxçıvana muxtariyyət statusu verilməsini "gözəl hadisə, tarixi hadisə, Naxçıvanın rolunu, bu diyarın strateji əhəmiyyətini əks etdirən bir qərar kimi" xarakterizə etdi.

Naxçıvan Muxtar Respublikasının 90 illik yubileyi həyatın bütün sahələrində olduğu kimi elm sahəsində də bir sıra uğurlarla yadda qaldı. Naxçıvan Muxtar Respublikasının yaranması, inkişafı, müstəqillik dövründəki tərəqqisi haqqında çoxlu elmi tədbirlər həyata keçirildi, əsərlər yazıldı və nəşr etdirildi. Muxtar respublikanın 90 illiyi ilə əlaqədar Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri tərəfindən təsdiq edilən Tədbirlər Planında nəzərdə tutulduğu kimi bu işlər yubiley tədbirləri çərçivəsində ilin sonunadək davam etdiriləcəkdir.

Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü, tarix elmləri doktoru, professor Fəxrəddin Səfərlinin elmi ictimaiyyətin və bütövlükdə oxucuların diqqətinə təqdim etdiyi "Heydər Əliyev irsi – əbədiyaşar təlim" monoqrafiyası da qeyd olunan yubiley münasibəti ilə hazırlanan əsərlərdəndir. Monoqrafiyanın ilk fəslində müəllif ulu öndər Heydər Əliyevin həyatı və siyasi fəaliyyətinin bir sıra məqamları, o cümlədən Heydər Əliyevin siyasi fəaliyyətinin Naxçıvan dövrünün 22 iyul 1990 – 3 sentyabr 1991-ci illəri, dahi şəxsiyyətin Azərbaycanı müstəqilliyə hazırlaması və bərpadan sonra müstəqil Azərbaycan dövlətini yaratması, onu qoruyub əbədiləşdirməsi, böyük qurtuluş, görkəmli dövlət xadiminin Azərbaycan xalqına miras qoyduğu irs, Naxçıvanın erməni işğalından xilas edilməsi, milli-mənəvi dəyərlərimizə qayğı, Naxçıvanda tarixçi kadrların hazırlanması və 1991-2011-ci illərdə tarix elminin inkişafı ümummilli liderin fəaliyyətində Azərbaycan tarixi məsələləri və Gəmiqaya abidələri haqqında söhbət açmışdır.

Heydər Əliyevin Azərbaycanda siyasi hakimiyyətinin birinci dövründə ali təhsil alan, namizədlik dissertasiyası müdafiə edən, ulu öndərin respublikaya ikinci dəfə rəhbərliyi zamanı doktorluq dissertasiyasını tamamlayan müəllif ulu öndərlə əlaqədar qələmə aldığı məqalələrdə bəhs olunan hadisələrin şahidi və bəzən iştirakçısı olması baxımından hər hansı məsələyə dərindən nüfuz etməyi bacarmış, qarşıya qoyulan məqsədin uğurlu həllinə nail ola

bilmişdir.

Əsərin ikinci fəsli Naxçıvan Muxtar Respublikasının 90 illik yubileyinə həsr olunmuşdur. Müəllif burada muxtariyyət ərəfəsində Naxçıvanda vəziyyətdən, Naxçıvanın erməni təcavüzündən qorunmasında əhalinin rolundan, Zəngəzurun Ermənistana verilməsi ilə Naxçıvanın blokadasının başlanmasından, bölgənin tarixi coğrafiyası məsələlərindən və muxtariyyətin qazanılmasında böyük rolu olan şəxsiyyətlərdən Behbud ağa Şahtaxtinski haqqında bəhs etmişdir.

Monoqrafiyanın üçüncü fəslinə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun bölgə tarixinin müxtəlif problemləri ilə bağlı ayrı-ayrı vaxtlarda imzaladığı sərəncamlardan, bu sərəncamların icrası ilə əlaqədar təsdiq olunan Tədbirlər Planlarından irəli gələn və qarşıda duran vəzifələrdən bəhs edən məqalələr daxil edilmişdir. Həmin məqalələrdə 2013-cü ilin Naxçıvan Muxtar Respublikasında "Milli dəyərlər ili" elan olunmasından, "Naxçıvan Muxtar Respublikasında Xalq yaradıcılığı günlərinin keçirilməsi haqqında", "Nuh peyğəmbərin Naxçıvan şəhərindəki məzarüstü türbəsinin bərpa edilməsi haqqında", ""Nuh peyğəmbər: dünya tufanı və Naxçıvan" mövzusunda beynəlxalq simpoziumun keçirilməsi haqqında", "Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Naxçıvanşünaslıq mərkəzinin yaradılması haqqında", ""Naxçıvan: ilk yaşayış və şəhərsalma yeri kimi" mövzusunda beynəlxalq simpoziumun keçirilməsi haqqında", ""Naxçıvan: ilkin şəhər və Duzdağ" mövzusunda beynəlxalq simpoziumun keçirilməsi haqqında", ""Naxçıvan tarixi" çoxcildliyinin hazırlanması və nəşr olunması barədə" sərəncamlardan, bu sərəncamlarla əlaqədar qarşıda duran vəzifələrdən, görülmüş və görüləcək işlərdən, onların əhəmiyyətindən bəhs olunmuşdur.

Əsərin dördüncü fəslində isə akademik İsa Həbibbəylinin "Heydər Əliyevin dövlətçilik təlimi və müasir dövr" və akademik İsmayıl Hacıyevin "Heydər Əliyev siyasəti: tarixdə və günümüzdə" monoqrafiyalarından bəhs olunmuşdur.

AMEA-nın müxbir üzvü, professor Fəxrəddin Səfərlinin gərgin əməyinin məhsulu olan monoqrafiya ümummilli lider Heydər Əliyevin həyatı və siyasi fəaliyyətinin müxtəlif məqamları, muxtariyyət ərəfəsində Naxçıvanda vəziyyət, bölgənin erməni təcavüzündən qorunmasında əhali amili, Naxçıvana muxtariyyət statusu verilməsində xidməti olan şəxsiyyətlər, müstəqillik illərində Naxçıvanda tarix elminin inkişafına dövlət qayğısı, bölgə tarixinin müxtəlif problemləri ilə əlaqədar həyata keçirilən tədbirlər, o cümlədən əldə olunan uğurlar, hazırlanan və nəşr olunan ümumiləşdirici əsərlər,

monoqrafiyalar və s. haqqında aydın təsəvvür yaradır.

İnanırıq ki, AMEA-nın müxbir üzvü, tarix elmləri doktoru, professor Fəxrəddin Səfərlinin yüksək elmi səviyyədə yazdığı bu əsər ümummilli lider Heydər Əliyev irsi ilə maraqlananların, ümumiyyətlə geniş oxucu kütləsinin diqqətini cəlb edəcək, ondan bəhrələnəcəklər. Bütün bunları nəzərə alaraq monoqrafiyanın nəşr olunmasını məqsədəuyğun hesab edirik.

**İsmayıl Hacıyev**
*AMEA-nın həqiqi üzvü*

## MÜƏLLİFDƏN

10 may 2013-cü ildə Azərbaycan xalqının ümummilli lideri, görkəmli dövlət xadimi və diplomat, dahi şəxsiyyət Heydər Əlirza oğlu Əliyevin anadan olmasının 90 ili tamam oldu. Adı çağdaş tariximizin 40 ilə yaxın bir dövrünün simvoluna çevrilmiş ulu öndər Heydər Əliyevin dünyaya göz açdığı bu tarixi gün bütün ölkədə olduğu kimi, Azərbaycanın ayrılmaz tərkib hissəsi, eyni zamanda ümummilli liderin doğma vətəni, doğulub boya-başa çatdığı Naxçıvan Muxtar Respublikasında da yüksək səviyyədə, təntənəli şəkildə qeyd olundu.

Yubileylə əlaqədar Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 21 yanvar 2013-cü ildə "Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 90 illik yubileyi haqqında" Sərəncam imzalamışdır. Bu Sərəncamdan irəli gələn vəzifələrə uyğun olaraq Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov 14 fevral 2013-cü ildə imzaladığı Sərəncamla "Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 90 illik yubileyinin Naxçıvan Muxtar Respublikasında keçirilməsinə dair Tədbirlər Planı"nı təsdiq etmişdir. 22 dekabr 2012-ci ildə keçirilən IV çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin VI sessiyasında 2013-cü ilin "Heydər Əliyev ili" elan olunduğu muxtar respublikada ulu öndərin 90 illik yubileyinin yüksək səviyyədə keçirilməsi üçün konkret vəzifələr müəyyən edilmişdir.

Mühüm siyasi-tarixi əhəmiyyətə malik olan bu dövlət sənədlərinin – Prezident Sərəncamının imzalanmasından və Tədbirlər Planının təsdiq olunmasından sonra keçən müddət ərzində qarşıda duran vəzifələrin uğurlu həllinə nail olmaq üçün muxtar respublikanın bütün idarə və təşkilatları kimi, ziyalılar da səylə çalışmış, ümummilli lider Heydər Əliyevin yubileyi ilə əlaqədar üzərlərinə düşən vəzifələrin yüksək səviyyədə yerinə yetirilməsi üçün bilik və bacarıqlarını əsirgəməmişlər. Bu sətirlərin müəllifi də ulu öndərin 90 illik yubileyi ilə əlaqədar bir sıra işlər görmüş, ümummilli lider Heydər Əliyevin həyatı və siyasi fəaliyyətinin müxtəlif məqamları ilə əlaqədar bir sıra müəssisə və təşkilatlarda fəaliyyət göstərən "Heydər Əliyev lektoriyaları"nda, konfranslarda çıxışlar etmiş, jurnal və qəzetlərdə məqalələr nəşr etdirmiş, AMEA Naxçıvan Bölməsində və Naxçıvan Muxtar Respublikasının bir sıra təşkilatlarında keçirilən yığıncaqlarda, həmçinin yüksək səviyyəli dövlət tədbirlərində fəal şəkildə iştirak etmişdir.

Məlumdur ki, 9 fevral 2014-cü ildə Naxçıvan Muxtar Respublikasının 90 illik yubileyi tamam oldu. Bu münasibətlə Azərbaycan Respublikasının

Prezidenti İlham Əliyev 14 yanvar 2014-cü ildə “Naxçıvan Muxtar Respublikasının 90 illik yubileyinin keçirilməsi haqqında” Sərəncam imzalamışdır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 17 yanvar 2014-cü ildə imzaladığı Sərəncamla “Naxçıvan Muxtar Respublikasının 90 illik yubileyinə həsr olunmuş “Tədbirlər Planı”” təsdiq edilmişdir. “Tədbirlər Planı”nda yubiley ili olan 2014-cü ildə - IV çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin VIII sessiyasında elan edilən “Muxtariyyət ili”ndə muxtar respublikanın yubileyinin yüksək səviyyədə keçirilməsini təmin etmək məqsədi ilə konkret vəzifələr müəyyən edilmişdir. Muxtar respublikanın nazirlik, komitə, yaradıcılıq təşkilatları, müəssisələri və s. qarşısında bir sıra vəzifələr qoyulmuş “Tədbirlər Planı”nda alimlərə muxtariyyətin tarixi ilə əlaqədar tədqiqatların aparılması, monoqrafiyaların və kitabların yazılaraq nəşr etdirilməsi tapşırılmışdır. Muxtar respublikada ulu öndərin 90 illik yubileyi ilə əlaqədar 2013-cü ildə həyata keçirilən genişmiqyaslı tədbirlər sırasında da ümummilli lider Heydər Əliyevin həyatı və siyasi fəaliyyətinə həsr olunmuş müxtəlif nəşrlərin, o cümlədən monoqrafiyaların hazırlanması və nəşri işi də mühüm yer tutmuşdur.

Oxucuların diqqətinə təqdim olunan bu əsər Azərbaycan xalqının böyük oğlu, görkəmli dövlət xadimi, çoxminillik dövlətçilik tariximizdə Azərbaycanı idarə etmiş çoxsaylı şəxsiyyətlər içərisində yeganə olaraq Ümummilli lider səviyyəsinə yüksəlmiş Heydər Əlirza oğlu Əliyevin tarixi nailiyyət kimi dəyərləndirdiyi Naxçıvan Muxtar Respublikasının yaradılmasının 90 illik yubileyi münasibəti ilə hazırlanmışdır.

# BİRİNCİ FƏSİL

## ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEV İRSİ ƏBƏDİYAŞAR TƏLİMDİR

### 1.1. HEYDƏR ƏLİYEVİN NAXÇIVAN DÖVR FƏALİYYƏTİ *(22 İYUL 1990 – 03 SENTYABR 1991-ci İLLƏR)*

1987-ci ilin oktyabrında SSRİ rəhbərliyindən istefa vermiş görkəmli dövlət xadimi Heydər Əliyev bir müddət Moskvada yaşadıqdan sonra 1990-cı ilin 20 iyulunda doğma Azərbaycana qayıtdı. 20 yanvar 1990-cı ildə Bakıda törədilən dəhşətli faciənin səhəri günü Moskvadakı Azərbaycan nümayəndəliyinə gələrək 6 minədək adamın iştirak etdiyi yığıncaqda çıxış etməsi, Bakıda baş verən hadisələr haqqında beynəlxalq ictimaiyyəti məlumatlandırması, bu hadisələri Azərbaycan xalqına qarşı təcavüz adlandırması, bu ağır günlərdə xalqı ilə bir yerdə olmasını bildirməsi Azərbaycan xalqında dahi rəhbərə olan sevgini daha da artırdığından, həmin vaxt Azərbaycana rəhbərlik edənlər isə bunu açıq-aşkar hiss etdiklərindən hər vasitə ilə Heydər Əliyevin Azərbaycana gəlməsinə mane olmağa çalışırdılar. Hətta Azərbaycan Prezidenti Ayaz Mütəllibovun Heydər Əliyevə onun qayıdışı ilə "Azərbaycanda böyük qarışıqlıqlar baş verə bilər" xəbərdarlığı *(143, s. 46)*, ona qarşı terror aktları və repressiya planlarının hazırlanması, dahi şəxsiyyətin Bakıya qayıdacağını bilən tək-tək adamlardan biri olan Azərnəşrin direktoru Əjdər Xanbabayevin 30 may 1990-cı ildə faciəli surətdə qətlə yetirilməsi Heydər Əliyevi qorxuda, qərarını dəyişdirə bilmədi, o Bakıya gəldi. Ancaq Bakıda yaşamasına imkan verilmədiyi üçün 22 iyul 1990-cı ildə doğulub boya başa çatdığı doğma Naxçıvana qayıtdı.

Naxçıvan əhalisi ulu öndəri böyük sevgi və məhəbbətlə qarşıladı. Naxçıvan şəhərinin baş meydanına toplaşan yüz min nəfərdən çox adamın görüşünə gələn, bütün ömrünü Azərbaycan xalqına xidmətdə keçirən, öz rahatlığını, dincliyini gecə-gündüz xalqının xoşbəxtliyinə sərf edən Heydər Əliyevlə onu dünyalar qədər sevən xalqı vahid bir tam kimi birləşib qovuşdu *(92, s. 84)*. Dahi şəxsiyyət bu hadisə haqqında sonralar belə demişdi: "Moskvada məni təqib edirdilər... Hətta yanvar hadisələrindən sonra hərəkətlərimə görə mənə qarşı repressiya planları hazırlanmışdı və onları həyata keçirmək istəyirdilər. Bakıya gələndə xalq tərəfindən mənim gəlişim böyük ruh yüksəkliyi ilə qəbul olundu, lakin hakimiyyətdə olan ayrı-ayrı şəxslər tərəfindən Bakıda yaşamağıma imkan verilmədisə də, mən Naxçıvana

gələndə Naxçıvan ayağa qalxdı, Naxçıvan məni qucaqladı, bağrına basdı. Görünür, mənim Naxçıvana gəlməyim taleyin işi imiş" *(102, s. 43)*.

Azadlıq meydanında qısa çıxışında Azərbaycanı müstəqil görmək arzusunu dilə gətirən, Naxçıvana gəldikdən sonra ayrı-ayrı vətəndaşlarla söhbətlər edən, müxtəlif yaşayış məskənlərinə gedərək əhali ilə görüşlər keçirən, onlar qarşısında çıxışlar edən, ölkədə yaranmış vəziyyəti təhlil edən, verilən sualları cavablandıran ulu öndər həm də onları müstəqillik uğrunda mübarizəyə çağırırdı, Azərbaycanın müstəqil olması haqqında düşüncələrini onlara çatdırırdı. Məsələn, o Naxçıvana qayıtdıqdan təxminən on gün sonra Naxçıvan gəncləri ilə görüşündə bir sıra məsələlərlə, xüsusi ilə Dağlıq Qarabağ problemi ilə bağlı fikirlərini söyləməklə yanaşı belə bir fikri xüsusi vurğulamışdı: "Hələlik Naxçıvandayam. Əgər bütün naxçıvanlılar mənim burada yaşamağımı arzu edirsə, buna etiraz etmirəm. Mənim başlıca arzum Azərbaycanı siyasi və iqtisadi cəhətdən müstəqil, demokratik respublika kimi görməkdir" *(141, 2 avqust 1990-cı il)*.

Yaxud da, Azərbaycan SSR Ali Sovetinə xalq deputatlığına namizədliyi irəli sürülmüş, 340 saylı Nehrəm kənd seçki dairəsində seçicilərlə görüşündə demişdi: "Mənim əsas məqsədim Azərbaycanın ərazi bütövlüyünü və Azərbaycan hakimiyyətini respublikanın bütün ərazisində bərqərar etməkdən ibarətdir. Azərbaycan Respublikasının Milli dövlət kimi inkişaf etməsi indi əsas məsələdir. Bunun üçün Azərbaycan tam müstəqil, azad, demokratik respublika olmalıdır" *(141, 26 sentyabr 1990-cı il)*.

Dahi şəxsiyyətin Naxçıvana – doğma vətənə qayıdışı elə bir vaxta təsadüf etmişdi ki, həmin vaxt ölkə Azərbaycan SSR Ali Sovetinə və Naxçıvan MSSR Ali Sovetinə seçkilər ərəfəsində idi. Həmin vaxt Naxçıvan əhalisi, demək olar ki, bütün dairələrdən Azərbaycan SSR Ali Sovetinə və Naxçıvan MSSR Ali Sovetinə Heydər Əliyevin namizədliyini irəli sürmüşdü. Ancaq mövcud qanunvericiliyə görə bir nəfərin bir dairədən namizədliyinin göstərilməsi mümkün olduğuna görə Heydər Əliyev Azərbaycan SSR Ali Sovetinə 340 saylı Nehrəm seçki dairəsindən, Naxçıvan MSSR Ali Sovetinə isə Naxçıvan şəhər 2 saylı seçki dairəsindən namizədliyinin irəli sürülməsinə razılıq verdi. 30 sentyabr 1990-cı ildə baş tutan seçkilərdə Heydər Əliyev Azərbaycan SSR Ali Sovetinə və Naxçıvan MSSR Ali Sovetinə deputat seçildi.

Ümummilli lider Heydər Əliyevin deputat kimi fəaliyyətə başlamasının ilk günündən – 17 noyabr 1990-cı ildən etibarən Azərbaycanın müstəqilliyi uğrunda apardığı mübarizə diqqəti xüsusi ilə cəlb edir. Gündəliyinə 40 məsələ daxil edilən və Heydər Əliyevin sədrliyi ilə keçirilən Naxçıvan

MSSR Ali Sovetinin 17 noyabr 1990-cı il tarixli sessiyasında qəbul olunan qərarlar buna parlaq misaldır. Heydər Əliyevin rəhbərliyi ilə keçirilən bu tarixi sessiyada Sovet Sosialist Respublikaları İttifaqının – SSRİ-nin qılıncının dalının da qabağının da kəsdiyi bir vaxtda Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının adından "Sovet Sosialist" sözləri götürülərək Naxçıvan Muxtar Respublikası adlandırılmış, Naxçıvan Muxtar Respublikasının Ali Dövlət hakimiyyəti orqanının – Ali Sovetin adı dəyişdirilərək Naxçıvan Muxtar Respublikası Ali Məclisi adlandırılmış, Azərbaycan Xalq Cümhuriyyətinin üç rəngli Dövlət bayrağı Naxçıvan Muxtar Respublikasının Dövlət bayrağı kimi qəbul edilmiş, bu bayrağın, bütövlükdə Azərbaycan SSR-in Dövlət rəmzi kimi qəbul edilməsi məsələsi qanunvericilik təşəbbüsü qaydasında Azərbaycan SSR Ali Sovetindən xahiş edilmişdi.

Xüsusi olaraq qeyd etmək istərdik ki, bu qərarlar qəbul olanarkən hələ Azərbaycan müstəqilliyini bərpa etməmişdi. 18 oktyabr 1991-ci ilə 11 ay qalırdı. SSRİ kimi nəhəng və güclü dövlət hələ tarix səhnəsindən çıxmamışdı. SSRİ-nin süqutuna hələ bir ildən artıq vaxt qalırdı. Ona görə də 17 noyabr 1990-cı ildə bu tarixi sessiyaya sədrlik edən ulu öndər Heydər Əliyev üzərinə çox təhlükəli və məsuliyyətli vəzifə götürmüş, deputatları bu qərarların qəbul olunmasının vacibliyinə inandıra bilmiş və həmin qərarlar qəbul edilmişdi. Bu da taleyin ulu öndər Heydər Əliyevə bir qisməti imiş ki, müstəqil olmayan, SSRİ kimi dövlətin tərkibinə daxil olan Naxçıvan Muxtar Respublikasında SSRİ-də ilk dəfə müstəqil dövlətin atributları dövlət atributları kimi qəbul olunmuş və bu haqda qərarların axırında onun imzası qoyulmuşdur.

Naxçıvanda bu cür gözlənilməz addımların atılmasını bilavasitə Heydər Əliyevin təşəbbüsünün nəticəsi kimi qiymətləndirən akademik İ.Hacıyev yazır ki, "Azərbaycanın müstəqilliyini istəməyən, hələ də SSRİ-nin boyunduruğunda qalmaq istəyindən əl çəkməyən ölkə rəhbərliyi Naxçıvan MR Ali Məclisinin sessiyasında qəbul edilmiş tarixi qərarları "dövlətçiliyə qəsd" adlandırdı və Naxçıvanın blokada vəziyyətinə düşməsi daha kəskin xarakter aldi" *(66, s. 36)*.

Artıq deputat kimi fəaliyyət göstərən Heydər Əliyev Naxçıvan MR Ali Məclisinin 21 noyabr 1990-cı ildə keçirilən sessiyasında 20 yanvar faciəsinə siyasi qiymət verilməsinə nail oldu. Sessiyanın qəbul etdiyi və faciənin günahkarlarının – İttifaq və Azərbaycan rəhbərlərinin adı çəkildiyi qərarda 20 yanvar hadisəsi Azərbaycan SSR-nin suveren hüquqlarına, respublikada gedən proseslərə qəsd kimi qiymətləndirilmiş, dinc əhaliyə, günahsız adamlara qarşı müasir silahlarla, hərbi texnika ilə zorakılıq edilməsi, qətlə

yetirilməsi Azərbaycan xalqına qarşı açıq təcavüz kimi ittiham edilmiş, bir ilə yaxın vaxt keçməsinə baxmayaraq Bakı faciələrinə Azərbaycan SSR ali hakimiyyət orqanları tərəfindən siyasi qiymət verilməməsinə etiraz olunmuş, Azərbaycan SSR Ali Sovetindən tələb edilmişdi ki, ən qısa müddətdə həmin məsələni parlamentin müzakirəsinə çıxarsın. Həmçinin, sessiyada 20 yanvarın hər il Naxçıvan Muxtar Respublikasında Milli matəm günü kimi qeyd olunması qərara alınmışdı *(92, s. 149-150)*.

Ali Məclisin 29 noyabr 1990-cı il tarixli sessiyasında ulu öndər 17 noyabr 1990-cı il tarixli sessiyasının qərarlarının tətbiq olunması, qərarlara uyğun olaraq muxtar respublika ərazisində fəaliyyət göstərən dövlət idarələrinin blanklarının, möhürlərinin dəyişdirilməsi, yeni bayraqların, deputatlar üçün yeni nişanların hazırlanması haqqında təkliflər vermişdi *(92, s. 160)*.

Belə bir vaxtda SSRİ-nin süquta uğradığını görən bəzi qüvvələr bu dövlət qurumunu qoruyub-saxlamaq üçün bir sıra vasitələrə əl atır, uğursuz cəhdlər edirdilər. Belə cəhdlərdən biri də bir sıra müttəfiq respublikanın, o cümlədən Azərbaycan rəhbərliyinin iştirakı ilə hazırlanmış yeni ittifaq müqaviləsinin layihəsinin hazırlanması və yeni ittifaqın yaradılmasına cəhd oldu. Ulu öndər bu layihəyə qəti etirazını bildirərək Naxçıvan MR Ali Məclisinin 14 yanvar 1991-ci ildə keçirilən sessiyasında demişdi: "Əgər bizim respublikamız həqiqətən milli dirçəliş yoluna çıxıbsa və bu yolla getmək istəyirsə, onda hansı ittifaq birliyindən söhbət gedə bilər? Burada təyin etmək lazımdır ki, bizim respublika hansı yolla gedəcəkdir?... Bir tərəfdən layihədə belə elan olunur ki, guya ittifaq suveren respublikalar ittifaqıdır, ikinci tərəfdən respublikaların suverenliyi tamamilə məhduddur və yaxud yoxdur. Hansı suverenlikdən danışmaq olar ki, Azərbaycan iqtisadiyyatının böyük bir hissəsi ittifaq tabeliyində olacaqdır, ümumittifaqın sərəncamındadır, ona mənsubdur?... O ki, qaldı siyasi suverenliyə, respublikaların bu sahədə siyasi severenliyi göstərilmir, hamısı ümumi sözlərdir, ümumi bəyanatlardır, bir sözlə, adam aldatmaqdır" *(92, s. 165-166)*.

Sovet rəhbərlərinin SSRİ-ni qoruyub-saxlamaq üçün əl atdığı vasitələrdən biri də SSRİ-nin saxlanmasına əhalinin münasibət bildirməsi üçün 17 mart 1991-ci ilə referendum – ümumxalq səs verməsi təyin olunması oldu. Azərbaycan SSR Ali Sovetinin 7 mart 1991-ci ildə keçirilən və bu məsələnin müzakirə olunduğu sessiyasında Heydər Əliyev çıxış etmiş və Azərbaycan əhalisinin bu referendumda iştirak etməsinin əleyhinə çıxmışdı. Dahi şəxsiyyət qeyd etmişdi ki, "Mən yeni ittifaqa daxil olmağın və bunun üçün referendum keçirməyin heç bir şərt qoymadan tam əleyhinəyəm... Azərbaycanın

tam istiqlaliyyət, azadlıq, iqtisadi və siyasi müstəqillik yolu ilə getməsinin tərəfdarıyam... Azərbaycan tam müstəqil dövlət kimi fəaliyyət göstərmək üçün bütün imkanlara malikdir" *(136, 15 mart 1991-ci il)*. Buna baxmayaraq Ali Sovetin deputatlarının kommunistlərdən ibarət olan əksəriyyəti referendumda Azərbaycan əhalisinin iştirakı haqqında müsbət qərar qəbul etsələr də, Heydər Əliyev Naxçıvan MR Ali Məclisinin 14 mart 1991-ci ildə keçirilən sessiyasında Naxçıvan əhalisinin referendumda iştirak etməməsi haqqında qərar qəbul olunmasına nail oldu. Naxçıvanda referendum boykot olunsa da, həmçinin Azərbaycan əhalisinin əksəriyyətinin ümumxalq səsverməsinə münasibəti mənfi olsa da səsvermənin nəticələri saxtalaşdırıldı və belə bir fikir formalaşdırıldı ki, guya Azərbaycan əhalisinin səsvermədə iştirak edənlərinin 93.3 faizi SSRİ-nin saxlanmasının lehinə səs vermişdir *(18, 28 yanvar 1994-cü il; 28, s. 305)*.

Heydər Əliyev 19 iyul 1991-ci ildə Sov.İKP üzvü kimi qeydiyyatda dayandığı SSRİ Nazirlər Sovetinin partiya təşkilatına Sov.İKP sıralarından istefa verməsi ilə əlaqədar bəyanatla müraciət etdi. Sov.İKP-ni 1990-cı ilin yanvarında Azərbaycan xalqına qarşı edilmiş hərbi təcavüzə siyasi rəhbərlikdə və bu cinayətin üstünü açmamaqda, günahkarları üzə çıxarmamaqda, mərkəzin ikiüzlü siyasəti, erməni separatçılarına havadarlığı sayəsində Dağlıq Qarabağda yaranmış kəskin münaqişəli vəziyyətdə, vilayətin əslində tamamilə Azərbaycan dövlətinin idarəçiliyindən çıxarılmasında, demokratikləşmə, siyasi azadlıqlar və plüralizm bəyan edilən bir dövrdə Azərbaycanda demokratik hərəkat və cəmiyyətin demokratikləşdirilməsini əngəlləməkdə təqsirləndirərək qeyd edirdi ki, "Yeniləşən partiya və respublikaların yeniləşən ittifaqı haqqında saysız-hesabsız bəyanatlar yenə xalqı aldatmaqdır. Xalqa açıq və doğrusunu demək lazımdır ki, bizim ölkədə kommunizm ekspermenti, sosializm yolu özünü doğrultmadı, zorakılıqla yaranan və saxlanılan respublikaların ittifaqı süquta uğramaqdadır" *(93, s. 166)*. İmzalanmasına cəhd edilən ittifaq müqaviləsinə də toxunularaq müraciətdə deyilirdi: "Mən mərkəz tərəfindən sırınan yeni İttifaq müqaviləsinin əleyhinə çıxmışam. Hər hansı bir suveren dövlətin tərkibində bir neçə suveren dövlət və eləcə də bundan irəli gələn azadlıqlar, səlahiyyətlər və funksiyalar ola bilməz. Bütün müttəfiq respublikalara əsl siyasi, iqtisadi azadlıqlara, milli dövlət dirçəlişi üçün müstəqilliyə imkan vermək lazımdır. ...Naxçıvan Muxtar Respublikasının və Azərbaycanın xalq deputatı kimi öz çıxışlarımda bu məsələni dəfələrlə qaldırdım. Təklif etdim ki, Azərbaycan KP təkhakimiyyətlikdən imtina etsin, bütün siyasi qüvvələrin azad və bərabər hüquqlu fəaliyyətini təmin etsin, demokratik cəmiyyətin yaranmasına, azadlıq və

plüralizmə şərait yaradılsın *(93, s. 165)*.

SSRİ-nin qorunub-saxlanması üçün atılan növbəti addımlardan biri SSRİ-nin vitse-prezidenti Yanayevin başçılığı ilə 1991-ci il avqustun 19-da dövlət çevrilişinə edilən cəhd oldu. Onlar həmin vaxt Krımda istirahət edən SSRİ Prezidenti M.Qorbaçovun hakimiyyətdən kənarlaşdırıldığını elan edərək Dövlət Fövqəladə Vəziyyət Komitəsi təşkil etdilər. SSRİ-nin saxlanmasında maraqlı olan bir sıra müttəfiq respublika rəhbərləri, o cümlədən bu hadisədən sevincək olmuş Azərbaycan KP MK I katibi A.Mütəllibov tələsik, avqustun 21-də bəyanat verərək respublikanın qarşısında duran mürəkkəb məsələlərin həllində ümidini bu komitəyə bağladığını bildirdi. Həmin vaxt Heydər Əliyev Moskvada baş verən bu hadisəni və Ayaz Mütəllibov başda olmaqla Azərbaycan rəhbərliyinin DFVK ilə bağlı mövqeyini pisləmiş, hətta Azərbaycan SSR Ali Sovetinə növbədənkənar sessiya çağrılmasını və onların bu mövqeyinin müzakirə olunaraq obyektiv qiymət verilməsini tələb edən məktub göndərmişdi *(92, s. 179-180)*.

Naxçıvan MR Ali Məclisinin 26 avqust 1991-ci ildə keçirilən sessiyasında muxtar respublikanın ictimai-siyasi həyatında böyük əhəmiyyətə malik qərar qəbul olundu. "Naxçıvan MR-da Kommunist Partiyasının və Komsomol təşkilatlarının fəaliyyətlərinin dayandırılması, onların yerli strukturlarının ləğv və əmlakının milliləşdirilməsi" haqqında qəbul edilən qərarla muxtar respublikada Azərbaycan KP-nın bütün təşkilatlarının fəaliyyəti dayandırıldı və Vilayət Partiya Komitəsinin bütün strukturları ləğv edildi *(73, 28 avqust 1991-ci il)*. Bu zaman avqust dövlət çevrilişinə etiraz olaraq keçirilən, minlərlə insanın iştirak etdiyi mitinqlərdə respublikada prezident seçkilərinin dayandırılması, Kommunist Partiyasının hakimiyyətinin ləğv edilməsi, muxtar respublikada Milli Müdafiə Komitəsinin yaradılması, Bakıda fövqəladə vəziyyət rejiminin ləğv olunması, Leninin abidələrinin sökülməsi və s. məsələlər tələb edilirdi *(93, s. 169-170)*.

Xalq deputatı Heydər Əliyev Ali Sovetin 29 avqust 1991-ci il tarixli sessiyasında çıxış edərək Azərbaycanda fövqəladə vəziyyətin davam etməsini, Azərbaycan rəhbərlərinin, xüsusilə A.Mütəllibovun DFVK-nə münasibətini pisləmiş, KP-nin hakimiyyətdən getməsini tələb etmiş və demişdi: "Avqust ayının 21-də Azərbaycan televiziyası ilə Ayaz Mütəllibovun xalqa müraciəti oxunubdur. Müraciət həm Azərbaycan, həm də rus dilində oxunub. Müraciətdə Fövqəladə Vəziyyət Komitəsinin fəaliyyəti bəyənilib və Fövqəladə Vəziyyət üzrə Dövlət Komitəsinin fəaliyyəti ilə Azərbaycan Respublikasının bir neçə məsələsinin həll olunmasına ümid bəslənilib... Azərbaycan Kommunist Partiyası dərhal hakimiyyətdən getməlidir... Azərbaycan Kommunist Parti-

yasının bütün strukturları ləğv olunmalıdır, əmlakı milliləşdirilməlidir. Azərbaycan Kommunist Partiyasının, onun mətbu orqanlarının işi dayandırılmalı, Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin hərbi xunta ilə əməkdaşlıq edib-etməməsi məsələsi aydınlaşdırılmalıdır. Bunun üçün Parlament Komissiya yaratmalıdır" *(92, s. 182-183)*.

Burada bir cəhətə diqqət yönəltmək istərdik. Tabeliyində informasiya toplayan və ona çatdıran çoxlu dövlət təşkilatlarının, xüsusi idarələrin olmasına baxmayaraq Azərbaycana rəhbərlik edən A.Mütəllibov baş verən hadisələrdən düzgün nəticə çıxara və vəziyyəti düzgün qiymətləndirə bilməmiş, tələm-tələsik, sevinclə DFVK-ni müdafiə etdiyini bildirmişdi. Bununla da özünün siyasətdə naşı, səriştəsiz bir adam olduğunu göstərmişdi. Əksinə, görkəmli şəxsiyyət, siyasətdə söz sahibi olan Heydər Əliyev mərkəzdən uzaqda – Naxçıvanda yaşamasına və Azərbaycan rəhbərləri tərəfindən informasiya blokadasında saxlanmasına baxmayaraq 19 avqust 1991-ci ildə Moskvada baş verən hadisələr barədə məlumat alan andan etibarən baş verən hadisələrə obyektiv qiymət vermiş, onu dövlət çevrilişi, Dövlət Fövqəladə Vəziyyət Komitəsini xunta adlandırmışdı. DFVK-nə münasibət məsələsi onsuz da müqayisə olunması mümkün olmayan bu iki şəxsiyyətin – Heydər Əliyevin və Ayaz Mütəllibovun siyasətdə hansı səviyyədə dayandıqlarını çox parlaq şəkildə əks etdirir.

Həmçinin, həmin sessiyada ulu öndər çıxışına davam edərək Azərbaycan xalqının ən ağrılı məsələsinə – 20 yanvar faciəsinə indiyədək respublika səviyyəsində siyasi qiymət verilməməsi, günahkarların cəzalandırılmaması məsələsinə toxunmuş, hətta qorxmadan və çəkinmədən 20 yanvar faciəsinin günahkarlarının adını çəkmişdir: "Kim bu hərbi təcavüzün günahkarıdır? Bu gün deyilir ki, Yazov, Kryuçkov. Bəli, belədir. Ancaq biz bura Bakatini, Girenkonu, Qorbaçovu, Primakovu da əlavə etməliyik... Bəs Azərbaycan rəhbərlərindən kimlər günahkardırlar? Bəli, bu şəxslər də məlumdur. Vəzirov, Qafarova, Mütəllibov və Azərbaycan KP MK-nin başqa büro üzvləri" *(92, s. 184)*. Ulu öndər bu sözləri qorxmadan və çəkinmədən Vəzirov istisna olmaqla həmin vaxt iclas salonunda əyləşən Azərbaycan rəhbərlərinin üzünə söyləmişdi.

Ali Sovetin 30 avqust 1991-ci il tarixli, Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpa edilməsi haqqında bəyanatının – "Azərbaycanın Müstəqillik Bəyannaməsi"nin qəbul olunduğu sessiyasında çıxış edən Heydər Əliyev qeyd etdi ki, martın 7-dən 10-na qədər keçirilən Ali Sovetin sessiyasında bir çox deputatlar, o cümlədən mən də Azərbaycanın müstəqilliyini təklif edərkən bizim əleyhimizə cürbəcür hücumlar başlandı və

Ayaz Mütəllibovun o qədər də dərin mənalı olmayan əsassız çıxışından sonra hamı səs-küylə səs verdi ki, Azərbaycanın müstəqilliyi ola bilməz və biz referenduma getməliyik, yeni ittifaq müqaviləsini imzalamalıyıq. ...Tələm-tələsik referendum keçirildi. Azərbaycanın ittifaq müqavilasinə getməsi haqqında qərar qəbul olundu. Belə olan halda, indi xalqın iradəsi olmadan bu cür qərarın, ya bəyanatın qəbul olunması qanunu pozmaq deməkdir... bu bəyanatı indi qəbul edib, xalqa müraciət etmək lazımdır. Qısa müddətdə, 3-4 gün ərzində referendum keçirmək lazımdır və referendumun nəticəsinə görə sessiya yığışıb bu qərarı qəbul etməlidir *(92, s. 185)*. Beləliklə, 17 martda keçirilən və saxtalaşdırılan referendumun qərarının ləğv edilməsini tələb edən ulu öndər, həmçinin sözünə davam edərək bildirdi ki, bu bəyanatın mətninə mütləq əlavə olunmalıdır ki, 1920-ci il aprelin 28-də Azərbaycan işğal olunub... Azərbaycan Demokratik Respublikası zorakılıqla ləğv olunub. Əgər biz bunu qeyd etməsək yenə də xalqın qarşısında ikiüzlü olarıq *(92, s. 185-186)*.

Ulu öndər Heydər Əliyevin əvvəl sıravi vətəndaş, sonralar isə deputat kimi fəaliyyəti, Ali Məclisin sessiyalarındakı çıxışları, onun təklifləri sayəsində düzgün qərarlar qəbul edilməsi və s. nəticədə xalqın ona olan rəğbətini daha da artırır, bu isə Azərbaycan rəhbərliyində qısqanclıq yaradırdı. Ümummilli liderin bu qəbildən olan çıxışları, xüsusilə əhalini müstəqillik uğrunda mübarizəyə çağırması mövcud hakimiyyət orqanlarını narahat edirdi. Çünki bu çağırışlar uzun illər Azərbaycana rəhbərlik edən, SSRİ kimi nəhəng dövlətin rəhbərliyində təmsil olunan, dünya siyasətinə və planetdə gedən siyasi proseslərə dərindən bələd olan Heydər Əliyev kimi görkəmli şəxsiyyətin dilindən səslənirdi. Bu isə Azərbaycan rəhbərlərinin narahatlığını daha da artırırdı. Ona görə də bu böyük şəxsiyyəti ləkələmək, gözdən salmaq üçün hər cür vasitəyə əl atırdılar, hətta onu separatçılıqda təqsirləndirirdilər. Bu məsələ sonralar daha ciddi xarakter almış, hətta yüksək səviyyəli dövlət sənədlərində də öz əksini tapmışdır. Məsələn, Azərbaycan Respublikası Prezidenti A.Mütəllibovun yanında 3 sentyabr 1991-ci ildə keçirilən müşavirənin Naxçıvan Muxtar Respublikasına qarşı şər və böhtanlarla dolu protokolunda oxuyuruq: "Muxtar Respublika Ali Məclisinin bu günlərdə ən adi hüquq qaydalarına riayət edilmədən keçirilən sessiyasında demək olar ki, dövlət çevrilişi edilmiş, hətta muxtar respublikanın Azərbaycanın tərkibindən çıxması barədə qərar qəbul etməklə hədələmişlər. İş o yerə gəlib çatmışdır ki, ayrı-ayrı silahlı quldur dəstələri dinc əhalini terror edir, xalq deputatlarını zor gücünə, hədə-qorxu yolu ilə sessiyaya gəlməyə, qeyri-qanuni qərar çıxarmağa məcbur edir, hətta ordunu da xalqa qarşı qaldırmağa

cəhd göstərirlər" *(92, s. 232)*. Faktlar, sənədlər, xüsusilə Ali Məclisin sessiyalarının stenoqramları isə bütün bunları təkzib edir. Məsələn, Ali Məclisin 24 noyabr 1990-cı ildə keçirilən sessiyasında Naxçıvan MR Konstitusiyasına əlavə və dəyişikliklərin müzakirəsi zamanı deputat Heydər Əliyevin çıxışında dövlət dili ilə əlaqədar oxuyuruq: "...indi gətirib biz tələm-tələsik bu Konstitusiyaya dəyişiklikdə yazaq ki, Naxçıvan Muxtar Respublikasının dövlət dili türk dilidir, bu, mənə belə gəlir ki, tələsiklik olar... dil bizim bütöv, ümumi dildir, bütün Azərbaycana aiddir. Biz burada gərək separat hərəkət etməyək" *(92, s. 158-159)*. Göründüyü kimi Heydər Əliyev Naxçıvan Muxtar Respublikasının Azərbaycanın tərkib hissəsi olduğunu, Azərbaycan dilinin bütün xalqa aid olduğunu deputatların diqqətinə çatdırmış, separatçılığa yol verilməməsini ön plana çəkmişdi.

Qeyd etmək lazımdır ki, Heydər Əliyevə bu cür qarayaxmalar, şər və böhtan kampaniyası onun 3 sentyabr 1991-ci ildə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri seçilməsindən sonra daha da genişləndi. Ulu öndərin Naxçıvan ərazisini erməni işğalından, əhalini aclıqdan, səfalətdən, soyuqdan donmaqdan, ümumiyyətlə məhv olmaqdan xilas etmək üçün həyata keçirdiyi tədbirləri qonşu ölkələrin rəhbərləri ilə apardığı danışıqları və s. də separatçılıq kimi qələmə verir, bunun üçün "Naxçıvanı kor bağırsaq kimi kəsib-atmaq", hətta muxtariyyət statusunu ləğv etmək istəyirdilər. Ancaq ulu öndərin əleyhdarları bu sahədə heç bir şeyə nail ola bilmədilər və zaman Heydər Əliyevin son dərəcə dəqiq və düzgün siyasət yeritdiyini Azərbaycana rəhbərlik edənlərin isə ona qarşı qərəzli mövqeyini və səhv etdiklərini sübut etdi.

## 1.2. AZƏRBAYCANI MÜSTƏQİLLİYƏ HAZIRLAYAN VƏ BƏRPADAN SONRA MÜSTƏQİLLİYİ QORUYUB ƏBƏDİLƏŞDİRƏN ÜMUMMİLLİ LİDER

Azərbaycanın keçdiyi tarixi yola nəzər salarkən, ümumiyyətlə, xalqımızın çoxminillik dövlətçilik tarixini vərəqləyərkən aydın olur ki, müxtəlif dövrlərdə ölkəmizə bir sıra şəxsiyyətlər rəhbərlik etmişlər. Ancaq bu şəxsiyyətlərin heç də hamısı xalqın sevgisini, hörmət və məhəbbətini qazana bilməmiş, unudulmuşlar. Ancaq elə şəxsiyyətlər də olmuşlar ki, onlar öz fəaliyyətləri ilə tariximizdə dərin iz buraxmış, xalqın yaddaşına əbədi olaraq həkk olunmuşlar. Azərbaycan tarixində çox böyük xidmətləri heç bir şübhə doğurmayan bu şəxsiyyətlər nə qədər yüksək zirvələrə qalxsalar da, ümummilli lider səviyyəsinə yüksələ bilməmişlər. Azərbaycanın çoxminillik dövlətçilik tarixində bu adı yalnız bir nəfər – taleyin XX yüzillikdə Azərbaycan xalqına bəxş etdiyi görkəmli dövlət xadimi və diplomat Heydər Əliyev qazana bilmişdir.

Heydər Əliyevin zəngin dövlətçilik fəaliyyətini nəzərdən keçirərkən aydın olur ki, Corc Vaşinqton ABŞ, Cəvahirləl Nehru Hindistan, Şarl de-Qoll Fransa, Mustafa Kamal Atatürk Türkiyə üçün nə etmişdirsə, Heydər Əliyev Azərbaycan üçün onu etmiş, xalqın sevimlisinə çevrilmişdir. Dünya tarixində bu da nadir hadisələrdən biridir ki, hakimiyyətdə olan bir lider sonradan, ölkənin ağır günündə xalqın tələbi ilə yenidən hakimiyyətə gətirilsin. Heydər Əliyevə Azərbaycanda siyasi hakimiyyətinin birinci dövründə, 1969-82-ci illərdə yaranan xalq sevgisi 80-ci illərin sonlarında Dağlıq Qarabağ problemi ilə əlaqədar ölkəmizdə yaranmış ümumi böhran, hərc-mərclik, özbaşınalıq şəraitində Azərbaycanın parçalanmaq, dövlətçiliyinin itirilməsi təhlükəsi yarandıqda onun Azərbaycanda ikinci dəfə siyasi hakimiyyətə qayıdışı ilə nəticələndi.

Heydər Əliyev Azərbaycanda istər birinci, istərsə də ikinci dəfə hakimiyyətə gələrkən ölkə öz ağır günlərini yaşayırdı. Keçən yüzilliyin 60-cı illərində Azərbaycan SSRİ-yə daxil olan 15 müttəfiq respublika içərisində geridə qalmış aqrar ölkə idi. Bütün sahələrdə ittifaq səviyyəsindən geridə qalan ölkədə iqtisadiyyat zəif olaraq qalır, milli-mənəvi dəyərlər aşınır, elm, təhsil, mədəniyyət və s. bərbad vəziyyətə düşür, milli mentalitetimizə zərbələr vurulurdu.

Heydər Əliyev məhz belə bir şəraitdə Azərbaycanda rəhbərliyə gəldi. Onun apardığı uğurlu siyasət nəticəsində Azərbaycan SSR öz varlığı dövründə heç bir vaxt yüksəlmədiyi inkişaf səviyyəsinə qalxdı, sənaye və

kənd təsərrüfatı yüksək dərəcədə inkişaf etdi. Azərbaycan bir-birinin ardınca 10 dəfədən çox keçici qırmızı bayrağa layiq görüldü, ordenlərlə təltif olundu, inkişaf səviyyəsinə görə müttəfiq respublikalar arasında ön sıraya keçdi. Bütün bunlara görə SSRİ kimi super dövlətin rəhbərinin dilindən "Azərbaycan iri addımlarla irəliləyir" sözləri səsləndi. Respublikanın rəhbəri kimi Heydər Əliyev 1976-cı ildə Sovet İKP MK Siyasi Bürosunun üzvlüyünə namizəd seçildi. 1979-cu ildə "Sosialist Əməyi Qəhrəmanı" adına layiq görüldü. Ən nəhayət, ulu öndər 1982-ci ilin sonlarında dünyanın altıda bir hissəsini əhatə edən SSRİ kimi nəhəng bir dövlətin rəhbər elitasına daxil oldu. Sovet İKP MK Siyasi Bürosunun üzvü seçildi, SSRİ Nazirlər Soveti Sədrinin birinci müavini təyin olundu. 1983-cü ildə ikinci dəfə Sosialist Əməyi Qəhrəmanı adına layiq görüldü. Belə yüksək bir zirvəni fəth etmək nə ulu öndərdən əvvəl, nə də sonra müsəlman-türk dünyasında heç bir şəxsiyyətə nəsib olmamışdır.

Məhz bu dövrdə Azərbaycanda milli oyanış başlandı və Heydər Əliyev özü milli oyanışın başında durdu. Siyasi hakimiyyətinin birinci dövründə ulu öndər SSRİ-də 70-ci illərdən başlanan böhran nəticəsində Sovet hakimiyyətinin tezliklə süqut edəcəyini duymuş, bu baxımdan da Azərbaycanın gələcək müstəqilliyini təmin edəcək bir sıra tədbirlər həyata keçirmiş, həmin illərdə Azərbaycanın iqtisadi müstəqilliyinin əsasları yaradılmışdı. Azərbaycan qüdrətli sənaye və kənd təsərrüfatı ölkəsinə çevrilmişdi. Azərbaycanda pambıqçılıq və üzümçülük sahəsində böyük uğurlar qazanılmışdı. Pambıq istehsalı ildə 1 milyon ton səviyyəsini aşıb keçmiş, ildə 3 milyon ton üzüm istehsalı hədəf götürülmüşdü.

Gələcək müstəqil Azərbaycanın kadrlara olan tələbatını ödəmək üçün SSRİ-nin ən məşhur ali məktəblərinə təhsil almaq üçün ildə 1000 nəfərə yaxın gəncin göndərilməsi ulu öndərin uzaqgörən kadr siyasətinin ən parlaq göstəricisidir. Heydər Əliyev milli hərbçi kadrların yetişdirilməsi sahəsində uğurlu siyasət aparmışdır. Bu, bir həqiqətdir ki, sovet dönəmində SSRİ-nin ali hərbi məktəblərinə azərbaycanlıların qəbulu məsələsinə çox ustalıqla yasaq qoyulmuşdu. Ona görə də Heydər Əliyev bu qadağaları çətinliklə də olsa, aradan qaldırdı. Bakıda və digər şəhərlərdə fəaliyyət göstərən ali hərbi məktəblərdə azərbaycanlı tələbələrin sayı artmağa başladı. Hətta ulu öndər Bakıda Cəmşid Naxçıvanski adına hərbi məktəbin yaradılmasına nail oldu ki, burada da əsasən azərbaycanlılar təhsil alırdı. Dahi rəhbər Azərbaycan gənclərindən, hətta aviasiya sahəsində kadrlar hazırlanması sahəsində də bir sıra tədbirlər həyata keçirmişdi.

Heydər Əliyev ictimai-siyasi quruluşundan asılı olmayaraq, sözün əsl

mənasında, bütün dövrlərdə Azərbaycan xalqının lideri idi. 1969-1982-ci illərdə ölkəyə rəhbərlik etdiyi dövr ərzində onun tərəfindən görülmüş işlər Azərbaycan xalqının maraqlarına xidmət edirdi. Məhz onun fəaliyyəti nəticəsində Azərbaycana mərkəzi fondlardan böyük həcmdə vəsait gətirilirdi. Yeni zavodlar, fabriklər tikilirdi. İndi bu zavod və fabriklər Azərbaycanın iqtisadi və sənaye potensialına böyük dəstəkdir. Əgər o illərdə Azərbaycanda iri sənaye infrastrukturu yaradılmasaydı, xüsusilə də neft emalı sahəsində nəhəng qurğular tikdirilməsəydi, bu gün Azərbaycanın iqtisadi potensialı o qədər də güclü ola bilməzdi.

Burada Azərbaycan dili haqqında ulu öndərin siyasətini unutmaq olmaz. Məhz ulu öndərin təkidi sayəsində Azərbaycan dili dövlət dili səviyyəsinə qaldırıldı, Moskvanın güclü təzyiqlərinə baxmayaraq 1978-ci ildə qəbul olunan Azərbaycan SSR Konstitusiyasında Azərbaycan dili dövlət dili kimi təsbit olundu. Azərbaycanda "Sovetskaya Türkologiya" jurnalı nəşr olunmağa başladı. Bütün bunlar və qeyd olunmayan bir sıra məsələlər Azərbaycanın gələcək müstəqilliyinə xidmət edən tədbirlər idi.

Beləliklə, hələ o zaman Azərbaycanın gələcək müstəqil dövlət kimi yaşaya bilməsi üçün zəruri olan əsaslar – iqtisadi, mənəvi-mədəni potensial yaradılmış, milli kadr problemi həll edilmişdi. O dövrdə iqtisadiyyat, mədəniyyət, təhsil sistemində əldə edilən tərəqqi, milli birliyə nail olunması, milli özünüdərkin yüksəlişi müstəqil dövlətin yaranmasına xidmət edən strategiyanın bünövrəsini qoymuşdu. Bugünkü müstəqil Azərbaycanın əldə etdiyi uğurlar məhz həmin dövrdə Heydər Əliyev tərəfindən yaradılmış möhkəm təmələ əsaslanır.

Heydər Əliyev 1990-cı ildə Türkiyə Respublikasının "Zaman" qəzetinin müxbiri ilə söhbətində bu məsələyə də toxunmuş və qeyd etmişdir ki, "Mən SSRİ respublikalarının nə vaxtsa müstəqillik əldə edəcəklərini düşünürdüm. O illərdə Azərbaycanın da müstəqil dövlət olmasını arzu edirdim. Məni istefaya getməyə məcbur edənlərin əsas məqsədi Azərbaycanın müstəqillik qazanmasının qarşısını almaq idi".

Ulu öndərin həyata keçirdiyi nəhəng tədbirlər nəticəsində 1991-ci ildə Azərbaycan öz müstəqilliyini bərpa edərkən SSRİ-yə daxil olan müttəfiq respublikalar içərisində Azərbaycan iqtisadi müstəqilliyə tam hazır iki respublikadan biri idi. Həmçinin ulu öndərin hakimiyyətinin birinci dövründə ölkəni bütün sahələrdə müstəqillik üçün hazırlaması 90-cı illərdə müstəqil dövlət quruculuğunda bir baza, zəmin rolunu oynadı. Təsadüfi deyildir ki, Azərbaycan Prezidenti İlham Əliyev bu cəhəti dəfələrlə vurğulamış və demişdir: "SSRİ dönəmində Azərbaycanın iqtisadiyyatının, elm və mədə-

niyyətinin inkişafına, milli kadrların yetişdirilməsinə böyük səylər qoyan Heydər Əliyev sanki nə vaxtsa ölkəmizin müstəqil olacağına inanırdı. Təbii ki, o zamanlar bütün bu işlər görülməsəydi, müstəqil dövlət quruculuğu vəzifəsinin həyata keçirilməsi çox ciddi çətinliklərlə qarşılaşardı".

Keçən yüzilliyin 80-ci illərinin sonlarında Dağlıq Qarabağ problemi ilə başlayan böhran ölkə həyatının bütün sahələrini iflic etmiş, həmin vaxt respublikaya rəhbərlik edənlər isə Moskvanın əlaltısına çevrildiyindən və xalqdan uzaq düşdüyündən problemin həlli yollarını tapa bilmirdilər. Azərbaycan xalqı ən çətin günlərini yaşayırdı, ümummilli liderin dediyi kimi "olum ya ölüm" dilemması qarşısında qalmışdı. Ona görə də xalq öz nicatını və xilasını həmin vaxt Naxçıvan MR Ali Məclisinin Sədri vəzifəsində çalışan Heydər Əliyevdə görürdü.

1990-cı ilin iyulundan Naxçıvanda yaşayan ulu öndər parlament seçkilərində Azərbaycan SSR Ali Sovetinə və Naxçıvan MSSR Ali Sovetinə deputat seçilmiş, Naxçıvan MSSR Ali Sovetinin 17 noyabr 1990-cı ildə keçirilən ilk sessiyasına təcrübəli deputat kimi sədrlik etmiş, onun təklifi ilə MSSR sözündən "Sovet Sosialist" sözləri çıxarılmış, "Ali Sovet" "Ali Məclis" adlandırılmış, Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağı dövlət bayrağı kimi qəbul edilmiş, Azərbaycan SSR Ali Soveti qarşısında bu bayrağın Azərbaycanın dövlət bayrağı kimi qəbul edilməsi haqqında vəsatət qaldırılmış, bundan bir qədər sonra 31 dekabr Dünya Azərbaycanlılarının Həmrəyliyi günü elan olunmuşdu.

1991-ci ildə xalqın tələbi ilə Naxçıvan MR Ali Məclisinin Sədri seçiləndən sonra isə ulu öndərin həyata keçirdiyi tədbirlər, yeritdiyi uzaqgörən siyasət nəticəsində Naxçıvan əhalisi aclıqdan, səfalətdən xilas olmuş, ən başlıcası isə Naxçıvan ərazisi erməni işğalından qorunmuşdu. Çətin vəziyyətdə olan Azərbaycan əhalisi bütün bunları görür və Heydər Əliyevə xilaskar kimi baxırdılar. Məhz buna görə də ölkənin 91 nəfər ziyalısı xalqın iradəsini əsas tutaraq 1992-ci il oktyabrın 16-da Heydər Əliyevə müraciət etdi. Müraciətdə Azərbaycanın böhranlı vəziyyəti təhlil edilir, müstəqilliyin, Azərbaycan dövlətçiliyinin təhlükədə olduğu bildirilir və ölkəni bu vəziyyətdən çıxaracaq yeganə şəxsin Heydər Əliyev olduğu vurğulanırdı. Onlar ölkəni fəlakət vəziyyətindən çıxaracaq bir partiya yaradılmasını və bu partiyaya rəhbərlik etməyi Heydər Əliyevdən xahiş edirdilər.

Heydər Əliyev Azərbaycanın görkəmli ziyalıları tərəfindən ona ünvanlanmış müraciətə oktyabrın 24-də müsbət cavab verdi və 1992-ci il noyabrın 21-də Naxçıvan şəhərində Yeni Azərbaycan Partiyasının təsis konfransı keçirildi. Partiyanın Nizamnamə və Proqramının qəbul olunduğu

konfransda Heydər Əliyev yekdilliklə YAP-ın Sədri seçildi. Heydər Əliyevə olan xalq sevgisi bu partiyanın tezliklə böyük uğur qazanmasına, ümumxalq partiyasına çevrilməsinə gətirib çıxardı. YAP Azərbaycanda fəaliyyət göstərən partiyalar içərisində ən kütləvi siyasi təşkilata çevrildi və dağılmaqda olan Azərbaycan dövlətçiliyinin, dövlət müstəqilliyinin qorunub saxlanmasında, müstəqil Azərbaycan dövlətinin qurulması və qüdrətli bir dövlətə çevrilməsində müstəsna rol oynadı.

Qeyd etmək lazımdır ki, Azərbaycan Parlamenti 18 oktyabr 1991-ci ildə Müstəqillik Haqqında Konstitusiya Aktını qəbul etsə də, keçən müddət ərzində aydın oldu ki, ölkəyə rəhbərlik edən adamların onu qoruyub saxlamaq gücü və bacarığı yoxdur. Vəziyyət getdikcə ağırlaşdığından, Azərbaycanda böhranlı vəziyyət son həddə çatdığından, torpaqlarımızın ermənilər tərəfindən işğalı sürətləndiyindən, hətta vətəndaş müharibəsi reallaşdığından xalqın təkidli tələbi ilə Heydər Əliyev Naxçıvandan Bakıya getdi və 1993-cü il iyunun 15-də Ali Sovetin Sədri, oktyabrın 3-də isə Prezident seçildi.

Belə çətin bir vəziyyətdə hakimiyyət sükanının arxasına keçən ümummilli lider qeyd edirdi ki, müstəqilliyi qazanmaq nə qədər çətindirsə, onu qoruyub saxlamaq ondan çətindir. Ulu öndərin apardığı uğurlu siyasət nəticəsində Azərbaycan bir dövlət kimi məhv olmaq təhlükəsindən xilas oldu. Müstəqil dövlətçiliyimiz üçün yaranmış təhlükə aradan qaldırıldı. Artıq başlanmaqda olan vətəndaş müharibəsinə son qoyuldu. Ölkədə fəaliyyət göstərən qanunsuz silahlı dəstələr ləğv olundu, separatçılıq aradan qaldırıldı, ölkə daxilində ictimai-siyasi sabitlik yaradıldı, xalq rahat nəfəs aldı, sabaha inam hissi gücləndi.

Azərbaycan xalqı haqlı olaraq ümummilli lider Heydər Əliyevi müstəqil Azərbaycan dövlətinin qurucusu, banisi, memarı, xilaskarı adlandırır. Bu, həqiqətən belədir. Heydər Əliyev ölkədə ictimai-siyasi sabitliyi bərpa etdikdən sonra müstəqil dövlət quruculuğuna başladı. O müstəqil Azərbaycan dövlətinin yaradılması konsepsiyasını işləyib hazırladı və onu uğurla həyata keçirdi. Qarşıya qoyulan bu böyük vəzifəni həyata keçirmək üçün bir sıra mühüm əhəmiyyətli tədbirlər həyata keçirdi.

Ulu öndər gözəl bilirdi ki, Ermənistanla müharibənin gedişi şəraitində ölkədə sabitliyi bərpa etmək, demokratik dövlət quruculuğu ilə məşğul olmaq mümkün olmayacaqdır. Həmçinin, müharibə davam etdiyi üçün xarici neft şirkətləri də Azərbaycana yatırım qoymaqdan çəkinirdilər. Ona görə də ulu öndər Ermənistanla danışıqlara başladı və 1994-cü ilin mayında atəşkəs haqqında müqavilə imzalandı. Atəşkəsdən, müharibənin dayandı-

rılmasından, ölkədə qismən də olsa sabitlik yaradılmasından sonra xarici ölkə şirkətlərinin ölkəmizə olan inamı artdı, nəticədə 20 sentyabr 1994-cü ildə ARDNŞ ilə dünyanın ən böyük neft şirkətləri arasında müqavilə imzalandı. "Əsrin müqaviləsi" adı ilə tarixə düşmüş bu hadisə Azərbaycanda iqtisadi tərəqqinin əsasını qoydu. Azərbaycan qısa müddətdə Cənubi Qafqazda iqtisadi cəhətdən ən güclü dövlətə çevrildi.

Ulu öndərin dövlət quruculuğu sahəsində atdığı ilk addımlardan biri də dövlət quruculuğunun hüquqi bazasının yaradılması oldu. Heydər Əliyevin sədrliyi ilə yaradılmış və 1995-ci il 12 noyabrda ümumxalq səsverməsi (referendum) ilə qəbul olunmuş müstəqil Azərbaycan Respublikasının ilk Konstitusiyası ilə Azərbaycanda dövlət quruculuğunun qanuni, hüquqi əsasları yaradıldı. Qanunun aliliyi, insan haqlarının qorunması kimi demokratik prinsiplər bərqərar edildi. Beləliklə, ölkədə iqtisadi və siyasi islahatların aparılması, respublikamızın dünya birliyinə inteqrasiyası üçün hüquqi baza yaradıldı.

Elə ümummilli liderin müstəqilliyin möhkəmləndirilməsi və dövlət quruculuğu sahəsində həyata keçirdiyi mühüm tədbirlərdən biri də ölkəmizin dünya birliyinə inteqrasiyası olmuşdur. Heydər Əliyevin ölçülüb biçilmiş xarici siyasət kursu bu sahədə böyük uğurların qazanılmasına gətirib çıxarmış, Azərbaycan qısa müddətdə 300-dən artıq beynəlxalq təşkilatla əməkdaşlığa başlamış, dünyanın əksər dövlətləri ilə diplomatik əlaqələr yaratmışdır. Bu sahədə ulu öndərin xarici ölkələrə səfərləri, orada dövlət başçıları, siyasi xadimlərlə görüşləri və s. mühüm rol oynamışdır. Həmin səfərlər zamanı ulu öndər müxtəlif ölkələrdə yaşayan Azərbaycan diasporunun nümayəndələri ilə görüşür, söhbətlər aparır, onlara azərbaycançılıq ideyası ətrafında birləşməyi tövsiyə edirdi. Məhz bu uğurlu siyasət nəticəsində dünya dövlətləri və bütün nüfuzlu təşkilatlar Azərbaycanın ərazi bütövlüyünü, sərhədlərimizin toxunulmazlığını, erməni işğalı altında olan torpaqlarımızın azad olunmasını dəstəkləyirlər. Həmçinin, ulu öndərin diaspora sahəsində fəaliyyəti öz bəhrəsini vermiş, dünyanın əksər ölkələrində azərbaycanlıların təşkilatları, dərnəkləri, cəmiyyətləri və s. yaranmışdır. Ulu öndərin apardığı uğurlu xarici siyasətin nəticəsi olaraq bir sıra nüfuzlu dövlət başçılarının dilindən "Azərbaycanda ikinci erməni dövləti yaradılması yol verilməzdir", "ölkələrin ərazi bütövlüyü dəyişməzdir" kimi rəsmi bəyanatlar səslənmişdir.

Müstəqilliyimizin möhkəmləndirilməsi istiqamətində ulu öndərin çoxsahəli xarici siyasətinin nəticəsi olaraq Azərbaycan 2001-ci ildə Avropa Şurasına üzv qəbul olunmuş, iki il sonra – 2003-cü ilin yanvarında Şurada

Azərbaycan nümayəndə heyətinin sədri İlham Əliyev Şuranın Parlament Assambleyasının Vitse-Prezidenti və Büro üzvü seçilmişdir.

12 noyabr 1995-ci ildə müstəqil Azərbaycanın 125 deputatdan ibarət ilk parlamentinə keçirilən demokratik seçkilər dövlət quruculuğu və müstəqilliyin möhkəmləndirilməsi istiqamətində həyata keçirilən mühüm tədbirlərdən biri oldu.

Müstəqilliyin möhkəmləndirilməsi, hüquqi və demokratik dövlət quruculuğu sahəsində ulu öndərin yeritdiyi siyasətin əsas istiqamətlərindən biri də ölkənin ərazi bütövlüyünün və milli təhlükəsizliyinin möhkəmləndirilməsi baxımından həyata keçirilən tədbirlər idi. Müstəqillik bərpa olunduqdan sonra ölkədə yaradılmış hərbi birləşmələr (Əlikram Hümbətovun, Surət Hüseynovun, Rövşən və Mahir Cavadovların və s. dəstələri) qarşıda dayanan əsas vəzifəni – dövlətçiliyimizin və müstəqilliyimizin qorunmasını bir kənara qoyub, dövlətçiliyimiz üçün böyük təhlükəyə çevrilmişdi. Ona görə də ulu öndər ilk növbədə ölkə daxilində dövlətçiliyimiz və müstəqilliyimiz üçün təhlükə törədən bu hərbi birləşmələrin ləğv olunmasına nail oldu və Cənubi Qafqazda ən güclü ordu yaratdı. Artıq Azərbaycan ordusu ölkə sərhədlərini sayıqlıqla qorumaqla yanaşı, dünyanın bir sıra qaynar nöqtələrində sülhməramlı qüvvələr statusunda çıxış edirlər. Həmçinin, ordumuz NATO ilə "Sülh naminə tərəfdaşlıq" proqramı çərçivəsində əməkdaşlıq edir.

Ölkənin təhlükəsizliyinin həyata keçirilməsində Milli Təhlükəsizlik sisteminin əvəzsiz rolunu nəzərə alaraq Heydər Əliyev bu istiqamətdə mühüm işlər gördü. 1998-ci ilin dekabrında Milli Təhlükəsizlik Nazirliyinin Akademiyasının yaradılması, nazirlikdə islahatlar aparılması bu istiqamətdə həyata keçirilən mühüm tədbirlər oldu. Nəticədə Azərbaycanın müstəqilliyinə qarşı yönəlmiş çoxlu təxribatların qarşısı vaxtında alındı. Artıq qətiyyətlə demək olar ki, ulu öndərin diqqət və qayğısı sayəsində Azərbaycanın Milli Təhlükəsizlik orqanları vətənimizə qarşı yönələn və hazırlanan hər cür təxribatların qarşısını almağa, sərhədlərimizin təhlükəsizliyini təmin etməyə qadir bir təşkilata çevrilmişdir.

Azərbaycan dövlətçiliyinin və müstəqilliyinin möhkəmləndirilməsi istiqamətində ümummilli liderin apardığı siyasətin tərkib hissələrindən biri də Azərbaycançılıq ideologiyasının yaradılması və ümumxalq, dövlət siyasəti səviyyəsinə yüksəldilməsidir. Əsası Heydər Əliyevin Azərbaycanda siyasi hakimiyyətinin birinci dövründə qoyulan və dilindən, dinindən, etnik mənsubiyyətindən asılı olmayaraq bütün Azərbaycan vətəndaşlarını birləşdirən bu ideya müstəqillik dövründə Azərbaycan dilinin Konstitusiyada dövlət dili kimi təsbit olunması, latın qrafikasına keçilməsi, xalqımızın milli-

mənəvi dəyərlərinin qorunması və daha da inkişaf etdirilməsi, ümummilli liderin dünya azərbaycanlıları ilə görüşlərində bu ideyanın təbliği və yayılması sahəsində apardığı işlər, 31 dekabrın hər il Dünya Azərbaycanlılarının Həmrəylik günü kimi qeyd edilməsi, 2001-ci ildə Dünya Azərbaycanlılarının Bakıda Qurultayının keçirilməsi və s. bu kimi tədbirlər ulu öndərin Azərbaycançılıq ideologiyasının inkişafını şərtləndirən əsas amillərdəndir.

Ümummilli lider Heydər Əliyevin bütün çətinlikləri dəf edərək həyata keçirdiyi bu taleyüklü tədbirlər nəticəsində müstəqil Azərbaycan dövləti yaradıldı və regionun aparıcı dövlətinə çevrildi. Əgər Heydər Əliyev tərəfindən bu cəsarətli addımlar atılmasaydı, ABŞ politoloqu Zbiqnev Bjezinskinin vurğuladığı kimi, Azərbaycan dövlətini yaratmaq da mümkün olmayacaqdı.

Qısa şəkildə qeyd olunanlara əsasən demək olar ki, 15 iyun 1993-cü ildə xalqın təkidli tələbi ilə Azərbaycanda ikinci dəfə siyasi hakimiyyətə qayıdan ümummilli lider Heydər Əliyev özünün fövqəladə təşkilatçılıq bacarığı, qətiyyəti və sarsılmaz iradəsi ilə ölkəni parçalanmaqdan, dağılmaqdan, müstəqilliyin itirilməsindən, dövlətçiliyi məhv olmaqdan xilas etdi, xalqı vahid məfkurə – Azərbaycançılıq ideyası ətrafında sıx birləşdirdi, vətəndaş cəmiyyətini formalaşdırdı, dövlət təsisatlarını qurdu, hüquqi dövlətin yaradılmasına nail oldu, milli təhlükəsizlik təmin edildi. Beləliklə, ulu öndər Heydər Əliyev müstəqil Azərbaycanın timsalında mükəmməl bir dövlət qurdu, yaratdı və Azərbaycan xalqına bəxş etdi.

"Azərbaycanın müstəqilliyi əbədidir və dönməzdir" deyən Heydər Əliyev həm də qeyd edirdi ki, "Müstəqil Azərbaycan dövləti bizim üçün ən qiymətli tarixi nailiyyətdir və onun qorunması, əbədiyaşar edilməsi hər bir azərbaycanlının müqəddəs borcudur".

Ümummilli lider Heydər Əliyevin ideyaları yaşayır və inkişaf edir. Ulu öndər tərəfindən müəyyən edilən və alternativi olmayan siyasi kurs bu gün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Bu gün tam qətiyyətlə demək olar ki, bütün Azərbaycan xalqı ulu öndərin siyasətini uğurla davam və inkişaf etdirən möhtərəm prezidentimiz İlham Əliyevin ətrafında sıx birləşərək ümummilli liderin qurub yaradaraq bizə miras qoyub getdiyi müstəqil Azərbaycanın daha da tərəqqisi və çiçəklənməsi naminə öz səy, bacarıq və qüvvəsini əsirgəmir və daha işıqlı gələcəyə doğru inamla irəliləyir.

## 1.3. BÖYÜK QURTULUŞUN BANİSİ

Görkəmli dövlət xadimi və diplomat, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin həyatı və siyasi fəaliyyətinə nəzər salarkən aydın olur ki, ulu öndərin geniş miqyaslı fəaliyyətində müxtəlif xarakterli və səpkili xilaskarlıq missiyası xüsusi mərhələ təşkil edir. Hələ keçən yüzilliyin 60-cı illərində Dövlət Təhlükəsizlik Komitəsinin Sədr müavini və Sədri kimi açıq fikirli Azərbaycan ziyalılarının incidilməsinə, təqib və həbs edilməsinə mane olan, onları qoruyan Heydər Əliyev 14 iyul 1969-cu ildə Azərbaycanda siyasi hakimiyyətə gəldikdən sonra SSRİ-yə daxil olan 15 müttəfiq respublika sırasında axırıncı, 14-15-ci yerlərdən birini tutan ölkəmizi durğunluqdan, ətalətdən, gerilikdən xilas etdi, respublikamızı əsil inkişaf yoluna çıxardı. Dahi şəxsiyyət həm də o zaman ölkədə başlanan milli oyanışın başında durmaqla bu sahədə xidmətləri olan ziyalıları himayə etdi, təqiblərdən, həbslərdən qorudu, xilas etdi. Yaxud da, 1990-1993-cü illərdə – həyatı və siyasi fəaliyyətinin Naxçıvan dövründə, ulu öndərin özünün sözləri ilə desək "taleyin ümidinə buraxılmış tənha bir ada"nı xatırladan, "olum ya ölüm" dilemması qarşısında qalan, blokada şəraitində yaşayan, Azərbaycan rəhbərlərinin heç bir yardım etmədiyi, əksinə "kor bağırsaq kimi kəsib atmaq" istədikləri Naxçıvan Muxtar Respublikasını erməni işğalından, əhalini aclıqdan, səfalətdən, soyuqdan donmaqdan, ermənilər tərəfindən qırılmaqdan, didərgin və qaçqın düşməkdən və s. bu kimi hallardan xilas etdi.

Xilaskarlıq missiyasını o zamanlar müxtəlif xalqlara mənsub 300 milyona yaxın əhalinin vətəni sayılan SSRİ adlanan super dövlətin rəhbər elitasında çalışdığı 5 il ərzində də müxtəlif sahələrdə davam etdirən (Sovet İKP MK Siyasi Bürosunun üzvü, SSRİ Nazirlər Soveti Sədrinin birinci müavini kimi) Heydər Əliyev bir sıra dövlət əhəmiyyətli işlərin həyata keçirilməsində, o cümlədən Çernobıl Atom Elektrik stansiyasında, "Admiral Naximov" gəmisində, Altay vilayətində qış mövsümündə baş vermiş qəzaların nəticələrinin aradan qaldırılmasına rəhbərlik etmiş, o zamanlar "Əsrin tikintisi" adlandırılan "Baykal-Amur magistralı"nda tikinti işlərini, hətta Çin Xalq Respublikası ilə Vyetnam Sosialist Respublikası arasında az qala müharibəyə səbəb olacaq münasibətləri qaydaya salmış, xilaskarlıq missiyası xarakterli bu qəbildən olan digər fövqəladə halların aradan qaldırılması üçün mühüm əhəmiyyətli işlər görmüşdür ***(84, s. 38-39)***. Ulu öndərin bu istiqamətdə fəaliyyəti ilə əlaqədar xatırlatdığımız bu fikirləri digər başqa faktlarla davam etdirmək olar.

Ancaq, fikrimizcə, ulu öndərin xilaskarlıq missiyasında 1993-cü ilin 15 iyunundan başlanan, Azərbaycanı, Azərbaycan dövlətçiliyini xilaskarlıq missiyası, Azərbaycanın bir dövlət kimi dünya xəritəsindən silinməsinin qarşısının alınması sahəsindəki xidmətləri xüsusi yer tutur və ayrıca şərh olunmalıdır. Ümummilli lider Heydər Əliyevin bu cəhəti – xilaskarlıq missiyası Türkiyə Respublikasının doqquzuncu prezidenti kimi tarixə düşmüş Süleyman Dəmirəlin də diqqətini cəlb etmiş və o demişdir ki, "Çörçil ingilis millətinə 40 il xidmət etdi, ancaq bu xidmətin sonunda, 1940-ci ildə lazım oldu. O zaman Çörçilin edəcəyi xidməti göstərəcək ikinci adam yox idi. Bəşər tarixində adamlar hər zaman millətinə xidmət edir, ancaq bəzən lazım olurlar. Ruzveltin 1942-ci ildə, de'Qollun 1958-ci ildə, Adenauerin 1946-cı ildə lazım olduğu kimi... Heydər Əliyev Azərbaycan millətinə çox xidmət etmişdir. Amma 1993-cü ildə lazım idi. Onun gördüyü işi görəcək başqa heç kim yox idi. Yaxşı ki, o vardı..." *(133, s. 9)*.

Tam qətiyyətlə demək olar ki, Heydər Əliyevin ən böyük xilaskarlıq missiyası keçən əsrin 90-cı illərində, daha dəqiq desək 1993-cü ildə Azərbaycanda ikinci dəfə siyasi hakimiyyətə qayıdışı ilə başlanmışdır. Azərbaycanda siyasi hakimiyyətinin birinci dövründə ümummilli lider Heydər Əliyevə yaranan böyük sevgi xalqda belə bir inam yaratmışdı ki, 1988-ci ildən bəri başlanan Dağlıq Qarabağ problemini yalnız böyük siyasi təcrübəyə malik Heydər Əliyev kimi şəxsiyyət çözə, ölkəni bu ağır fəlakətdən xilas edə bilər. 22 noyabr 1988-ci ildə Naxçıvan şəhərinin baş meydanında təxminən 30 min nəfərin iştirak etdiyi mitinqdə Azərbaycanda ilk dəfə olaraq Heydər Əliyevin portretlərinin qaldırılması heç də təsadüfi bir hadisə olmayıb, Azərbaycana rəhbərlik edən bacarıqsız və səriştəsiz rəhbərlərin yalan vədlərindən bezən, onlara inamını itirən xalqın yaranmış mürəkkəb vəziyyətdə ona xilaskar kimi baxmasından, yaranmış böhranlı vəziyyəti aradan qaldıracaq yeganə şəxsiyyət kimi görməsindən irəli gələn bir hal kimi qiymətləndirilməlidir. Bir sıra qadağalara, təzyiqlərə və təqiblərə baxmayaraq Naxçıvan Şəhər Partiya Komitəsinin 17 mart 1990-cı ildə keçirilən konfransında Heydər Əliyevin Azərbaycan KP-nın XXXII qurultayına nümayəndə seçilməsi də xalqın ona inanmasının, xilaskar timsalında ümidlə baxmasının nəticəsi idi.

20 iyul 1990-cı ildə Moskvadan Bakıya gələn, ancaq Bakıda yaşamasına imkan verilməyən, bu səbəbdən də 22 iyulda doğulub boya-başa çatdığı, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun "əyalət mərkəzinə yox **Vətənə QAYIDIŞ**, böyük siyasətə yenidən və fəal şəkildə, birmənalı, ardıcıl, qətiyyətli **QAYIDIŞ**" kimi dəyərləndirdiyi *(92, s. 8)*

Naxçıvana qayıdışı zamanı muxtar respublikanın müxtəlif yerlərindən gəlmiş 100 min nəfərdən artıq adamın Naxçıvan şəhərinin Azadlıq meydanında ulu öndəri yüksək coşqu ilə qarşılaması da əhalinin ona xilaskar kimi baxmasından irəli gələn bir hadisə idi. Hadisələrin sonrakı inkişafı – ulu öndərin Naxçıvanda yaşaması, Azərbaycanın və Naxçıvanın ali qanunvericilik orqanlarına deputat seçilməsi, əvvəllər deputat, 3 sentyabr 1991-ci ildən etibarən isə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri kimi həyata keçirdiyi bütün siyasi, mədəni-iqtisadi tədbirlər, Naxçıvanda baş verən hadisələrin beynəlxalq ictimaiyyətə çatdırılması, qonşu ölkələrin və dünyanın aparıcı dövlətlərinin başçıları, səfirləri və s. ilə apardığı danışıqlar, keçirdiyi görüşlər nəticəsində Naxçıvanın ermənilərin labüd işğalından xilas edilməsi və xalqın ona xilaskar kimi baxması və qəbul etməsi sahəsində nə qədər haqlı olduğunu göstərdi.

Azərbaycan xalqı Heydər Əliyevin Naxçıvanda həyata keçirdiyi tədbirləri izləyir, nəticədə ölkəni düşdüyü bu bəladan qurtaracaq yeganə şəxsi ancaq Heydər Əliyevin simasında görür, ona xilaskar kimi baxırdılar. Məhz buna görə də 1992-ci il oktyabrın 16-da Azərbaycanın 91 nəfər ziyalısı xalqın arzu və istəyini ifadə edərək "Səs" qəzeti vasitəsi ilə ulu öndərə müraciət etdilər ***(136, 16 oktyabr 1992-ci il)***. "Azərbaycan Sizin sözünüzü gözləyir" adlanan müraciətdə deyilirdi: "Bizim bu müraciətimizə minlərlə Azərbaycan vətəndaşı məmnuniyyətlə qoşulmağa hazırdır. Hələlik isə ilk addım olaraq, bunu bir qrup ziyalılar adından biz edirik. Biz həm öz adımızdan, həm də minlərlə respublika əhalisi adından Sizdən xahiş edirik ki, yaranmaqda olan Yeni Azərbaycan Partiyasına rəhbərlik etməyə razılıq verəsiniz. Azərbaycan Sizin sözünüzü və qəti qərarınızı gözləyir" ***(136, 16 oktyabr 1992-ci il)***.

Heydər Əliyev bu müraciətə təcili, birdən-birə cavab vermədi. Ulu öndər xalqın düşdüyü ağır vəziyyəti görür, təhlil edirdi. Vəziyyətin son dərəcə ağır olmasına baxmayaraq xalqın ona olan ümidlərini qıra, onlara mənfi cavab verə, yaxasını kənara çəkə, baş verənlərə biganə qala, hadisələrə kənardan seyrçi mövqe tuta bilməzdi. Ona görə də çox düşündükdən sonra ulu öndər 24 oktyabrda müraciətə cavab verdi və bu cavab mətbuatda nəşr olundu. Cavabda "Azərbaycanın çağdaş və gələcək taleyi ilə bağlı problemlərin həllinə biganə qalmağa heç kəsin haqqı yoxdur" fikrini vurğulayan ulu öndər partiyanın fəaliyyətində fəal iştirak etməyə hazır olduğunu bildirdi ***(92, s. 511)***. Bundan az sonra Bakı şəhərində keçirilməsinə imkan verilmədiyi üçün Azərbaycanın müxtəlif rayonlarından gələn 550-dən artıq nümayəndənin iştirakı ilə 21 noyabr 1992-ci ildə Naxçıvan şəhərində Yeni Azərbaycan

Partiyasının təsis konfransı keçirildi. Konfransda partiyanın Nizamnaməsi və Proqramı qəbul edildi, Heydər Əliyev YAP-ın Sədri seçildi *(92, s. 512)*.

Hakimiyyətə gəlmək üçün deyil, respublikanı düşmüş olduğu böhrandan, acınacaqlı vəziyyətdən qurtarmaq, ölkəni dağılmaqdan, dövlətçiliyimizi məhv olmaqdan xilas etmək və s. bu kimi vəzifələri qarşısına məqsəd qoyan Yeni Azərbaycan Partiyasının yaranması Azərbaycanın xilas yolunun başlanğıcı oldu. Qısa müddətdə böyük inkişaf yolu keçən və 600 mindən artıq üzvü birləşdirən, həyatın bütün sahələrində böyük nailiyyətlərə imza atan Yeni Azərbaycan Partiyasının ən böyük uğuru Sədr Heydər Əliyevin rəhbərliyi ilə vətəndaş müharibəsinin, ölkənin parçalanmasının, Azərbaycan dövlətçiliyinin itirilməsinin qarşısının alınması, dövlət müstəqilliyinin qorunub saxlanması, müstəqil Azərbaycan dövlətinin qurulması və dünyanın inkişaf etmiş dövlətləri sırasına çıxarılması oldu. 1993-cü ildə iqtidar partiyasına çevrilməsindən sonra partiyanın Sədri Heydər Əliyev Yeni Azərbaycan Partiyasının bu istiqamətdə fəaliyyətini belə xarakterizə etmişdir: "Partiya dərhal səfərbər oldu və öz Sədri ilə birlikdə Azərbaycanın xilası, onun dövlətçiliyinin qorunması və taleyüklü məsələlərin həlli sahəsində həyata keçirilən işlərə qoşuldu. Bu mərhələ həm müstəqil Azərbaycan dövlətinin, həm də Yeni Azərbaycan Partiyasının tarixində əbədi həkk olunmuş, taleyüklü məsələlərin həlli, dövlətçiliyin qurtuluşu, xalqımızın tərəqqisinin başlanğıcı kimi yadda qalmışdır" *(120, s.284)*.

Yeni Azərbaycan Partiyasının 7 iyun 2013-cü ildə keçirilən V qurultayında Partiyanın Sədri, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev isə Yeni Azərbaycan Partiyasının yaranmasının Azərbaycanın siyasi həyatında rolunu belə qiymətləndirmişdir: "1992-ci ildə bu tarixi hadisə ... bugünkü Azərbaycan reallıqlarını faktiki olaraq şərtləndirmişdir. Çünki 1993-cü ildən başlayaraq ölkədə bütün xoşagəlməz hallara son qoyuldu, sabitlik yarandı, vətəndaş müharibəsinə son qoyuldu, inkişaf, sabitlik, quruculuq, dövlətçilik dövrü başlandı.

Ulu öndərin rəhbərliyi ilə Azərbaycan on il ərzində böyük və şərəfli yol keçmişdir. 1993-2003-cü illər ölkəmizdə sabitlik və inkişaf illəri kimi yadda qaldı, tarixdə qaldı. Bu illər ərzində dövlətçiliyin əsasları qoyuldu. Azərbaycan dünya birliyinə özünü təqdim edə bilmişdir. Beynəlxalq əlaqələrimiz inkişaf etmişdir. Dünya xəritəsində Azərbaycan özünə layiq yerini tuta bilmişdir. Siyasi və iqtisadi islahatlar uğurla aparılmışdır. Azərbaycan bir neçə beynəlxalq təşkilata üzv olmuşdur. Ölkəmizə böyük həcmdə investisiyalar cəlb edilmişdir və bu investisiyalar hesabına Azərbaycan həm o illərdə, həm bu gün inkişaf edir. Azərbaycan etibarlı tərəfdaş imicini qazan-

mışdır. Bu da çox vacib məsələdir. Çünki o vaxt Azərbaycan haqqında dünyada kifayət qədər təsəvvür yox idi. Azərbaycanı dünyaya olduğu kimi təqdim etmək ulu öndərin xüsusi zəhməti hesabına mümkün olmuşdur" *(130, 8 iyun 2013-cü il)*.

Keçən yüzilliyin 80-ci illərinin sonlarından Azərbaycanda yaranan böhran 90-cı illərin əvvəllərində daha da dərinləşdi, ölkə labüd uçurum qarşısında dayandı. 1992-ci ilin 26 fevralında baş verən Xocalı faciəsi, mayın 8-də Şuşanın, 18-də Laçının işğalı, digər Azərbaycan torpaqlarının bir-birinin ardınca itirilməsi və s., xüsusilə 4 iyun 1993-cü ildə Gəncədə Surət Hüseynovun başçılığı ilə baş verən qiyam Azərbaycanın parçalanması, dövlətçiliyin itirilməsi, vətəndaş müharibəsinin başlanması, qardaş qanının axıdılması, günahsız insanların qətlə yetirilməsi, yaranmış vəziyyətdən istifadə edərək ermənilərin daha çox ərazimizi işğal etməsi və s. bu kimi təhlükələri reallaşdırmışdı. Artıq Gəncədə və digər yerlərdə qardaş qanı axıdılmışdı. Bakını tutmağı və hakimiyyəti zəbt etməyi qarşısına məqsəd qoyan Surət Hüseynov tabeliyində olan silahlı birləşmələrlə Gəncədən paytaxta doğru hərəkətə başlamış, paytaxtın lap yaxınlığına qədər gəlib çıxmışdı. Artıq iyunun 14-də Nəvahi yaxınlığında hökumət qoşunları ilə qiyamçılar üz-üzə dayanmışdı. Xaosun baş alıb getdiyi ölkə vətəndaş müharibəsinin astanasında idi. Ona görə də Azərbaycan xalqı öz nicatını, xilasını, yaranmış vəziyyətdən qurtuluşunu həmin vaxt Naxçıvanda yaşayan və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri vəzifəsində işləyən xalqımızın böyük oğlu Heydər Əliyevdə görür və təkidlə onun Azərbaycanda hakimiyyətə gətirilməsini tələb edirdi. Xilasını, qurtuluşunu Heydər Əliyevin hakimiyyətə gəlməsində görən xalq, artıq mitinqlərdə arzularını ifadə edən "Heydər baba, xalqı bu bəladan qurtar!" şüarlarını qaldırmağa başlamışdı. Bu qəbildən olan şüarlar 9 iyun 1993-cü ildə Heydər Əliyevi paytaxta aparmaq üçün Naxçıvana göndərilən təyyarə ilə Bakıya gedən ulu öndəri qarşılamaq üçün təyyarə meydanına gələn insanların da əllərində havaya qaldırılmışdı.

Beləliklə, xalqın təkidli tələbi, həmçinin o vaxt hakimiyyətdə olan AXC-Müsavat hökuməti başçılarının xahişinə əsasən Bakıya gələn, ancaq ona təklif olunan yüksək vəzifəni qəbul etməyən, mayın 13-14-də Gəncədə yaranmış vəziyyətlə yerindəcə tanış olan, Surət Hüseynovla danışıqlar aparan Heydər Əliyev ona deputatlar tərəfindən dəfələrlə edilən xahişləri qəbul etdi və 15 iyun 1993-cü ildə keçirilən Milli Məclisin Fövqəladə Sessiyasında Ali Sovetin Sədri seçildi. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov bu hadisəni –

ümummilli lider Heydər Əliyevin Azərbaycanda ikinci dəfə siyasi hakimiyyətə qayıdışını "Qayıdış" kitabına 1996-cı ildə yazdığı "Ön söz"də belə səciyyələndirmişdir: "...Müstəqil Azərbaycan öz nicatını görkəmli siyasətçi Heydər Əliyevin hakimiyyətə ikinci dəfə **QAYIDIŞINDA** tapdı. Keçdiyimiz zaman məsafəsi xalqın düzgün qərar qəbul etdiyini, saysız-hesabsız problemlər məngənəsində sıxılan ölkəmizin ən ağır və məsul dövründə onu qurtuluş yolu ilə aparmağa qadir olan yeganə şəxsiyyətin məhz Heydər Əliyev olduğunu bir daha sübut etdi. Heydər Əliyevin Naxçıvandan Bakıya böyük siyasətə **QAYIDIŞI** şərəfli xilaskarlıq missiyasına – Azərbaycanı Azərbaycana qaytarmaq məramına xidmət edir" *(92, s. 12)*.

Həqiqətən həmin tarixi gündən etibarən ulu öndər Azərbaycanın qurtuluşu naminə xilaskarlıq missiyasına başladı. Ona görə də bu gün Azərbaycanın ən yeni dövr tarixinə "Qurtuluş günü" kimi daxil oldu. Akademik İsa Həbibbəyli bu haqda yazır ki, həqiqətən 15 iyun 1993-cü il hadisəsi ilə Azərbaycanda böyük qurtuluş baş vermişdir. Ümummilli lider Heydər Əliyev Azərbaycanda Böyük Qurtuluşun banisidir. Böyük Qurtuluş ölkəmizin xilasının etibarlı təminatı və möhkəm təməlidir. Əslində Azərbaycanda müstəqil dövlətin təməlləri Böyük Qurtuluşla atılmışdır *(72, s. 21)*. Təsadüfi deyildir ki, bu hadisədən 4 il sonra, 1997-ci ilin 27 iyununda Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan tarixində müstəsna əhəmiyyətini nəzərə alaraq bu günü – 15 iyunu "Milli Qurtuluş Günü" bayramı kimi rəsmiləşdirdi *(79, 28 iyun 1997-ci il)*. Azərbaycan Prezidenti Əbülfəz Elçibəyin iyunun 17-dən 18-nə keçən gecə Bakıdan Ordubad rayonuna – Kələki kəndinə getməsindən sonra ölkəni başsız qoymamaq üçün Konstitusiyaya uyğun olaraq Milli Məclis 24 iyunda Respublika Prezidentinin səlahiyyətlərini Ali Sovetin Sədri kimi Heydər Əliyevə həvalə etdi.

Qurtuluş mübarizəsinə, xilaskarlıq missiyasına başlayan ulu öndərin qarşısında çox ağır, çətin və mürəkkəb vəzifə dururdu. Ölkədə vətəndaş müharibəsi başlanmaqda, dövlət parçalanmaqda, dövlətçilik itirilməkdə, torpaqlarımız ermənilər tərəfindən işğal edilməkdə, əhali çaşqın vəziyyətdə idi. 4 iyun qiyamı zamanı Ağdam cəbhəsindən iqtidara və Surət Hüseynova tabe olan çoxlu ordu birləşməsi və texnika çıxarılmışdı. Əvvəllər korpus komandiri vəzifəsi, "Milli qəhrəman" adı alan, məcburiyyət ucbatından, yaranmış vəziyyəti nəzərə alaraq ulu öndər tərəfindən Baş Nazir təyin edilən S.Hüseynov əldə etdikləri ilə kifayətlənmir, ölkədə siyasi vəziyyəti daha da gərginləşdirmək, Heydər Əliyevi hakimiyyətdən kənarlaşdırmaq üçün pozuculuq fəaliyyəti ilə məşğul olurdu. Onun bu istiqamətdə ən böyük xəyanəti "Yun polkovniki"nin öz sözləri ilə desək iyulun 23-də Ağdamın

"əlborcu" ermənilərə verilməsi oldu *(79, 25 iyul 1993-cü il)*. Bununla kifayətlənməyən, heç bir qabiliyyəti olmayan, ancaq özündən çox razı S.Hüseynov Gəncədə bəyanat verərək "xalqın və dövlətin taleyinin həll edilməsi məsələsini" öz üzərinə götürdüyünü bildirdi *(28, s. 351)*. Göründüyü kimi ölkədə ağır olan vəziyyət ayrı-ayrı xəyanətkar adamlar tərəfindən də süni surətdə anbaan ağırlaşdırılırdı.

Məhz belə bir ağır dövrdə, ikinci dəfə hakimiyyətə qayıdışından təxminən 2 ay sonra "Sobesednik" qəzetinin müxbiri ilə 1993-cü ilin avqustunda baş tutan müsahibəsində ona verilən "Bu gün Azərbaycanın taleyi Sizin əlinizdədir. Çox ağır yük deyilmi?" – sualına ümummilli lider belə cavab vermişdi. "Bu günkü vəzifəni tutmaq arzusunda deyildim. Hakimiyyətin ləzzətini görmüşəm – düşünüldüyü qədər şirin deyil. Bəzilərinə elə gəlir ki, yenidən bu ləzzəti dadmaq istəmişəm. İstəmirəm. Hakimiyyətdən çəkilməyə də hazıram. Lakin bu gün adamlar mənə baxırlar. Özü də ümidlə baxırlar. ...bu dəhşətli anda hər şeyi atıb getmək – adamlara xəyanət etmək deməkdir" *(1, s. 52-53)*. Göründüyü kimi ölkədə vəziyyət nə qədər ağır olsa da ulu öndər hakimiyyətdən getməyi, başqa sözlə desək çətin anda meydandan qaçmağı xalqa xəyanət kimi qiymətləndirmiş və özünün dəfələrlə vurğuladığı kimi lazım gələrsə həyatı bahasına olsa da bilik və zəngin təcrübəsinə, xalqın köməyinə arxalanaraq bu çətin işin öhdəsindən şərəflə gəlmişdi.

Milli Məclisin 1997-ci ilin iyununda keçirilən və 15 iyunu "Milli Qurtuluş Günü" elan edən tarixi sessiyanın qərarında bu haqda belə deyilir: "Azərbaycan xalqının azadlığının, müstəqil dövlətçiliyinin, müqəddəratının həll edildiyi ən ağır günlərdə Heydər Əliyevin öz xalqının iradəsinə tabe olaraq ölkə rəhbərliyinə qaytarılması əslində onun müstəqil Azərbaycan Respublikasını, Azərbaycan xalqını, milli-azadlıq hərəkatında qazanılmış tarixi nailiyyətləri məhv olmaqdan xilas etmək kimi çox çətin və şərəfli missiyanı könüllü olaraq öz üzərinə götürməsi idi. Bu sözün əsil mənasında "ömrümün qalan hissəsini də xalqıma qurban verirəm" deyib meydana atılan böyük ürəkli vətən oğlunun öz xalqı, öz vətəni qarşısında misilsiz fədakarlığı idi" *(79, 28 iyun 1997-ci il)*.

Artıq bu zaman qondarma polkovnik Ə.Hümbətov Azərbaycanın cənub bölgəsində separatçılıqla məşğul olur, oyuncaq dövlətini yaratmaq üçün addımlar atırdı. Ona görə də ulu öndər Heydər Əliyev Azərbaycan Respublikasının Prezidenti səlahiyyətlərini icra edən şəxs kimi onunla görüşməyi qərara aldı. Ancaq görüş zamanı həddini aşaraq "səlahiyyətim avtomatımdır" deyən Ə.Hümbətov Heydər Əliyevlə də Azərbaycanın əvvəlki rəhbərləri kimi danışmağa cəhd etdi, onun qarşısında S.Hüseynova geniş səlahiyyətlər

verilməsi, Ali Sovetin sessiyasının çağırılaraq A.Mütəllibovun vəzifəsinə qaytarılması tələblərini qoydu və təbii ki, ulu öndərdən kəskin və qəti rədd cavabı aldı. Ə.Hümbətov 7 avqust 1993-cü ildə Cənub bölgəsində "Talış-Muğan Respublikası"nı yaradaraq özünü Prezident elan etdi *(28, s. 352)*.

Azərbaycanın parçalanması, cırtdan dövlətlərə bölünməsində maraqlı olan bəzi dövlətlər tərəfindən şirnikləşdirilən digər separatçı qüvvələr də baş qaldırmış, şimalda "Ləzgistan dövləti", mərkəzdə "Bakı quberniyası" və s. yaradılması uğrunda pozuculuq fəaliyyəti ilə məşğul olmağa başlamışdılar.

Böyük təcrübəyə malik olan görkəmli dövlət xadimi Heydər Əliyev ondan əvvəl Azərbaycana rəhbərlik edən və ona bu cür ağır miras buraxan naşı, səriştəsiz rəhbərlərdən fərqli olaraq səbir və təmkinlə vəziyyəti qaydaya salmağa, yoluna qoymağa başladı. Bu işdə ona daim arxalandığı, güvəndiyi Azərbaycan xalqı dayaq durdu, kömək etdi. Heydər xalq, xalq Heydər birliyi öz sözünü dedi. Xalqın dəstəyi ilə 23 avqustda Talış-Muğan Respublikası ləğv olundu, ayrı-ayrı bölgələrdə baş qaldıran separatçılıq meylləri aradan qaldırıldı. 3 oktyabr 1993-cü ildə seçilən Azərbaycan Prezidenti kimi Heydər Əliyev bilirdi ki, Ermənistanla müharibənin davam etdiyi bir şəraitdə nə xilaskarlıq missiyasını yerinə yetirmək, nə xalqı bu bəladan qurtarmaq, nə də müstəqil Azərbaycan dövlətini qurub yaratmaq mümkün olacaqdır. Ona görə də ümummilli lider 1994-cü ilin may ayında Ermənistanla atəşkəs haqqında müqavilə imzalamasına nail oldu və bununla da ölkə miqyasında həyata keçirilməsi nəzərdə tutulan titanik işlərin təhlükəsizliyi təmin olundu.

Ancaq vəziyyət bununla sabitləşmədi. Azərbaycanda sabitliyin bərpa olunmasında, ölkənin inkişafında maraqlı olmayan daxili qüvvələr hələ də Azərbaycanda at oynatmaqda idilər. Bakıda və Azərbaycanın bölgələrində vaxtilə ermənilərə qarşı yaradılmış silahlı birləşmələr bəzi adamların rəhbərliyi ilə artıq dövlət orqanlarına, əhaliyə qarşı təzyiq vasitəsinə çevrilmişdilər və özbaşınalıqla, qanunsuz hərəkətlərlə, soyğunçuluqla, talançılıqla məşğul olurdular, əhalini gərgin vəziyyətdə saxlayırdılar. Ən pis cəhət onda idi ki, bu silahlı dəstələrə, hətta qoşun birləşmələrinə rəhbərlik edənlər içərisində yüksək vəzifəli dövlət nümayəndələri də var idi. Baş Nazir S.Hüseynov tutduğu, vəzifə ilə kifayətlənməyərək hakimiyyəti ələ keçirmək üçün müxtəlif təxribatlar törədir, qeyri-rəsmi hərbi dəstələr yaradırdı. Vəziyyəti ağırlaşdıran cəhətlərdən biri də Xüsusi Təyinatlı Polis Dəstəsinin Rövşən Cavadovun başçılığı ilə pozuculuqla məşğul olması, hətta güc nazirliklərinin, Respublika Prokurorluğunun binasını və s. strateji obyektləri zəbt etməsi idi. Yüksək vəzifəli dövlət məmurlarının (Afiyəddin Cəlilov,

Şəmsi Rəhimov) qətlə yetirilməsi, Milli Təhlükəzlik Nazirliyinin təcridxanasından dövləti cinayətlərdə ittiham olunan bir neçə cinayətkarın qaçırılması və s. bu kimi işlər vəziyyəti çox mürəkkəbləşdirir, daha da ağırlaşdırırdı. Ancaq bütün bunlara baxmayaraq ulu öndər Heydər Əliyev sayıqlığını itirməyərək, yüksək təmkinlə, xalqa arxalanaraq xilaskarlıq missiyasını yerinə yetirir, qurtuluş mübarizəsini davam etdirirdi.

4 oktyabr 1994-cü ildə Surət Hüseynovun Gəncədə icra hakimiyyətinin binasını və başqa strateji obyektləri ələ keçirməsi ilə başlanan qiyam zamanı paytaxt Bakıda Cavadov qardaşlarının başçılığı ilə iki hərbi hissənin əsgərləri artilleriya qurğularını və digər silahlarını Prezident Sarayına, Ali Sovetin və Müdafiə Nazirliyinin binalarına yönəldərək əmr gözləyirdilər. Vəziyyəti düzgün qiymətləndirən Azərbaycan Prezidenti Heydər Əliyev oktyabrın 4-dən 5-nə keçən gecə radio və televiziya ilə xalqa müraciət edərək yaranmış vəziyyət haqqında məlumat verdi. Gecə yarıdan keçməsinə baxmayaraq on minlərlə adam öz prezidentini, onun qarantı olduğu Azərbaycan dövlətçiliyini qorumaq üçün Prezident Sarayının qarşısına toplaşdı. Vəziyyətin bu şəkildə dəyişdiyini görən qiyamçılar Heydər xalq, xalq Heydər birliyi qarşısında Prezident Sarayına hücum edə və birləşə bilmədilər. Bunun ardınca Gəncədə qiyam yatırıldı. Surət Hüseynov hakimiyyətdən kənarlaşdırıldı. Moskvaya qaçan S.Hüseynov 1996-cı ildə Rusiyada həbs olundu və Azərbaycana gətirilərək məhkum olundu *(28, s. 354)*. Hadisələrin gərginləşdiyini və onların zərərinə dəyişdiyini görən Cavadov qardaşları Azərbaycan Prezidentini müdafiə etdiklərini bildirsələr də öz çirkin niyyətlərindən əl çəkmədilər və 1995-ci ilin mart ayının ortalarında dövlət çevrilişinə cəhd göstərdilər. Onların martın 16-dan 17-nə keçən gecə Prezident Sarayını və digər dövlət orqanlarının binalarını tutmaq, başqa sözlə desək dövlət çevrilişi etmək cəhdinin qarşısı alındı. Heydər Əliyevin həyata keçirdiyi bu və digər tədbirlər nəticəsində Bakıda və bölgələrdə olan digər silahlı dəstələr də ləğv olundu.

Beləliklə, ulu öndər Heydər Əliyev Azərbaycan Respublikası daxilində dövlətçiliyimiz üçün təhlükə törədən bütün qüvvələrin qarşısını qətiyyətlə aldı, onları və rəhbərlik etdiyi silahlı birləşmələri zərərsizləşdirdi, özünün xilaskarlıq missiyasını şərəflə başa çatdırdı və Azərbaycanın ən yeni dövr tarixinə **QURTULUŞ MÜBARİZƏSİNİN, BÖYÜK QURTULUŞUN QALİBİ** kimi daxil oldu. Bundan sonra Heydər Əliyev... hüquqi, iqtisadi və demokratik sahədə kardinal islahatlar proqramının həyata keçirilməsinə start verdi *(10, s. 20)* və ümummilli lider müstəqil Azərbaycan dövlətinin yaradılmasına başladı, onu qurdu, yaratdı, inkişaf etdirdi və mükəmməl bir

dövlət kimi Azərbaycan xalqına bəxş etdi. Məhz bunu nəzərə alaraq akademik İ.Hacıyev haqlı olaraq yazır ki, əgər 1993-cü il iyunun 15-də xalqın istəyi və tələbi ilə dövrümüzün müdrik şəxsiyyəti, təcrübəli və iradəli dövlət xadimi Heydər Əliyevin ikinci dəfə hakimiyyətə qayıdışı gerçəkləşməsəydi, indi biz müstəqil, qüdrətli, yeniləşən və demokratikləşən Azərbaycan dövlətindən danışa bilməzdik *(66, s. 179-180)*. Bütün bunları təhlil edərək akademik Cəlal Əliyev yazır: "Zamanı, bütöv bir dövrü, bəzən bir anı tarixləşdirən, əbədiləşdirən qüdrətli, dahi şəxsiyyətlərdir. Bu gün Azərbaycan dövlətçiliyini, xalqımızın müstəqilliyini əbədiyyətədək yaşatmaq üçün Heydər Əliyev irsi, onun dövlət idarəçiliyi təcrübəsi misilsiz mənəvi sərvətlər xəzinəsidir. Azərbaycanın yüz il bundan sonrakı mövcudluğu da Heydər Əliyevin adı ilə bağlı olacaqdır. Heydər Əliyev şərəfli ömrünün son anına qədər bu amalla yaşadı, yaratdı, müasir Azərbaycanın dövlətçilik tarixinə adını xilaskar, qurucu, müdrik və yenilməz dövlət xadimi kimi yazdı" *(42, 30 may 2013-cü il)*.

## 1.4. HEYDƏR ƏLİYEV İRSİ – ƏBƏDİYAŞAR TƏLİM

Çoxminillik dövlətçilik ənənələrinə malik olan Azərbaycan tarixinə nəzər salarkən aydın olur ki, qədim və orta əsrlər zamanı ərazimizdə yaranan dövlətlərə bir sıra görkəmli şəxsiyyətlər rəhbərlik etmişlər. XX yüzillikdə də belə olmuşdur. Bu dövrdə Azərbaycan Xalq Cümhuriyyəti, Azərbaycan SSR və Müstəqil Azərbaycan Respublikasını bir sıra adamlar, görkəmli şəxsiyyətlər idarə etmişlər. Bu şəxsiyyətlərin bir hissəsi xalqın etimadını doğrultmasa da, onların içərisində əhalinin hörmət və rəğbətini qazanan, sevimlisinə, ümid yerinə çevrilənlər də olmuşdur.

Öz fəaliyyəti ilə xalqın sevimlisinə çevrilən rəhbərlər sırasında taleyin XX əsrdə Azərbaycana bəxş etdiyi görkəmli dövlət xadimi Heydər Əliyev xüsusi yer tutur. XX yüzillikdə Azərbaycana iki dəfə rəhbərlik edən Heydər Əliyev ölkəni ağır vəziyyətdən çıxarmış, əhalini bir sıra məhrumiyyətlərdən, dövlətimizi parçalanmaqdan, məhv olmaqdan xilas etmiş, müstəqil Azərbaycan dövlətini qurmuş, bölgədə inkişaf etmiş qabaqcıl dövlət yaratmışdır. Bütün bunlara görə Heydər Əliyev ümummilli lider səviyyəsinə yüksəlmişdir. Tam qətiyyətlə demək olar ki, XX əsrdə Azərbaycana rəhbərlik edənlər içərisində heç kim Heydər Əliyevin fəth etdiyi zirvəyə yüksələ bilməmişdir.

Ulu öndər Heydər Əliyev bütün həyatı və siyasi fəaliyyəti dövründə Azərbaycan xalqının milli-mənəvi dəyərlərinə, mentalitetinə, keçmiş irsinə qayğı göstərmiş, onların qorunub saxlanmasına və daha da inkişaf etdirilməsinə nail olmuşdur. O, deyirdi ki, keçdiyimiz yola nəzər salarkən aydın olur ki, biz nadir bir irsin varisləriyik. Hər bir Azərbaycan vətəndaşı bu irsə layiq olmağa çalışmalı, böyük bir tarixi keçmişi, zəngin mədəniyyəti, yüksək mənəviyyatı olan ölkəmizin həm dününinə, həm bu gününə, həm də gələcəyinə dərin bir məsuliyyət hissi ilə yanaşmalıdır.

Keçmiş irsə belə yüksək səviyyədə diqqət və qayğı göstərən, hörmət və ehtiramla yanaşan ümummilli lider özü də Azərbaycan xalqına zəngin bir irs miras qoyaraq dünyasını dəyişmişdir. Onun ən böyük siyasi-nəzəri irsi məruzələri, nitqləri, çıxışları, müsahibələri, imzaladığı fərmanlar, sərəncamlar, Qanunlar, verdiyi tapşırıqlar, tövsiyyələr və sairədən ibarətdir. Bütün bunlar bütövlükdə fundamental və layiqli bir dərslik kimi bizə və gələcək nəsillərə ulu öndərin çox layiqli hədiyyəsidir.

Orta əsrlərdə yaşamış Azərbaycan mütəfəkkirlərindən birinin belə bir kəlamı vardır: sözdən elə bir süfrə açmışam ki, hər gələn qonağa orada mütləq bir nemət tapılar. Bu baxımdan Heydər Əliyev irsi elə bir süfrə və xəzinədir ki, Azərbaycan xalqı, müxtəlif peşə və ixtisas sahibləri hazırda bu

xəzinədən faydalanır, gələcəkdə də faydalanacaqdır.

Ulu öndərə xalq məhəbbəti onun irsinin müxtəlif cəhətlərinin hələ sağlığında öyrənilməsinə gətirib çıxarmışdır. Bu sahədə Azərbaycanın bütün təşkilat və müəssisələrində fəaliyyət göstərən Heydər Əliyev lektoriyaları və universitetləri mühüm rol oynayırlar. Fikrimizi iki faktla möhkəmləndirmək istəyirik. Ulu öndərin sərəncamı ilə həyata vəsiqə alan AMEA Naxçıvan Bölməsində fəaliyyət göstərən "Heydər Əliyev lektoriyası"nda qısa müddətdə 50-dən artıq, Naxçıvan Dövlət Universitetində fəaliyyət göstərən "Heydər Əliyev Universiteti"ndə 200-ə yaxın məşğələ keçirilmişdir. Bu o deməkdir ki, keçən müddət ərzində ulu öndərin bizə miras qoyub getdiyi irsin təxminən 200-ə yaxın cəhəti öyrənilmişdir. Gələcəkdə neçə belə 200 məşğələlər də keçiriləcək və ümummilli liderin siyasi-nəzəri irsinin ən dərin və yeni qatları tədqiq olunacaqdır.

Heydər Əliyevin elmi-nəzəri irsinin sistemli şəkildə öyrənilməsində Azərbaycanda və dünyanın bir sıra ölkələrində aparılan tədqiqatların böyük əhəmiyyəti vardır. Hələ ulu öndərin sağlığında bu istiqamətdə aparılan tədqiqatlar dahi şəxsiyyətin dünyasını dəyişməsindən sonra daha da geniş xarakter almışdır. Artıq ulu öndərin həyatı, siyasi fəaliyyəti, ümumiyyətlə elmi-nəzəri irsinin tədqiqi ilə əlaqədar çoxlu sanballı monoqrafiyalar, kitablar, məqalələr yazılaraq nəşr etdirilmiş, dissertasiyalar müdafiə olunmuşdur. Bu sıradan akademik R.Mehdiyevin "Azərbaycan: tarixi irs və müstəqillik fəlsəfəsi" *(99)*, F.Abdullazadənin "Heydər Əliyev: siyasi portret" *(9)*, E.Axundovanın 6 cildlik "Şəxsiyyət və zaman" *(11)*, akademik İ.Həbibbəylinin "Heydər Əliyevin həyatı və fəaliyyətinin Naxçıvan dövründə Naxçıvan Dövlət Universiteti" *(69)*, "Heydər Əliyev dövlətçilik təlimi və müasir dövr" *(72)*, akademik İ.Hacıyevin "Heydər Əliyev və milli-tarixi yaddaşın bərpası" *(61)*, "Heydər Əliyev siyasəti: tarixdə və günümüzdə" *(66)*, AMEA-nın müxbir üzvü Y.Mahmudovun "Azərbaycan dövlətçiliyinin xilaskarı" *(97)*, "Azərbaycan tarixində Heydər Əliyev şəxsiyyəti" *(98)*, V.Andriyanov və H.Mirələmovun "Heydər Əliyev" *(152)*, t.e.d. İ.Hüseynovanın "Müstəqil Azərbaycan dövlətinin qurucusu" *(78)*, Ə.Qasımovun "Heydər Əliyevin inkişaf strategiyası və Naxçıvan Muxtar Respublikası" *(89)* monoqrafiyalarını, həmçinin t.e.d. İ.M.Hüseynovanın "Müstəqil Azərbaycan dövlətinin yaranmasında və möhkəmləndirilməsində Heydər Əliyevin rolu" *(77)* və t.e.d. Ə.Q.Qasımovun "Heydər Əliyev və Naxçıvan Muxtar Respublikasının inkişaf tarixi (1969-2003-cü illər)" *(90)* mövzusunda doktorluq dissertasiyalarını və s. bu qəbildən olan əsərləri xüsusi qeyd etmək lazımdır.

Ümummilli liderin bizə miras qoyub getdiyi irs o qədər çoxcəhətli və

zəngindir ki, bir kitabda, yaxud məqalədə onun haqqında məlumat vermək mümkün deyildir. Ona görə də biz burada ulu öndərin irsinin bəzi cəhətlərindən bir neçə tezis şəklində danışmaq istəyirik.

Görkəmli dövlət xadimi, dahi şəxsiyyət, ulu öndər Heydər Əliyevin Azərbaycan xalqına miras qoyduğu ən böyük töhfə-irs müstəqil Azərbaycan dövlətidir. Ulu öndər Azərbaycanda siyasi hakimiyyətinin birinci dövründə SSRİ-də XX əsrin 70-ci illərindən başlanan tənəzzülü görmüş, ona görə də Azərbaycanı gələcək müstəqillik üçün hazırlamağa başlamışdı. O, Azərbaycanı geridə qalmış aqrar ölkədən inkişaf etmiş sənaye və kənd təsərrüfatı ölkəsinə çevirmiş, ölkə inkişaf səviyyəsinə görə 15 müttəfiq respublikanın hamısını qabaqlamışdı. Ulu öndər gələcək müstəqil Azərbaycanın müxtəlif peşə sahiblərinə, kadrlara olan tələbatını ödəmək üçün keçmiş İttifaqın ən yaxşı ali məktəblərində ildə 1000 nəfərə yaxın gəncin təhsil almasına nail olmuşdu. Əminliklə demək olar ki, hazırda müstəqil Azərbaycanın həyatının bütün sahələrində çalışan mütəxəssislərin əksəriyyəti ulu öndərin uzaqgörənliklə hazırladığı kadrların payına düşür.

Dahi rəhbərin 1969-1982-ci illərdə həyata keçirdiyi sistemli tədbirlər nəticəsində Azərbaycan elə bir inkişaf səviyyəsinə qalxdı ki, 90-cı illərin əvvəllərində müstəqilliyini elan etmiş müttəfiq respublikalar içərisində müstəqilliyə tam hazır olan iki respublikadan biri Azərbaycan idi.

Ulu öndər Azərbaycanda siyasi hakimiyyətinin II dövründə müstəqil dövlət quruculuğuna başlarkən özünün Azərbaycanda 70-80-ci illərdə yaratdığı irsə əsaslanmış, Azərbaycan bu möhkəm təmələ, zəminə, bazisə söykənərək sürətlə qabağa sıçramış, inkişaf səviyyəsinə görə müstəqilliyə qovuşmuş keçmiş İttifaq respublikalarının hamısını geridə buraxmışdır.

Ulu öndərin bizə qoyub getdiyi ən böyük miraslardan biri də Yeni Azərbaycan Partiyasıdır. 80-ci illərin sonlarından başlayaraq Dağlıq Qarabağ problemi ilə başlanan böhran Azərbaycanda həyatın bütün sahələrini iflic etmiş, ölkə dağılmaq, parçalanmaq həddinə çatmış, bu səbəbdən də Azərbaycanın 91 nəfər ziyalısı o zaman Naxçıvanda yaşayan Heydər Əliyevə müraciət imzalamışdı. Azərbaycanın görkəmli ziyalıları bu müraciətdə Azərbaycanda yaranmış vəziyyəti təhlil edir, ölkəni bu vəziyyətdən çıxaracaq yeganə şəxsin Heydər Əliyev olduğunu vurğulayırdılar. Xalqın iradəsini əsas tutaraq 91-lər Azərbaycanı bu vəziyyətdən çaxara biləcək bir partiya yaradılmasını və partiyaya rəhbərlik etməyi Heydər Əliyevdən xahiş edirdilər ***(136, 16 oktyabr 1992)***. Ulu öndər bu müraciətə müsbət cavab vermiş ***(92, s. 507-511)*** və 1992-ci il noyabrın 21-də Naxçıvan şəhərində Yeni Azərbaycan Partiyası yaradılmış, onun ümummili liderin özü tərəfindən hazırlanmış

Proqram və Nizamnaməsi qəbul edilmiş, Heydər Əliyev Partiyanın Sədri seçilmişdir *(102, s. 108-109)*. Yeni Azərbaycan Partiyasının yaranması həmin vaxtlar çox çətin günlərini yaşayan Azərbaycan dövlətçiliyinin xilas yolunun başlanğıcı oldu. Heydər Əliyevə olan xalq sevgisi bu partiyanın tezliklə böyük uğur qazanmasına, ümumxalq partiyasına çevrilməsinə gətirib çıxardı. Hazırda sıralarında 600 mindən çox üzvü birləşdirən, keçən müddət ərzində böyük uğurlara imza atan YAP-ın ən böyük nailiyyəti isə dağılmaqda olan Azərbaycan dövlətçiliyinin, dövlət müstəqilliyinin qorunub saxlanması, müstəqil Azərbaycan dövlətinin qorunması və qüdrətli bir dövlətə çevrilməsidir.

Heydər Əliyevin Azərbaycan xalqına miras buraxdığı irslərdən biri də müstəqil Azərbaycanın Konstitusiyasıdır. Heydər Əliyev dövlət quruculuğuna başlayarkən ilk əvvəl onun hüquqi əsaslarını yaratmaq üçün Konstitusiyanın yaradılmasını vacib hesab edirdi. Ona görə də ulu öndərin rəhbərliyi ilə Konstitusiya yaradıldı və 1995-ci il noyabr ayının 12-də ümumxalq səsverməsi-referendumla qəbul olundu. Dünyanın ən demokratik Konstitusiyaları ilə bir sırada duran bu Konstitusiya Azərbaycanda dövlət quruculuğunun əsaslarını qoydu. Qanunun aliliyi, insan haqlarının qorunması kimi demokratik prinsiplər bərqərar edildi. Beləliklə ölkədə iqtisadi və siyasi islahatların aparılması, respublikamızın dünya birliyinə inteqrasiyası üçün hüquqi baza yaradıldı *(65, s. 60)*.

Ulu öndərin tariximiz, onun tədqiqi və s. sahəsində çıxışlarında söylədiyi fikirlər, imzaladığı sərəncamlar və s. çox əhəmiyyətli nəzəri irs kimi diqqəti cəlb edir. Məlumdur ki, XX yüzillik boyu ermənilər tərəfindən xalqımıza qarşı bir neçə dəfə soyqırım və deportasiyalar həyata keçirilmişdir. Ancaq sovet hakimiyyəti illərində bu mövzunun üzərinə qara örtük çəkilmiş, onun tədqiqinə yol verilməmişdir. Hətta tarixi ədəbiyyatda bu hadisələr "vətəndaş müharibəsi" adlandırılmışdır. Ümummilli lider Heydər Əliyevin 18 dekabr 1997-ci il tarixdə imzaladığı "1948-1953-cü illərdə Azərbaycanlıların Ermənistan SSR ərazisindəki tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiyası haqqında" *(61, s. 135-136)* və 26 mart 1998-ci ildə imzaladığı "Azərbaycanlaların soyqırım günü haqqında" *(61, s. 139-145)* sərəncamlardan sonra insanlar qorxu hissindən azad oldu, bu sahədə tədqiqatlar genişləndi.

Ümummilli lider Heydər Əliyev öz çıxışlarında bu məsələlərə dəfələrlə toxunmuş, hətta AMEA Naxçıvan Bölməsinin yaradılması ilə əlaqədar Naxçıvan MR Ali Məclisində keçirilən müşavirədəki nitqində qeyd etmişdir ki, "Azərbaycan Prezidenti kimi sizə və bütün əhalimizə, bütün alimlərimizə, ziyalılarımıza bildirmək istəyirəm ki, Azərbaycanın, onun xalqının tarixini,

mədəniyyətini, keçmişini dürüst, əsaslı şəkildə sübut edən hər bir əsər bəyəniləcəkdir. Bu barədə heç kimə nə millətçi damğası vurulacaq, nə də kimsə günahlandırılacaqdır" *(141, 15 avqust 2002-ci il; 20, s. 21)*. Məhz ulu öndərin yaratdığı münbit şərait nəticəsində Azərbaycanda ermənilərin XX yüzillik ərzində xalqımızın başına gətirdiyi müsibətlər haqqında dəyərli monoqrafiyalar, kitablar və məqalələr yazılmış, çoxlu dissertasiyalar müdafiə olunmuşdur.

Yeri gəlmişkən, ulu öndərin öz çıxış və məruzələrində, xüsusilə yuxarıda adı qeyd olunan müşavirədəki giriş və yekun nitqində tarix və mədəniyyətimizlə bağlı tarixçilərimiz qarşısında qoyduğu vəzifələr, müəyyən etdiyi istiqamətlər öz aktuallığını heç bir vaxt itirməyəcək, bu gün olduğu kimi gələcəkdə də aktual olacaqdır. Ulu öndərin bu tövsiyyə və tapşırıqları, qaldırdığı məsələlər tarixçilərimizin uzun illər boyu rəhbər tutacaqları çox mühüm siyasi-tarixi proqram sənəddir. Məsələn, onun Naxçıvan xanlığı, onun tədqiqi ilə bağlı əsil təcrübəli tarixçi dəqiqliyi ilə dediyi "Mən daha çox istərdim ki, Naxçıvan xanlığının tarixi çox gözəl yazılsın. Naxçıvan xanlığının çox böyük tarixi var. Bu xanlıq nə vaxt yaranıbdır, fəaliyyəti nədən ibarət olubdur? Axı, Naxçıvanı idarə ediblər. İrəvan xanlığı var. Naxçıvan xanlığı ilə İrəvan xanlığı bir-biri ilə çox bağlı idi. İndi ermənilər deyirlər ki, yox orada ermənilər olubdur. Amma həqiqətən İrəvan xanlığıdır. Naxçıvan xanlığını siz dərindən öyrənəndə, mütləq İrəvan xanlığına gedib çıxacaqsınız. İrəvan xanlığı haqqında Ermənistanda tapmadığınız materialları Rusiyanın arxivlərində, Sankt-Peterburqda, rus imperiyasının arxivlərində tapacaqsınız və görəcəksiniz ki, dünyada nələr var" *(141, 15 avqust 2002-ci il; 20, s. 27-28)* fikirləri diqqəti cəlb edir. Ulu öndər bu bir neçə cümlədə Naxçıvan xanlığı tarixinin hansı istiqamətdə işlənməsini, hansı məsələlərə diqqət yetirilməsini, hətta tədqiqatın planını, mənbə bazasını belə çox aydın şəkildə müəyyənləşdirmişdir.

Ümummilli lider Heydər Əliyevin ideyaları və nəzəri irsi yaşayır, inkişaf edir, mayak kimi hər zaman gələcəyə doğru bizim yolumuza işıq saçır. Ümummilli liderin işləyib hazırladığı, alternativi olmayan siyasi kurs bu gün Azərbaycan Respublikasına uğurla rəhbərlik edən Prezident İlham Əliyev tərəfindən çox məharətlə davam və yaradıcılıqla inkişaf etdirilir. 2003-cü ilin oktyabrında xalqın böyük dəstəyi ilə prezident seçilən İlham Əliyevin keçən müddət ərzində həyata keçirdiyi tədbirlər ölkənin daha da inkişafı, əhalinin maddi-rifah halının yaxşılaşdırılması və s. istiqamətində yeritdiyi siyasət əhali tərəfindən razılıqla qarşılanmışdır. Heydər Əliyevin nəzəri irsinə əsaslanan bu siyasətin uğurları ümummilli liderin müəyyən

etdiyi siyasi kursun alternativi olmadığını bir daha əyani şəkildə sübut edir. Bütün bunların sayəsində Azərbaycan xalqı öz prezidentini sevir və onun ətrafında daha sıx birləşir.

Ümummili lider Heydər Əliyevin nəzəri irsinə əsaslanan siyasətin Azərbaycanın ayrılmaz tərkib hisəsi olan Naxçıvan MR-da uğurlu tətbiqi sayəsində Naxçıvan Muxtar Respublikası çox böyük inkişaf yolu keçmiş, Azərbaycanın inkişaf etmiş sənaye, kənd təsərrüfatı, elm, təhsil, mədəniyyət mərkəzlərindən, hətta xarici ölkələrə məhsul ixrac edən bölgəsinə çevrilmişdir. Bütün bunlar müxtəlif vaxtlarda Naxçıvan MR-na səfərlər edən ölkə rəhbərinin diqqətini cəlb etmiş və öz növbəsində o Naxçıvanda aparılan işlərə, əldə olunan uğurlara yüksək qiymət vermişdir. Naxçıvana səfərlərindən biri zamanı, 5 oktyabr 2010-cu ildə Ordubad rayonundakı Biləv Su Elektrik Stansiyasının açılışında çıxış edərkən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev belə demişdir: "Mən çox şadam ki, Naxçıvanda nəzərdə tutduğumuz bütün məsələlər bu gün öz həllini tapır. Muxtar Respublika uğurla inkişaf edir, burada quruculuq-abadlıq işləri çox sürətlə gedir, bütün sosial məsələlər həllini tapır, müəssisələr, fabriklər açılır, yollar çəkilir... Bu günə qədər görülmüş işlər və bu nəticələr onu göstərir ki, nəzərdə tutulmuş bütün proqramlar vaxtında icra olunur və şübhə etmirəm ki, bu gün planlaşdırdığımız bütün məsələlər gələcəkdə öz həllini tapacaqdır" ***(141, 6 oktyabr 2010-cu il).*** Həmçinin, dövlət başçısı bu uğurlu inkişafı "Heydər Əliyev siyasətinin təntənəsi" kimi xarakterizə etmişdir ***(141, 30 may 2012-ci il).***

Azərbaycanın bütün bölgələrində, o cümlədən Naxçıvan Muxtar Respublikasında Heydər Əliyev siyasi kursunun uğurlu tətbiqi sayəsində əldə olunan nəhəng uğurlara görə xalqımız tamamilə əmindir ki, ümummilli lider Heydər Əliyevin bizə miras qoyub getdiyi zəngin irs sadiq, möhkəm və etibarlı əllərdədir.

İstər Azərbaycanda, istərsə də onun ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında həyatın bütün sahələrində əldə olunan, qazanılan möhtəşəm uğurların əsasında Heydər Əliyev siyasəti, onun bizə miras qoyduğu nəzəri irsin ən mühümlərindən olan inkişaf strategiyası dayanır. Məhz zamanın sınaqlarından uğurla çıxan bu strategiya Azərbaycanın inkişafını təmin etmiş, ölkəmiz bu siyasətin uğurlu tətbiqi sayəsində inkişaf səviyyəsinə görə nəinki Cənubi Qafqazda, həmçinin MDB məkanında ön sıraya keçmişdir. Bu baxımdan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sözlərini xatırlatmaq yerinə düşər. Ölkə prezidenti çıxışlarından birində demişdir: "Mən prezident seçkiləri ərəfəsində demişdim ki, Azərbaycan vətəndaşları ildən-ilə daha yaxşı yaşamalıdırlar və yaşayacaqlar. Bunu

etmək üçün hər cür imkanımız vardır. Ən önəmlisi isə dövlətin düzgün siyasəti vardır. Bu siyasət Heydər Əliyev siyasətidir. Mən seçkilərdən əvvəl bəyan etmişdim və söz vermişdim ki, bu siyasətə sadiq qalacağam və onu öz fəaliyyətimdə həyata keçirəcəyəm. Bu gün sizə deyə bilərəm ki, Azərbaycanda Heydər Əliyev siyasəti yaşayır, güclənir və bundan sonra da əbədi olaraq yaşayacaqdır" *(10, s. 128)*.

Ümummilli lider Heydər Əliyevin dünyasını dəyişməsindən keçən 11 ilə yaxın bir zaman kəsiyi sübut etdi ki, ulu öndərin Azərbaycan xalqına miras qoyduğu nəzəri irs əbədiyaşar, bütün zamanlar üçün tətbiq və istifadə olunacaq mükəmməl bir təlimdir.

"Biz düz yolla, haqq yolu ilə, Allah yolu ilə, Quran yolu ilə, demokratiya yolu ilə, həqiqət yolu ilə, müstəqillik yolu ilə gedirik. Tutduğumuz bu yol bizi Azərbaycanın çox gözəl gələcəyinə aparıb çıxaracaqdır" – deyən ulu öndər Heydər Əliyev işləyib hazırladığı siyasi kursun, bütövlükdə Azərbaycan xalqına miras qoyduğu nəzəri irsin əbədiyaşar olduğuna inanırdı və deyirdi: "Nə qədər ki, Azərbaycan var, mən də varam, mən isə Azərbaycanda əbədi olacağam".

Ümummilli lider Heydər Əliyevin Azərbaycan xalqına miras qoyduğu elmi-nəzəri irs elə bir zəngin xəzinədir ki, uzun illər sonra da həyata atılan yeni nəsillər bu xəzinəyə müraciət edəcək, ondan bəhrələnəcək, dahi şəxsiyyətin dövlətçilik və idarəçilik məktəbindən öyrənəcəklər. Ulu öndər Heydər Əliyev kimi nadir şəxsiyyətin həyatı və siyasi fəaliyyətinə aid çoxlu əsərlər yazılsa da, onun irsinin dərindən, hərtərəfli, ətraflı öyrənilməsi, fundamental tədqiqatlar aparılması, akademik nəşrlərin hazırlanması və gələcək nəsillərə çatdırılması sahəsində yorulmadan çalışmaq, çox iş görmək, ictimai və humanitar elmlər istiqamətində işləyən tədqiqatçıların, geniş mənada bütün elm sahələri ilə məşğul olan alimlərin qarşısında duran ən aktual və mühüm vəzifələrdən biridir.

## 1.5. HEYDƏR ƏLİYEV VƏ NAXÇIVANIN ERMƏNİ İŞĞALINDAN XİLAS EDİLMƏSİ

1991-ci il sentyabrın 3-də Naxçıvan şəhərində nəinki Naxçıvan Muxtar Respublikasının, bütövlükdə Azərbaycanın həyatında baş verən ictimai-siyasi proseslərin inkişafına müsbət mənada güclü təsir edən, hadisələrin istiqamətini dəyişən çox mühüm siyasi-tarixi hadisə baş verdi: xalqın təkidli tələbi ilə həmin vaxt Naxçıvanda yaşayan, sonralar, Azərbaycanda siyasi hakimiyyətinin ikinci dövründə ümummilli liderə çevrilən görkəmli dövlət xadimi və diplomat Heydər Əliyev Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri seçildi. Heydər Əliyevin bu vəzifəyə seçildiyi dövr Azərbaycan, o cümlədən Naxçıvan Muxtar Respublikasının ən ağır dövrü idi. Bu zaman şimaldan və şərqdən Ermənistanın, qərbdən və cənubdan Türkiyə və İranın əhatəsində olan Naxçıvan faktiki olaraq Ermənistan tərəfindən blokadaya salınmış, avtomobil yolu kəsilmiş, dəmir yolu isə ermənilər tərəfindən tez-tez bağlandığından Azərbaycanla əlaqə kəsilmişdi. Həmin vaxt Azərbaycana rəhbərlik edənlərin isə bölgəyə ögey münasibəti, hətta onu kor bağırsaq kimi kəsib atmaq istəyi səbəbindən Naxçıvan "taleyin ümidinə buraxılmış tənha bir adanı" *(92, s. 8)* xatırladırdı. Əhali aclıq, səfalət və qorxu içərisində yaşayırdı. İndiki Ermənistandan – tarixi ata-baba yurdlarından zorla deportasiya olunan, var-yoxları əlindən alınaraq qovulan azərbaycanlıların bir hissəsinin Naxçıvana gəlib orada məskunlaşması vəziyyəti daha da ağırlaşdırmışdı. Artıq bu zaman Sədərək sovetliyinə daxil olan Kərki kəndi ermənilər tərəfindən 18 yanvar 1990-cı ildə işğal olunmuş, düşmənin muxtar respublika ərazisinə bir neçə istiqamətdən hücumları intensiv xarakter almışdı.

Ona görə də xalq öz nicat yolunu hələ Azərbaycanda birinci hakimiyyəti dövründə ümumxalq məhəbbəti qazanmış, Bakıda yaşaması üçün imkan verilmədiyindən taleyin hökmü ilə 1990-cı ilin 22 iyulunda doğma Naxçıvana üz tutan və orada yaşayan görkəmli dövlət xadimi Heydər Əliyevdə görürdü və bu səbəbdən də təkidlə onun Ali Məclisin Sədri seçilməsinə nail oldu. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri kimi Heydər Əliyevin qarşısında bölgəyə gələn qaçqınların yerləşdirilməsi, əhalinin aclıqdan, səfalətdən, qışda soyuqdan donmaqdan xilas etmək, ən başlıcası isə bölgəni erməni işğalından qorumaq kimi çox çətin və mürəkkəb vəzifə dururdu. Ona görə də ulu öndər Heydər Əliyev Naxçıvanda vəziyyəti sabitləşdirmək, ərazinin erməni işğalından qorunması və əhalinin təhlükəsizliyini təmin etmək üçün bir sıra tədbirlər həyata keçirdi. Ali Məclis Sədrinin təşəbbüsü ilə seçkidən 4 gün sonra, 7 sentyabr

1991-ci ildə Ali Məclisin qərarı ilə Naxçıvan Dövlət Milli Müdafiə Komitəsi yaradıldı *(92, s. 543-544)*. Bundan sonra Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Rəyasət Heyətində və sessiyalarında muxtar respublikanın daxilində və sərhədlərində baş verən hadisələr müntəzəm olaraq müzakirə olunmağa və və müvafiq qərarlar qəbul olunmağa başladı.

Ümummilli lider Heydər Əliyevin Ali Məclisin Sədri kimi fəaliyyətə başladığı ilk zamanlarda Ermənistan tərəfindən sərhədlər tez-tez pozulur, dinc əhali öldürülür, əsir götürülür, mal-qara oğurlanır, Bakı-Şərur qatarı Mehri ərazisində dayandırılır, sərnişinlər girov saxlanılırdı. Ona görə də Ali Məclisin Sədri vaxtaşırı Ermənistan Prezidenti L.Ter-Petrosyanla telefon əlaqəsi saxlayır, girovların azad edilməsini, mal-qaranın geri qaytarılmasını, sərnişin qatarlarının hərəkətinin təhlükəsizliyinin təmin edilməsini tələb edir və öz qətiyyəti sayəsində buna nail olurdu. Ulu öndər hətta Azərbaycanın digər bölgələrindən edilən xahişlərə, göndərilən teleqramlara əsasən bir neçə dəfə respublikanın başqa bölgələrində girov götürülmüş həmvətənlərimizin də erməni girovluğundan azad olunmasını gerçəkləşdirmişdi. Məsələn, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 2 oktyabr 1991-ci ildə keçirilən sessiyasının qapalı iclasında Naxçıvanın müdafiə məsələləri müzakirə olunmaqla yanaşı, Xocalı şəhər Sovetinin sədri Elman Məmmədov və Goranboy rayonundan gəlmiş nümayəndələrin çıxışı dinlənilmişdi. Onlar yaşadıqları bölgədə yaranmış gərgin vəziyyət haqqında Ali Məclis Sədrinə və deputatlara məlumat vermişdilər. Goranboy nümayəndələrinin çıxışında, həmçinin həmin rayon sakinlərindən Ali Məclis Sədrinə gələn teleqramlarda ermənilər tərəfindən girov götürülmüş rayon sakinlərinin ailələrinə qaytarılmasına kömək göstərilməsi xahiş edilirdi. Ulu öndər bu və digər rayonlardan edilən bu cür xahişlərin həlli üçün Ermənistan rəhbərliyi ilə apardığı danışıqlarda, onlara göndərdiyi teleqramlarda Naxçıvan Muxtar Respublikasına aid problemlərlə yanaşı qeyd olunan problemlərlə bağlı məsələlər qaldırır, əksər hallarda onların müsbət həllinə nail olurdu.

Belə bir şəraitdə, 1991-ci ilin dekabrında SSRİ adlı dövlət tarix səhnəsindən çıxdı. Azərbaycan 18 oktyabr 1991-ci ildə öz müstəqilliyini bərpa etsə də hələ Sovet Silahlı qüvvələrinin hissələri Azərbaycanda, o cümlədən Naxçıvanda qalmaqda idi. Ona görə də bu hərbi hissələrin statusunun müəyyənləşdirilməsi, onların ərazidə qalıb-qalmaması məsələləri gündəmə gəldi. Bu məsələ hələ SSRİ-nin dağılması rəsmən elan olunmamışdan əvvəl, müxtəlif vaxtlarda, hətta Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 26 oktyabr 1991-ci il tarixli *(92, s. 566-568)* və 14-16

dekabr 1991-ci ildə keçirilən sessiyasında *(92, s. 577-579)* müzakirə olunmuş, sonuncu sessiyada Ali Məclisin qərarı ilə hərbi hissələrin rəhbərliyi ilə birgə 10 gün müddətində təkliflər hazırlamaq üçün xüsusi komissiya yaradılmışdı. Bundan sonra bu məsələ 1992-ci il yanvar ayının 2-də Ali Məclisin Rəyasət Heyətində hərbi hissə komandirlərinin dəvət olunduğu iclasda müzakirə olundu. İclasda Ali Məclisin Sədri Heydər Əliyev bildirdi ki, Sovet ordusu və onun hərbi texnikası keçmiş İttifaqın bütün respublikalarının xərci ilə yaradılmış və saxlanılırdı. Ona görə də hərbiçilərdə olan silahlar, hərbi texnika və avadanlıq onların yerləşdiyi hər bir respublikanın payına düşməlidir. Biz muxtar respublikadan silahların, hərbi texnikanın və avadanlığın aparılmasına heç cür yol verə bilmərik *(141, 11 yanvar 1992-ci il)*.

Bu fikir Ali Məclisin Rəyasət Heyətində qəbul olunmuş qərarda öz əksini tapmış, ərazidə yerləşən hərbi hissələrin bütün hərbi və təsərrüfat tikililərinin, əmlakının, silahlarının və hərbi sursatlarının, hərbi texnikasının Naxçıvan Muxtar Respublikasına məxsus olduğu qeyd olunmuş, Ali Məclisin icazəsi olmadan muxtar respublika ərazisindən hərbi sursat və texnika çıxarılması qadağan edilmiş, muxtar respublika ərazisində olan hərbi hissələrin hüquqi statusu haqqında məsələ qəti həll olunanadək onların Ali Məclisə tabe olmaları, prinsipial məslələrdə fəaliyyətlərini Ali Məclis ilə razılaşdırmaları göstərilmişdi.

Məlumdur ki, 1988-ci ildə Dağlıq Qarabağ problemi başlayandan bəri Azərbaycana rəhbərlik edən adamların səriştəsizliyi ucbatından Azərbaycanın həqiqət işi dünya ictimaiyyətinə çatdırıla bilməmiş, ideoloji cəhətdən öz yalanlarını beynəlxalq aləmə həqiqət kimi qələmə verən ermənilərə uduzulmuş, ermənilər bu cəhətdən Azərbaycanı üstələmiş, dünya ictimaiyyətinin nəzərində "məzlum erməni" obrazı yarada bilmişdilər. Nəticədə dünya ictimaiyyəti ermənilərin yalanlarına uymuş, Dağlıq Qarabağ məsələsində həmişə Azərbaycanı günahlandırmışlar.

Ulu öndər Ali Məclisin Sədri seçildikdən sonra dünyanın aparıcı dövlətlərinin başçılarına, məşhur kütləvi informasiya vasitələrinə, nüfuzlu beynəlxalq qurumlara, ümumiyyətlə dünya ictimaiyyətinə dəfələrlə müraciət etmiş, Ermənistanın Naxçıvana, bütünlüklə Azərbaycana təcavüzü haqqında onları məlumatlandırmış, hətta əsil həqiqəti görmələri üçün onları Azərbaycana – Naxçıvana dəvət etmişdi. Bundan sonra bir sıra görkəmli dövlət və siyasi xadimlər, dünyanın aparıcı kütləvi informasiya vasitələrinin nümayəndələri, Naxçıvana gəlmiş, məsələnin mahiyyətini öz gözləri ilə görmüş, bu haqda dünya ictimaiyyətinə obyektiv məlumatlar verməyə

başlamışdılar. Ulu öndər bu cəhəti yüksək qiymətləndirir və onu Azərbaycan üçün böyük nailiyyət hesab edirdi. Məhz bu sahədə aparılan uğurlu siyasət nəticəsində Azərbaycanda, Naxçıvanda baş verən hadisələr haqqında beynəlxalq təşkilatlarda, dünya ictimaiyyətində obyektiv təsəvvür yaradıldı.

1992-ci ilin fevralında ermənilərin Xocalıda törətdikləri soyqırımdan sonra Azərbaycanda vəziyyət daha da gərginləşdi. Hakimiyyət uğrunda genişlənən mübarizə, bu səbəbdən də Qarabağ məsələsinin arxa plana keçməsindən istifadə edən ermənilər may ayında Şuşa və Laçını zəbt etməklə Dağlıq Qarabağın işğalını başa çatdırdılar. Həmin günlərdə ermənilər Naxçıvanı ələ keçirmək üçün mayın 1-də və 18-də bölgəyə geniş miqyaslı hücumlar təşkil etdi. Hücum zamanı hərbçilərdən və dinc əhalidən çoxlu adam həlak oldu. Bu zaman Ali Məclisin Sədri Heydər Əliyevin həyata keçirdiyi bir sıra tədbirlər nəticəsində hücumların qarşısı alındı və ermənilər hücumu dayandırmağa məcbur oldular.

Ermənilərin təcavüzünün qarşısının alınmasında dahi şəxsiyyətin xarici dövlətlərin başçılarına, beynəlxalq qurumlara, dünya ictimaiyyətinə müraciəti xüsusi rol oynadı. Ulu öndər bu müraciətdə Ermənistanın Azərbaycana, həmçinin onun ayrılmaz tərkib hissəsi olan Naxçıvana hərbi təcavüzü haqqında məlumat vermiş və təcavüzün dayandırılması üçün əməli tədbirlər görülməsini tələb etmişdi. Məhz bu müraciətdən sonra dünyanın bir sıra nüfuzlu kütləvi informasiya vasitələrinin əməkdaşları Naxçıvana gəlmiş, vəziyyətlə yerində tanış olmuş və yaranmış vəziyyət haqqında beynəlxalq ictimaiyyətə obyektiv məlumatlar vermişdilər. Həmçinin Heydər Əliyevin Ali Məclisin Sədri kimi Türkiyə hökumət başçıları ilə apardığı danışıqlar öz müsbət nəticəsini göstərdi. Mayın 18-də Baş Nazir Süleyman Dəmirəl, Xarici İşlər Naziri Ərdal İnönü Ali Məclisin Sədri Heydər Əliyev ilə telefon əlaqəsi saxlamış, bölgədəki vəziyyət haqqında ətraflı məlumat almışdılar. Bundan sonra Türkiyə Cümhuriyyətinin Nazirlər Kabineti məsələni müzakirə edərək Ermənistanın Naxçıvana təcavüzü ilə əlaqədar bəyanat vermişdi. Naxçıvana Türkiyə nümayəndə heyəti göndərilmiş, onlar ən qanlı və ağır döyüşlərin getdiyi Sədərəkdə olmuş, sonra Ali Məclisin Sədri ilə görüşərək baş verən hadisələr haqqında dolğun məlumat almışdılar. Bütün bu aparılan işlər öz nəticəsini verdi və Ermənistanın təcavüzkarlıq siyasəti ifşa edildi. Təsadüfi deyildir ki, bu uğurlu siyasətin nəticəsi olaraq dünyanın 57 dövləti Ermənistanın təcavüzkarlıq siyasətini pislədi. Hətta NATO kimi nüfuzlu təşkilat bu hadisələrlə əlaqədar xüsusi bəyanat verdi ***(102, s. 82)***.

Bütün bunların nəticəsində Ermənistan müvəqqəti də olsa Naxçıvan

üzərinə hücumlarını dayandırmağa məcbur olmuş, hətta Naxçıvana hücumu onların başlamadığını iddia etmiş, Ermənistanın baş naziri V.Sarkisyan və başqa rəsmi şəxslər Ali Məclis Sədrinə danışıqlar aparmaq üçün müraciət etməyə məcbur olmuşdular ***(141, 28 may 1992-ci il)***.

Ümummilli liderin Naxçıvan Muxtar Respublikasının müdafiəsinin təşkili istiqamətində atdığı ən mühüm addımlardan biri də MR Ali Məclisinin 25 iyul 1992-ci il tarixli iclasında Naxçıvan MR Dövlət Müdafiə Komitəsinin yenidən təşkil olunması və onun bazasında Azərbaycan Müdafiə Nazirliyinin tərkibində müvafiq hərbi strukturun yaradılması haqqında qərarın qəbul edilməsi oldu ***(92, s. 603-604)***. Qərara əsasən Rusiyanın 75-ci diviziyasının əmlakı təxminən bir aya yaxın müddətdə (22 iyuldan – 15 avqustadək) təhvil alındı, həmin əmlakın və MR Dövlət Müdafiə Komitəsinin bazasında Azərbaycan Müdafiə Nazirliyinin Naxçıvanda 5-ci əlahiddə motaatıcı briqadası yaradıldı. Bundan sonra 18 avqust 1992-ci ildə Rusiya ordusunun son dəstələri Naxçıvanı münaqişəsiz şəkildə tərk etdi ***(92, s. 606-610)***. Ulu öndər həmin vaxt yeni yaradılan 5-ci əlahiddə briqadanın komanda heyəti və əsgərləri qarşısında çıxış etmiş, əmin olduğunu bildirmişdi ki, bundan sonra bölgənin müdafiə imkanları artacaq və daha da möhkəmlənəcəkdir.

Ümummilli liderin Naxçıvan Muxtar Respublikasının müdafiəsini möhkəmləndirmək istiqamətində atdığı addımlardan biri də onun təklifi ilə Ali Məclisin Rəyasət Heyətinin 25 may 1992-ci il tarixli qərarı ilə Naxçıvanın inkişafı və müdafiəsi fondunun yaradılması oldu. Çünki muxtar respublika ərazisinə yaranmış son dərəcə mürəkkəb vəziyyətlə əlaqədar əhalinin topladığı vəsaitin hara yönəldilməsi məsələsində anlaşılmazlıq yaranır, toplanmış vəsaitdən sui-istifadə hallarının baş verməsi haqqında Ali Məclisə şikayətlər daxil olurdu. Rəyasət Heyətinin qərarı ilə yaradılan fondun Naxçıvan Dövlət Bankında xüsusi hesabı açıldı və bütün vəsaitlər oraya köçürülməyə başladı. Bundan sonra toplanmış vəsaitin istifadəsinə Ali Məclisin Sədri Heydər Əliyevin rəhbərliyi ilə muxtar respublikanın və rayonların vəzifəli şəxslərindən ibarət yaradılmış Komissiya nəzarət etməyə başladı.

Həmçinin, muxtar respublikanın müdafiə qabiliyyətinin artırılması üçün Ali Məclis Sədrinin təşəbbüsü ilə 28 iyul 1992-ci ildə Azərbaycan Sərhəd qoşunlarının Naxçıvanda 1-ci sərhəd qoşunları dəstəsi yaradıldı. Bundan az sonra, 29 sentyabr 1992-ci ildə Naxçıvandakı Rusiyaya məxsus 41-ci sərhəd dəstəsi ləğv olundu və onun bütün hərbi və təsərrüfat əmlakı Azərbaycan Respublikası Sərhəd qoşunlarının 1-ci sərhəd dəstəsinə verildi.

Elə həmin gün 41-ci sərhəd dəstəsinin komandiri polkovnik V.Jukov başda olmaqla sonuncu qrup əsgər və zabitlər Naxçıvanı tərk etdi *(41)*. Bununla da Naxçıvan ərazisində Rusiyanın heç bir hərbi hissəsi və hərbi qulluqçusu qalmadı. Beləliklə Azərbaycanın Naxçıvan bölgəsindəki İran və Türkiyə ilə olan 214 km-lik, Ermənistanla olan 246 km-lik dövlət sərhəddinin bütün məntəqələrində, həmçinin 41-ci sərhəd dəstəsinin keçmiş qərargah binasının üzərində Azərbaycanın üçrəngli dövlət bayrağı qaldırıldı və sərhədlərin qorunması Azərbaycan sərhədçiləri tərəfindən yerinə yetirilməyə başladı.

Naxçıvan MR Ali Məclisi Rəyasət Heyətinin 19 sentyabr 1992-ci il tarixdə keçirilən iclasında qəbul olunan bir sıra qərarlar Naxçıvan MR-nın sərhədlərinin qorunması istiqamətində atılan ən mühüm addımlardan biri oldu. İclasın ən mühüm qərarlarından biri Azərbaycan Müdafiə Nazirliyinin yeni hərbi hissələrinin təşkil olunması ilə əlaqədar Naxçıvan MR Dövlət Müdafiə Komitəsinin ləğv edilməsi oldu. Bu haqda qəbul olunan qərarda yeni yaranan hərbi hissələrin öz fəaliyyətini Naxçıvan MR Ali Məclisi ilə sıx əlaqədə həyata keçirməsi, ərazinin Ermənistanın təcavüzündən qorunması tədbirlərinin Ali Məclisin, Naxçıvan MR Müdafiə Şurasının rəhbərliyi altında aparılması xüsusi ilə vurğulanmışdı *(92, s. 610-616)*.

Rəyasət Heyətində müzakirə olunan ən mühüm məsələlərdən biri də muxtar respublika ərazisində fəaliyyət göstərən qeyri-rəsmi silahlı dəstələrin fəaliyyəti ilə əlaqədar idi. Məlumdur ki, Ermənistanın Azərbaycana, o cümlədən Naxçıvana təcavüzkar hücumları ilə əlaqədar hər yerdə qeyri-rəsmi, könüllü özünümüdafiə silahlı dəstələri yaradılmış və sərhəd kəndlərində yerləşdirilmişdi. Bu dəstələr təcavüzün ilk vaxtlarında ərazinin qorunmasında müsbət rol oynasalar da, sonralar başıpozuq xarakter almış, bəzi siyasi qüvvələrin dövlətə qarşı təsir vasitəsinə çevrilmişdilər. Hətta bu dəstələrin qüvvəsi ilə 1992-ci ilin oktyabr ayında hakimiyyətə qarşı dövlət çevrilişi cəhdi olmuşdu. Bu dəstələrin fəaliyyəti əhalini də narahat etməyə başlamış, ona görə də onların qanunsuz hərəkətlərinin qarşısının alınması əhali tərəfindən dəfələrlə tələb olunmuşdu. Bütün bunları, həmçinin Naxçıvan Muxtar Respublikasında Azərbaycan ordusunun yeni dəstələrinin yaranmasını nəzərə alaraq Ali Məclisin Rəyasət Heyəti bölgədə fəaliyyət göstərən bütün silahlı dəstələrin, o cümlədən Xalq Cəbhəsinə məxsus silahlı dəstələrin buraxılmasını və silahların Azərbaycan ordusunun Naxçıvanda yaradılan yeni hissələrinə verilməsini məqbul saydı. Həmçinin əhalinin tələblərinə əsasən MR Daxili İşlər Nazirliyinə hərbi dəstələrin

ləğv olunması və əhalidə olan silahların 20 gün müddətinə toplanması tapşırığı verildi.

9 oktyabr 1992-ci ildə Azərbaycan Ordusunun yaradılmasının I ildönümü münasibəti ilə Naxçıvan şəhərində keçirilən paradda Ali Məclisin Sədri Heydər Əliyev geniş və dərin məzmunlu çıxışında bu məsələyə də toxunaraq vaxtilə yaradılmış könüllü dəstələrin üzvlərinə müraciət etmiş, onlara fəaliyyətləri üçün təşəkkür etmiş və bildirmişdir ki, bundan sonra ərazimizin erməni təcavüzündən qorunması ilə Azərbaycan Silahlı Qüvvələrinin Naxçıvan bölməsi məşğul olacağından onlar öz vətəndaşlıq vəzifələri ilə məşğul olmalıdırlar *(141, 10 oktyabr 1992-ci il)*. Qeyd etmək lazımdır ki, yeni yaradılan hərbi hissələrdə bir sıra problemlər mövcud idi. Bu problemlər içərisində gənclərin muxtar respublika ərazisini tərk edərək ordudan yayınma halları, hərbi xidmətə çağırışla bağlı problemlər xüsusilə ciddi narahatlıq yaradırdı. Ona görə də bu məsələ Ali Məclisin Sədri Heydər Əliyevin təşəbbüsü ilə 10 noyabr 1992-ci ildə keçirilən xüsusi iclasda müzakirə olunmuş, aid təşkilatlara öz işlərini müharibə şəraitinə uyğun qurmaları haqqında tapşırıqlar verilmişdi.

Ulu öndər Heydər Əliyev Ali Məclisin Sədri kimi müxtəlif vaxtlarda Ermənistan rəhbərləri ilə görüşlər keçirir, sərhəddə yaranmış vəziyyət müzakirə edilirdi. Belə görüşlərdən biri də 14 may 1993-cü ildə Ermənistan Ali Soveti Sədrinin I müavini Ara Saakyanla Sədərək və Ararat rayonları arasındakı sərhəd zastavasında keçirildi. Bu zaman tərəflər Naxçıvan-Ermənistan sərhəd məntəqələrində sabitliyin və təhlükəsizliyin bərqərar olunması, həmçinin 9-10 may tarixində sərhəddə baş vermiş hadisələr nəticəsində yaranmış gərginliyin aradan qaldırılması haqqında razılığa gəlmişdilər və müvafiq bəyannamə imzalamışdılar *(92, s. 635-638)*. Ancaq bu və bundan əvvəl Naxçıvanın təhlükəsizliyi naminə ulu öndərin Ermənistan rəhbərliyi ilə apardığı danışıqlar, telefon söhbətləri barədə Azərbaycanın rəhbər dairələrində və hakimiyyətə məxsus kütləvi informasiya vasitələrində qərəzli söz-söhbətlər, böhtan kompaniyası başlamışdı. Hadisələrin sonrakı gedişi bu söz-söhbətlərin əsassız olduğunu sübut etdi.

Yekun olaraq demək olar ki, ümummilli lider Heydər Əliyevin həyatı və siyasi fəaliyyətinin Naxçıvan mərhələsində Azərbaycan, o cümlədən onun qədim diyarı Naxçıvan Muxtar Respublikası ətrafında Dağlıq Qarabağ problemi ilə əlaqədar yaranmış vəziyyət və Ermənistanın təcavüzkar siyasəti haqqında Birləşmiş Millətlər Təşkilatının, Avropa Birliyinin, NATO-nun, ATƏM-in və s. qurumların, ümumiyyətlə beynəlxalq ictimaiyyətin obyektiv şəkildə məlumatlandırılması, regionda baş verən hadisələr

haqqında onlara həqiqətin çatdırılması, nəticədə Naxçıvan ərazisinin işğaldan xilas edilməsi ulu öndərin bir diplomat kimi qazandığı uğurlar sırasında özünəməxsus yer tutur. Başqa sözlə desək görkəmli dövlət xadimi və diplomat kimi Heydər Əliyevin yeritdiyi ağıllı, uzaqgörən siyasət nəticəsində Naxçıvan ərazisi labüd işğaldan, əhalisi isə aclıqdan və səfalətdən, məhv olmaqdan xilas oldu. Naxçıvan MR Ali Məclisinin Sədri Vasif Talıbovun sözləri ilə desək "tale Dağlıq Qarabağı və Azərbaycanın digər bölgələrini gözləyən acı qismətdən Naxçıvanı möhtərəm Heydər Əliyevi bu regiona göndərməklə hifz etdi. İlahi qüvvələrin himayədar ruhu üstündə olan, peyğəmbər uzaqgörənliyi ilə Azərbaycanın bu qədim torpağını xilas edən Heydər Əliyev özünə Naxçıvan boyda əbədi, həmişəyaşar abidə ucaltdı" *(92, s. 9)*.

## 1.6. HEYDƏR ƏLİYEV VƏ MİLLİ-MƏNƏVİ DƏYƏRLƏRİMİZ

Hər bir xalqın, o cümlədən Azərbaycanlıların özünəməxsusluğunu müəyyən edən başlıca meyarlardan biri də onun milli-mənəvi dəyərləridir. Çox qədim tarixə və mədəniyyətə malik olan Azərbaycan xalqı əsrlərdən bəri özünün zəngin mentalitetini, milli-mənəvi dəyərlərini yaratmışdır. Bu dəyərlər əsrlərin süzgəcindən keçib gələrək daha da saflaşmış, zənginləşmişdir. Ancaq keçən yüzillikdə - sovet hakimiyyəti illərində xalqımızın sevə-sevə yaşatdığı, qoruyub saxladığı milli-mənəvi dəyərlərimizə qarşı hücumlar edilir, onlar sıxışdırılır, aradan çıxarılır, dilimizə, dinimizə, adət-ənənələrimizə xor baxılır, mədəniyyətlərin qovuşdurulması siyasəti yeridilir, ümumi sovet mədəniyyətinin yaradılmasına çalışırdılar. Ona görə də sovet hakimiyyəti illərində müəyyən aşınmalara məruz qalmış bu dəyərlərin müasir dünyaya qovuşmuş müstəqil Azərbaycanda yenidən bərpası, yaranması, inkişafı və gələcək nəsillərə miras buraxılması mühüm əhəmiyyət kəsb edir. Həyatımızın bütün sahələrində olduğu kimi bu tarixi missiyanın da həyata keçirilməsində ümummilli lider Heydər Əliyevin müstəsna xidmətləri olmuşdur. Onun milli-mənəvi dəyərlərimizə, zəngin mədəni irsimizə xüsusi qayğısı sayəsində xalqımız uzun illərdən sonra yenidən milli-mənəvi dəyərlərinə qovuşmuş, bu sahədə sərbəstlik əldə etmiş, hazırda yeni inkişaf dövrünü yaşayır.

Çox geniş məna və məzmun tutumuna malik olan milli-mənəvi dəyərlər anlayışında ulu öndər Heydər Əliyev üç cəhətə xüsusi diqqət yetirirdi: 1. Dil, 2. Din, 3. Adət-ənənə.

Azərbaycan dili qədim zamanlardan xalqımızın milli mənliyi, ən qiymətli və əvəzolunmaz sərvəti sayılıb. Təəssüf ki, XX əsrin 70-ci illərinə kimi respublikamıza rəhbərlik edənlərin etinasızlığı ucbatından ana dilimiz getdikcə unudulma səviyyəsinə çatmış, əvəzində rus dili dövlət dilinə, əhalinin əsas ünsiyyət vasitəsinə çevrilmişdi. Bu hal Bakıda özünü daha qabarıq şəkildə göstərirdi. Bir sıra valideynlər uşaqlarını tədris rus dilində olan məktəblərdə oxutdurmağa üstünlük verirdi. Gənclərimizin digər millətlərin, o cümlədən erməni qızları ilə evləndirilməsi dövlət səviyyəsində aparılan siyasətin tərkib hissəsi idi. Bütün bunlara görə bəzi ailələrdə uşaqların yabançı ruhda tərbiyə olunması adi hal almışdı.

Həmin vaxtlar təkcə partiya qurultayları, konfransları, plenumları deyil, adi yığıncaqlar da çox vaxt rus dilində aparılırdı. Azərbaycanda beynəlmiləlçilik pərdəsi altında ruslaşdırma siyasəti aparılırdı. Belə bir müdrik kəlam vardır: "Bir milləti məhv etmək istəyirsənsə onun dilini əlindən al". Məhz bu

baxımdan sovet hakimiyyəti illərində əlifbamız dəfələrlə dəyişdirilmiş, ad və soyadlarımız ruslaşdırılmış, bizi öz kökümüzdən uzaqlaşdırmaq üçün digər tədbirlərə əl atılmışdı. Bir sıra görkəmli ziyalılar bunu görüb və duysalar da qorxudan səslərini çıxara bilmirdilər. Yeridilən siyasətə qarşı qismən də olsa etiraz edənlər isə təqib olunur, ciddi cəzalandırılırdılar. Ancaq ümummilli lider Heydər Əliyev 1969-cu ilin iyulunda Azərbaycanda hakimiyyətə gəldikdən sonra xalqımız üçün böyük faciə törədə biləcək bu cür halların qarşısı qətiyyətlə alındı.

Çox mürəkkəb və çətin şəraitdə Azərbaycanda rəhbərliyə başlayan, mövcud vəziyyəti düzgün qiymətləndirən ümummilli lider Heydər Əliyev dünyanın altıda bir hissəsini əhatə edən SSRİ kimi qüdrətli bir dövlətin əhalisi türk xalqlarından ibarət olan respublikalara, o cümlədən Azərbaycana qarşı yeritdiyi siyasətə qarşı açıq-aşkar çıxmaq təhlükəli olduğuna görə çox incə üsullardan istifadə edir və öz məqsədinə nail olurdu. Ulu öndər bunu nəzərə alaraq sonralar bu haqda danışarkən demişdir ki, əgər onların əleyhinə çıxsaydım, həm bunun bir əhəmiyyəti olmayacaqdı, həm də Əliyev ölkədəki digər katiblər kimi məhv ediləcəkdi. Yavaş-yavaş mən də xalqımın, doğma millətimin milli hisslərini oyatmağa başladım. Məhz düşünülmüş və ağıllı surətdə həyata keçirilən bu siyasətin nəticəsində keçən yüzilliyin 70-80-ci illərində Azərbaycan əhalisi, xüsusilə ziyalıları içərsində vətənpərvərlik ruhu, özünüdərk xeyli gücləndi, milli ziyalılara geniş meydan verildi, onların təqib olunmasına son qoyuldu.

Ümummilli liderin 1970-ci ildə ADU-nun (indiki BDU) yubiley yığıncağında doğma Azərbaycan dilində çıxış etməsi nəinki respublikamızda, bütün SSRİ-də böyük əks-səda doğurdu. Bundan sonra Azərbaycan dilinin inkişafı sahəsində bir sıra addımlar atıldı. Məhz ümummilli lider Heydər Əliyevin qətiyyəti sayəsində 1978-ci ildə SSRİ rəhbərliyinin bütün təzyiq və manеələrinə baxmayaraq Azərbaycanın yeni qəbul edilmiş Konstitusiyasında Azərbaycan dili dövlət dili kimi təsbit olundu.

Azərbaycanda hakimiyyətinin ikinci dövründə (1993-2003-cü illər) ulu öndər Heydər Əliyev Azərbaycan dilinin daha da inkişaf etdirilməsi sahəsində mühüm tədbirlər həyata keçirdi. Azərbaycan dilinin incəliklərinə dərindən bələd olan, bu dildə heç bir qeydə və ya kağıza baxmadan saatlarla geniş məzmunlu nitqlər söyləməyi bacaran Heydər Əliyev Azərbaycan dili ilə əlaqədar bir sıra fərman və sərəncamlar imzaladı. Onun dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi, Azərbaycan əlifbası və Azərbaycan dili gününün təsis edilməsi barədə sərəncamları, milli-mənəvi dəyərlərimizə, milli əxlaqımıza zidd təzahürlərin aradan qaldırılması ilə bağlı 13 avqust

2001-ci il tarixli bəyanatı bu məsələlərə Heydər Əliyevin diqqət və qayğısının təzahürüdür. Azərbaycan xalqının böyük diqqət və marağına səbəb olan məşhur bəyanatında ümummilli liderimiz deyirdi: "Hər bir xalqın öz adət-ənənəsi var, öz milli-mənəvi və dini dəyərləri var. Biz öz milli-mənəvi dəyərlərimizlə, adət-ənənələrimizlə fəxr edirik. Bizim xalqımız yüz illərlə, min illərlə adət-ənənələrimizi, milli-mənəvi dəyərlərimizi yaradıblar və bunlar indi bizim xalqımızın mənəviyyatını təşkil edən amillərdir. Əgər insan mənsub olduğu millətin milli-mənəvi dəyərlərini anlaya bilmirsə, yaxud onları qəsdən təhrif edirsə... bu bizi narahat etməlidir".

Məlum olduğu kimi Azərbaycanda latın əlifbasına keçid haqqında 1992-ci ildə qəbul olunmuş qərar uzun müddət kağız üzərində qalmışdı və buna əməl olunmurdu. Yalnız 2001-ci ilin avqustunda ulu öndər Heydər Əliyevin "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" imzaladığı fərman bu işi sürətləndirdi, bütün sahələrdə qısa müddətdə latın əlifbasına keçildi. Ümummilli liderimiz Azərbaycan dili ilə yanaşı Azərbaycan ədəbiyyatına, klassik ədəbiyyat nümunələrinə böyük ehtiramla yanaşır, ona böyük diqqət yetirirdi. Hakimiyyətinin ilk dövründə olduğu kimi, o siyasi hakimiyyətinin ikinci dövründə də bu istiqamətdə mühüm tədbirlər həyata keçirmişdi. Bu baxımdan onun "Kitabi-Dədə Qorqud dastanları"nın 1300 illik, "Məhəmməd Füzulinin anadan olmasının 500 illik yubileylərinin keçirilməsi haqqında" imzaladığı fərmanları xatırlatmaq kifayətdir.

Heydər Əliyev milli-mənəvi dəyərlərimizin qorunmsına xüsusi diqqət yetirirdi. Məlumdur ki, Sovet rejimi xalqımızı öz dinindən və milli-mənəvi dəyərlərindən uzaq salmışdı. Danılmaz faktdır ki, xalqımız islamlaşdıqdan sonra Azərbaycan mədəniyyəti özünün bütün maddi və mənəvi nailiyyətləri ilə birlikdə ümumislam mədəniyyəti xəzinəsinə daxil olmuş, mədəniyyətimiz islami məzmun kəsb etmişdi. Adət və ənənələrimizi, bayram və mərasimlərimizi, hətta məişətimizi belə islamdan kənar təsəvvür etmək mümkün deyildir. Bütün həyatımız, hətta memarlıq abidələrimiz öz milliliyini saxlamaqla islami çalarlar da əxz etmişdi. Ona görə də sovet hakimiyyəti illərində islam dini ilə bağlı olan bu abidələr dağıdılır, məhv edilirdi. Məsələn, şiələrin VII imamı Museyi Kazimin qızı Hökumə xanım və onun xidmətçisi Bibiheybət ilə əlaqədar olan Bibiheybət məqbərəsi şəxsiyyətə pərəstiş illərində, 1934-cü ildə yol çəkilməsi bəhanəsi ilə partladılıb dağıdılmışdı. Orta əsrlərdən başlayaraq xalqımızın əsas ziyarətgahlarından biri olan bu abidə ümummilli liderimizin təşəbbüsü və tapşırığı ilə yenidən, yüksək səviyyədə inşa etdirildi. Ulu öndər bu məqbərənin açılışında iştirak etdi və çox dərin məzmunlu nitq söylədi. Sovet hakimiyyəti illərində məscidlərimiz

anbara çevrilmişdi. Heydər Əliyev Azərbaycanda ikinci dəfə hakimiyyətə gəldikdən sonra bu halların qarşısı qətiyyətlə alındı. O maddi-mədəniyyət abidələrimizin dağıdılmasına qarşı çıxır, onların qorunub saxlanması üçün böyük işlər həyata keçirirdi.

Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra "Dini etiqad azadlığı haqqında Qanun" qəbul edilsə də digər sahələrdə olduğu kimi, islami dəyərlərin etnik bütövlük faktoruna xüsusi diqqət yetirilmirdi. İslamçılığın təbliği sahəsində hərc-mərclik, özbaşınalıq yarandığından bu sahəyə təsadüfi adamların gəlişinə rəvac verilmişdi. Müxtəlif dövlətlər dinin təbliği pərdəsi altında özlərinin dövlətçilik ideologiyalarının və maraqlarının Azərbaycanda təmin olunmasına çalışır və bunun üçün şərait hazırlayır, məqam gözləyirdilər. Ən təhlükəli hallardan biri isə missionerlərin respublikamıza kütləvi axını idi. Son məqsədi ölkə əhalisinin müsəlmançılıqdan uzaqlaşdırmaq, müxtəlif təriqətlərə üzv etdirmək və s. olan həmin missionerlər, ölkədə mövcud olan sosial-iqtisadi çətinliklərdən yararlanaraq siyasi cəhətdən savadsız olan bəzi adamları, təcrübəsiz gəncləri təsir altına alır, pul gücünə xristianlaşdırır, islami dəyərləri gözdən salır, ulu öndər Heydər Əliyevin 13 avqust 2001-ci il tarixli bəyanatında vurğulandığı kimi "Azərbaycanda təxribat etmək və Azərbaycanda millətimizin milli-mənəvi dəyərlərini ləkələməyə çalışırdılar".

Ümummilli liderimiz Heydər Əliyev hakimiyyətə ikinci dəfə qayıdışının ilk günündən milli dövlət quruculuğu prosesində dünyəviliyə üstünlük verəcəyini bəyan etdi. Bununla belə o dövlət quruculuğunda, milli birliyin yaranmasında, etnik bütövlüyün qorunub saxlanmasında dinin böyük rol oynadığını nəzərə alaraq bu istiqamətdə fundamental fəaliyyət proqramını tədricən gerçəkləşdirməyə başladı.

Bu sahədə atılan ilk addımlardan biri Azərbaycanda bütün dinlərin bərabərliyinə şərait yaradılması oldu. Ölkədə bütün dini qurumların fəaliyyətinə Konstitusiya ilə təminat verildi. Dini missionerlərin milli siyasətimizə və dövlət maraqlarımıza zidd fəaliyyətinin qarşısı qətiyyətlə alındı. Missionerlərin mövcudluğu, müxtəlif dini təşkilatların yaradılması və fəaliyyəti beynəlxalq normalara uyğun qanunlarla tənzimləndi. Dini zəmində partiyalar yaratmaq, din pərdəsi altında başqa dövlətlərin maraq və mənafelərinə xidmət etmək, dini etiqada görə kiminsə təqib olunması, sıxışdırılması ayrıseçkiliyə məruz qalması və s. kimi qeyri-sivil, qanunsuz hallar aradan qaldırıldı.

Ümummilli liderimiz Azərbaycanda siyasi hakimiyyətinin ilk dövründə, sovet hakimiyyətinin ən güclü vaxtlarında belə xalqımızın milli-mənəvi dəyərlərinin, onun tərkib hissələrindən biri olan adət-ənənələrimizin qorunmasına xüsusi diqqətlə yanaşırdı. Çünki həmin vaxtlar milli adət-ənənələrimiz

guya dini xarakter daşıdığı üçün Marksizm-Leninizm ideologiyasına zidd hesab olunur və sosializm quruluşuna təhlükə yaratması bəhanəsi ilə sıxışdırılırdı. Ancaq bütün bunlara baxmayaraq keçən yüzilliyin 70-80-ci illərində xalq bayramları və mərasimləri qeyri-rəsmi olsa da qeyd olunmuş, bu bayramların, xüsusilə Novruz bayramının keçirilməsinə görə ulu öndərin sayəsində heç kimin incidilməsinə imkan verilməmişdi. Bu illər, başqa sözlə desək ümummilli liderimiz Heydər Əliyevin Azərbaycanda siyasi hakimiyyətinin birinci dövrü tariximizə xalqımızın milli-mənəvi dəyərlərinin qorunub saxlanması illəri kimi daxil olmuşdur.

Azərbaycan öz müstəqilliyini bərpa etdikdən sonra milli adət və ənənələrimiz yenidən dirçəlməyə başlamışdır. Artıq Azərbaycan xalqının milli və dini bayramları təqvim bayramları günü kimi qeyd olunur, həmin günlər qeyri iş günü olur. Ümummilli liderimiz bu bayramlar münasibəti ilə xalqımızı təbrik edir, onlarla birlikdə bayram edirdi. O Novruz bayramı günlərində ailə üzvləri ilə birlikdə şəhərə çıxır, şənliklərdə iştirak edir, əhali ilə bir yerdə olur, onlarla söhbətləşir, bayramlarını şəxsən təbrik edir, problemləri ilə maraqlanırdı. Ümummilli liderimiz Ramazan və Qurban bayramları münasibəti ilə xalqımızı televiziya və radio ilə təbrik etməklə kifayətlənmir, məscidə gedir, iftar yeməyi verirdi.

Məscidə girərkən ayaqqabılarını çıxarmaqla, əyləşmək üçün təklif olunan stulu qəbul etməyərək xalça üstündə camaatla yanaşı oturmaqla ümummilli liderimiz milli və dini adət-ənənələrimizə hörmət və ehtiramını bildirir, eyni zamanda məscidə ayaqqabı ilə daxil olan bəzi kiçik məmurları milli-mənəvi dəyərlərimizə hörmətlə yanaşmağa dəvət edirdi. Bütün bunlarla Heydər Əliyev heç də dini təbliğ etmir, öz şəxsi nümunəsi ilə milli-mənəvi dəyərlərə hörmətin və ehtiramın vacibliyini göstərirdi.

Mentalitetimizə, milli-mənəvi dəyərlərimizə hörmətlə yanaşmaq Heydər Əliyevin daim diqqət mərkəzində idi. Vətənimizin tarixini öyrənməyi, bilməyi, ona hörmət etməyi və təbliğ etməyi milli-mənəvi dəyərlərimizlə vəhdətdə görən ümummilli liderimiz qeyd edirdi ki, gənclərimiz tariximizi yaxşı bilməlidir, milli dəyərlərimizi, milli ənənələrimizi yaxşı bilməyən, tariximizi yaxşı bilməyən gənc vətənpərvər ola bilməz.

Həmçinin, müstəqil Azərbaycan dövlətinə 10 il rəhbərlik edən ulu öndər yaradıcısı olduğu Konstitusiyanın "Hər kəs tarixi, mədəni və mənəvi irsə hörmətlə yanaşmalı, ona qayğı göstərməli, tarix və mədəniyyət abidələrini qorumalıdır" müddəasını əsas götürərək milli-mənəvi dəyərlərimizə qarşı çıxanlara ciddi xəbərdarlıq edərək deyirdi ki, Azərbaycanın milli-mənəvi dəyərlərinə qarşı, Azərbaycanın milli mentalitetinə qarşı yönəldilmiş hərə-

kətlərin, hamısının qarşısı alınacaqdır və qanun qarşısında lazımi ölçülər götürüləcəkdir.

Milli-mənəvi dəyərlərimizi qorumaq, onlara hörmət və ehtiramla yanaşmaq, təbliğ etmək və gənc nəsli bu ruhda tərbiyə etmək hər bir Azərbaycan vətəndaşının borcu və vəzifəsidir. Bunu əsas götürərək ümummilli liderimiz Heydər Əliyev qeyd edirdi ki, biz öz milli-mənəvi dəyərlərimizi bütün istiqamətlərdə qorumalıyıq, saxlamalıyıq və gənc nəsli əsrlər boyu böyük sınaqlardan keçmiş bu mənəvi, əxlaqi dəyərlər ruhunda tərbiyələndirməliyik. Təqdirəlayiq haldır ki, müstəqil Azərbaycanın vətəndaşları, valideynləri ulu öndərin bu tövsiyyə və tapşırıqlarına layiqincə əməl edir, gənclərimizi, XX yüzillikdə xalqımızın ən böyük nailiyyətlərindən olan müstəqil Azərbaycan dövlətinə sədaqət, milli-mənəvi dəyərlərimizə hörmət və ehtiram ruhunda yetişdirilməsində səy və bacarıqlarını əsrgəmirlər.

## 1.7. HEYDƏR ƏLİYEV VƏ NAXÇIVANDA TARİXÇİ KADRLARIN HAZIRLANMASI

Bütün həyatı və siyasi fəaliyyəti dövründə Azərbaycanda yüksək ixtisaslı kadrların hazırlanmasına böyük önəm verən, Azərbaycanda siyasi hakimiyyətinin birinci dövründə keçmiş ittifaqın 50-dən çox şəhərinin 170-dən artıq ali məktəbində respublikada böyük ehtiyac olan 250-dən çox ixtisas üzrə 15 mindən artıq, Azərbaycanda isə 100 minlərlə müxtəlif ixtisaslı kadrların hazırlanmasında müstəsna rol oynayan ümummilli lider Heydər Əliyev ölkəmizin ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında da kadr hazırlığına böyük diqqət və qayğı göstərmişdir. "Hər bir ölkənin, hər bir millətin aparıcı qüvvəsi onun bilikli nümayəndələridir. Onun yüksək təfəkkürə, yüksək biliyə, yüksək ixtisasa malik olan insanlarıdır" – deyən, "savadlı, iradəli, bilikli, bacarıqlı, dəyanətli, mərd gəncləri olmayan bir ölkənin gələcəyi ola bilməz" fikrini vurğulayan ulu öndər Heydər Əliyev elmin digər sahələrində olduğu kimi, Azərbaycanın, o cümlədən bəşəriyyətin ən qədim mədəniyyət mərkəzlərindən biri olan Naxçıvan diyarının tarixini, arxeologiyasını, etnoqrafiyasını və s. öyrənəcək tarixçi kadrların hazırlanması sahəsində mühüm tədbirlər həyata keçirərək Azərbaycanın digər şəhərləri ilə yanaşı Naxçıvanda da yerli kadrların yetişdirilməsinə xüsusi diqqət yetirirdi.

Bu sahədə ilk addımlar hələ keçən yüzilliyin 70-ci illərinin ilk illərində, ümummili liderimizin Azərbaycanda siyasi hakimiyyətə gəlişi zamanı atılmağa başlamışdır. Həmin vaxt ulu öndərin təşəbbüsü ilə 1972-ci ildə yaradılan Naxçıvan Dövlət Pedaqoji İnstitutunda fəaliyyət göstərəcək fakültələrdən biri Tarix-Filologiya fakültəsi oldu. Əsasən Naxçıvan diyarının orta məktəblərində tarix müəllimlərinə olan ehtiyacı ödəmək məqsədi ilə yaradılan bu ixtisasın məzunları içərisindən sonralar görkəmli dövlət xadimləri, generallar, alimlər, ictimai xadimlər və s. yetişdi. Həmçinin, 1972-ci ildə yaradılması ümummili liderimizin adı ilə bağlı olan Naxçıvan Regional Elm Mərkəzində həmin vaxt fəaliyyət göstərən bölmələridən biri "Tarix" (sonralar onun əsasında "Arxeologiya və Etnoqrafiya" şöbəsi yaradıldı – F.S.) idi. Bu şöbəni yaratmaqda məqsəd yerli tarixçi kadrların hazırlanması və Naxçıvan diyarı tarixinin müxtəlif problemlərinin daha dərindən araşdırılması idi. İstər Naxçıvan Dövlət Pedaqoji İnstitutunda, istərsə də Naxçıvan Regional Elm Mərkəzində ilk addımlarını atan həmin kadrların içərisindən çıxmış bəzi alimlər artıq Azərbaycanın tanınmış elm adamlarına, elmi ictimaiyyət tərəfindən qəbul olunan tədqiqatçılara çevrilmişlər.

Naxçıvan Muxtar Respublikasında tarixçi elmi kadrların yetişdirilməsində müstəqillik dövrü mühüm mərhələ təşkil edir. 1990-cı ildə Naxçıvan Dövlət Pedaqogi İnstitutu əsasında yaradılan Naxçıvan Dövlət Universitetində 1992-ci ildə, ümummili liderimizin Naxçıvan MR Ali Məclisinin Sədri işləyərkən aspirantura şöbəsinin yaradılması tarixçi alimlərin hazırlanmasına böyük təkan verdi. Artıq Naxçıvan MR-də aspirantura və dissertantlıq yolu ilə tarixçi alimlərin yetişdirilməsi sayəsində uğurlu addımlar atılmağa başlandı.

XX yüzilliyin 80-ci illərinin sonlarında bütün Azərbaycanda, o cümlədən Naxçıvanda yaranan güclü böhran aparılan elmi tədqiqatlara, kadr hazırlığına da öz mənfi təsirini göstərmişdi. Bu sahədə durğunluq, hətta tənəzzül getdikcə güclənirdi. Muxtar respublikada bu sahədə böhranın aradan qaldırılmasında, elmi mühitin yenidən, daha böyük vüsətlə canlanmasında və formalaşmasında, tarixçi kadrların hazırlanmasında ulu öndərimiz Heydər Əliyevin xeyir-duası, Naxçıvan MR Ali Məclisinin Sədri Vasif Talıbovun xüsusi sərəncamı ilə 1996-cı ildə Naxçıvan şəhərində keçirilən "Uluslararası qaynaqlarda Naxçıvan" beynəlxalq simpoziumunun böyük əhəmiyyəti oldu. Ümummilli liderimiz Heydər Əliyevin iştirakçılarını xüsusi məktubla təbrik etdiyi bu simpozium bölgədə tarixi tədqiqatların genişlənməsinə və tarixçi kadrların hazırlanmasına güclü təkan verdi.

Bunun ardınca Naxçıvan MR Ali Məclisinin Sədri Vasif Talıbovun Naxçıvanda "Vətən tarixi" və "Filologiya" ixtisasları üzrə alimlər hazırlamaq üçün Dissertasiya Şurasının yaradılması haqqında Respublika rəhbərliyi qarşısında qaldırdığı məsələ ulu öndərimiz Heydər Əliyev tərəfindən razılıqla qarşılandı və 1996-cı ildən başlayaraq Naxçıvan Dövlət Universiteti nəzdində iki ixtisas - "Vətən tarixi" və "Filologiya" ixtisasları üzrə Dissertasiya Şurası fəaliyyətə başladı. Burada qeyd etmək yerinə düşər ki, bu vaxta qədər Naxçıvanda yalnız bir dəfə, 1950-ci ildə, ümummili liderimiz Heydər Əliyevin müəllimi Lətif Hüseynzadənin müdafiəsi keçirilmiş və bu müdafiə əvvəlinci və axırıncı olmuşdur. Naxçıvanda Dissertasiya Şurasının fəaliyyətə başlaması muxtar respublikada elmi mühitin daha da canlanmasında və formalaşmasında mühüm rol oynadı. 1996-cı ildə fəaliyyətə başlayan Dissertasiya Şurası Naxçıvanda tarixçi və filoloq alimlərin yetişməsinə mühüm töhfələr verdi.

Naxçıvanda tarixçi kadrların hazırlanması və diyarın tarixinin öyrənilməsində ümummili liderimiz Heydər Əliyevin sərəncamı ilə 2002-ci ilin avqustunda AMEA Naxçıvan Bölməsinin və onun nəzdində Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun yaradılması mühüm mərhələ və hadisə oldu.

Ermənilərin Azərbaycana qarşı ərazi iddialarında əsas yer tutan Naxçıvan tarixinin bütün problemlərinin öyrənilməsinə böyük önəm verən ümummilli liderimiz Bölmə nəzdində Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunu yaratmaqla bu qədim diyarın qədim, orta əsrlər, yeni və ən yeni dövr tarixinin, arxeologiyasının, etnoqrafiyasının, epiqrafikasının, ümumiyyətlə maddi-mədəniyyət abidələrinin dərindən, ətraflı və sistemli şəkildə öyrənilməsi üçün tədqiqatçılara böyük imkanlar və geniş meydan verdi.

2005-ci ildə Naxçıvan MR Ali Məclisinin Sədri Vasif Talıbovun təşəbbüsü, Azərbaycan Respublikasının Prezidenti, ulu öndər Heydər Əliyev kursunun layiqli davam etdiricisi İlham Əliyevin razılığı ilə AMEA Naxçıvan Bölməsində "Vətən tarixi" ixtisası da daxil olmaqla üç ixtisas üzrə ("Vətən tarixi", "Arxeologiya", "İqtisadiyyat") namizədlik dissertasiyalarının müdafiəsi keçirilən Dissertasiya Şurası fəaliyyətə başlamışdır. Həmçinin, NDU-da da üç ixtisas üzrə ("Dil", "Ədəbiyyat", "Ədəbiyyatşünaslıq") Dissertasiya Şurası fəaliyyət göstərir.

Naxçıvanda yüksək ixtisaslı tarixçi kadrların yetişdirilməsində bu Dissertasiya Şuraları nəzdində təşkil olunmuş Birdəfəlik Dissertasiya Şuralarının böyük rolu olmuşdur. Ulu öndərimiz Heydər Əliyevin diqqət və qayğısı ilə "Vətən tarixi" ixtisası üzrə təşkil olunmuş ilk Birdəfəlik Dissertasiya Şurasında, hazırda AMEA Naxçıvan Bölməsinə uğurla rəhbərlik edən, 2003-cü ildə AMEA-nın həqiqi üzvü seçilən İsmayıl Hacıyev 4 sentyabr 1999-cu ildə "Naxçıvan Muxtar Respublikası Azərbaycan milli dövlətçilik tarixində" mövzusunda doktorluq dissertasiyası müdafiə edərək tarix elmləri doktoru alimlik dərəcəsi almışdır. Onun ardınca AMEA Naxçıvan Bölməsi Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun direktoru vəzifəsində çalışan Hacı Fəxrəddin Səfərli 25 sentyabr 2004-cü ildə "Naxçıvanda sosial-siyasi və ideoloji mərkəzlər" mövzusunda, həmin institutun direktor müavini, 2007-ci ildə AMEA-nın müxbir üzvü seçilən Hacı Qadir Qədirzadə 4 dekabr 2004-cü ildə "Ailə və məişətlə bağlı adətlər, inamlar və etnogenetik əlaqələr" mövzusunda Birdəfəlik Dissertasiya Şurasında uğurlu doktorluq müdafiəsi etmişlər. İnstitutun şöbə müdiri, 2007-ci ildə AMEA-nın müxbir üzvü seçilən Vəli Baxşəliyev isə 2005-ci ilin 27 mayında Bakı şəhərində "Naxçıvanın qədim əkinçi-maldar tayfalarının mənəvi mədəniyyəti" mövzusunda dissertasiya müdafiə edərək tarix elmləri doktoru alimlik dərəcəsinə layiq görülmüşdür.

Ulu öndərimiz Heydər Əliyevin, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun diqqət və qayğısı sayəsində, Naxçıvan Muxtar Respublikasında

yaradılan yüksək münbit şəraitin nəticəsi olaraq Naxçıvanda 1996-cı ildən bəri 7 tarix elmləri doktoru, 20-dən artıq tarix üzrə fəlsəfə doktoru hazırlanmışdır. Bu göstərici Azərbaycan üzrə orta göstəricidən çox yüksəkdir. Çox fərəhli haldır ki, artıq Naxçıvanda hazırlanan tarixçi kadrların içərisində həm də diyarın arxeologiyası, etnoqrafiyası, epiqrafikası, numizmatikası ilə məşğul olan tədqiqatçılar da yetişmişdir.

Burada bir cəhəti xüsusilə vurğulamaq lazımdır ki, Naxçıvanda fəaliyyət göstərən Dissertasiya Şuraları təkcə Naxçıvan MR-sı üçün deyil, hətta Azərbaycanın məşhur ali təhsil ocaqları üçün də tarixçi kadrlar hazırlayır. Məsələn, Bakı Dövlət Universitetinin Tarix fakültəsinin dekanı Sani Hacıyev 2006-cı ildə AMEA Naxçıvan Bölməsində uğurlu doktorluq dissertasiyası müdafiə etmişdir. Bu siyahıya tarix üzrə elmlər doktorları Nərgiz Əliyeva, Məryəm Seyidbəyli və başqalarının adlarını da əlavə etmək olar. Xüsusi olaraq qeyd etmək istərdik ki, AMEA Naxçıvan Bölməsində fəaliyyət göstərən Dissertasiya Şurası Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının qərarı ilə 2013-cü ildən etibarən 3 ixtisas üzrə (Vətən tarixi, Arxeologiya, İqtisadiyyat) elmlər doktoru hazırlamağa başlamışdır.

Xalqımızın ümummilli lideri Heydər Əliyevin yüksək diqqət və qayğısının nəticəsi olaraq Naxçıvanda yetişən tarixçi alimlər bütün Azərbaycan üçün tarixçi kadrların yetişdirilməsi sahəsində uğurlu fəaliyyət göstərirlər. Artıq Naxçıvanda yaşayıb işləyən alimlər Bakıya opponent kimi dəvət olunur, AMEA Naxçıvan Bölməsi və NDU müxtəlif Dissertasiya Şuraları tərəfindən aparıcı müəssisə kimi seçilir, Bakıda, Gəncədə və digər şəhərlərdə çalışan tarixçi alimlər əsərlərini Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyası tərəfindən tanınan və yüksək qiymətləndirilən AMEA Naxçıvan Bölməsinin Xəbərlərində və NDU-nun Elmi əsərlərində nəşr etdirməyə üstünlük verirlər.

Tarixçi kadrların hazırlanmasında və yetişdirilməsində Naxçıvanda fəaliyyətinə ümummilli liderimiz Heydər Əliyev tərəfindən xeyir-dua verilmiş "Qeyrət", "Əcəmi", "Tusi", "Təhsil" və s. bu kimi nəşriyyatların, AMEA Naxçıvan Bölməsinin, Naxçıvan Dövlət Universitetinun, Naxçıvan Müəllimlər İnstitutunun Xəbərlərinin və Elmi əsərlərinin, "Naxçıvan" ictimai-siyasi, ədəbi-bədii, elmi-publisistik yurnalının da xüsusi rolu olmuşdur. Naxçıvanda çalışan tarixçi alimlər Bakıda fəaliyyət göstərən nəşriyyatlarda, elmi yurnal və məcmuələrdə olduğu kimi, əsərlərini adları yuxarıda qeyd olunan bu nəşriyyat və elmi jurnallarda da nəşr etdirirlər. Məhz yaradılmış bu münbit şəraitin nəticəsində təkcə 2013-cü ildə AMEA Naxçıvan Bölməsi

Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun əməkdaşları bölgə tarixinin müxtəlif problemlərinə dair ondan artıq monoqrafiya, 130-dan artıq məqalə nəşr etdirmişlər.

Naxçıvanda yaşayıb yaradan tarixçi alimlər öz fəaliyyətləri ilə Azərbaycan miqyasından kənara çıxaraq, bir sıra xarici ölkələrdə keçirilən mötəbər elmi konfrans və simpoziumlarda iştirak və çıxış edir, Azərbaycan həqiqətlərini dünyaya çatdırırlar.

Muxtar respublikada tarix, arxeologiya, etnoqrafiya, numizmatika və s. istiqamətlərdə uğurlu tədqiqatlar aparan, ümummilli liderimiz Heydər Əliyevin qayğı və himayəsi nəticəsində yetişən naxçıvanlı alimlər Naxçıvan MR Ali Məclisinin Sədri Vasif Talıbovun "Ordubad rayonundakı Gəmiqaya abidəsinin tədqiq edilməsi haqqında" 26 aprel 2001-ci il tarixli, "Naxçıvan şəhərindəki "Əcəmi seyrəngahı"nda Açıq Səma altında muzey yaradılması haqqında" 11 iyul 2002-ci il tarixli, "Naxçıvan Muxtar Respublikası ərazisindəki tarix və mədəniyyət abidələrinin qorunması və pasportlaşdırılması işinin təşkili haqqında" 06 dekabr 2005-ci il tarixli, "Nuh peyğəmbərin Naxçıvan şəhərindəki məzarüstü türbəsinin bərpa edilməsi haqqında" 28 iyun 2006-cı il tarixli, ""Nuh peyğəmbər: dünya tufanı və Naxçıvan" mövzusunda beynəlxalq simpoziumun keçirilməsi haqqında" 10 fevral 2009-cu il tarixli, ""Naxçıvan: ilk yaşayış və şəhərsalma yeri kimi" mövzusunda beynəlxalq simpoziumun keçirilməsi haqqında" 07 iyun 2011-ci il tarixli, ""Naxçıvan: ilkin şəhər və Duzdağ" mövzusunda beynəlxalq simpoziumun keçirilməsi haqqında" 20 aprel 2012-ci il tarixli, ""Naxçıvan tarixi" çoxcildliyinin hazırlanması və nəşr olunması barədə" 06 avqust 2012-ci il tarixli sərəncamlarından irəli gələn vəzifələrin yerinə yetirilməsində mühüm rol oynamışlar.

Son illərdə tarixçi alimlərimiz Naxçıvan tarixinin müxtəlif problemlərinə, arxeologiyasına, etnoqrafiyasına və s. aid bir sıra sanballı əsərlər yazıb nəşr etdirməklə yanaşı, muxtar respublika ərazisindəki tarix mədəniyyət abidələrini qeydə alaraq pasportlaşdırmış, bu abidələr əsasında Azərbaycan və ingilis dillərində "Naxçıvan abidələri ensiklopediyası" hazırlanmışdır. Alimlərimiz Naxçıvan Muxtar Respublikası Dövlət Torpaq və Xəritəçəkmə Komitəsinin əməkdaşları ilə birlikdə "Naxçıvan tarixi atlası"nı hazırlayıb nəşr etdirmişlər.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Naxçıvan MR Ali Məclisinin Sədri Vasif Talıbov Naxçıvan MR-da tarixçi kadrların hazırlanmasına yüksək diqqət və qayğı göstərirlər. Artıq indi NDU-dan əlavə AMEA Naxçıvan Bölməsində də aspirantura və dissertantlıq yolu ilə tarixçi kadrların hazırlanmasına başlanmışdır. Bundan əlavə ümummilli li-

derimizin tövsiyyə və tapşırıqlarına uyğun olaraq AMEA-nın Tarix, Arxeologiya və Etnoqrafiya İnstitutları da Naxçıvanda yaşayıb işləyən gənclərin aspirantura və dissertantlıq yolu ilə yüksək ixtisaslı tarixçi kadr kimi yetişdirilməsi üçün öz yardım və köməklərini əsirgəmirlər. Bütün bunlar isə öz müsbət səmərəsini verməkdədir.

Ulu öndərimiz Heydər Əliyevin diqqəti, qayğısı və himayəsi ilə yetişən, Naxçıvanda yaşayıb çalışan tarixçi alimlər əldə olunan uğurlarla kifayətlənmir, bu görkəmli şəxsiyyətin tövsiyyə və tapşırıqlarını, xüsusilə onun AMEA Naxçıvan Bölməsinin yaradılması münasibəti ilə 2002-ci ilin avqustunda Naxçıvan MR Ali Məclisində keçirilən müşavirədə tarixçi alimlərin qarşısında qoyduğu vəzifələrin yerinə yetirilməsi, göstərilən etimadı doğrultmaq üçün öz bilik, bacarıq və qüvvələrindən maksimum istifadə edirlər.

## 1.8. MÜSTƏQİLLİYİN MÖHKƏMLƏNDİRİLMƏSİ DÖVRÜNDƏ NAXÇIVANDA TARİX ELMİNİN İNKİŞAFI
### *(1991-2011-ci illər)*

XX yüzilliyin 80-ci illərinin sonlarında Dağlıq Qarabağ problemi ilə əlaqədar bütün Azərbaycanda, o cümlədən Naxçıvanda başlayan güclü böhran bölgədə tariximizlə bağlı aparılan elmi tədqiqatlara da öz mənfi təsirini göstərmişdi. Ulu Öndər Heydər Əliyevin Azərbaycanda siyasi hakimiyyətə qayıdışından və ölkədə ictimai-siyasi sabitliyin bərpasından sonra Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri, müasir Naxçıvanın qurucusu və memarı Vasif Talıbovun rəhbərliyi ilə bölgədə tərəqqi başladı. 1995-ci ilin dekabrından başlanan bu tərəqqi az sonra intibaha çevrildi. Tərəqqi və intibah illərində Naxçıvan MR-da həyatın bütün sahələri yüksək inkişaf səviyyəsinə çatdı. Muxtar respublika geridə qalmış aqrar ölkədən inkişaf etmiş kənd təsərrüfatı, sənaye, elm, təhsil və mədəniyyət mərkəzinə çevrildi, hətta xaricə məhsul ixrac etməyə başladı. Bu hərtərəfli inkişafın çərçivəsində Naxçıvanda tarix elminin inkişafı diqqəti cəlb edir.

Naxçıvanda tarix elminin inkişafında 1996-cı il dönüş nöqtəsi oldu. Naxçıvan MR Ali Məclisi Sədrinin Sərəncamı ilə bu ildə Naxçıvan şəhərində keçirilən "Uluslararası qaynaqlarda Naxçıvan" beynəlxalq simpoziumu həmin dönüşün başlanğıcı oldu *(124)*.

Naxçıvanda tarix elminin inkişafında Ali Məclis Sədrinin təşəbbüsü, ümummilli liderimiz Heydər Əliyevin sərəncamı ilə 2002-ci ilin avqustunda AMEA Naxçıvan Bölməsinin və onun nəzdində Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun yaradılması mühüm mərhələ oldu. Bununla da ermənilərin Azərbaycana qarşı ərazi iddialarında əsas yer tutan Naxçıvanın tarixinin bütün problemlərinin, həmçinin diyarın arxeologiyasının, etnoqrafiyasının, ümumiyyətlə maddi-mədəniyyət abidələrinin dərindən, ətraflı və sistemli şəkildə öyrənilməsi üçün münbit şərait yaradıldı, bu sahədə tədqiqatçılara böyük imkanlar və geniş meydan verildi.

Bölgədə tarix elminin inkişafında muxtar dövlətimizin başçısı Vasif Talıbovun imzaladığı bir sıra sərəncamların əhəmiyyəti xüsusi qeyd olunmalıdır. Əshabi-Kəhf, Gəmiqaya, Açıq Səma altında muzey, tarix və mədəniyyət abidələrinin pasportlaşdırılması, Nuh türbəsinin bərpası və s. haqqında imzalanan sərəncamlar bölgədə tarix elminin inkişafı və tədqiqat istiqamətlərinin müəyyənləşdirilməsində mühüm rol oynamışlar.

Bu sərəncamlardan irəli gələn vəzifələrin həyata keçirilməsi istiqamətində bir sıra uğurlu işlər həyata keçirilmişdir. Tarixçi alimlər Gəmiqaya abidəsində

kompleks tədqiqatlar aparmış, muxtar respublika ərazisindəki tarix-mədəniyyət abidələrini qeydə alaraq pasportlaşdırmış, həmin abidələr əsasında Azərbaycan və ingilis dillərində "Naxçıvan abidələri ensiklopediyası" hazırlanaraq nəşr etdirilmiş, Naxçıvanda ermənilərə məxsus abidələrin olmaması sübuta yetirilmişdir *(112)*. Etiraf etmək lazımdır ki, yüksək dövlət qayğısı olmasaydı bu cür möhtəşəm və ağır işi qısa müddətdə başa çatdırmaq mümkün olmazdı. Bu məsələ ilə əlaqədar Ali Məclisin Sədri vaxtaşırı işçi qrupu qəbul etmiş, vəziyyətlə tanış olmuş, yaranmış problemləri yerindəcə həll etmiş, işin keyfiyyətinə müsbət təsir edən töfsiyyə və tapşırıqlarını vermişdir. Nəticədə qarşıya qoyulan məqsəd uğurla həyata keçirilmişdir.

2010-cu ildə işıq üzü görən "Naxçıvan tarixi atlası" tarixçi alimlərimizin ən böyük uğurlarındandır *(123)*. Həmçinin, Naxçıvanda ilkin şəhər mədəniyyətinin 5 min il əvvəl meydana gəlməsi istiqamətində tarixçilərimizin apardığı tədqiqatlar da əldə olunan uğurlar sırasındadır. Son illərdə tarixçi alimlərimizin Naxçıvan tarixinin müxtəlif problemlərinə, arxeologiyasına, etnoqrafiyasına, epiqrafikasına və s. aid bir sıra sanballı əsərləri işıq üzü görmüşdür. Təkcə AMEA Naxçıvan Bölməsi Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun əməkdaşları 2010-cu ildə bölgə tarixinin müxtəlif problemlərinə dair 10 kitab və monoqrafiya, 130-dan artıq məqalə nəşr etdirmişlər *(22, s.s. 18, 23)*.

Naxçıvanda yaşayıb yaradan tarixçi alimlər öz fəaliyyətləri ilə Azərbaycan miqyasından kənara çıxaraq, tanınmış alimlərlə əlaqələr saxlayır, bir sıra xarici ölkələrdə keçirilən mötəbər elmi konfrans və simpoziumlarda iştirak və çıxış edir, Azərbaycan həqiqətlərini dünyaya çatdırırlar. Həmçinin, bəhs etdiyimiz dövrdə Naxçıvan şəhərində də bir sıra Respublika və Beynəlxalq miqyaslı konfranslar, simpoziumlar keçirilmişdir. Çox yaxşı haldır ki, muxtar respublika rəhbəri bu elmi məclislərin bir neçəsində iştirak və çıxış etmişdir. Bu sıradan Ali Məclis Sədrinin Gəmiqayada 2001, 2002 və 2005-ci illərdə aparılan tədqiqatların yekunlarına həsr olunan və 2005-ci ildə abidənin özündə keçirilən müşavirədə *(141, 22 iyul 2005-ci il)* və 2009-cu ildə Naxçıvan şəhərində keçirilən "Nuh peyğəmbər: Dünya tufanı və Naxçıvan" beynəlxalq simpoziumunda iştirakını və çıxışını xüsusilə vurğulamaq yerinə düşər *(125, s. 10-16)*. Bütün bunlar isə öz növbəsində bölgədə tarixi tədqiqatların inkişafına öz müsbət təsirini göstərmişdir.

Son 15 ildə keçmiş irsə hörmət və ehtiram, muxtar respublika ərazisindəki tarix-mədəniyyət abidələrinə diqqət və qayğı yüksək səviyyədə olmuşdur. İntibah dövrü kimi xarakterizə olunan bu müddətdə bölgədəki bir sıra tarix-mədəniyyət abidələrində, müqəddəs yerlərdə (Əshabi-Kəhf, çoxlu məscidlər,

imamzadələr, xanəgahlar, türbələr, hamamlar və s.), ümumiyyətlə 60-dan artıq abidədə bərpa və abadlıq işləri aparılmış, onlara yeni həyat verilmişdir. Ali Məclisin Sədri abidələr bərpa və təmir olunarkən işlərin gedişi ilə yerində tanış olmuş, tövsiyə və tapşırıqlarını vermiş, orijinallığın saxlanmasına və keyfiyyətə xüsusi diqqət yetirmişdir. Naxçıvan şəhərində Nuh peyğəmbərin və Hüseyn Cavidin qəbri üzərində möhtəşəm türbələrin ucaldılması tarixi keçmişimizə hörmət və ehtiramın parlaq ifadəsidir.

İntibah dövründə Naxçıvanda tariximizin müxtəlif dövrlərinə aid maddi-mədəniyyət nümunələrinin qorunub saxlandığı, nümayiş və təbliğ etdirildiyi, həm də elmi tədqiqatlar aparıldığı muzeylər də diqqətdən kənarda qalmamışdır. Muxtar respublikanın Ali vəzifəli şəxsinin tapşırığı ilə bir sıra muzeylərdə təmir-bərpa işləri aparılmış, Naxçıvan Dövlət Tarix Muzeyi yeni binaya köçürülmüş, "Xalça Muzeyi" üçün yeni bina inşa edilmiş, xüsusi Sərəncamla Açıq səma altında muzey, "Xan Sarayı" Dövlət Tarix-Memarlıq Muzeyi yaradılmışdır.

Bölgədə aparılan elmi tədqiqatların genişləndirilməsinin, keyfiyyətinin yüksək ixtisaslı kadrlardan asılı olduğunu nəzərə alaraq bütün siyasi fəaliyyəti ərzində yeni alim kadrların hazırlanmasına böyük önəm verən Ali Məclisin Sədri Bakıda hazırlanan kadrlarla kifayətlənmədi, Naxçıvanda da tarixçi kadrların hazırlanması sahəsində əvəzolunmaz işlər gördü. Bu məqsədlə o, Naxçıvanda "Filologiya" ixtisası ilə yanaşı "Vətən tarixi" ixtisası üzrə alimlər hazırlamaq üçün Dissertasiya Şurasının yaradılmasına nail oldu və 1996-cı ildən başlayaraq NDU-da "Vətən tarixi" ixtisası üzrə alim kadrlar hazırlanmağa başlandı. 2006-cı ildən AMEA Naxçıvan Bölməsində "Vətən tarixi" ixtisası ilə yanaşı arxeoloq kadrların da hazırlanmasına başlanmışdır *(63, s. 69)*. Əgər intibaha qədər Naxçıvanda 1 nəfər də olsun tarix elmləri doktoru yox idisə, intibah illərində yaradılan yüksək münbit şəraitin nəticəsi olaraq Naxçıvanda 7 tarix elmləri doktoru, 20-dən artıq tarix elmləri üzrə fəlsəfə doktoru hazırlanmışdır. Çox fərəhli haldır ki, artıq Naxçıvanda hazırlanan tarixçi kadrların içərisində həm də diyarın arxeologiyası, etnoqrafiyası, epiqrafikası, numizmatikası ilə məşğul olan tədqiqatçılar da yetişmişdir. Naxçıvanda yüksək ixtisaslı tarixçi kadrların yetişdirilməsində Birdəfəlik Dissertasiya Şuralarının böyük rolu olmuşdur.

Hazırda NDU-da və AMEA Naxçıvan Bölməsində doktorantura və dissertantlıq yolu ilə tarixçi kadrların hazırlanması sahəsində uğurlu işlər aparılır. 1997-ci ildən etibarən NDU-da magistratura yolu ilə tarixin müxtəlif problemləri üzrə elmdə ilk addımlarını atan gənc tarixçi kadrların hazırlanması da intibah dövrünün uğurlarındandır.

Aparılan uğurlu və məqsədyönlü siyasət öz bəhrəsini vermiş, nəticədə Naxçıvanda böyük tarixçilər ordusu formalaşmışdır. Qeyd etmək yerinə düşər ki, AMEA Naxçıvan Bölməsi Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutu 2003-cü ilin yanvarında 1 nəfər tarix elmləri doktoru, 3 nəfər tarix elmləri üzrə fəlsəfə doktoru və bir neçə dissertantla fəaliyyətə başlamışdır. Hazırda İnstitutda 4 nəfər tarix elmləri doktoru (onlardan biri akademik, üçü müxbir üzvüdür), 9 tarix üzrə fəlsəfə doktoru çalışmaqdadır.

Bütün bunlar heç də asanlıqla əldə olunmamış, Ali Məclis Sədrinin yorulmaz, dönməz, ardıcıl və məqsədyönlü fəaliyyəti sayəsində başa gəlmişdir. 16 dekabr 1995-ci ildə muxtar respublikaya rəhbər seçilərkən "Mənim ayrıca bir fəaliyyət proqramım olmayacaqdır. Fəaliyyətimi görkəmli dövlət xadimi Heydər Əliyevin dövlətçilik proqramının Naxçıvanda dönmədən həyata keçirilməsinə həsr edəcəyəm" *(70, s. 6)* – deyən Vasif Talıbovun xalq tərəfindən haqlı olaraq "intibah dövrü" kimi dəyərləndirilən son 15 illik zaman kəsiyində həyata keçirdiyi möhtəşəm işlər, yaratdığı möcüzələr, bütövlükdə şah əsəri olan müasir Naxçıvan bir daha təsdiq edir ki, ulu öndər Heydər Əliyevin işləyib hazırladığı, Azərbaycan Prezidenti İlham Əliyevin şəraitə uyğun olaraq yaradıcılıqla inkişaf etdirdiyi inkişaf strategiyası bütün zamanlar üçün alternativi olmayan və ölkəmizi daha işıqlı gələcəyə aparan mükəmməl bir təlimdir.

## 1.9. HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCAN TARİXİ MƏSƏLƏLƏRİ

Dahi şəxsiyyət, xalqımızın ümummilli lideri səviyyəsinə yüksəlmiş Heydər Əliyevin Azərbaycanda siyasi hakimiyyətə gəlişinin ilk günlərindən onun genişmiqyaslı fəaliyyətində Azərbaycan tarixi və mədəniyyətinin öyrənilməsi, öyrədilməsi, onun müxtəlif problemlərinin tədqiqi və təbliği məsələləri əsas yerlərdən birini tutmuş, ön planda durmuşdur. Azərbaycan tarixinin bir sıra aktual məsələlərinin, o cümlədən xalqımızın mənşəyi, dövlətçiliyimizin təşəkkülü və formalaşması, tariximizin ümumdünya tarixində yeri və sair bu kimi mühüm tarixi problemlərin hərtərəfli, dərindən, ən başlıcası obyektiv tədqiqi ulu öndər tərəfindən ölkəmizə rəhbərliyinin hər iki dövründə tarixçilər qarşısında aktual və təxirəsalınmaz vəzifə kimi qoyulmuşdu.

Hakimiyyətə gəlişi ilə tariximizə və tarix-mədəniyyət abidələrinə böyük diqqət və qayğı göstərən ulu öndərin birbaşa rəhbərliyi ilə bir sıra tədbirlər həyata keçirilir, ilk növbədə ən yüksək səviyyədə bu sahədə görüləcək işlərin istiqamətlərini müəyyən edən müzakirələr aparılır, qanunlar qəbul edilirdi. Bu cəhətdən Azərbaycan SSR Ali Sovetinin 1973-cü ilin sentyabrında keçirilən sessiyasının gündəliyinə Azərbaycan Respublikası ərazisindəki mədəniyyət abidələrinin vəziyyəti və onların qorunması tədbirləri haqqında məsələsinin daxil edilməsi və müzakirə olunması diqqəti cəlb edir. Bunun ardınca ulu öndərin Azərbaycan KP Mərkəzi Komitəsinin I katibi kimi rəhbərliyi ilə Azərbaycan KP MK-nın 10 sentyabr 1976-cı ildə qəbul etdiyi "Azərbaycan SSR-də tarix və mədəniyyət abidələrinin mühafizəsi və bərpası işini yaxşılaşdırmaq haqqında" qərar ölkə ərazisində qeyd olunan istiqamətdə mühüm işlər aparmaq üçün geniş üfüqlər açdı.

Bunlarla kifayətlənməyən müdrik, dahi və vətənpərvər şəxsiyyət Heydər Əliyev bu sahədə aparılan genişmiqyaslı işlərin qanun çərçivəsində yerinə yetirilməsini təmin etmək məqsədi ilə Azərbaycan SSR Ali Sovetinin 21 iyul 1978-ci il tarixli sessiyasında "Tarix və mədəniyyət abidələrinin mühafizəsi və onlardan istifadə haqqında Azərbaycan SSR Qanunu"nun qəbul olunmasına, 27 yanvar 1982-ci ildə isə Azərbaycan Tarix və Mədəniyyət abidələrinin Mühafizə Cəmiyyətinin Nizamnaməsinin Azərbaycan SSR Nazirlər Sovetində təsdiq edilməsinə nail oldu. Beləliklə, ölkə ərazisindəki tarix və mədəniyyət abidələrinin bərpası, tədqiqi və qorunması məsələsi qanun və qərarlarla rəsmiləşdirildi, bu sahədə cavabdeh olan aid təşkilatların vəzifələri müəyyənləşdirildi, məsuliyyətləri artırıldı. Burada qeyd etmək

yerinə düşər ki, ulu öndər abidələrin qorunmasında hamının, xüsusilə rəhbər işçilərin rolunu həmişə ön plana çəkmiş və qeyd etmişdir ki, "Abidələrin qorunması hamının, xüsusilə rəhbər işçilərin diqqət mərkəzində olmalıdır. Tariximiz üçün müəyyən əhəmiyyət kəsb edən və yer altından tapılmış hər bir xırda əşya belə qızıl qədər dəyərlidir" *(53, s. 12)*.

1970-ci ildə Azərbaycan Dövlət Universitetinin (indiki BDU) 50 illik yubileyində Azərbaycan dilində çıxış edən Azərbaycan KP MK-nin I katibi Heydər Əliyev bir il sonra, 1971-ci ildə Azərbaycan Pedaqoji İnstitutunun (indiki APU) 50 illik yubileyində çıxış edərkən Azərbaycan tarixinin tədrisi məsələsindən bəhs etmiş, bununla əlaqədar tapşırıqlar vermişdi. Bundan sonra aparıcı ali məktəblərdə "Azərbaycan tarixi" kafedraları yaradılmış, fənnin tədrisinə ayrılan saatların miqdarı artırılmışdı. Bu məqsədlə ali və orta məktəblər üçün dərsliklər, proqramlar hazırlanmağa başlandı. Məhz həmin vaxtlar – ulu öndərin Azərbaycanda siyasi hakimiyyətinin birinci dövründə müdrik rəhbərin yaxından köməkliyi və qayğısı ilə Azərbaycan tarixinin 3 cildliyinin nəşri başa çatdırılsa da, bu nəşr onu qane etməmiş, Azərbaycan tarixinin yeni və mükəmməl çoxcildliyinin hazırlanması haqqında tapşırıqlar vermişdi. Ancaq həmin vaxt Azərbaycan tarixinin çoxcildliyinin əsas hissəsi əlyazma şəklində hazırlansa da, I cilddə müəyyən məqamlar, xüsusilə Azərbaycan xalqının etnogenezi məsələsi ümummilli liderimizi razı salmadığı üçün onun çapı baş tutmamışdı. Ulu öndərin 1982-ci ildə Sovet İKP Siyasi Bürosuna üzv seçilməsi və Moskvada məsul vəzifəyə irəli çəkilməsi, 1987-ci ilin oktyabrında Siyasi Büro üzvlüyündən və SSRİ Nazirlər Soveti Sədrinin I müavini vəzifəsindən istefa verməsi, bundan az sonra ermənilər tərəfindən ortaya atılan Dağlıq Qarabağ problemi ilə yaranan böhranla əlaqədar bu məsələ unuduldu və arxa plana keçdi.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev 31 yanvar 1997-ci ildə Azərbaycan Elmlər Akademiyasının rəhbərliyi, həqiqi və müxbir üzvləri, institut direktorları və aparıcı alimləri ilə görüşdə bu münasibətlə demişdir: "Xatırlaya bilərsiniz, 70-ci illərdə mən dəfələrlə Elmlər Akademiyasının qarşısında vəzifə qoymuşdum ki, Azərbaycanın tarixi yazılmalıdır. Amma bu gün mənim haqqım var deyəm ki, tarixçilərimiz bu vəzifəni yerinə yetirmədilər. Bizim tarixçilərimiz bir tərəfdən çəkişmə ilə məşğul oldular, hərə öz konsepsiyasını irəli aparmağa çalışdı. ...başqa respublikalarda tarixçilər pis də, yaxşı da olsa, hər halda öz xalqlarının tarixini yaza bildilər. Biz bunu edə bilmədik. Ancaq indi bir tərəfdən bəlkə yaxşıdır ki, bunu edə bilməmişik. Çünki etsəydik də onu yenidən yazmalıydıq. ...İndi vəzifə bundan ibarətdir ki, Azərbaycanın tarixi yazılmalıdır" *(2, s. 367-368)*. Ulu öndərin Azərbaycan

Prezidenti kimi bu birbaşa tapşırığı ilə çoxcildliyin düz bir il sonra, 1998-ci ildə başlanan nəşri 2003-cü ildə başa çatdı. Görünür bu da taleyin bir qisməti imiş ki, Azərbaycan tarixinin çoxcildliyinin keçən yüzillikdə baş tutmayan nəşri Heydər Əliyevin Azərbaycanda ikinci dəfə siyasi hakimiyyətə qayıdışından sonra gerçəkləşdi. Ulu öndərin "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" 18 iyun 2001-ci il, "Azərbaycan əlifbası və Azərbaycan dili gününün təsis edilməsi haqqında" 9 avqust 2001-ci il və "Azərbaycan Respublikasında Dövlət dili haqqında" 2 yanvar 2003-cü il tarixli sərəncamlarından sonra çoxcildlik Azərbaycan Prezidenti İlham Əliyevin tapşırığı ilə latın əlifbası ilə 2007-2008-ci illərdə yenidən işıq üzü gördü.

Azərbaycan xalqının zəngin tarixi keçmişi, mədəni irsi daim ümummilli lider Heydər Əliyevin diqqət mərkəzində olmuşdur. O bu abidələrin qorunmasına, bərpasına, təbliğinə və gələcək nəsillərə çatdırılmasına böyük önəm verir və diqqət yetirirdi. XX yüzilliyin 70-ci illərində Qəbələ RLS tikilərkən erməni mühəndislərinin hazırladıqları plana əsasən Azərbaycanın qədim paytaxt şəhərlərindən və mədəniyyət mərkəzlərindən olan Qəbələ yaşayış məskəni dağıdılmalı idi. Bundan xəbər tutan ümummilli liderimiz məsələyə dərhal reaksiya vermiş, Kreml səviyyəsində danışıqlar apararaq Azərbaycanın qədim mədəniyyət mərkəzlərindən olan Qəbələ şəhər yerinin dağıdılmasının qarşısını almışdı.

Azərbaycanın tarixi coğrafiyasının öyrənilməsini yüksək qiymətləndirən Heydər Əliyevin hakimiyyətinin ilk illərində bilavasitə onun tapşırığı ilə Azərbaycan və rus dillərində "Azərbaycan SSR xəritələri" adlı atlas nəşr edildi. Həmin vaxt əleyhdarlarımız tərəfindən böyük səs-küylə qarşılanan atlas "Azərbaycan SSR xəritələri" adlansa da, orada Azərbaycan tarixinin qədim dövrlərindən başlayaraq 70-ci illərədək olan zaman çərçivəsinin xəritələri əks olunmuşdu.

Sovet hakimiyyəti illərində orta əsr şəhəri, həmin dövrün şəhərsalma prinsiplərini və ənənələrini çox gözəl şəkildə qoruyub saxlamış Ordubad şəhərində tikinti işləri aparılarkən şəhərin memarlıq üslubu pozulur, görkəminə xələl gətirilir, hətta bəzi tarix-mədəniyyət abidələri dağıntıya məruz qalırdı. Beləliklə, ulu öndər tərəfindən "Azərbaycanın incisi" kimi dəyərləndirilən Ordubad şəhəri müasirlik adı altında inşa edilən tikintilər hesabına öz əvvəlki görkəmini itirirdi. Bundan xəbər tutan Heydər Əliyev 1977-ci ildə Ordubadı "qoruq-şəhər" elan etdi. Bununla da şəhərin toxunulmazlığı təmin edildi.

Azərbaycan arxeoloji irsinə və maddi-mədəniyyət nümunələrinə böyük

maraq göstərən, onlara hörmət və ehtiramla yanaşan, diqqət və qayğısını əsirgəməyən ümummilli lider Heydər Əliyev Moskvada, SSRİ-nin rəhbər elitasında işlədiyi zaman doğma yerlərə – Azərbaycana gələndə vaxtının məhdud olmasına baxmayaraq ölkə ərazisində indiyədək qalan tarix-mədəniyyət abidələrini də ziyarət edirdi. 1983-cü ilin sentyabrında Azərbaycanda olarkən qədim mədəniyyət, elm, təhsil, ticarət və sənətkarlıq mərkəzlərindən biri olan Şabran şəhərinə getmiş, orada arxeoloji tədqiqatlarla tanış olmuş və bu işin genişləndirilməsini tövsiyyə etmişdi. Bundan sonra Şabranda bir neçə arxeoloji ekspedisiya fəaliyyətə başlamışdı. Həmçinin, həmin vaxt respublika rəhbərliyinə Azərbaycanın orta əsr şəhərlərinin tarixinin hərtərəfli öyrənilməsinin gücləndirilməsi haqqında tapşırıqlar verilmişdi. Tapşırıqlara uyğun olaraq bir sıra Azərbaycan şəhərlərinin (Gəncə, Bərdə, Naxçıvan, Qəbələ və s.) qədim və orta əsrlər dövrü tarixinin sistemli şəkildə öyrənilməsi üçün arxeoloji ekspedisiyalar işə başlamış, aparılan tədqiqatların nəticəsi olaraq monoqrafiya, kitab və məqalələr yazılmışdı.

Heydər Əliyevin həyatının Naxçıvan dövrü də qeyd olunan istiqamətdə aparılan işlərlə zəngin olmuşdur. Məhz onun təşəbbüsü və sədrliyi ilə Naxçıvan MSSR Ali Sovetinin 17 noyabr 1990-cı ildə keçirilən sessiyasında Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının adından "Sovet" və "Sosialist" sözləri çıxarılmış, muxtar respublikanın ali hakimiyyət orqanı olan "Ali Sovet" "Ali Məclis" adlandırılmış, Azərbaycan Xalq Cümhuriyyətinin üç rəngli bayrağı Naxçıvan MR-nın dövlət bayrağı kimi qəbul edilmişdi. Sessiyada, həmçinin sıravi xalq deputatı Heydər Əliyevin işləyib hazırladığı "1990-cı ilin yanvar ayında törədilmiş Bakı hadisələrinə siyasi qiymət verilməsi haqqında" qərar layihəsi əsasında 20 yanvar faciəsinə ilk dəfə siyasi qiymət verilmişdi.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 16 dekabr 1991-ci ildə Heydər Əliyevin Sədrliyi ilə keçirilən sessiyasında 1989-cu ilin dekabrında baş verən "Sərhəd hərəkatı"nın baş verdiyi gün – 31 dekabr "Dünya Azərbaycanlılarının Həmrəylik günü" elan olunmuşdu. Naxçıvanda işlədiyi dövrdə Heydər Əliyev Naxçıvanın muxtariyyət statusuna qarşı yönəlmiş hücumları dəf etmiş, muxtariyyəti qoruyub saxlamışdı. 1992-ci ilin martında Türkiyədə olarkən ulu öndər 1921-ci ildə bağlanmış Moskva və Qars müqavilələrinə əsasən "Türkiyə Naxçıvanın ərazi bütövlüyünün təminatçısıdır" fikrinin bir daha vurğulanmasına nail olmaqla həm ölkə daxilində Naxçıvanın muxtariyyat statusunun ləğv olunmasına çalışanlara, həm bu işdə marağı olan xarici dövlətlərə, həm də düşmənimiz Ermənistana sərt mesaj göndərmişdi. Beləliklə, həyata keçirilən bu tədbirlər nəticəsində Naxçıvanın muxtariyyət

statusu qorunub saxlanmışdı.

Ulu öndərin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri işlədiyi dövrdə, həmçinin Azərbaycanda siyasi hakimiyyətinin II dövründə də Naxçıvanda tariximizə, tarix-mədəniyyət abidələrimizə böyük diqqət və qayğı göstərilmiş, genişmiqyaslı abadlıq və quruculuq işləri aparılmışdır. Naxçıvan Muxtar Respublikasının Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi 1969-1982-ci illərdəki vəziyyətini təhlil edərək "mübaliğəsiz demək olar ki, Naxçıvan Muxtar Respublikası bu dövrdə əsl mənada quruculuq və yüksəliş dövrü keçmiş, ...bu qədim torpaq maddi və mənəvi intibah dövrü yaşamışdır" fikrini vurğulayan Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov 1993-1998-ci illərdə Naxçıvanda aparılan abadlıq və quruculuq işlərini ümumiləşdirərək qeyd etmişdir ki, "Möhtərəm Heydər Əliyev ikinci dəfə siyasi hakimiyyətə qayıtdıqdan sonra Azərbaycanın hər yerində olduğu kimi, Naxçıvan Muxtar Respublikasında da quruculuq və bərpa işləri genişləndi. Bu dövrlərdə muxtar respublikada 20 məktəb binası, uzunluğu 240 paqonometr olan 30 körpü tikilərək istifədəyə verilmişdir. Yusif Məmmədəliyevin, M.S.Ordubadinin və Cəmşid Naxçıvanskinin ev muzeylərinin, Zərifə xanım Əliyeva adına Naxçıvan şəhər poliklinikasının, Naxçıvan Dövlət Dram Teatrının, Respublika Mədəniyyət Sarayının, tarixi Əshabi-Kəhf ziyarətgahının və İmamzadə kompleksinin binalarının əsaslı şəkildə bərpa olunaraq yenidən istifadəyə verilməsi, Hüseyn Cavidin monumental abidəsinin tikintisi, C.Naxçıvanski adına hərbi litseyin Naxçıvan filialının fəaliyyətə başlaması və onun üçün müasir tələblərə cavab verən yeni binanın istifadəyə verilməsi 70-ci illərdən başlanan quruculuq tədbirlərinin məntiqi davamıdır". Nəzərə alsaq ki, sadalanan bu işlər müstəqil Azərbaycan dövlətinin yenicə qurulduğu, hələ möhkəmlənmədiyi, iqtisadi çətinliklər içərisində olduğu bir zamanda yerinə yetirilmişdir, onda bu işlərin miqyası və böyük çətinliklərin dəf olunması hesabına həyata keçirilməsi haqqında aydın təsəvvür yaranar.

Qeyd etmək lazımdır ki, Naxçıvan tarixi məsələləri, Naxçıvanın maddi-mədəniyyət abidələri müstəqil Azərbaycan dövlətinin prezidenti kimi də daim ulu öndərin diqqət mərkəzində olmuşdur. Milli-mənəvi dəyərlərimizə, müqəddəs yerlərimizə daim hörmət və ehtiramla yanaşan ulu öndərin tövsiyyə və tapşırığı ilə Azərbaycanda ən böyük ziyarətgahlardan biri, müqəddəs kitab Qurani-Kərimdə adı xatırlanan "Əshabi-Kəhf" ziyarətgahını Naxçıvan-Ordubad şose yolu ilə birləşdirən 14 kilometrlik asfalt yol çəkilmiş, ziyarətgahda abadlıq və bərpa işləri aparılmışdır. Bu haqda ziyarətgahın girişində qoyulmuş qırmızımtıl rəngli qranit daş üzərində həkk

edilmiş kitabədə oxuyuruq: "Əshabi-Kəhf ziyarətgahında bərpa və abadlıq işləri 1998-ci ildə Azərbaycan Prezidenti möhtərəm Heydər Əliyevin tapşırığı və himayəsi ilə görülmüşdür". Artıq tarixi sənədə çevrilmiş bu kitabə bu müqəddəs yerə gələn zəvvarlara, turistlərə, ümumiyyətlə bütün insanlara xalqımızın ümummilli lideri Heydər Əliyevin xeyirxah əməllərindən biri haqqında məlumat verir və gələcəkdə də buraya gələnləri bu haqda məlumatlandıracaqdır.

Naxçıvanın muxtariyyət statusuna böyük əhəmiyyət verən Heydər Əliyev 4 fevral 1999-cu ildə "Naxçıvan Muxtar Respublikasının 75 illiyinin keçirilməsi haqqında" xüsusi Sərəncam imzaladı. 11-14 oktyabr 1999-cu ildə Naxçıvan Muxtar Respublikasının təşkil olunmasının 75 illiyində iştirak etmək üçün Naxçıvana gələn ulu öndər Heydər Əliyev muxtar respublikada bu münasibətlə keçirilən tədbirlər çərçivəsində milli memarlığımızın möhtəşəm abidəsi, XII əsrdə görkəmli memar Əcəmi Əbubəkr oğlu Naxçıvaninin yaratdığı Möminə xatın türbəsini ziyarəti zamanı çıxış edərkən tarix-mədəniyyət abidələrimizə Naxçıvan Muxtar Respublikasında göstərilən diqqət və qayğı məsələsinə də toxunmuş və qeyd etmişdir ki, "...hesab edirəm ki, son illərdə gördüyünüz iş yüksək qiymətə layiqdir. Mən bunu çox yüksək qiymətləndirirəm, çox məmnun olduğumu bildirmək istəyirəm. Bu işi davam etdirmək lazımdır. Bu işi davam etdirmək üçün nə qədər vəsait lazım olsa – Naxçıvanın başçısına, Ali Məclisin Sədrinə deyirəm – mən bunu əsirgəməyəcəyəm. Çünki bu, bizim müstəqil dövlətimiz üçün, gələcək nəsillər üçün çox lazımdır" *(6, s. 270)*. Ulu öndərin tapşırığı ilə bundan az sonra 2003-cü ildə Möminə xatın türbəsi və Qarabağlar memarlıq kompleksində xaricdən dəvət olunmuş mütəxəssislərin iştirakı ilə əsaslı şəkildə bərpa və təmir işləri aparıldı.

Naxçıvanın maddi-mədəniyyətinin, xüsusən Gəmiqaya abidəsinin ümumbəşəri dəyərini və xalqımızın tarixinin öyrənilməsində elmi əhəmiyyətini yüksək qiymətləndirən Heydər Əliyev 2001-ci ildə muxtar respublikanın ərazisində geniş arxeoloji tədqiqatlar aparılmasını bir vəzifə kimi qarşıya qoydu. Naxçıvan MR Ali Məclisinin Sədri Vasif Talıbov 26 aprel 2001-ci ildə "Ordubad rayonundakı Gəmiqaya abidəsinin tədqiq edilməsi haqqında" Sərəncam imzaladı. 2001-ci ilin avqustunda AMEA Arxeologiya və Etnoqrafiya İnstitutu, AMEA REM, NDU əməkdaşlarının iştirakı ilə Gəmiqayaya elmi ekspedisiya təşkil edildi, abidənin əsaslı şəkildə yenidən öyrənilməsinə başlandı *(35, s. 20)*. Ulu öndərin təşəbbüsü, tövsiyyə və tapşırıqları əsasında Ordubad rayonunun ucqar ərazidə yerləşən Nəsirvaz kəndi yaxınlığındakı dəniz səviyyəsindən 3906 m yüksəklikdə yerləşən Gəmiqaya abi-

dəsinin sonrakı illərdə də tədqiqinin sistemli şəkildə həyata keçirilməsi dahi şəxsiyyətin Naxçıvanın maddi-mədəniyyət abidələrinin dərindən, ətraflı və hərtərəfli şəkildə öyrənilməsinə diqqət və qayğısının parlaq ifadəsidir.

Tariximizə, tarix və mədəniyyət abidələrimizə diqqət və qayğı ulu öndərin Azərbaycanda siyasi hakimiyyətinin ikinci dövründə özünü daha qabarıq şəkildə büruzə vermişdir. İlk növbədə tarix və mədəniyyət abidələrinin tədqiqi, təbliği və qorunması məsələlərinin qanuniləşdirilməsi, bu məsələnin qanunla tənzim olunması məqsədi ilə Azərbaycan Respublikasının Konstitusiyasını hazırlayan komissiyanın Sədri kimi dahi şəxsiyyətin tövsiyyəsi əsasında 12 noyabr 1995-ci ildə ümumxalq səsverməsi (referendum) yolu ilə qəbul edilmiş Azərbaycan Respublikası Konstitusiyasının 40-cı maddəsi ilə tarixi, mədəni və mənəvi irsə hörmətlə yanaşılması, ona qayğı göstərilməsi, tarix və mədəniyyət abidələrinin qorunması hər bir vətəndaşın konstitusion vəzifəsi kimi təsbit olundu ***(23, maddə 40)***. Həmçinin, ulu öndər Azərbaycan Respublikası Milli Məclisi tərəfindən qəbul edilmiş "Tarix və mədəniyyət abidələrinin qorunması haqqında" və "Arxeoloji irsin qorunması haqqında Avropa Konvensiyasına Azərbaycan Respublikasının qoşulması barədə" Azərbaycan Respublikası Qanunlarını təsdiq etdi.

Ümummilli liderin Azərbaycanda ikinci dəfə hakimiyyətə qayıdışından sonra da onun fəaliyyətində Azərbaycan tarixinin bir sıra problemlərinin yaranmış şəraitdən istifadə edərək yenidən işlənməsi, sovet hakimiyyəti illərində yasaq olunmuş mövzuların tədqiqi diqqət mərkəzində olmuşdur. Bu cəhətdən Heydər Əliyevin 18 dekabr 1997-ci ildə imzaladığı "1948-1953-cü illərdə Azərbaycanlıların Ermənistan SSR ərazisindəki tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiyası haqqında" və 26 mart 1998-ci ildə imzaladığı "Azərbaycanlıların Soyqırımı haqqında" ***(61, s.s. 135-136, 139-145)*** sərəncamları xüsusilə qeyd etmək lazımdır. Məhz bu sərəncamlardan sonra XX yüzillikdə tədqiqinə yasaq qoyulmuş, üstündən sükutla keçilmiş ermənilərin XX əsr boyu başımıza gətirdiyi müsibətlər, xalqımıza qarşı həyata keçirdiyi soyqırımlar və sair sistemli tədqiqat obyektinə çevrildi, bu məsələ ilə əlaqədar dissertasiyalar müdafiə olundu, çoxlu monoqrafiyalar, kitablar və məqalələr nəşr edildi. Bu iş indi də davam etdirilməkdədir.

Həmçinin, ulu öndərin səyləri nəticəsində Azərbaycan tarixində böyük xidmətləri olan bir sıra görkəmli şəxsiyyətlərin (Fətəlixan Xoyski, Nəriman Nərimanov və s.) üzərindən yasaq götürüldü. Bəzi şəxsiyyətlərin həddindən artıq ideallaşdırılması, bəzilərinin isə kölgədə qalması ilə barışmayan ümummilli lider hər bir şəxsiyyətin layiq olduğu qiyməti alması üçün bir sıra tədbirlər həyata keçirdi. O Azərbaycan tarixi, mədəniyyəti, ədəbiyyatı

sahəsində xidməti olan şəxsiyyətlərin xalqa tanıdılması, adlarının əbədiləşdirilməsi məqsədi ilə onların heykəllərini qoydurdu, müasirlərinin əməyi yüksək səviyyədə qiymətləndirildi, hətta Sovet İttifaqının ən yüksək mükafatı olan Sosialist Əməyi qəhrəmanı adı, yüksək orden və medallarla təltif olundu. Orta əsrlərdən üzü bəri görkəmli şair və yazıçılarımızın, tarixi və ədəbi abidələrimizin yubileyləri keçirildi, gənclərimizin vətənpərvərlik ruhunda tərbiyəsində mühüm rol oynayan kino-filmlər çəkildi, bədii əsərlər yazıldı.

Dahi şəxsiyyət bu dövrdə XIX-XX əsrlər tarixinin öyrənilməsinə xüsusi diqqət yetirir və qeyd edirdi ki, başqa dövrlərdən fərqli olaraq XIX-XX əsr tariximiz daha çox təhrif edilmişdir. Ona görə də o 31 yanvar 1997-ci ildə EA-nın həqiqi və müxbir üzvləri ilə görüşündə tarixçilərin qarşısında Azərbaycanın XIX-XX əsrlər tarixinin obyektiv, olduğu kimi yazılmasını təxirəsalınmaz vəzifə kimi qoymuş və demişdir: "...indi akademiyanın qarşısında duran vəzifələrdən biri də Azərbaycan xalqının XIX-XX əsrlər tarixinin yazılmasıdır. ...XIX-XX əsrlər tarixinin yazılması üçün mən xüsusi vəsait ayıracağam" *(2, s. 369)*.

XX yüzilliyin əvvəllərində Şərqdə ilk demokratik dövlət quruluşunu yaratmış Azərbaycan Xalq Cümhuriyyətinin fəaliyyətinə çox yüksək qiymət verən ulu öndər onu yaradan şəxsiyyətlərə də çox rəğbətlə yanaşırdı. Məhz buna görə də dahi şəxsiyyət 30 yanvar 1998-ci ildə "Azərbaycan Xalq Cümhuriyyətinin 80 illiyinin keçirilməsi haqqında" Sərəncam imzaladı. Cümhuriyyətin qısa, cəmi 23 ay ərzində həyata keçirdiyi tədbirlər sərəncamın preambula hissəsində belə dəyərləndirilmişdir: "Milliyətindən, siyasi və dini mənsubiyyətindən, cinsindən asılı olmayaraq bütün vətəndaşlara bərabər hüquqlar verilməsi, dövlət sərhədlərinin müəyyən olunması, Azərbaycan dövlətçiliyi atributlarının qəbul edilməsi, ana dilinin dövlət dili elan olunması Azərbaycanın gələcək müstəqilliyi üçün möhkəm zəmin yaratmışdır. Demokratik dövlət quruculuğu, iqtisadiyyat, mədəniyyət, təhsil, hərbi quruculuq sahələrində atılmış addımlar Azərbaycan Xalq Cümhuriyyətinin 23 aylıq fəaliyyətini əks etdirən əsas istiqamətlərdir" *(61,s. 137)*.

Məlumdur ki, Heydər Əliyev Azərbaycan Respublikasının Prezidenti kimi 29 dekabr 2000-ci ildə "Yeni il, yeni əsr və üçüncü minillik" münasibəti ilə Azərbaycan xalqına müraciət etmişdir *(4)*. Bu müraciətdə Azərbaycan tarixinə, Azərbaycan xalqının keçdiyi tarixi yola ulu öndər tərəfindən səriştəli bir tarixçi kimi nəzər salınmış, XIX-XX yüzilliyin tarixinə xüsusi diqqət yetirilmişdir. Ümummilli lider Heydər Əliyevin Yeni il, yeni əsr və üçüncü minillik münasibəti ilə Azərbaycan xalqına müraciətini "Azərbaycanın

tarixi salnaməsi" kimi səciyyələndirən akademik İ.Hacıyev yazır ki, "Burada yaxın tarixə yığcam şəkildə və müdrikcəsinə baxılmış, baş verənlərə düzgün və obyektiv qiymət verilmişdir. Bu mühüm siyasi sənəddə Azərbaycan gerçəkliyi dünyada gedən proseslərin fonunda və onun bir hissəsi kimi məharətlə təhlil olunur. Keçmişimizin və müasir tariximizin elmi-nəzəri proqnozlarını verən bu müraciətdə xalqımızın keçdiyi tarixi yola dərindən nəzər salınır, mühüm tarixi proseslərə, hadisələrə, tarixi şəxsiyyətlərə obyektiv qiymət verilir, prinsipial münasibət bildirilir. Bu baxımdan "Azərbaycan XXI əsrin və üçüncü minilliyin ayrıcında" adlı iri həcmli müraciət ictimai-siyasi həyatımızın bütün sahələrinin təhlilini verən çox qiymətli bir tarixi əsərdir *(60, s. 6)*.

Ulu öndər müraciətdə kamil tarixçi səriştəsi ilə dərin elmi-nəzəri təhlil aparmış, XX yüzillikdəki tariximizi dövrləşdirmiş və onu dörd mərhələyə (1. Azərbaycan Xalq Cümhuriyyətinin qurulması üçün münbit zəminin yaranması mərhələsi; 2. Çar Rusiyası dağılandan sonra ölkəmizin ilk dəfə müstəqilliyi əldə etdiyi dövr – Azərbaycan Xalq Cümhuriyyəti mərhələsi; 3. 1920-ci ilin aprelindən 18 oktyabr 1991-ci ilə qədər olan mərhələ; 4. 18 oktyabr 1991-ci ildə "Müstəqillik haqqında Konstitusiya Aktı"nın qəbul olunması ilə başlanan mərhələ) *(4, s. 34-101)* ayırmışdır. Çox dəqiq və düzgün aparılan bu dövrləşmədən bəhs edən AMEA-nın müxbir üzvü Y.Mahmudovun sözləri ilə desək "Heydər Əliyev xalqımızın XX yüzillikdəki tarixini elə dövrləşdirmişdir ki, bu tarixi başqa cür dövrləşdirmək, ümumiyyətlə mümkün deyil. Və yaxud bu dövrləşdirmədən kənara çıxmaq, sadəcə olaraq, tarixi saxtalaşdırmaq demək olardı" *(98, s. 140)*.

Ulu öndər muzeylərin Azərbaycanın tarixinin, maddi-mədəniyyət abidələrinin qorunmasında, mühafizə edilməsində, təbliğində, istər yerli əhaliyə, istərsə də ölkəyə və bölgələrə gələn qonaqlara tanıdılmasında müstəsna rolunu nəzərə alaraq muzey quruculuğu sahəsində bir sıra tədbirlər həyata keçirmiş, qanunlar və qərarlar qəbul etmiş, tapşırıq və göstərişlər vermişdir. Məhz buna görə də Heydər Əliyevin Azərbaycanda siyasi hakimiyyətinin birinci dövründə respublikanın əksər rayonlarında müxtəlif profilli, o cümlədən Tarix-diyarşünaslıq muzeyləri təşkil olunmuşdu. Həmçinin, həmin vaxtlar fəaliyyətdə olan bir sıra muzeylərin fondları və ekspozisiyaları zənginləşdirilmiş, fəaliyyəti gücləndirilmişdi. Bu iş 1980-ci ildə Azərbaycanda muzey işi ilə əlaqədar xüsusi qərarın qəbul edilməsindən sonra daha sistemli şəkil almışdı və 30-dək rayonda yeni Tarix-diyarşünaslıq muzeyləri yaradılmışdı. Yeni yaradılan müxtəlif profilli muzeylərin sırasında görkəmli şəxsiyyətlərin ev muzeylərinin yaradılması xüsusi yer tuturdu. Bu muzeylərin

yaradılmasının təşəbbüskarı həmin vaxtlar respublikaya rəhbərlik edən Heydər Əliyev olmuşdur. 6 mart 1997-ci ildə Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi xalq şairi Səməd Vurğunun ev muzeyində olarkən ulu öndər bu haqda demişdir: "1970-ci illərdə biz xalqımızın böyük şəxsiyyətlərinin ev muzeylərinin yaradılması fikrini meydana atdıq. Bu gün sizə demək istəyirəm ki, bu mənim şəxsi təşəbbüsümlə olmuşdur" *(3, s. 11)*.

Qeyd etmək lazımdır ki, keçən yüzilliyin 70-80-ci illərində ayrı-ayrı rayon mərkəzlərində təşkil edilən muzeylər yaradıldıqları rayonların ərazisində olan maddi-mədəniyyət nümunələrinin toplanmasında, qorunmasında həmin bölgənin tarixinin təbliğində, xüsusilə yetişməkdə olan gənc nəslin vətənə məhəbbət, keçmiş irsə hörmət ruhunda tərbiyə olunmasında mühüm rol oynadı. Ona görə də ulu öndər muzeylərin bu sahədə xidmətlərini yüksək qiymətləndirmiş və 1982-ci ildə çıxışlarının birində demişdir ki, "muzeylər mühüm mədəniyyət ocaqlarına, ...xüsusilə cavan nəslin ideya-siyasi və mənəvi tərbiyəsinin mərkəzlərinə çevrilmişdir" *(106, s. 284)*.

Ulu öndər muzeylərin fəaliyyətinə siyası hakimiyyətinin I dövründə xüsusi əhəmiyyət verdiyi kimi müstəqil Azərbaycanın prezidenti olduğu zaman da muzey işinə böyük qiymət verirdi. 18 sentyabr 1999-cu ildə görkəmli dirijor Niyazinin ev muzeyinin açılışı zamanı çıxış edərkən ulu öndər bu haqda fikirlərini belə ifadə etmişdi: "Öz mədəni irsini qoruyub saxlaya bilməyən xalq nəyə qadir olduğunu heç vaxt sübut edə bilməz. Muzeylərin mənası, əhəmiyyəti sadəcə olaraq hansısa bir ədibin həyat yolunu və yaradıcılığını təbliğ etməkdən ibarət deyildir. Azərbaycan xalqının tarixini, təbliğ və əks etdirməkdən, mədəniyyətimizin səviyyəsini göstərməkdən ibarətdir" *(19, s. 281)*. Muzeylərin işini belə yüksək qiymətləndirən ulu öndər 2000-ci ilin mart ayında Milli Məclis tərəfindən qəbul olunun "Muzeylər haqqında Qanun"u təsdiq etdi. Qanunda milli sərvətlərin saxlandığı və nümayiş etdirildiyi muzeylərə dövlət qayğısı, onların maliyyələşdirilməsi, maddi-texniki bazasının möhkəmləndirilməsi, bu sahədə kadrların hazırlanması və sair məsələlər öz əksini tapmışdır.

Ümummilli lider Heydər Əliyevin fəaliyyətində tarixi sənədlərin qorunub saxlanması və gələcək nəsillərə çatdırılmasında müstəsna rolu olan arxivlərə münasibət də diqqəti cəlb edir. Məlumdur ki, keçən yüzillikdə – sovet hakimiyyəti illərində, o cümlədən ulu öndərin siyasi hakimiyyəti dövründə Azərbaycanda müxtəlif təyinatlı arxivlər fəaliyyət göstərmişdir. "Keçmişdə, Sovet İttifaqı vaxtında arxiv idarəsi beşinci-altıncı dərəcəli idarə kimi olubdur. Mən indi xatırlayıram, o illərdə Azərbaycanda işləyərkən deyə bilmərəm ki, arxivlə həqiqətən ciddi məşğul olurduq. O vaxtlar

müstəqil olmadığımıza, böyük dövlətin bir hissəsi olduğumuza görə bəlkə də bu qayğılar bizdə yox idi. Amma indi arxiv işlərinə gərək çox ciddi fikir verək. Bir tərəfdən ona görə ki, xalqımızın tarixini əks etdirən yeganə mənbədir, ikincisi də ona görə ki, tariximizi təhrif edənlərin qarşısını almaq üçün çox mühüm amildir" *(2, s. 374)* – deyən ümummilli lider bundan sonra vurğulayırdı ki, "...Ona görə arxivlərə münasibət tamamilə dəyişməlidir. Həm keçmiş partiya arxivi, həm dövlət arxivimiz, həm milli təhlükəsizlik və həm də daxili işlər nazirliklərində olan arxivlər qorunub saxlanmalıdır. Ancaq şəxsi arxivləri də qoruyub saxlamaq lazımdır" *(2, s. 375)*.

Xalqımızın ümummilli lideri, ulu öndər Heydər Əliyevin tariximizə, mədəniyyətimizə, maddi-mədəniyyət abidələrimizə hörmət, ehtiram, diqqət və qayğısı sahəsində müəyyənləşdirdiyi siyasi kurs hazırkı dövrdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Dövlət büdcəsində elmə ayrılan vəsaitin, alimlərin, o cümlədən tarixçilərin əmək haqlarının, elmi dərəcələrə görə verilən maaşların artırılması, MEA-nın Tarix, Arxeologiya və Etnoqrafiya İnstitutlarına Prezidentin ehtiyat fondundan böyük məbləğdə vəsaitlərin ayrılması və sair tədbirlər bu diqqət və qayğının təzahürü kimi diqqəti cəlb edir. Bu diqqət və qayğının nəticəsidir ki, Azərbaycan ərazisində 40-dan artıq arxeoloji ekspedisiya tədqiqatla məşğul olur, tarix və mədəniyyətimizin müxtəlif problemlərinə aid geniş tədqiqatlar aparılır, fundamental əsərlər yazılır. İnanırıq ki, Azərbaycan tarixçiləri yüksək dövlət qayğısına cavab olaraq öz qüvvələrini səfərbər edəcək, xalqımızın ümummilli lideri Heydər Əliyevin tarixçilər qarşısında qoyduğu vəzifələrin, həmçinin Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tövsiyyə və tapşırıqlarının uğurla yerinə yetirilməsi, Azərbaycanın tarix və mədəniyyətinin tədqiqini gözləyən problemlərinin öyrənilməsi üçün səylə çalışacaqlar.

## 1.10. ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEV VƏ GƏMİQAYA ABİDƏLƏRİ

Xalqımızın ümummilli lideri Heydər Əliyevin həyatı və çoxsahəli siyasi fəaliyyətinə nəzər salarkən aydın olur ki, bu böyük şəxsiyyətin Azərbaycanda siyasi hakimiyyətinin istər birinci, istərsə də ikinci dövründə tarix-mədəniyyət abidələrimizə diqqət və qayğı özünü qabarıq şəkildə göstərir. Keçmiş irsimizə, tarix və mədəniyyətimizə böyük sevgisinin, hörmət və ehtiramının təzahürü olaraq bu böyük şəxsiyyət hələ sovet hakimiyyəti illərində Azərbaycanda tarix elminin inkişafına nail olmuş, abidələrimizin, arxeoloji irsimizin qorunması, tədqiqi və təbliği sahəsində mühüm tədbirlər həyata keçirmişdir. Həmin vaxt demək olar ki, Azərbaycanın bütün rayonlarında Tarix-diyarşünaslıq muzeyləri yaradılmış, bir sıra abidələr kompleksi, hətta şəhərlər qoruq elan edilmiş, respublikanın yaşayış mərkəzlərində çoxlu arxeoloji ekspedisiyalar işləmiş, tarix və mədəniyyətimizin müxtəlif problemlərinə aid sanballı əsərlər yaradılmışdır.

Ulu öndər bu siyasətinə bütün ömrü boyu sadiq qalmış, Azərbaycanda siyasi hakimiyyətinin ikinci dövründə bu sahədə daha geniş miqyaslı işlər həyata keçirmiş, mühüm Qanun və qərarlar qəbul etmiş, sərəncamlar imzalamışdır. Bu baxımdan 1998-ci ildə "Tarix və mədəniyyət abidələrinin qorunması" haqqında, 1999-cu ildə isə "Arxeoloji irsin qorunması haqqında Avropa Konvensiyasına Azərbaycan Respublikasının qoşulması barədə" Qanunların qəbul olunmasını və təsdiq edilməsini xüsusi olaraq qeyd etmək lazımdır.

Ümummilli liderin tarix-mədəniyyət abidələrinə diqqət və qayğısı bütün Azərbaycanda olduğu kimi onun qədim mədəniyyət mərkəzlərindən olan Naxçıvan abidələrində, o cümlədən dahi şəxsiyyətin "həm təbiətin böyük bir abidəsi, eyni zamanda insan yaradıcılığının abidəsi" *(20, s. 18)* kimi dəyərləndirdiyi Gəmiqaya abidəsinə münasibətində də özünü göstərmişdir. Kiçik Qafqazın ən yüksək zirvəsi olan (3906 metr), yerli əhali arasında Gəmiqaya adlandırılan Qapıcıq zirvəsinin ətəklərində, dəniz səviyyəsindən təxminən 2800-3500 metr yüksəklikdə yerləşən bu abidələr 1967-ci ildə geoloqlar tərəfindən aşkar olunaraq bu haqda tarixçi alimlərə məlumat verildikdən sonra arxeoloq Vəli Əliyev tərəfindən ilkin tədqiqi həyata keçirilərək 1968-ci ildə "Vışka" qəzetində məqalə dərc etdirilsə də *(150)*, onların tədqiqi ulu öndər Heydər Əliyevin 1969-cu ildə Azərbaycanda hakimiyyətə gəlişindən sonra baş tutmuşdur. Elə bu abidələr haqqında elmi ictimaiyyətə ətraflı məlumat verən məqalələr də bundan sonra yazılaraq nəşr etdirilmişdir. Həmin vaxtlar bu istiqamətdə müəyyən işlər görülmüşdür *(74; 46; 49; 50; 51; 151)*. Buna görə də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri

Vasif Talıbovun 26 aprel 2001-ci ildə imzaladığı "Ordubad rayonundakı Gəmiqaya abidəsinin tədqiq edilməsi haqqında" sərəncamın preambula hissəsində qeyd olunmuşdur ki, "Gəmiqaya abidələrinin tədqiqinə 1970-ci illərdə – möhtərəm Heydər Əliyevin Azərbaycana siyasi rəhbərliyinin birinci dövründə başlanmışdır. 1971-ci ildə Azərbaycan Respublikası Elmlər Akademiyasının Rəyasət Heyəti Gəmiqayada tədqiqat işlərinin aparılmasını, elmi albomun nəşr edilməsini, elmi-kütləvi filmin çəkilməsini qərara almış, 1970-1987-ci illərdə Gəmiqayada tədqiqat işləri aparılmış, bir sıra materiallar çap olunmuşdur" *(126, s. 110-111)*.

Ancaq sonralar gediş-gəlişin çətin olması, həmçinin bir sıra obyektiv və subyektiv səbəblər, xüsusilə 1988-ci ildə Dağlaq Qarabağ problemi ilə əlaqədar başlayan hadisələr ucbatından Gəmiqaya abidələri unudulmuş, orada tədqiqatlar dayandırılmışdır. Gəmiqaya təsvirlərinin ilkin və əsas tədqiqatçısı, arxeoloq Vəli Əliyev Gəmiqayada mövcud olan qədim yurd yerlərinin, müxtəlif siklopik tikintilərin, qəbir abidələrinin, ibadətgahların, qayaüstü təsvirlərin qeydə alınmasını, arxeoloji qazıntı işlərinin aparılmasını, həmin abidələr haqqında əsərlər yazılmasını və beynəlxalq konfranslarda məlumat verilməsini qeyd etməklə yanaşı etiraf etmişdir ki, Gəmiqayada daha geniş planda elmi axtarışlar və arxeoloji qazıntılar aparılmasına çox böyük ehtiyac vardır *(55, s. 9)*. Məhz bütün bunlara görə də ulu öndər Heydər Əliyev Gəmiqaya abidələri ilə əlaqədar aparılan tədqiqatlardan razı qalmamışdır.

Yeri gəlmişkən qeyd etmək lazımdır ki, ümummilli lider bütün siyasi fəaliyyəti dövründə Azərbaycanın tarix və mədəniyyətinin obyektiv, dərindən və hərtərəfli öyrənilməsinə nail olmağa çalışmış, bu haqda tədqiqatçılara dəfələrlə tapşırıqlar vermişdir. O, 21 sentyabr 1993-cü ildə Azərbaycan Elmlər Akademiyasında ziyalılarla görüşərkən hələ sovet hakimiyyəti illərində də tarixçilərin apardığı tədqiqatlardan narazı qaldığını bildirmiş və demişdir: "Tarixçilərimizin xatirində olmalıdır ki, mən Azərbaycanda işləyən dövrdə – 70-ci illərdə və 80-ci illərin əvvəllərində dəfələrlə onlara müraciət etmişdim ki, bizim tariximiz – həm qədim tariximiz, həm orta əsrlər tariximiz, həm də son dövrlərin, yəni XVIII, XIX, XX əsrlərin tarixi istənilən səviyyədə yazılmayıb. Tarixçilərin yadındadır ki, mən alimlərlə dəfələrlə görüşmüşdüm, hər dəfə də öz narahatlığımı bildirirdim. O vaxtlar Sovetlər İttifaqının çərçivəsində başqa respublikalarla öz işimizi müqayisə edirdik. Həmin respublikaların tarixçilərinin işləri ilə tanış olarkən daha da narahat olurduq ki, nə üçün onlar öz tarixlərini yaxşı yaza bilirlər, biz isə yaza bilmirik" *(1, s. 154)*.

Həmin çıxışında ulu öndər tarixçilərin qarşısında çox böyük vəzifələrin durduğunu, onların üzərinə çox böyük məsuliyyət düşdüyünü xatırladaraq

qeyd etmişdir ki, "Əgər biz Azərbaycanı müstəqil bir dövlət kimi dünyaya tanıtmaq istəyiriksə, Azərbaycanın qədim tarixini, əsrlər boyu keçdiyi yolu gərək həm öz vətəndaşlarımıza, həm də bütün ölkələrdə olan elm adamlarına, respublikamıza maraq göstərən adamlara tanıdaq. Bu sahədə də tarixçilərimizin qarşısında çox böyük vəzifələr durur, onların üzərinə çox böyük məsuliyyət düşür. Mən o vaxtlar – Azərbaycanda işlədiyim dövrdə də deyirdim, indi də bu sözlərin üstündə dururam ki, tarixçilərimiz üçün bütün şəraiti yaratmağa hazıram. Bu şərtlə ki, bu şəraitin əvəzində biz tarixçilərimizdən Azərbaycan tarixini bu gün üçün, gələcək nəsillər üçün və bütün gələcək üçün yaxşı əks etdirən əsərlər ala bilək" *(1, s. 155)*.

12 oktyabr 1999-cu ildə Naxçıvan MR-nın təşkil olunmasının 75 illiyinə həsr edilmiş təntənəli yubiley iclasında çıxış edərkən Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev tarixi tədqiqatların əhəmiyyətini bir daha ön plana çəkmiş və demişdir: "Azərbaycanın, millətimizin, Azərbaycan xalqının qədimliyini, dərin köklərini, zəngin mədəniyyətini və ulu babalarımızdan bizə gəlib çatmış irsi daha da dərk etməyin, daha da yaxşı bilməyin, şübhəsiz ki, bugünkü və gələcək nəsillər üçün çox əhəmiyyəti vardır. Bütün Azərbaycanda, o cümlədən Naxçıvanda bu tədqiqatlar aparılmalıdır, bu işlər görülməlidir. ...Azərbaycan dövləti nə qədər iqtisadi çətinliklər içərisində olsa da, biz bu işlər üçün vəsait əsirgəməyəcəyik" *(6, s. 194-195)*.

Göründüyü kimi, ulu öndər bir sıra çıxış və məruzələrində tarixi tədqiqatlar üçün lazım olan vəsait məsələsinə də toxunmuş və bu istiqamətdə lazımi şəraitin yaradılmasını, nə qədər iqtisadi çətinliklər olsa da bu işlər üçün vəsait əsirgəməyəcəyini xüsusi olaraq vurğulamışdır. Elə tədqiqi üçün yüksək dövlət qayğısı, böyük vəsait tələb olunan Gəmiqaya abidələrinin yenidən, həm də geniş miqyaslı tədqiqi də ulu öndərin adı ilə bağlıdır. Məhz tarix və mədəniyyətimizin böyük hamisi olan bu böyük şəxsiyyətin tövsiyyə və tapşırıqları, güclü dəstəyi sayəsində Gəmiqaya abidəsi kompleks şəkildə tədqiq olunmağa başlanmışdır.

15 iyun 2002-ci ildə Naxçıvan Olimpiya İdman Kompleksinin təntənəli açılış mərasimində çıxış edərkən ümummili lider Azərbaycan qayaüstü rəsmləri sırasında özünəməxsus yeri olan Gəmiqaya abidəsinin tədqiqi məsələsinə də toxunmuş və demişdir: "Gəmiqaya dünyada məşhur bir yerdir. Təəssüf ki, bəzi gənclər, naxçıvanlılar Gəmiqayanın nə tarixini bilirlər, nə də onun varlığını bilirlər. Mən keçən il maraqlandım ki, Gəmiqayaya bizim elmi ekspedisiya gedib, yoxsa yox. Mənə dedilər hazırlaşırlar. Amma yay keçmişdi. Sonra dedilər pulları yoxdur. Dərhal pul verdik. Ancaq müəyyən qədər vaxt itirmişdilər. ...Hamı bilir ki, Gəmiqayada ekspedisiyanın işləməsi

üçün indi başlamaq lazımdır. Çünki sentyabr ayında artıq orada soyuq olacaqdır. Avqustun 20-də oranı qar tutur. Amma bu bizim böyük sərvətimizdir. Gəmiqayanın daşlarında Qobustan qayalarındakı kimi rəmzlər var. Orada insanların qoyduğu izlər var. Bu bizim, Azərbaycanın, onun ayrılmaz hissəsi olan Naxçıvanın tarıxidir. Bunlarla məşğul olmaq lazımdır" *(8, s. 122-123)*.

12 avqust 2002-ci ildə Naxçıvan Muxtar Respublikası Ali Məclisində AMEA Naxçıvan Bölməsinin yaradılmasına həsr olunmuş müşavirədə giriş nitqi ilə çıxış edən Azərbaycan Prezidenti Heydər Əliyev bir daha Gəmiqaya təsvirlərinin tədqiqinin vacibliyini vurğulamış və demişdir: "Mən keçən il, bu il çox ciddi göstərişlərlə nail olmağa çalışıram ki, Gəmiqaya obyektində lazımi ekspedisiya işləri aparılsın. Keçən il mən bunu gec bildim. Sərəncam verdim. Bizim arxeoloqlar gəlib getdilər, orada bir az iş gördülər. Artıq mövsüm qurtardı, iş görmək mümkün deyildi.

Bu il əvvəldən xəbərdarlıq etmişəm. Bilmirəm, indi orada işlər gedir, ya getmir, aparılır, ya aparılmır. Amma bu elə bir abədədir ki, gedib iki-üç gün onun yanında oturmaqla, yaxud çadır qurub yatmaqla onu heç kim öyrənə bilməz. Hər il ekspedisiya mövsümündə orada aylarla tədqiqat aparmaq lazımdır. Aylarla..." *(20, s. 18)*.

Müşavirəni yekunlaşdırarkən yenidən, bir daha Gəmiqaya təsvirlərinin tədqiqi məsələsini dilə gətirməsi və ön plana çəkməsi ümummilli lider Heydər Əliyevin bu nadir abidənin hərtərəfli, kompleks tədqiqinə nə qədər böyük önəm verdiyini göstərir. Ulu öndər çıxışında qeyd etmişdir ki, "keçən il hələ ilin yarısı idi, mən bu məsələni qoydum... Ondan sonra mən dedim ki, keçən il görə bilmədiyiniz işlərə gələn il, yəni bu il əvvəlcədən hazırlaşın. Bu barədə Naxçıvanın başçısı Vasif Talıbov da həm keçən il, həm də bu il çox işlər görmüşdür – oraya həmin o yolun çəkilməsi, müəyyən şəraitlərin yaradılması. Mən ona tapşırdım ki, arxeoloji ekspedisiyanın orada təminat məsələsi var. Onların hamısını Naxçıvan Muxtar Respublikasının rəhbəri Vasif Talıbov üzərinə götürdü" *(20, s. 26)*.

Ulu öndərin bu sözlərindəki bir məqam üzərində dayanmaq istərdik. Dahi şəxsiyyət bu fikrində Gəmiqaya abidələrinin tədqiqini daim diqqət mərkəzində saxlayan, abidənin tədqiq olunması ilə əlaqədar xüsusi sərəncam imzalayan, oraya avtomobil yolu çəkdirən, abidəni tədqiq edəcək ekspedisiya üzvləri üçün hər cür şəraitin yaradılması və onların təhlükəsizliyı məsələsini həll edən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun bu sahədə həyata keçirdiyi tədbirləri ən yüksək sıviyyədə qiymətləndirmişdir.

Yuxarıda qeyd olunduğu kimi Gəmiqaya çox yüksək bir ərazidə yerləşir. Bu əraziyə gedib gəlmək həddindən artıq çətin və ilin ancaq yay aylarında

(iyul-avqust) mümkündür. Gəmiqayada sistemli arxeoloji və sair tədqiqatların aparılması üçün Ali Məclisin Sədri Vasif Talıbov mən deyərdim ki, mümkünsüz bir işi gerçəkliyə çevirdi və oraya qısa müddətdə avtomobil yolu çəkdirdi.

Həmçinin, Gəmiqayada işləyəcək ekspedisiya üzvlərinin fəaliyyəti üçün maksımum səviyyədə hər cür şərait yaradıldı: tibb məntəqəsindən tutmuş, istirahət üçün qurulan çadırlaradək. Məhz buna görə də Gəmiqayada 2001, 2002, 2005-ci illərdə müxtəlif ixtisas sahibləri olan alimlərdən təşkil olunmuş respublika və beynəlxalq miqyaslı kompleks ekspedisiyalar işlədi, mühüm elmi nəticələr əldə edildi. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı ilə 20-24 iyul 2011-ci ildə Naxçıvan şəhərində keçirilən "Naxçıvan: ilk yaşayış və şəhərsalma yeri kimi" beynəlxalq simpoziumun yekun iclası da Gəmiqayada keçirildi.

Qeyd etmək lazımdır ki, saxtakar erməni alimləri Naxçıvan bölgəsinin digər maddi-mədəniyyət nümunələri kimi, Gəmiqaya abidəsini də beynəlxalq ictimaiyyətə erməni mədəniyyəti nümunəsi kimi təqdim etməyə çalışmışlar. Hətta bu sahədə müəyyən işlər də görmüşlər. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Gəmiqaya abidəsinin tədqiqi ilə əlaqədar imzaladığı sərəncamda bu haqda deyilir: "Təəssüflə qeyd olunmalıdır ki, 70-ci illərdən xalqımızın milli özünüdərki, tariximizin və mədəniyyətimizin araşdırılması sahəsində həyata keçirilən bir çox taleyüklü tədbirlər kimi, Gəmiqaya abidələrinin tədqiqi sahəsində aparılan işlər də 1980-ci illərin axırlarından unudulmağa başlanmış, tədqiqat işləri ara vermişdir. Yaranmış boşluqdan istifadə edən millətçi erməni "tədqiqatçıları" gizli şəkildə Gəmiqayada tədqiqat işləri aparmışlar. Aparılan işlərin nəticəsi olaraq nəşr edilən "Navasarın qaya təsvirləri" və "Naxçıvanın memorial abidələri və relyefləri" adlı materiallarda erməni alimləri tarixi saxtalaşdırmaq sahəsində öz əməllərinə sadiq qalaraq xalqımızın ən qədim yadigarı olan Gəmiqaya abidələrini heç bir elmi əsas olmadan erməni abidəsi kimi qələmə verməyə çalışmış, Gəmiqayanın adını "Navasar", "Tapanasar" kimi uydurma adlarla əvəz etmişlər" *(126, s. 111)*.

Ancaq ermənilər bununla kifayətlənməmiş, Azərbaycanda Gəmiqaya ilə əlaqədar aparılan tədqiqatlara millətçilik donu geydirməyə nail olmuşlar. Məsələn, Gəmiqayada tədqiqat aparan alimlərdən filologiya elmləri namizədi Əbülfəz Hüseyninin "Sovet Naxçıvanı" qəzetinin (indiki "Şərq qapısı" qəzeti) 30 yanvar 1986-cı il tarixli nömrəsində Gəmiqaya abidəsindən bəhs edən "Xalqımızın mənlik heykəli" adlı məqaləsi *(75)* dərc edildikdən sonra ermənilər bunu Azərbaycanda millətçiliyin təzahürü kimi qələmə vermiş, bu məsələni öz havadarları vasitəsi ilə Sovet İKP MK Siyasi Bürosu səviyyəsinə

qaldıra bilmişdilər. Nəticədə Moskvanın tələbi ilə bu məsələ Azərbaycan KP MK-nın Plenumunda müzakirə olunmuş, MK-nın I katibi plenumdakı məruzəsində bu hadisəni pisləmişdi. Məqalənin nəşr olunduğu qəzetin redaktor müavininə töhmət verilmişdi. Məqalə müəllifi isə çox çək-çevirə salındığından infakt keçirmiş və həmin ilin sonlarında vəfat etmişdi. Ulu öndər Naxçıvan Muxtar Respublikası Ali Məclisində keçirilən məlum müşavirədə bu hadisəni də xatırlamış, ona münasibət bildirmiş, Siyasi Büro üzvlərinin bu məsələdən xəbərdar olduğundan söhbət açmış və qeyd etmişdir ki, "... ermənilər deyirmişlər ki, bu abidə Azərbaycanın deyil ermənilərindir. Amma həqiqətən də bu Azərbaycanındır. Həmin abidənin Azərbaycana məxsus olması barədə bir söz deyəndə, görürsünüzmü, söhbət hansı səviyyəyə gedib çatmışdı və buna necə reaksiya verilmişdi. ...Bu fakt nəyi göstərir? O tərəfin bu barədə çox təşəbbüskarlığını, gözüaçıqlığını, onlara mənsub olmayan şeyləri özlərinə çıxmaq, əllərinə keçirmək cəhdini, amma bizim tərəfin passivliyini... Mən bunu ona görə xatırlayıram ki, o vaxt bir tərəfdən şərait münasib olmayıbdır, bir tərəfdən də, yenə deyirəm, bizim insanlarda çox passivlik olubdur. Amma mən istəyirəm ki, daha bu passivlik olmasın. İndi heç kəs heç nədən qorxmasın, belə şeylərdən ötrü heç kəsi cəzalandırmaq mümkün deyildir. Heç kəs müstəqil Azərbaycanın işinə qarışa bilməz. Mən də Azərbaycan Prezidenti kimi sizə və bütün əhalimizə, bütün alimlərimizə, ziyalılarımıza bildirmək istəyirəm ki, Azərbaycanın, onun xalqının tarixini, mədəniyyətini, keçmişini dürüst, əsaslı şəkildə sübut edən hər bir əsər bəyəniləcəkdir. Bu barədə heç kimə nə millətçi damğası vurulacaq, nə də kimsə günahlandırılacaqdır. Bununla bir daha bildirmək istəyirəm ki, indi, müstəqil dövlət şəraitində bizim alimlərimizin böyük imkanları var. Amma alimlərimiz gərək keçmiş Sovet sistemində çalışdıqları iş üslubundan uzaqlaşsınlar. Gərək o passivlikdən əl çəksinlər, bəziləri gərək "yuxudan ayılsınlar" *(20, s. 21).*

Müşavirədə giriş nitqində AMEA Naxçıvan Bölməsinin yaradılması haqqında imzaladığı sərəncamı şərh edərkən "bəzən mən çox vacib sərəncamlar verirəm, ancaq təəssüflər olsun ki, icraçılar o sərəncamın ruhunun səviyyəsinə qalxa bilmirlər. Onun hərfi mənasını da düzgün anlaya bilmirlər" *(20, s. 22)* deyən ulu öndər yekun nitqində "istəyirəm ki, hamınız mənim bu təşəbbüsümü, sərəncamımı, bir də deyirəm, onun ruhunu dərindən dərk edəsiniz və onun ruhu əsasında işlərinizi qurasınız. Onda biz nəticələr əldə edəcəyik" *(20, s. 28)* fikrini vurğulayaraq tədqiqatçıları imzalanan sərəncamın ruhuna, tələblərinə uyğun şəkildə işləməyə səsləmişdir.

AMEA Naxçıvan Bölməsinin Rəyasət Heyəti və Elmi-tədqiqat institutları üçün binanın istifadəyə verilməsi mərasimində Naxçıvan MR Ali Məclisinin

Sədri Vasif Talıbov qeyd etmişdir ki, "Naxçıvanda yerin altı da, üstü də tarixdir. Burada yerin altı da, üstü də təbii sərvətdir. Naxçıvanda çox qədim tarixə malik olan mədəniyyət nümunələri aşkar edilib. ...Biz Gəmiqaya abidələrinə nəzər salsaq, onda bu torpaqda yaşamış insanların hələ neçə min il əvvəl hansı mədəniyyətə malik olduğunun şahidi olarıq. ...bunların hamısının tədqiqata, araşdırmaya ehtiyacı var. Bunların öhdəsindən isə, mən elə bilirəm ki, Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsi layiqincə gələcəkdir" *(20, s. 33)*.

Beləliklə, ulu öndər Heydər Əliyevin tövsiyyə və tapşırıqlarına uyğun olaraq Gəmiqayada tədqiqatların miqyası genişləndi. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun birbaşa nəzarətində olan və himayəsi ilə həyata keçirilən bu tədqiqatlar uğurlu nəticələr verdi. 2001-ci ildə Ali Məclisin Sədri Vasif Talıbov Gəmiqayaya gedəcək ekspedisiya üzvləri ilə görüş zamanı təəssüflə bildirmişdi ki, 1968-ci ildən elm aləminə bəlli olan Gəmiqaya haqqında indiyədək cəmi bir kitab, ona yaxın məqalə yazılaraq nəşr etdirilmişdir. Qeyd etmək lazımdır ki, yüksək dövlət qayğısı sayəsində XXI yüzilliyin əvvəllərində Gəmiqayada aparılmış tədqiqatlar nəticəsində ilk dəfə olaraq bu təsvirlərin statistikası aparıldı, əvvəllər məlum olmayan yüzlərlə qayaüstü təsvir (insan, maral, öküz, atlı, araba, dəvə, bəbir və quşların realist üslubda həkk edilmiş rəsmləri) aşkar olundu. Abidənin qayaüstü təsvirlərinin ümumi sayının 1500-ə yaxın olduğu müəyyənləşdirildi *(111, s. 12)*. Həmçinin, Qaranquş və Nəbi yurdu yaylaqlarında mövcud olan yurd yerlərində şərti olaraq "kurqan" hesab edilən abidələrdə, orta əsrlər dövrünə aid "Babəkilər qəbiristanlığı"nda qazıntı işləri aparıldı, Naxçıvanın İlk Tunc dövrü Kür-Araz mədəniyyəti üçün səciyyəvi olan maddi-mədəniyyət nümunələri aşkar olundu, siklop tipli istehkam tikililəri (5 qalaça) qeydə alındı. Bu istehkamlar yaxınlığında aparılan arxeoloji tədqiqatlar nəticəsində əldə edilmiş Tunc və İlk Dəmir dövrü keramika məmulatları həmin müdafiə tikintilərinin e.ə. IV-I minilliklərə aid olduğunu söyləməyə imkan verdi *(55, s. 10-13)*. Gəmiqayada aparılan bu kompleks tədqiqatlar zamanı aşkara çıxarılmış materiallar əsasında çoxlu monoqrafiya *(30; 31; 57; 55; 110; 111; 132)* və məqalələr yazıldı. AMEA Naxçıvan Bölməsinin "Xəbərləri"nin bir nömrəsi Gəmiqayada aparılan tədqiqatlara həsr olundu *(21)*.

Şübhəsiz ki, Gəmiqada aparılan tədqiqatları bununla bitmiş hesab etmək olmaz. Yəqin ki, gələcəkdə bu ərazidə yeni və kompleks tədqiqatlar aparılacaq, bu möhtəşəm abidə ilə əlaqədar daha sanballı elmi fikirlər söylənəcəkdir.

# İKİNCİ FƏSİL

## NAXÇIVAN MUXTAR RESPUBLİKASI – 90

### 2.1. MUXTARİYYƏT ƏRƏFƏSİNDƏ NAXÇIVANDA VƏZİYYƏT
*(1918-1924-cü illər)*

09 fevral 2014-cü ildə Naxçıvan Muxtar Respublikasının yaradılmasının 90 ili tamam oldu. Bu münasibətlə Naxçıvan Muxtar Respublikasının yaradılmasının 90 illik yubileyinin dövlət səviyyəsində qeyd olunması ilə əlaqədar Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 14 yanvar 2014-cü ildə Sərəncam imzalamışdır ***(18, 15 yanvar 2014-cü il)***. Bu sərəncamla əlaqədar Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun 17 yanvar 2014-cü ildə imzaladığı Sərəncamla təsdiq olunmuş "Tədbirlər Planı"nda muxtar respublikanın yarandığı tarixi şəraitin və zərurətin, onun keçdiyi inkişaf yolunun, ümumiyyətlə Naxçıvanın muxtariyyət tarixi ilə bağlı tədqiqat işlərinin aparılması, xalqımıza və beynəlxalq ictimaiyyətə çatdırılması tədqiqatçılar qarşısında aktual bir vəzifə kimi qoyulmuşdur. Ona görə də tədqiqatçılar, xüsusilə tarixçi alimlər 28 dekabr 2013-cü ildə keçirilən IV çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin VIII sessiyasında "Muxtariyyət ili" elan edilən 2014-cü ildə muxtar respublika tarixinin müxtəlif problemlərinin dərindən, ətraflı və obyektiv şəkildə öyrənilməsi ilə əlaqədar qüvvələrini səfərbərliyə almalı, Prezident sərəncamında "Azərbaycanın siyasi tarixinin mühüm əhəmiyyətli hadisəsi kimi" dəyərləndirilən Naxçıvan Muxtar Respublikasının yaradılmasının 90 illiyi ilə əlaqədar tədqiqatlarını genişləndirməli, bu haqda yeni faktların aşkara çıxarılması və yeni söz deyilməsi üçün səylə çalışmalıdırlar.

Sərəncamda qeyd olunduğu kimi "tarixən çətin sınaqlarla dolu mürəkkəb və eyni zamanda şərəfli bir yol qət edən" Naxçıvan bölgəsi muxtariyyətin yaranması ərəfəsində öz tarixinin ağır günlərini yaşayırdı. Keçən yüzilliyin əvvəllərində dünyada baş verən sosial-siyasi hadisələr, xüsusilə 1914-cü ildə başlanan I Dünya Müharibəsinin gedişi zamanı Rusiya ordusunun uğursuzluqları imperiyanın mərkəzində olduğu kimi milli ucqarlarında da vəziyyəti xeyli ağırlaşdırmış, bu nəhəng dövlətin dağılması ilə nəticələnmişdi. İmperiyanın tərkib hissəsi kimi bu zaman Azərbaycanda da vəziyyət son dərəcə kəskinləşmiş, bundan istifadə edən ermənilər "Böyük Ermənistan" xülyasını gerçəkləşdirmək üçün Bakıda və ölkənin bir sıra yerlərində dəhşətli faciələr törətmişdilər. Bəhs olunan dövrdə baş verən hadisələr Azərbaycanın qədim diyarı Naxçıvandan da yan keçməmiş, bölgədə vəziyyət

son dərəcə pisləşmişdi. Həmin vaxt Naxçıvanda da ikihakimiyyətlilik meydana gəlmiş, iri kapitalist dövlətləri yaranmış vəziyyətdən istifadə edərək Azərbaycanın bu qədim diyarına yiyələnmək uğrunda mübarizəyə başlamışdılar. Vəziyyəti ağırlaşdıran cəhətlərdən biri də qondarma daşnak Ermənistanının özünə birləşdirmək məqsədi ilə əraziyə etdiyi basqınlar idi. XIX yüzillik boyu Naxçıvana köçürülüb burada məskunlaşdırılan ermənilərin ərazidə müsəlman-türk əhaliyə qarşı törətdiyi vəhşiliklər vəziyyəti daha da mürəkkəbləşdirirdi. İndiki Ermənistandan deportasiya nəticəsində canlarını qurtarmaq üçün ata-baba yurdlarını tərk edərək qaçıb Naxçıvana gələn qaçqınlar, baş verən aclıq və qəhətlik vəziyyəti lap ağırlaşdırırdı.

Arxiv materialları, tədqiqat əsərləri, baş verən faciələri gözləri ilə görən müasirlərin xatirələri və sair faktlar təkzibolunmaz şəkildə təsdiq edirlər ki, 1918-ci il Naxçıvan əhalisi üçün böyük müsibətlərlə başlandı. Qafqaz cəbhəsində məğlub olaraq ərazini tərk edən Rusiya ordusundan aldıqları döyüş sursatı ilə güclü surətdə silahlanmış erməni quldur dəstələri artıq mart ayında Naxçıvan bölgəsinin müxtəlif yerlərində faciəli qırğınlar törətdilər. Onlar Naxçıvan və Şərur-Dərələyəz qəzalarının, Ordubadın kəndlərinə qəfil basqınlar edir, əhaliyə divan tutur, qadınları, uşaqları, qocaları belə öldürür, heç kimə rəhm etmirdilər. Arxiv materialları təsdiq edir ki, 1918-ci il yayın əvvəllərinə qədər ermənilər çoxlu miqdarda müsəlman kəndini yandırmış, minlərlə günahsız insanı qətlə yetirmişdilər.

Belə bir vaxtda Naxçıvan ərazisi Azərbaycan xalqının qəddar düşməni, Türkiyədə hərbi andına xəyanət etdiyinə görə bir qulağı kəsilməklə cəzalandırılan qaniçən general Andronik Ozanyanın hücumlarına məruz qaldı. 1918-ci ilin iyun ayında Xoy şəhəri yaxınlığında türk qoşunları tərəfindən məğlub edilən Andronik öz qoşunları ilə Arazın cənub sahilləri boyunca şərqə doğru hərəkət etdi və Culfa bölgəsinin Yaycı kəndi yaxınlığında Arazı keçərək Naxçıvan ərazisinə daxil oldu. Yaycı kənd əhalisi mühasirəyə alındı. Hücum nəticəsində dörd minə yaxın qadın, uşaq və yaşlının çoxu qətlə yetirildi. Ölənlər o qədər çox, qalanlar o qədər az idi ki, ölənləri dəfn etməyə adam yox idi *(13, s. 53-56)*.

Naxçıvan şəhərini tutmağı öz qarşısına məqsəd qoyan Andronikin quldur dəstələri Yaycıdan sonra Ordubad rayonunun Aza, Dizə, Düylün kəndlərinin əhalisini demək olar ki, qılıncdan keçirdi. Qısa müddət ərzində o, Ordubad dairəsinin əksər hissəsini, Culfa şəhərini və bir sıra kəndləri işğal etdi. Dövri mətbuat materialları təsdiq edir ki, həmin vaxt Andronik Gilançay, Əlincəçay və Naxçıvançay vadisində çoxlu kəndi dağıdıb viran qoymuş, əhalinin əksəriyyətini vəhşicəsinə qətlə yetirmişdir. Baş verən bu

hadisələrlə əlaqədar ordubadlılar və Naxçıvan əhalisi Bakıya vurduqları teleqramlarda bildirirdilər ki, Andronikin quldur dəstəsi burada amansız qırğın aparır və talançılıqla məşğul olur.

Məhz belə bir şəraitdə vəziyyətdən çıxış yolu axtaran naxçıvanlı demokratik ziyalıların və milli burjuaziyanın təşəbbüsü ilə Naxçıvanda Müsəlman Milli Şurası yaradıldı. Milli Şura yerli əhalinin köməyi ilə təkcə Naxçıvanda deyil, geniş miqyasda Mehridən Uluxanlıya qədər ərazidə yaşayan azərbaycanlıları erməni quldur dəstələrinin qırğınlarından qorudu. Kazım Qarabəkir paşanın rəhbərliyi ilə Naxçıvana köməyə gələn türk qoşunları ilə Naxçıvan əhalisi, xüsusilə yerli gənclərdən təşkil olunmuş könüllü özünümüdafiə dəstələri ermənilərin Naxçıvanı tutmaq və yaratmaq istədikləri xəyali "Böyük Ermənistan"a qatmaq arzusunun həyata keçirilməsinə mane oldu. Ümumiyyətlə Naxçıvan əhalisi bütün vaxtlarda Naxçıvanı Azərbaycanın tərkib hissəsi hesab etmiş və süni surətdə ayrı salınmış ana torpaqla – Azərbaycanla birləşmək uğrunda mübarizə aparmışlar. Naxçıvan əhalisi fikrini dəfələrlə birmənalı şəkildə bildirmişdi ki, bu xalq mədəni dövlətlərin alovlarında məhv olmağa razı olar, amma Azərbaycandan ayrılmaz *(124, s. 29)*.

28 may 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyəti elan edildi. Bu hadisə Naxçıvan əhalisinin böyük sevincinə səbəb olmuş, onlarda böyük ümidlər yaratmışdı. Belə bir vaxtda Naxçıvanda yaranmış ağır vəziyyəti düzəltmək, çətinlikləri aradan qaldırmaq üçün yerli əhali və onun rəhbərləri – Cəfərqulu xan, Rəhim xan, Kəlbəli xan və başqaları, həmçinin Azərbaycan Xalq Cümhuriyyəti hökuməti tərəfindən müəyyən işlər görülmüş, ermənilərin torpaq iddialarının və Naxçıvanda etnik təmizləmə siyasətinin həyata keçirilməsinə mane olmuşdular.

Bölgədə erməni vəhşiliklərinin qarşısının alınmasında yerli əhalinin mühüm rolu olmuşdur. Bu məqsədlə 1918-ci ilin iyul ayından başlayaraq Naxçıvanda könüllülər dəstəsi yaradılmışdı. Nəticədə Naxçıvanda və ətraf ərazilərdə 20-yə qədər könüllülər batalyonu təşkil olunmuşdu. 220-500 nəfərdən ibarət bu batalyonların dördü Naxçıvanda, üçü Şərur-Dərələyəzdə, digərləri Vedibasar, Qəmərli, Zəngibasar və Başkənddə (Aralıq) idilər. Bu könüllülər qüvvəsi ermənilərin qarşısında sədd çəkmişdilər *(13, s. 82-83)*.

Naxçıvanla əlaqələrin yaradılmasına və genişlənməsinə böyük əhəmiyyət verən Azərbaycan Xalq Cümhuriyyəti hökuməti çətin vəziyyətdə olan Naxçıvan, Şərur, Ordubad əhalisinə yardım üçün Naxçıvan Milli Şurasına 400 min manat göndərmişdi və daha 300 min manat göndərilməsi nəzərdə tutulmuşdu *(15, s. 16)*.

Naxçıvanla əlaqələr asan olsun deyə Qarabağ general-qubernatorunun Naxçıvan bölgəsinin idarəsi üzrə köməkçisi fəaliyyət göstərmiş, bir qədər sonra isə Qarabağ general-qubernatorluğu nəzdində Naxçıvan bölgəsinə dair xüsusi tapşırıqlar üzrə müvəkkillik vəzifəsi yaradılmışdı. Səməd bəy Cəmillinski Naxçıvanın general-qubernatoru təyin edilmişdi. S.Cəmillinskinin qərargahı əvvəl Ordubadda olsa da, sonra Naxçıvana köçürülmüşdü *(15, s. 16)*.

1918-ci il mayın 29-da Azərbaycan Xalq Cümhuriyyəti hökuməti tərəfindən İrəvanın ermənilərə güzəştə gedilməsindən sonra ermənilər Naxçıvanı ələ keçirmək üçün daha da fəallaşdılar. ABŞ-ın bölgədə rolunun artması erməniləri daha da şirnikləşdirdi. Naxçıvana təzyiqlər artdı, buna görə də bölgəni ermənilərin işğalından qorumaq üçün əhalinin təşəbbüsü ilə 1918-ci ilin noyabrında burada Araz-Türk Respublikası yaradıldı. Çox geniş bir ərazini (8696 kvadrat kilometr), o cümlədən Naxçıvan və Şərur-Dərələyəz qəzalarını, Ordubad mahalını, Sərdarabadı, Uluxanlını, Vedibasarı, Qəmərlini, Mehrini, Sürməlini əhatə edən və 1 milyon nəfərə yaxın əhalisi olan Araz-Türk Respublikasının paytaxtı Naxçıvan şəhəri idi *(15, s. 9)*. Az bir müddət yaşamasına baxmayaraq Araz-Türk Respublikası əhalinin erməni təcavüzünə qarşı səfərbərliyə alınmasında, bölgənin erməni işğalından qorunmasında mühüm rol oynadı.

Bu işdə əsası daha əvvəllərdən qoyulmuş, Araz-Türk Respublikası tərəfindən isə təşkilatlandırılmış milli qüvvələr – batalyonlar, o cümlədən Kəblə Muxtarın rəhbərlik etdiyi Nehrəm batalyonu, Kəblə Kərimin rəhbərlik etdiyi Cəhri batalyonu, Məhəmmədrza bəyin rəhbərlik etdiyi Dizə batalyonu, Hüseyn Əliyevin rəhbərlik etdiyi Şərur batalyonu, Həsən Şahverdi oğlunun rəhbərlik etdiyi Şərur-Sədərək kəndlərindəki birliklər, Məşədi Ələsgər ağanın rəhbərlik etdiyi Yengicə qüvvələri, Möhsün Camalovun rəhbərlik etdiyi Kərkər qüvvələri, Fətullah Hüseynov və Kərbəlayi Həbib bəyin başçılığı ilə Cəlilkənd-Zeyvə-Düdəngə kənd qüvvələri, İbrahimxəlil Axundovun rəhbərlik etdiyi Ordubad batalyonu mühüm rol oynamışlar *(13, s. 124)*. Bütün bunların sayəsində, əhalinin qüvvəsi ilə Naxçıvan erməni təcavüzündən xilas oldu. Azərbaycan Xalq Cümhuriyyətinin ərazi bütövlüyü təmin olundu.

Bir sıra tədqiqatçılar Araz-Türk Respublikası və Azərbaycan Xalq Cümhuriyyəti arasında əlaqələrin olmaması fikrində olsalar da, son illərdə aparılan tədqiqatlar təsdiq edir ki, zəif də olsa bu əlaqələr olmuş, hətta hər iki tərəf, o cümlədən Araz-Türk Respublikası əlaqələrin yaradılmasına böyük önəm vermişdir. Hətta bu məqsədlə 8 mart 1919-cu ildə Bakıya Araz-Türk Respublikasının xüsusi missiyası göndərilmişdi. Nümayəndə

heyətinin Naxçıvandakı vəziyyətlə bağlı qaldırdığı məsələlər 10 mart 1919-cu ildə Azərbaycan parlamentində müzakirə olunmuşdu *(15, s. 13)*.

Erməni təcavüzünün qarşısını almaq üçün bir sıra hərbi hissələr yaradarkən böyük maddi sıxıntılarla üzləşən Araz-Türk hökuməti bölgənin fəal gənclərindən Paşa Bayramovu Bakıya göndərmiş, onun vasitəsi ilə AXC hökumətindən yardım istəmişdi. Bu müraciət müsbət qarşılanmış və hərbi qüvvələr təşkil etmək üçün Araz-Türk Respublikasına bir milyon manat ayrılmışdı *(13, s. 124-125)*.

1919-cu ilin əvvəllərində ingilislər Naxçıvanı tutaraq Araz-Türk Respublikasını və Naxçıvan Milli Komitəsini ləğv etdilər. Azərbaycan Xalq Cümhuriyyəti hökuməti ermənilərə inanaraq 23 noyabr 1919-cu ildə Ermənistanla bağlanmış müqavilənin şərtlərinə əsasən öz qoşunlarını Zəngəzurdan çıxardı. Bundan istifadə edən ermənilər Zəngəzuru tutdu və Naxçıvanın Azərbaycandan ayrı düşməsinin əsası qoyuldu.

Məlum olduğu kimi Qızıl ordunun 1920-ci il aprelin 27-də Bakını tutması ilə Azərbaycan Xalq Cümhuriyyəti devrildi, 28 apreldə Azərbaycanda sovet hakimiyyəti quruldu. Bunun ardınca 28 iyul 1920-ci ildə Naxçıvan sovetləşdi, Naxçıvan SSR yaradıldı. Naxçıvan əhalisinin iradəsini ifadə edərək M.Bəktaşov sovetləşmədən bir neçə gün sonra, 10 avqust 1920-ci ildə N.Nərimanova məktub yazaraq Naxçıvanın Azərbaycan SSR-in ayrılmaz tərkib hissəsi olduğunu elan etdi və ona birləşməyə hazır olduqlarını bildirdi.

29 noyabr 1920-ci ildə Ermənistan SSR-in yaradılmasından sonra ermənilərin Naxçıvana olan ərazi iddiaları daha da genişləndi. Bu zaman V.İ.Lenin, İ.Stalin və S.Orcenikidze Naxçıvanın Ermənistana verilməsi ideyasını müdafiə edirdilər. İ.Stalin hələ Ermənistanda sovet hakimiyyətinin qurulmasından əvvəl, 04 noyabr 1920-ci ildə AK(b)P Mərkəzi Komitəsinin Siyasi Bürosu və RK(b)P Qafqaz Bürosu üzvlərinin iştirakı ilə "Ermənistanda vəziyyət" məsələsi müzakirə edilərkən belə bir bəyanatla çıxış etmişdi ki, əgər bilmək istəyirsinizsə Zəngəzur və Naxçıvan kimə məxsus olmalıdır, onları Ermənistanın indiki hökumətinə (yəni Daşnak hökumətinə – F.S.) vermək olmaz, Sovet hökuməti olanda vermək olar. Bu bəyanat elə bir vaxtda verilmişdi ki, artıq Qırmızı ordu hissələri Cənubi Qafqaza daxil olmuş, Azərbaycanı, az sonra Naxçıvanı sovetləşdirmişdi. Ermənistanın sovetləşməsinə lap az qalmışdı. Başqa sözlə desək, Ermənistan 29 noyabrda, yəni bəyanatdan 25 gün sonra sovetləşdi. Deməli İ.Stalin bu vəziyyəti qabaqcadan görür və faktiki olaraq Naxçıvanın və Zəngəzurun Ermənistana verilməsini istəyirdi. Məhz buna görə də Ermənistan sovetləşdikdən sonra sovet rəhbərliyinin anti-Azərbaycan siyasəti nəticəsində Zəngəzur ərazisinin

böyük bir hissəsi Ermənistan SSR-ə verildi. Bu tarixi Azərbaycan torpağının hesabına Ermənistan SSR Xalq Komissarları Sovetinin 20 iyul 1921-ci il tarixli qərarı ilə Ermənistan SSR-nin tərkibində Zəngəzur qəzası yaradıldı *(119, s. 369-370)*. Beləliklə, Zəngəzurun Ermənistana verilməsi ilə Naxçıvan bölgəsi süni surətdə Azərbaycanın əsas hissəsindən ayrı salındı. Ona görə də bu məsələlərdən bəhs edən ümummilli lider Heydər Əliyev qeyd edirdi ki, əgər Zəngəzur mahalının Ermənistana verilməsi olmasaydı, bəlkə də Naxçıvanın muxtariyyəti də lazım deyildi və Azərbaycan vahid əraziyə malik olan bir ölkə idi *(18, 12 fevral 1999-cu il)*.

Sovet rəhbərlərinin Azərbaycana qarşı bu cür mənfi münasibətinə, xüsusilə N.Nərimanovun dilindən səsləndirilən Naxçıvanla bağlı 1 dekabr 1920-ci il tarixli bəyanata görə dekabrın 5-dən Naxçıvan əhalisinin geniş etirazları başlandı. Naxçıvanda vəziyyət kəskinləşdiyinə görə respublika rəhbərliyi İnqilab Komitəsinin üzvü, Ədliyyə komissarı Behbud Şahtaxtinskini Naxçıvana göndərdi *(61, s. 98-99)*. Erməni təcavüzünə qarşı əhalinin təşkilatlanmasında Behbud Şahtaxtinski müstəsna rol oynadı. Vəziyyətin ciddiliyini görən Ermənistan İnqilab Komitəsi 1920-ci il dekabrın 28-də Naxçıvanı Müstəqil Sovet Sosialist Respublikası kimi tanıdı və Naxçıvanla bağlı ərazi iddialarından əl çəkdiyini bildirdi. Naxçıvanı Azərbaycanın tərkib hissəsi kimi deyil, Azərbaycandan ayrı, müstəqil bir dövlət kimi tanımaqda da erməni hiyləgərliyi özünü büruzə vermiş, gələcəkdə Naxçıvana olan ərazi iddialarının gerçəkləşdirilməsinin asan olması üçün onu Azərbaycanın bir hissəsi kimi deyil, müstəqil Sovet Sosialist Respublikası kimi tanımışdı.

Sovet hakmiyyəti qurulduqdan sonra da ermənilərin Naxçıvana ərazi iddiaları səngimədən davam etməkdə idi. Onlar öz iddialarından əl çəkmədikləri üçün bu məsələ ilə əlaqədar əhalinin fikrini öyrənmək məqsədi ilə 1921-ci ilin yanvarında Naxçıvanda Rusiya, Azərbaycan və Ermənistan nümayəndələrinin iştirakı ilə rəy sorğusu (referendum) keçirildi. Referendumda respublika əhalisinin 90%-i Naxçıvanın muxtariyyət statusunda Azərbaycanın tərkibində qalmasına səs verdi.

Naxçıvana Azərbaycanın tərkibində muxtariyyət statusunun verilməsində Moskva və Qars müqavilələrinin də böyük rolu oldu. N.Nərimanovun bu məsələdə prinsipial mövqeyi, B.Şaxtaxtinskinin Moskvada apardığı danışıqlar Naxçıvan məsələsində Moskvanın mövqeyinin dəyişməsinə öz təsirini göstərdi. Ümumiyyətlə B.Şaxtaxtinskinin Naxçıvana muxtariyyət statusunun verilməsində çox böyük xidmətləri olmuşdur. O hətta Moskvaya, V.İ.Leninə məktub yazmış, məktubda Naxçıvan, Zəngəzur və Dağlıq Qarabağ haqqında həqiqətləri ona çatdırmışdı. Məktubda tarixi Azərbaycan torpaqları olan bu

ərazilər, həmin yerlərin tarixi coğrafiyası, əhalisinin milli tərkibi haqqında məlumatlar verilmiş, fikirlərini sübut etmək üçün Moskvaya bir sıra arayışlar göndərilmişdi. Bütün bunlar V.İ.Leninin diqqətini cəlb etmiş, nəticədə Siyasi Büro onun təklifi ilə Azərbaycan SSR-in tərkibində Naxçıvan SSR-in təşkili haqqında qərar qəbul etmişdi.

16 mart 1921-ci ildə RSFSR ilə Türkiyə arasında bağlanan Moskva müqaviləsi *(83, s. 112-113)*, bunun ardınca 13 oktyabr 1921-ci ildə Qarsda Türkiyə, Rusiya, Azərbaycan, Ermənistan və Gürcüstan nümayəndələrinin iştirakı ilə imzalanan müqavilə *(83, s. 120-123)* Naxçıvanın ərazi mənsubiyyətini, hətta sərhədlərini belə təsdiqlədi. Ancaq müxtəlif səbəblərdən Naxçıvan Muxtar Respublikasının yaradılması ləngimiş, 27 fevral 1923-cü ildə III Ümum Naxçıvan Sovetlər qurultayının qərarı ilə Naxçıvan Muxtar Diyarı yaradılmışdı. Nəhayət 9 fevral 1924-cü ildə Azərbaycan MİK Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının yaradıldığını elan etdi. Beləliklə, qədim və əzəli Azərbaycan ərazisi olan Naxçıvan 1920-1923-cü illərdə Naxçıvan SSR, 1923-1924-cü illərdə Naxçıvan Muxtar Diyarı, 1924-cü ilin 9 fevralından 1990-cı ilin 17 noyabrınadək Naxçıvan MSSR adlanmışdır. Naxçıvan MSSR Ali Sovetinin 1990-cı ildə yeni seçilmiş deputatlarının iştirakı ilə 17 noyabrda keçirilən ilk sessiyasına sədrlik edən xalqımızın ümummilli lideri Heydər Əliyevin təklifi ilə Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının adından "Sovet Sosialist" sözləri çıxarıldı. Həmin vaxtdan Azərbaycanın bu qədim diyarı Naxçıvan Muxtar Respublikası adlanmağa başladı.

Azərbaycan Xalq Cümhuriyyəti rəhbərlərinin də etiraf etdiyi kimi Naxçıvan əhalisinin igidliyi, qəhrəmanlığı, vətənpərvərliyi sayəsində çox çətin və mürəkkəb şəraitdə bölgənin ərazi bütövlüyü qorunub saxlanmış, ermənilərin "Böyük Ermənistan" xülyasının gerçəkləşməsinə imkan verilməmişdir. Əgər belə olmasaydı ermənilər Naxçıvanı ələ keçirəcək və tariximizdə 1924-cü ildən bəri şərəfli iz buraxan Naxçıvan Muxtar Respublikası da yaradılmayacaqdı.

Bütün bunlara görə xalqımızın ümummilli lideri Heydər Əliyev Naxçıvanın muxtariyyət statusuna yüksək qiymət verərək demişdir: "Naxçıvanın muxtariyyəti tarixi nailiyyətdir. Biz bunu qoruyub saxlamalıyıq. Naxçıvanın muxtariyyəti Naxçıvanın əldən getmiş başqa torpaqlarının qaytarılması üçün ona xidmət edən çox böyük amildir. Biz bu amili qoruyub saxlamalıyıq" *(18, 17 yanvar 1998-ci il)*.

Ancaq çox təəssüflər olsun ki, keçən yüzilliyin 90-cı illərinin əvvəllərində Naxçıvan MR Ali Məclisinə rəhbərlik edən Heydər Əliyevlə açıq mübarizədə

heç bir nəticə əldə edə bilməyən və iflasa uğrayan bəzi qüvvələr ulu öndəri hakimiyyətdən kənarlaşdırmaq, siyasi həyatdan təcrid etmək üçün müxtəlif bəhanələrlə həmin vaxt dahi şəxsiyyətin rəhbərlik etdiyi Naxçıvanın muxtariyyət statusunun ləğv olunması istiqamətində iş aparmağa başladılar. Lakin ümummilli lider Heydər Əliyev bütün bu cəhdlərin qarşısını qətiyyətlə aldı. Hətta o, 1992-ci il mart ayının 22-25-də Türkiyə Respublikasında səfərdə olarkən 13 oktyabr 1921-ci ildə Qarsda müddətsiz imzalanan və imzalayan dövlətlərdən heç birinin birtərəfli qaydada ləğv edə bilməyəcəyi müqavilənin gündəliyə çıxarılmasına nail olmuş, bu zaman "Türkiyə Naxçıvanın ərazi bütövlüyünün təminatçısıdır" fikri xüsusi olaraq vurğulanmışdır. Həmin vaxt Türkiyə Respublikasının Baş Naziri işləyən Süleyman Dəmirəl bəyan etmişdi ki, Moskva və Qars müqavilələrinə görə Naxçıvan Muxtar Respublikasının statusunda bir dəyişiklik edilərsə, Türkiyə burada söz sahibidir *(61, s. 54)*.

Ümummilli lider Heydər Əliyev tərəfindən "...Naxçıvanın bütövlüyünü, təhlükəsizliyini, dövlətçiliyini, muxtariyyətini gələcəkdə də təmin etmək üçün çox böyük, əvəzi olmayan bir sənəd" *(6, s. 249)* kimi dəyərləndirilən Qars müqaviləsinin bir daha gündəliyə çıxarılması ilə Naxçıvana ərazi iddiaları getdikcə güclənən işğalçı Ermənistana və Naxçıvanın muxtariyyət statusunu ləğv etmək istəyən bəzi daxili qüvvələrə Naxçıvanın muxtariyyət statusunun qarantı olan Qars müqaviləsinin qüvvədə olduğu və bu statusun heç bir qüvvə tərəfindən dəyişdirilməsinin və ya ləğv olunmasının yol verilməz, qeyri-mümkün olması bildirildi.

Beləliklə, ulu öndərin həyata keçirdiyi bu və digər uğurlu tədbirlər nəticəsində Naxçıvanın muxtariyyət statusu qorunub saxlandı.

## 2.2. MUXTARİYYƏT ƏRƏFƏSİNDƏ NAXÇIVANIN ERMƏNİ TƏCAVÜZÜNDƏN QORUNMASINDA ƏHALİNİN ROLU

Azərbaycan xalqının tarixinə nəzər salarkən aydın olur ki, tariximizin müxtəlif dövrlərində ərazimiz qəsbkar dövlətlərin və ya xalqların hücumuna məruz qalarkən əhali hər hansı bir dövlət başçısının, rəhbərin, liderin və ya xalq qəhrəmanının ətrafında sıx birləşərək ölkənin müdafiəsinə qalxmış, torpaqlarımızın azadlığı uğrunda vuruşmuş, lazım gəldikdə bu yolda çoxlu şəhidlər vermişdir. Ümumiyyətlə ölkənin hər bir məsələsinin həllində əhalinin rolu çox böyük olmuşdur. Ona görə də bir sıra dövlət başçıları bu amildən bacarıqla istifadə etmişlər. Məsələn, Səfəvilər dövləti yarandıqdan sonra Səfəvi şahları hücum edəcəkləri yerlərə əvvəlcədən öz dərvişlərini göndərmiş, onlar isə həmin yerlərdə əhali arasında təbliğat apararaq gələcək hücumlar zamanı Səfəviləri müdafiə etsinlər deyə Səfəvilərə rəğbət yaratmışlar və əhalini öz tərəflərinə çəkmişlər. Ümumiyyətlə bu cür hücumlar zamanı çox şey əhalinin kimi müdafiə etməsindən asılı olmuşdur. 23 avqust 1514-cü ildə baş verən Çaldıran vuruşmasında qələbə çalan osmanlı hakimi Sultan Səlimin Təbrizi tutsa da xalqın inadlı müqaviməti və əhalidən dəstək ala bilməməsi səbəbindən 6 gün sonra şəhəri tərk etməyə məcbur olması *(24, s. 409)* buna çox parlaq bir nümunədir. Yaxud da 1578-1590-cı illər Səfəvi-Osmanlı müharibəsində itirilmiş torpaqları qaytarmaq üçün 1603-cü ildə osmanlılarla müharibəyə başlayan I Şah Abbası müdafiə edərək onun tərəfinə keçməsi səbəbindən Ordubad şəhəri Səfəvilər tərəfindən asanlıqla tutulmuşdu. Bu misallar da göstərir ki, ölkənin tale yüklü məsələlərinin həllində əhali amili mühüm rol oynamışdır. Bu XX yüzilliyin əvvəllərində, 1918-1920-ci illərdə bütün Azərbaycan ərazisi kimi Naxçıvan bölgəsi də erməni təcavüzünə məruz qalarkən də belə olmuşdur.

Məlum olduğu kimi I Dünya müharibəsində məğlub olaraq bütün yerlərdə olduğu kimi Qafqaz cəbhəsində də geri çəkilən Rusiya ordusundan aldıqları döyüş sursatı hesabına güclü şəkildə silahlanan ermənilər Azərbaycanın mərkəzi Bakıda və digər bölgələrində olduğu kimi Naxçıvanda da böyük qırğınlar törədirdilər. Vəziyyəti ağırlaşdıran amillərdən biri də general Andronik Ozanyanın quldur dəstəsinin bölgəyə hücumu idi. Andronikin nizami qoşun hissələri cənubdan Arazı keçərək Culfa bölgəsinin Yaycı, Ordubad bölgəsinin Düylün, Aza, Dizə kəndlərində böyük qırğınlar törətmiş, Naxçıvan şəhərini tutmaq üçün qərbə doğru hərəkət edərkən digər kəndlərdə də çoxlu insanları məhv etmişdilər. Ona görə də Naxçıvan əhalisi erməni qırğınlarına son qoymaq, onları bölgədən qovmaq, rahat yaşamaq üçün

ölüm-dirim savaşına qalxmış, düşməni məğlub edərək bir sıra uğurlar qazanmışdı. Bəzi yaşayış məskənlərinin müdafiəsi zamanı biz bunun parlaq nümunəsinin şahidi oluruq. Naxçıvanda bir sıra kəndləri qılıncdan keçirən Andronik Nehrəm kəndi üzərinə hücuma keçərkən gözləmədiyi bir müqavimətlə qarşılaşdı. Kəndlərinə hücum ediləcəyini bilən nehrəmlilər qonşu müsəlman kəndlərinin köməyilə müdafiə hazırlıqları görmüşdülər. Buna görə də nehrəmlilər Hacı Mehdi və Kərbəlayi Muxtar Cəfərzadənin rəhbərliyi ilə 3 günlük döyüşdə Andronikin şiddətli hücumlarını uğurla dəf etdilər. Müasirlərin xatirələrində qeyd olunur ki, döyüş zamanı Nehrəm əhalisi Andronikin Təzəkənddə toplaşan 300 nəfərlik daşnak silahlı dəstəsi ilə birləşmə cəhdinin qarşısını almışdı. Tabor komandanı Kərbəlayi Muxtar əlində mauzer, kəhər atın belində məhəllələri gəzmiş, əhalini döyüşə qaldırmış, atəş nöqtələrinə patron, çörək, su çatdırmışdı *(118, f.582, siy.1, iş 40, v. 205)*. Nəticədə Nehrəmdə məğlubiyyətə uğrayan Andronikin dəstələri geri çəkilməyə məcbur oldular. Həmin vaxt nehrəmlilər Andronikin dəstəsinə böyük tələfat vurmuş və onların 60-a qədər silahını qənimət kimi almışdılar *(48, s. 68)*.

Hadisələrin şahidi olan müasirlərin xatirələri, arxiv materialları və s. təsdiq edir ki, Nehrəmdə uğursuzluğa düçar olan Andronikin quldur dəstələri bu dəfə Naxçıvan şəhərini hədəf seçdi. Bu zaman erməni liderlərindən Harazyan Naxçıvan əhalisindən silahları təhvil verməyi və tərksilah olmağı tələb etdi. Ancaq əhali bu təklifi qəbul etmədi və özlərindən dəfələrlə güclü olan düşmənlə vuruşmağa hazır olduqlarını bildirdilər. Şəhərə hücum edən ermənilərlə qanlı döyüş başlandı. Vuruşmanın ən qızğın çağında, 1918-ci ilin iyun ayında Kərim xan İrəvanlının başçılığı ilə Naxçıvandan Türkiyəyə gedən Hacı Mehdi Bağırov, İsgəndər Nağıyev, Hacı Xəlil İmanov və Kərbəlayi Abbas Bayramovun xahişinə əsasən Mehmet Vehib paşa tərəfindən göndərilən Kazım Qarabəkir paşanın başçılığı ilə XI və Xəlil paşanın başçılığı ilə IX diviziyalar naxçıvanlıların köməyinə yetişdi. 8 [20] iyulda ermənilər məğlubiyyətə uğradılıb geri çəkilməyə məcbur edildi və türk ordusu Naxçıvana girdi *(13, s. 60; 38, s. 178)*. Naxçıvanda Milli Şuranın sədri Cəfərqulu xan, onun oğlu Kəlbəli xan, Rəhim xan, Kamran xan Naxçıvanskilərin, Cabbar ağa Vəzirov və başqalarının səyləri ilə yeni inzibati komitə bərpa olundu.

Məlumdur ki, Rusiyada Fevral burjua inqilabından sonra Naxçıvanda və ətraf yerlərdə Milli Komitələr yaradılmağa başlanmışdı. Qarşısında duran əsas vəzifə milli hərəkata rəhbərlik etmək, bölgəni və əhalini erməni təcavüzündən qorumaq və ermənilərə qarşı mübarizəni təşkil etmək, seçkili

və yerli hakimiyyət orqanlarının fəaliyyətini tənzimləməkdən və sair ibarət olan Milli Komitələrin təşəbbüsü ilə Naxçıvanda və Culfada hərbi təşkilatlar və hər biri 200 nəfərdən ibarət olan süvari dəstələr təşkil edilmişdi.

1918-ci ilin ortalarında Naxçıvana gələn və bölgədə təhlükəsizlik tədbirləri ilə məşğul olan Xəlil bəy kiçik bir müsəlman ordusunun özəyini yaratmağa çalışırdı. Bu məqsədlə 20-22 yaşlı gənclərə silah verildi. Beləliklə, 3 gün ərzində Şahtaxtı və Şərurda 2 minə yaxın qüvvə toplandı, onlarla təlimlərə başlandı. Şahtaxtıda 4 top, 150 əsgər və 165 atlıdan ibarət bir süvari batareyası yaradıldı *(13, s. 50-51)*. Həmçinin, Xəlil bəy Nuru paşanın tapşırığı ilə Naxçıvanda, Şərurda, Şahtaxtıda və Ordubadda milli dəstələr yaratmağa başladı. Bu məqsədlə gənclərə silah verilmiş, piyada, süvari və topçu dəstələri üçün təlimlər təşkil olunmuşdu. Bu hərbi hissələrin qaydaya salınıb nizamlanması bölgədə asayişi qorumaq, ilk növbədə düşmənə qarşı mübarizə aparmaq, ən önəmlisi isə sərhədin o tərəfindəki ermənilərdən mühafizə olunmaq üçün vacib idi. Bundan əlavə türk hərbi birlikləri Naxçıvan şəhərinə gəldikdən sonra türk zabitlərinin rəhbərliyi ilə bölgədə könüllülər dəstəsinin yaradılmasına başlandı. İlk növbədə 18-20 yaşlı yerli gənclərdən əsgər toplanmağa başlandı. Bu iş Naxçıvan qəza polis komissarı Məmmədəli xan Naxçıvanskiyə tapşırıldı. Onun səyi ilə təkcə Nehrəm, Qaraçuq və Bulqan kəndlərindən 200-ə qədər gənc orduya cəlb olundu *(39, s. 31)*. Sonradan türk hərbi dairələri 20-40 yaşlı kişilər arasında əsgər toplanacağını və həftədə bir dəfə təlim keçəcəklərini elan etdilər. Təlim yalnız əsgər yığılan kişilərə deyil, Naxçıvan şəhər əhalisinə də keçilirdi. Yerli hökumət bu hərbi təşkilatlanma işini apararkən bölgədəki silahlı kişiləri də yaddan çaxarmamış, onları Naxçıvana çağırmış, yığıncaq keçirilmişdi. Məhəllə müvəkkillərinə verilən əmrdə əhalinin əlindəki silahların miqdarı, növü haqqında məlumat tələb olunmuşdu.

Aparılan işlər nəticəsində qısa müddət ərzində 20-yə qədər könüllülər batalyonu yaradılmışdı. Hər biri 220-500 nəfərdən ibarət olan həmin batalyonların dördü Naxçıvanda, üçü Şərur-Dərələyəzdə, digərləri Vedibasar, Zəngibasar, Qəmərli və Başkənddə (Aralıqda) təşkil olunmuşdu *(13, s. 83)*. Həmin vaxt Naxçıvanda yaradılan batalyonlardan Kəblə Muxtarın rəhbərlik etdiyi Nehrəm batalyonu, Kəblə Kərimin rəhbərlik etdiyi Cəhri batalyonu, Məmmədrza bəyin rəhbərlik etdiyi Dizə batalyonu, Hüseyn Əliyevin rəhbərlik etdiyi Şərur batalyonu, Həsən Şahverdioğlunun rəhbərlik etdiyi Şərur-Sədərək kəndlərindəki birliklər, Məşədi Ələsgər ağanın rəhbərlik etdiyi Yengicə qüvvələri, Möhsün Camalovun başçılıq etdiyi Kərkər qüvvələri, Fətullah Hüseynov və Kərbəlayi Həbib bəyin rəhbərlik etdiyi

Zeyvə-Düdəngə kənd qüvvələri, İbrahimxəlil Axundovun komandirlik etdiyi Ordubad batalyonu diqqəti xüsusi ilə cəlb edirdi. Bu könüllü dəstələri sonrakı mərhələlərdə ermənilərə qarşı uğurlu əməliyyatlar aparmış, onların təcavüzkar niyyətlərinin həyata keçirilməsinə mane olmuşdular.

Könüllü dəstələrinin yaradılması ilə yanaşı 1918-ci ilin sonlarında Naxçıvan və ətraf bölgələrdə yaşayan əhalinin əlində olan silahlar barədə məlumat toplanmış, məlum olmuşdu ki, gələcəkdə baş verə biləcək təhlükənin qarşısını almaq üçün bu silahlar kifayət deyildir. Ona görə də 9-cu Qafqaz diviziyasının komandiri Rüşdü bəy 9 noyabrda teleqramla müraciət edərək Ordudan Naxçıvan regionunda yaradılmış könüllülər batayonu üçün 400, Alagöz könüllü batalyonu üçün 350, Cəhri batalyonu üçün 300 tüfəng və kifayət qədər hərbi ləvazimat istəmiş, həmçinin bölgədə hələ təşkilat şəklinə salınmamış xalq üçün də silah, hərbi ləvazimat göndərilməsini tələb etmişdi. Rüşdü bəyin bu xahişi Şövqi paşa tərəfindən müsbət qarşılanmış, Naxçıvan və İqdır əhalisinə paylamaq üçün 2000 ədəd silah göndəriləcəyi bildirilmişdi. Ancaq silahlar 9-cu Qafqaz diviziyasına çatmadığı üçün Rüşdü bəy əlavə xahişlər etmişdi. Türkiyəli alim İ.Atnurun fikrincə bu təkliflər müsbət həll olunmuşdu *(13, s. 105-106)*.

Türkiyə I Dünya müharibəsində məğlub olduqdan sonra bağlanan Mudros müqaviləsinin şərtlərinə uyğun olaraq türk qoşunları Azərbaycan ərazisini, o cümlədən Naxçıvanı tərk etdikdən sonra Naxçıvanda erməni təcavüzündən qorunmaq üçün bir dövlət qurumunun yaradılması zərurəti ortaya çıxmışdı. Bölgəni tərk edərkən Naxçıvan əhalisi qarşısında çıxış edən Kazım Qarabəkir paşa bu münasibətlə demişdi: "Naxçıvanın gələcək müqəddəratını təmin etmək üçün burada bir hökumət qurulması vacib və zəruridir. Zatən siz naxçıvanlılar milli azadlıq mübarizəsində tarixə şanlı səhifələr yazmısınız. Dövlətçilik hüququna və ləyaqətinə maliksiniz. Siz bu hüququ, haqqı döyüş meydanlarında düşmənə qələbə çalaraq qazanmısınız. Şərqin qapısında, Naxçıvanda bir cümhuriyyət qurulmalıdır" *(67)*.

Məlum olduğu kimi bölgənin erməni təcavüzündən müdafiəsi, əhalinin qorunmasını təşkil etmək məqsədi ilə 3 noyabr 1918-ci ildə Araz-Türk hökuməti yaradılmışdı. Qarşıya qoyulan məqsədə uyğun olaraq paytaxtı Naxçıvan şəhəri olan bu hökumət bir sıra işlər görmüş, qərarlar qəbul etmişdi. Hökumətin ilk iclaslarının birində Naxçıvanın nüfuzlu şəxsləri bu qərarları qəbul etmişdi: 1. Məcburi səfərbərlik; 2. Əsgərləri batalyonlara bölmək və kazarmalarda saxlamaq; 3. Hökumət anbarında olan buğdadan əsgərlərin qidalanması üçün 14 min pud verilməsi; 4. Təzə əsgərlərə hökumət tərəfindən geyim və sair əşyanın verilməsi; 5. Əsgərliyə getməyən

əhalidən silahları yığaraq, silahı olmayan əsgərlərə paylamaq; 6. 20-35 yaşlar arasında kişilərin hamısını əsgərliyə çağırmaq *(48, s. 82; 13, s. 113)*. Göründüyü kimi Araz-Türk hökuməti qarşıda dayanan əsas məqsədin uğurlu həllinə nail olmaq üçün yarandığı andan bu istiqamətdə fəaliyyətə başlamışdı.

Araz-Türk hökuməti 1918-ci ilin sonlarında ermənilərlə azərbaycanlılar arasında sülh yaratmaq üçün İran hökumətinə müraciət etmişdi. Bu məqsədlə bölgəyə gələn İran nümayəndə heyəti Naxçıvan təmsilçiləri Hacı Mirbağır ağa, Heydərqulu bəy və Cəfərqulu xanla birlikdə 1918-ci il dekabrın 24-də İrəvana getdilər. Lakin Dəmirçi və Quşçu kəndlərini işğal edərək qüvvələrini bu kəndlərdə cəmləşdirən erməni komandiri Doluxanov naxçıvanlı nümayəndələri həbs edərək Şərur və Yengicə kəndlərinə hücum əmri verdi. Həmin gün Kəlbəli xanın və Məşədi Ələsgər ağanın başçılıq etdikləri könüllü dəstələri Maxta və Dəmirçi kəndlərini ermənilərdən azad edib, bir gün sonra Qurd qapısında (Dəhnə boğazında) düşmənə ağır zərbə vurdular. Doluxanov hücumun istiqamətini Vedinin Qaralar, Qabqıran, Şirazlı, Reyhanlı, Əfşan kəndlərinə yönəltsə də, uğur qazana bilməyib Dəvəlidəki mövqeyinə çəkildi *(36, s. 202-203)*. Bu məsələdən bəhs edən general Veysəl Ünüvar yazır ki, Şərur və Yengicə üzərinə hücuma keçən Doluxanov xalqın müqaviməti ilə qarşılaşdı və məğlub oldu, Dəvəli stansiyasına, İrəvanın yaxınlarına qədər qovuldu. Xalqın müdafiə əzmi sayəsində erməni təcavüzü bir müddət dayandı *(58, s. 22)*. Göründüyü kimi naxçıvanlılardan təşkil olunan könüllü dəstələri hətta ermənilərin nizami qoşun dəstələri ilə döyüşə girmiş, onları ağır məğlubiyyətə uğratmışlar.

1919-cu ilin əvvəlində Naxçıvanı tutan ingilislər Araz-Türk hökumətini və Naxçıvan Milli Komitəsini sıxışdıraraq tarix səhnəsindən çıxardılar. Ancaq az müddət yaşamasına baxmayaraq Araz-Türk hökuməti yaradılarkən qarşısında qoyulan məqsədin həyata keçirilməsində, yəni bölgə qüvvələrinin ermənilərə qarşı birləşdirilməsində və ərazinin erməni işğalından qorunmasında əhəmiyyətli rol oynadı *(108, s. 75)*. Naxçıvanı ələ keçirən ingilislərin əsas məqsədi Naxçıvanı Ermənistanın tərkibinə vermək idi. Bu siyasətin nəticəsi olaraq 1919-cu ilin iyun ayında daşnaklar ingilis zabitlərinin köməyi və iştirakı ilə Naxçıvanın bir hissəsini tutsalar da Naxçıvan Milli Komitəsinin hərbi hissələri daşnakların nizami qoşun birləşmələrini darmadağın edərək Naxçıvan ərazisindən kənara atmışdı *(15, s. 14)*. Həmin ilin iyun ayında Naxçıvan şəhərində və Şərur qəzasında ingilis-erməni təcavüzkarlığına qarşı üsyan baş verdi. Üsyan demək olar ki, bütün Naxçıvan qəzasını bürüdü. İngilislərin Naxçıvanda qubernator Varşamyanın başçılığı ilə

yaratmış olduğu erməni daşnak hökuməti qovuldu. Naxçıvandakı və Şərurdakı qarnizonlar pərakəndə suratdə Naxçıvan ölkəsini tərk edib qaçdı *(38, s. 189; 39, s. 31)*. Həmin ilin iyulunda daşnak hərbi dəstələri ingilislərin köməyi ilə Şərur mahalını tutsalar da yerli hərbi qüvvələr daşnakların hərbi hissələrini buradan qovmuşdu *(15, s. 14)*. Naxçıvanı ermənilərə vermək məqsədi ilə müxtəlif vasitələrdən istifadə edən ingilislər erməni əsgərlərini hind əsgərlərinin mühafizəsi altında Naxçıvan bölgəsinə gətirir, qarnizonlara yerləşdirirdilər. ...Ancaq hindlilərin ermənilərə mühafizəçilik etməsi həmişəlik mümkün olmadı. Ona görə də onlar Naxçıvanı tərk etdikdən az sonra yerli əhali hərəkətə gəlmiş, bir gecədə eyni anda hücum etmiş və ermənilərin yerləşdirildiyi bütün qarnizonlar dağıdılmışdı *(58, s. 23-24)*. 1919-cu il iyulun əvvəllərində ingilislər Naxçıvanı tərk etdikdən sonra yerlərdə hakimiyyətdə olan Milli Şura qüvvələri erməni nizami hissələrini məğlubiyyətə uğradaraq Naxçıvan və Şərur qəzalarında öz şəriksiz nüfuzunu bərpa etdi.

Məhz bütün bunlara görə Azərbaycan Xalq Cümhuriyyətinin rəhbərləri naxçıvanlıların bu qəhrəmanlığını yüksək qiymətləndirir, hətta parlamentin iclaslarında bunu qeyd edirdilər. Parlamentin 18 avqust 1919-cu il tarixli iclasında bu məsələdən bəhs edən Nəsib bəy Yusifbəyli Naxçıvanın öz qüvvələri ilə istilaçıları devirərək Azərbaycanla birləşməyə hazır olduğunu vurğulamışdı. 22 dekabr 1919-cu ildə parlamentdə çıxış edən Baş nazir N.Yusifbəyli yenidən bu məsələyə qayıdaraq demişdi: "İgid naxçıvanlılar, şərurlular və vedibasarlılar bu məsələni özləri həll ediblər, onlar həyatlarını, ailələrinin şərəfini və var-dövlətlərini riskə qoyaraq doğma torpağa – vətənə qovuşmaq üçün ayağa qalxıb azad oldular və bununla da hökumətin işini asanlaşdırdılar. Güman edirəm ki, haqq və ədalət tərəfdarları bu qətiyyəti, fədakarlığı və vətənpərvərliyi görəndən sonra onların qanuni hüquqlarını danmayacaqlar..." *(15, s. 16)*.

Naxçıvan əhalisi böyük dövlətlərin Naxçıvanda ermənilərin xeyrinə həyata keçirmək istədikləri planların iflasa uğramasında da fəal iştirak etmişdir. Bu başqa əcnəbi nümayəndələr kimi ABŞ hərbçilərinə münasibətdə də özünü qabarıq şəkildə büruzə vermişdi. 28 avqust 1919-cu ildə Bakıya gələn ABŞ ordusu Baş qərargahının polkovniki Vilyam Haskelin Naxçıvana gələn ermənipərəst nümayəndələri Naxçıvanda Amerika general-qubernatorluğu yaratmaq istəyirdilər. 1919-cu il avqust ayının sonlarında Naxçıvana gələn polkovnik Rey Naxçıvan Milli Komitəsinin rəhbəri Cəfərqulu xanla danışıqlar zamanı ABŞ hökumətinin bu fikrini – Naxçıvanda ABŞ general-qubernatorluğunun yaradılması ideyasını elan etmişdi. Ancaq ABŞ-ın Naxçıvan barədə fikrini bilən Milli Komitə rəhbərləri bi ideyanı qəbul etmədilər.

Naxçıvan, Şərur, Sürməli, Vedibasar, Melistan əhalisi adından Əli Səbri Qasımov, Z.Məmmədov, G.Əsgərov və başqaları tərəfindən memorandum (diplomatik sənəd) imzalanaraq ali komissar V.Haskelə təqdim olundu. Memorandumda əhalinin başlıca tələbi bundan ibarət idi ki, Naxçıvan, Şərur-Dərələyəz və Ordubad qəzalarını heç bir qüvvə doğma Azərbaycandan ayıra bilməz. Memorandumun sonunda belə bir fikir ifadə olunurdu: "Əhali əmindir ki, Azərbaycan, eləcə də müttəfiqləri Sürməli, Vedibasar, Melistan, Şərur, Dərələyəz, Naxçıvan və Ordubad rayonlarının əhalisinin qanı bahasına aldığı azadlıq hüququna toxunmayacaq" *(38, s. 197)*. Bununla kifayətlənməyən Naxçıvan rəhbərləri Əli Səbri Qasımovu səlahiyyətli nümayəndə kimi Haskelin yanına göndərdilər. Görüş zamanı V.Haskelin "Naxçıvanın və digər regionların əhalisi bu regionların erməni hökumətinə verilməsinə necə baxar?" – sualına "Əldə silah ləyaqətli ölümü üstün tutaraq bu hökuməti bütün qüvvələri ilə rədd edərlər" cavabını verən *(141, 28 yanvar 2014-cü il)* Əli Səbri həm də naxçıvanlıların fikrini ifadə edərək V.Haskelə demişdi: "Biz bu və ya digər hökumət tabeliyini qəbul etməyəcəyik. Təyini-müqəddərat istəyirik. Buna bizim haqqımız var. Biz bunu kiməsə güzəştə getməyəcəyik. Belə bir halda mənim xalqım memorandumda xatırlatdığı kimi, özünü haqlı bilir ki, əldə silah namusla ölsün. Xalq öz gücü ilə azadlıq əldə edib və qəsbkarı qovmuşdur. Özünə azadlıq əldə edən xalq hətta doğma Azərbaycan hökumətinə də ixtiyar vermir ki, onun xəbəri olmadan onun taleyini həll etsin" *(118, f.582, siy.1, iş 43, v. 45)*.

Buna baxmayaraq Naxçıvanı və Şəruru bitərəf zona elan etmək, son nəticədə ermənilərə vermək fikrində olan V.Haskel Naxçıvanda yaradılması nəzərdə tutulan Amerika general-qubernatorluğuna rəhbərlik etmək üçün 24 oktyabr 1919-cu ildə polkovnik Edmond Dellini Naxçıvana göndərdi. ABŞ nümayəndəsinin əsil niyyətindən xəbərdar olan Naxçıvanın qabaqcıl adamları xalqın dəstəyi ilə bu planın pozulmasına nail oldu. Həmin vaxt Naxçıvanda təşkil olunan ümumi şəhər yığıncağında əhalinin adından çıxış edən Hacı Həsənəli Qurbanov tərcüməçi vasitəsi ilə Edmond Delliyə demişdi: "Biz ingilis hökumətinin qərarı ilə razılaşmayacağıq. Naxçıvan ölkəsini hər cür təcavüzkarlardan öz qanımızla müdafiə edəcəyik" *(38, s. 198)*. Ona görə də E.Delli Naxçıvanda general-qubernator kimi deyil, Paris sülh konfransının nümayəndəsi kimi işə başladı. Xalqın tələbi qarşısında aciz qalan E.Delli ermənilərin təkliflərinə məhəl qoymadı və Naxçıvana gəlmiş amerikalı zabitləri İrəvana göndərdi. Az sonra – 1920-ci ilin yanvarında isə polkovnik E.Delli bütün amerikalı zabitlərlə birlikdə Naxçıvanı tərk etdi. Beləliklə, Azərbaycan rəhbərliyinin, yerli hakimiyyət nümayən-

dələrinin, xüsusilə Naxçıvan əhalisinin birgə, gərgin mübarizəsi nəticəsində bölgənin ermənilərin əlinə keçməsinə şərait yaradacaq bir planın – Naxçıvanda Amerika general-qubernatorluğu yaradılması planının qarşısı qətiyyətlə alındı *(36, s. 213-214)*.

1919-cu il yanvarın 25-də Naxçıvanda demokratik ziyalıların və milli burjuaziyanın təşəbbüsü ilə Cəfərqulu xan başda olmaqla Müsəlman Milli Şurası yaradılmışdı *(24, s. 202)*. Milli Şura yarandığı andan Naxçıvanın erməni təcavüzündən qorunması və bölgənin ərazi bütövlüyünün təmin olunması üçün mühüm əhəmiyyətli tədbirlər həyata keçirdi. Milli Şuranın rəhbərliyi, əhalinin qüvvəsi ilə Naxçıvanı işğal etmək fikrindən əl çəkməyən ermənilərə sarsıdıcı zərbələr vuruldu.

Naxçıvan Milli Şurasının sədrinin Azərbaycan Xalq Cümhuriyyətinin Xarici işlər naziri M.Y.Cəfərova yazdığı məktubda ifadə olunan fikirlər bu qurumun qarşısında qoyulan məqsəd və onun fəaliyyəti istiqamətləri haqqında aydın təsəvvür yaradır. Məktubda yazılırdı: "Biz özümüzü Azərbaycanın ayrılmaz hissəsi hesab edirik və əminik ki, hər hansı səbəbdən hərbi qüvvə ilə kömək edə bilməsə də, heç olmasa top, tüfəng və patronla Azərbaycan bizə kömək edəcəkdir. Və hətta Azərbaycan bundan da imtina etsə, biz bu yolda canımızdan keçəsi olsaq belə, müqəddəs vədimizi yerinə yetirəcəyik" *(141, 15 yanvar 2014-cü il)*.

1919-cu ilin axırlarından 1920-ci ilin iyul ayına kimi ermənilər yenidən fəallaşmış, bir sıra yerləri işğal etmişdilər. 1920-ci il iyulun əvvəllərində Şərur və Sədərək kəndi ermənilər tərəfindən işğal olunsa da, A.Şadlinskinin rəhbərlik etdiyi "Qırmızı tabor" və "Naxçıvan polku"nun gücü ilə həmin ilin noyabrın axırı – dekabrın əvvəllərində bu ərazilər, həmçinin Ordubad erməni işğalçılarından təmizləndi *(39, s. 32)*.

Qeyd etmək lazımdır ki, bölgədə olan türk hərbi birləşmələrinin rəhbərləri əvvəlki dövrlərdə olduğu kimi sovetləşmə ərəfəsində də bölgənin erməni təcavüzündən qorunması üçün yerli qüvvələrdən istifadəyə böyük əhəmiyyət verirdi. Bu cəhətdən 1918-ci ildə Kazım Qarabəkir paşanın rəhbərliyi ilə Naxçıvana gələn ordunun tərkibində erməni quldurlarına qarşı mübarizədə iştirak edən, 1920-1921-ci illərdə Türkiyənin fövqəladə nümayəndəsi kimi Naxçıvanda yaşayan, sonralar general rütbəsi alan mayor Veysəl Ünüvarın 1920-ci ilin iyul ayında Şahtaxtıda olarkən Milli Şuraya vurduğu teleqraf diqqəti cəlb edir. Teleqrafda yazılırdı: "Bu Vətən sizindir, biz köməkçiyik, vətəninizi ermənilərə peşkəş etmək istəmirsinizsə, əsgər göndərin". Bu teleqrafı alan kimi Milli Şuranın ilk gördüyü iş gecə yarısı silahlı adamlar göndərib hərbi kassa, anbar və dəmir yoluna həbs qoymaq

oldu *(13, s. 305; 58, s. 36)*.

Bütün bu sadalanan faktlar təsdiq edir ki, Naxçıvan bölgəsinin erməni təcavüzündən xilas edilməsində və Azərbaycanın ərazi bütövlüyünün qorunub-saxlanmasında yerli əhali mühüm rol oynamışdır. Müasirlərin xatirələri təsdiq edir ki, bu işdə bölgənin kişiləri ilə yanaşı qadınlar da fəal iştirak etmişlər. General Veysəl Ünüvarın Yengicə və Quşçu Dəmirçidə anbarlara yığılmış döyüş sursatının, qoşqusu olmayan topun qadınlar tərəfindən daşınması haqqında *(58, s. 36)* verdiyi məlumat bu fikri təsdiq edən ən mötəbər qaynaqdır.

Yekun olaraq demək olar ki, Naxçıvanın görkəmli şəxsiyyətlərinin apardığı təşkilati işlər və əhalinin qətiyyəti sayəsində nəinki Naxçıvan bölgəsinin əhalisi, həmçinin Mehridən Uluxanlıya qədər geniş bir ərazidə yaşayan müsəlman-türk əhalisi erməni qırğınlarından xilas olundu. Beləliklə, Naxçıvan əhalisinin ciddi müqaviməti sayəsində ermənilərin və onları müdafiə edən iri dövlətlərin Naxçıvan bölgəsi ilə əlaqədar işğalçılıq planları pozuldu. Təsadüfi deyildir ki, Ermənistanın Baş naziri O.Kaçaznuni 1923-cü ildə etiraf edirdi ki, "Müsəlman Naxçıvanı və Şərurunda, ...müsəlman rayonlarında inzibati tədbirlərlə qayda-qanun yarada bilmədik, silaha əl atmağa, qoşun yeritməyə, dağıtmağa və qırğın törətməyə məcbur olduq. Vedibasar, Şərur, Naxçıvan kimi mühüm yerlərdə öz hakimiyyətimizi hətta silah gücünə qura bilmədik, məğlub olduq və geri çəkildik" *(87, s. 458-459)*.

## 2.3. NAXÇIVANIN BLOKADASI ZƏNGƏZURUN ERMƏNİSTANA BAĞIŞLANMASI İLƏ BAŞLANDI

Çox çətin və mürəkkəb siyasi şəraitdə Azərbaycan xalqının, xüsusilə Naxçıvan əhalisinin və bir sıra görkəmli şəxsiyyətlərin inadlı mübarizəsi sayəsində təşkil olunan Naxçıvan Muxtar Respublikasının yaradılmasının 90 illik yubileyinin keçirilməsi ilə əlaqədar Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən 14 yanvar 2014-cü ildə imzalanan sərəncamla əlaqədar Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun 17 yanvar 2014-cü il tarixli Sərəncamı ilə təsdiq edilmiş Naxçıvan Muxtar Respublikasının 90 illik yubileyinə həsr olunmuş Tədbirlər Planında muxtariyyət tarixi ilə bağlı tədqiqatların aparılması tədqiqatçılar qarşısında aktual və təxirəsalınmaz bir məsələ kimi qoyulmuşdur. Muxtariyyət ərəfəsində Zəngəzurun bir hissəsinin ermənilər tərəfindən işğal edilməsi ilə Naxçıvan bölgəsinin blokadaya salınması, onun Azərbaycanın əsas hissəsi ilə əlaqələrinin kəsilməsi də bu qəbil məsələlərdən biridir.

Əzəli və tarixi Azərbaycan torpağı olan, hazırda indiki Ermənistanın cənub-şərqində yerləşən Zəngəzur ərazisi qədim zamanlardan Azərbaycan xalqına məxsus Göyçə gölü hövzəsini və Azərbaycan Respublikasının cənub-qərb hissəsini əhatə edir. Qərbdən Zəngəzur, şərqdən Qarabağ dağları ilə sərhədlənən, qədim zamanlardan Azərbaycan ərazisində yaranan müxtəlif dövlətlərin tərkibində olan və əhali tərəfindən Zəngəzur mahalı kimi tanınan bu ərazinin bir hissəsi Xanlıqlar dövründə Qarabağ, bir hissəsi Naxçıvan, qalan hissəsi İrəvan xanlığının tərkibində olmuşdur. Mahal ərazisinə daxil olan torpaqlar el qaydası ilə Qarakilsə, Gorus, Qafan, Mehri, Zəngilan, Qubadlı, Laçın bölgələrinə bölünmüşdür. Şimali Azərbaycanın Rusiyaya ilhaq edilməsindən sonra digər Azərbaycan torpaqları kimi əhalisi ancaq Azərbaycan türklərindən ibarət olan Zəngəzura da İrandan və Osmanlı imperiyasından çoxlu erməni köçürülmüş, bununla da ərazidə onların sayı suni surətdə artırılmışdır.

1829-cu ildən Qarabağ əyalətinin tərkibində olan Zəngəzur ərazisinin hesabına 1861-ci ildə Rusiya imperatorunun fərmanı ilə eyni adlı qəza – Zəngəzur qəzası yaradılmışdı. Ancaq bir neçə il sonra (1867, dekabr) Yelizavetpol (Gəncə – F.S.) quberniyası yaradılarkən Zəngəzur qəzası onun tərkibinə verilmişdi. 1917-ci il Qafqaz təqviminin məlumatına görə həmin vaxt qəza idarə sistemi fəaliyyət göstərən Zəngəzurun ərazisi 6742.92 kv. verst idi ***(119, s. 370)***. 1918-ci ildə Zəngəzur qəzasında mövcud olan 222 yaşayış məskənindən 116-sı azərbaycanlılara məxsus idi ***(54, s. 78)***. 1920-ci

ildə Zəngəzurda yaşayan 224.197 nəfər əhalinin 70 faizini Azərbaycan türkləri təşkil edirdi *(54, s. 57)*. Ermənilərin dövlət siyasəti səviyyəsinə qaldırdığı "etnik təmizləmə" siyasəti nəticəsində bütün Ermənistan Respublikasında olduğu kimi ona sovet hökuməti tərəfindən hədiyyə edilən Zəngəzurda da əhalinin deportasiyası öz mənfi nəticələrini vermiş, orada azərbaycanlılar yaşayan kəndlərin sayı 1931-ci ildə 87-yə, 1986-cı ildə 40-a yenmişdi *(54, s. 78)*.

Rusiya imperiyası dağıldıqdan sonra, XIX yüzillik boyu buraya köçürülən və yaranmış vəziyyətdən istifadə edən ermənilər 1917-ci ilin martından 1918-ci ilin mayınadək Zəngəzur ərazisində türk-müsəlman əhaliyə qarşı böyük soyqırımlar törətmiş, yüzlərlə yaşayış məskənini dağıtmış, əhalini deportasiya etmişlər. Bu qırğınlar 1918-ci ilin mayın sonlarında Cənubi Qafqazda Azərbaycan, Gürcüstan və Ermənistan dövlətlərinin yaranmasından sonra da davam etdirilmişdir. Təkcə erməni quldurlarından Andronikin, Njdenin və Dronun dəstələrinin basqınları nəticəsində 1918-ci ildə Zəngəzurun 115 kəndi yerlə-yeksan edilmiş, əhalisinə divan tutulmuşdu. Bu qırğınlar zamanı 3257 kişi, 2776 qadın, 2196 uşaq qətlə yetirilmiş, 1060 kişi, 794 qadın və 485 uşaq yaralanmışdı. Beləliklə, bütün qəza üzrə 10068 nəfər müsəlman əhalisi öldürülmüş və şikəst edilmiş, 50 mindən çox adam didərgin düşərək Azərbaycanın kəndlərinə pənah gətirmişdi *(101, s. 42-44; 119, s. 371)*.

Həmin vaxt Azərbaycan Xalq Cümhuriyyəti imkan daxilində Zəngəzurda və Azərbaycanın digər yerlərində ermənilər tərəfindən törədilən qırğınlara son qoymaq üçün müəyyən tədbirlər həyata keçirdi: 27 iyul 1918-ci ildə Zəngəzur komendantına qayda-qanunun bərpası üçün 50 min manat pul ayrıldı. 13 yanvar 1919-cu ildə Cavanşir, Şuşa və Cəbrayıl qəzalarının da daxil olduğu Qarabağ general-qubernatorluğu yaradıldı. Bütün bunlara baxmayaraq Ermənistan öz təcavüzkar hərəkətlərini davam etdirir, ərazidə yeni faciələr törədirdi.

23 noyabr 1919-cu ildə Tiflisdə ABŞ nümayəndələrinin təşəbbüsü və vasitəçiliyi ilə Azərbaycanla Ermənistan arasında imzalanan 5 bənddən ibarət müqavilənin 2-ci bəndində nəzərdə tutulurdu ki, "Ermənistan və Azərbaycan hökumətləri Zəngəzura gələn yolların düzəldilməsi və açılması, onlarla dinc hərəkətlər üçün təsirli tədbirlər görülməsini razılaşdırırlar" *(108, s. 237-238)*. Müqavilənin digər bəndlərinin şərtlərinə də əməl edərək Azərbaycan öz qoşunlarını Zəngəzurdan çıxardı, Ermənistan isə əksinə buraya əlavə qoşun hissələri gətirdi və yerli müsəlman-türk əhaliyə qanlı divan tutdu. Ümumiyyətlə 1920-ci ilədək törədilmiş milli qırğın və terror

hesabına Azərbaycanın 9800 $km^2$ ərazisi Ermənistan tərəfindən zəbt edildi. O dövrdə Yeni Bəyazid qəzasının Basarkeçər mahalı, İrəvan qəzasının Vedibasar mahalının, Gəncə quberniyasının Zəngəzur qəzasının bir hissəsi Ermənistanın əlinə keçdi ***(146, s. 77)***.

Xalqımıza qarşı ermənilər tərəfindən törədilən soyqırımlar Ermənistanda sovet hökuməti qurulduqdan sonra da davam etdirildi və Sovet Rusiyasının Zəngəzur məsələsi ilə əlaqədar siyasəti büsbütün dəyişdi. Belə ki, 1920-ci il aprelin 30-da Azərbaycan SSR XXİK-in müavini M.D.Hüseynov tərəfindən Ermənistan hökumətinə nota göndərildi. Notada 3 gün müddətində: 1). Qarabağı və Zəngəzuru öz qoşunlarından təmizləmək; 2). Öz sərhədlərinə çəkilmək; 3). Millətlərarası qırğına və ədavətə son qoymaq ***(108, s. 265-266)*** tələblərini özündə əks etdirən maddələr var idi. Ancaq A.Mikoyan və digər erməni liderlərinin "Zəngəzurun, Naxçıvanın və Qarabağın Ermənistana verilməsi ermənilərin sovet hakimiyyətinə inamını və rəğbətini artıra bilər" ideyasından çıxış edərək həmin ilin dekabrında Azərbaycan sovet hökuməti tərəfindən Zəngəzurun böyük bir hissəsini Ermənistana "bağışlamağa" məcbur edildi ***(119, s. 372)***. Bunun ardınca, 10 avqust 1920-ci ildə Rusiya K(b)P Qafqaz Bürosunun qərarı ilə Azərbaycan rəhbərliyinin razılığı olmadan Qarabağ və Zəngəzur "mübahisəli ərazilər" elan olundu.

Məlumdur ki, sovet liderlərindən Azərbaycana öz düşmən münasibəti ilə seçilən və bunu "mən Azərbaycanın müstəqilliyinin tərəfdarı deyiləm" şəklində dilə gətirən ***(29, 8 fevral, 2008)*** İ.Stalin tərəfindən "Azərbaycanın fatehi" kimi dəyərləndirilən, əslində isə xalqımızın qəddar düşməni olan Serqo Orcenikidzenin "məlum siyasi şəraitdə Ermənistan bizə lazım ola bilər" ideyasından çıxış edən Sovet Rusiyası ilə Daşnak Ermənistanı arasında 10 avqust 1920-ci ildə İrəvan şəhərində müqavilə imzalandı. Ermənistan üçün bir sıra güzəştlərə yer verilən bu müqavilənin şərtlərinə əsasən qədim Azərbaycan torpaqları olan Naxçıvanın və Zəngəzurun ermənilərə verilməsi nəzərdə tutulurdu. Ona görə də N.Nərimanov Zəngəzurun və Naxçıvanın Ermənistana verilməsinə qarşı qətiyyətlə çıxış etmiş, hətta bununla əlaqədar sovet hökumətinin banisi V.İ.Leninə məktub yazmış, məktubda həmin məsələni xüsusi vurğulayaraq bildirmişdi ki, "Azərbaycanın tamamilə mübahisəsiz ərazilərinin Ermənistana güzəştə gedilməsi mümkün olmayan səhvdir" ***(29, 8 fevral, 2008)***.

Cənubi Qafqaz respublikalarının sovetləşməsində əsas rol oynamış XI Qızıl Ordunun əsasında 1921-ci ilin iyun ayında Əlahiddə Qafqaz Ordusu yaradıldı. Bununla əlaqədar 1920-ci il aprelin 27-dən 28-nə keçən gecə AXC rəhbərləri hakimiyyəti bolşeviklərə təhvil verərkən əldə olunan

razılığın şərtləri pozularaq Azərbaycan ordusu, eyni zamanda Gürcüstan və Ermənistan ordusu yeni yaradılmış bu hərbi qurumun tabeliyinə verildi. Bu ordunun İnqilabi-Hərbi Şurası Cənubi Qafqazda fəaliyyət göstərən silahlı birləşmələri ləğv etmək üçün əməliyyatlara başlamaq barədə 1921-ci ilin iyununda qərar qəbul etdi. Ancaq bu zaman erməni dəstələri qəfil hücumla Dərələyəzi tutmuş, orada olan Sovet hərbi birləşmələrini sıxışdırmışdı. Buna görə də Əlahiddə Qafqaz Ordusunun hissələri Zəngəzur istiqamətində əks-hücuma keçmiş, Vedidən Keşişkəndə, Naxçıvandan Əngələvidə, Ordubaddan Mehriyə hərəkət edərək iyunun 26-da Dərələyəzi, iyunun 28-də Biçənək aşırımını, iyunun 30-da isə Əngələvidi tutmuşdu. İyulun 2-də Şuşa tərəfdən hücuma keçən Qarabağ-Zəngəzur qruplaşması İrəvan qruplaşması ilə birləşdi və elə həmin gün Gorusu zəbt etdi. Məcburiyyət üzündən Qafan-Mehri istiqamətində geri çəkilən erməni quldur dəstələri 4 iyulda Mehridən kənarlaşdırıldılar. Artıq 16 iyul 1921-ci ildə Əlahiddə Qafqaz Ordusu rəhbərliyinin yaydığı məlumatda Zəngəzurun tutulduğu haqqında məlumat verilirdi *(91, s. 181)*.

Bununla da Zəngəzurun qərb və ya yuxarı hissəsinin Ermənistana birləşdirilməsi başa çatdırıldı. Burada o vaxtkı Azərbaycan rəhbərliyinin qətiyyətsizliyini, güzəştə getməsini və bu hadisələrlə razılaşdığını təəssüf hissi ilə qeyd etmək yerinə düşər. Belə ki, Azərbaycan İnqilab Komitəsinin Azərbaycan SSR-də əhalinin siyahıya alınmasının keçirilməsinə dair 19 may 1921-ci il tarixli dekretində Zəngəzur qəzasının adı qeyd edilmədi. 1922-ci ilin əvvəli üçün Azərbaycan Baş Milisinin məlumatlarında da Zəngəzurun adı qeyd olunmadı. Beləliklə, uzun illərdən bəri hazırlanan rus-erməni planı baş tutdu, qədim Azərbaycan torpağı Zəngəzurun yuxarı hissəsinin ermənilər tərəfindən ələ keçirilməsi siyasəti reallaşdı *(91, s. 181-182)*.

Cənubi Qafqazda sovet hakimiyyəti bərqərar olduqdan sonra vaxtilə daşnak S.Şaumyan və A.Mikoyan tərəfindən Zəngəzurla əlaqədar hazırlanmış planın gerçəkləşdirilməsinə, başqa sözlə desək ərazidə "etnik təmizləmə" siyasətinin həyata keçirilməsinə, azərbaycanlıların deportasiya edilməsinə, müxtəlif bəhanələrlə həbs olunmalarına, güllələnmələrinə, sürgünə məhkum olunmalarına, beləliklə bölgədə onların sayının azalmasına, ermənilərin sayının suni surətdə artırılmasına nail olmağa başladılar *(91, s. 173-174)*.

Zəngəzurun yuxarı və qərb hissəsində möhkəmlənən və bütün bunlarla kifayətlənməyən ermənilər Zəngəzur mahalına məxsus digər torpaqların da ələ keçirilməsi üçün canfəşanlıqla çalışır, bunun üçün hər cür vasitələrə əl atırdılar. Buna görə də onlar Zəngəzurun cənub hissəsini ələ keçirmək üçün məkrli planlar həyata keçirməyə başladılar. Məsələn, həmin vaxt yerli əhali

tərəfindən heç bir təşəbbüs olmadığı halda ermənilər Zəngəzurun aşağı hissəsində "Kürdüstan" adlı inzibati ərazi bölgüsü yaradılması fikrini ortaya atmışdılar. Azərbaycan dövlətçiliyi tarixində heç vaxt belə inzibati ərazi vahidi olmadığı halda bu cür qondarma bir inzibati vahidin yaradılması ideyası Azərbaycanda tarixən bir yerdə yaşayan, bir-biri ilə qohumluq əlaqələrinə girən, bir sözlə qaynayıb qarışan Azərbaycan türkləri və kürdlərinin deyil, Azərbaycanı yenicə işğal etmiş və bu ərazilərdə möhkəmlənməyə çalışan Sovet Rusiyasının və onun himayə etdiyi ermənilərin mənafeyinə xidmət edirdi. Ancaq Azərbaycan xalqının inadlı müqaviməti sayəsində bu ideya gerçəkləşdirilə bilmədi.

Zəngəzuru ələ keçirdikdən sonra ermənilər orada qədim zamanlardan yaşayan azərbaycanlı əhalini sıxışdırmağa, təqib etməyə, nəticədə onların deportasiyasına nail olmağa başladılar. Beləliklə, bir sıra Azərbaycan kəndləri ermənilər tərəfindən ələ keçirildi: Zaqafqaziya Federasiyası Mərkəzi İcraiyyə Komitəsinin 1 yanvar 1927-ci il tarixli qərarı ilə Mehri-Cəbrayıl qəzasının 24 kəndi Ermənistana verildi. Ancaq bununla kifayətlənməyən ermənilər bir az sonra, daha dəqiq desək 20 iyun 1927-ci ildə Zaqafqaziya Federasiyası MİK-nin qəbul etdiyi qərarla Zəngəzur qəzasının 1065 destatin ərazisinin müxtəlif qəzalara aid edilməsi məsələsinin gündəliyə çıxarılmasına nail oldular *(29, 10 fevral, 2008)*.

Ancaq bütün bunlar Ermənistanın Azərbaycan torpaqlarını ələ keçirmək sahəsində iddialarını təmin etmirdi. Ona görə də Zaqafqaziya MİK Rəyasət Heyəti 18 fevral 1929-cu ildə onların xeyrinə daha bir qərar çıxardı. Bu qərara görə Mehridə yeni rayon yaratmaq bəhanəsi ilə Zəngilan rayonunun Nüvədi, Ernəzir və Tuğut kəndləri Ermənistana verildi. ZSFSR-sı Fəhlə, Kəndli, Qızıl Ordu və Matros Deputatları Sovetlərinin Mərkəzi Komitəsi Rəyasət Heyətinin 18 fevral 1929-cu il tarixli iclasının 3 №-li protokolunda oxuyuruq:

"Sədrlik edirdi: Sxakaya M. yoldaş.

İştirak edirdilər: Zaqafqaziya MİK Rəyasət Heyətinin üzvləri: Bünyadzadə D., Bağırov M., Dolidze A., Stur V., Tağıyev İ., Şaverdova A., Yakubov yoldaşlar.

Zaqafqaziya MİK Rəyasət Heyəti üzvlüyünə namizədlər: Cavaxaşvili A., Torikaşvili E. yoldaşlar.

Zaqafqaziya MSİ-dən Ruxadze A. yoldaş, Zaqafqaziya İcraiyyə Komitəsindən Şerenç yoldaş.

Zaqafqaziya MİK Rəyasət Heyəti Katibliyinin müdiri Babayev Q. yoldaş.

Zaqafqaziya MİK təşkilat şöbəsinin müdiri Melnikov F. yoldaş.

Zaqafqaziya MİK təşkilat şöbəsinin təlimatçısı Əkbərov yoldaş.

Məsləhətçi: Kaçuxaşvili İ. yoldaş.

Eşidildi: Azərbaycan SSR Cəbrayıl qəzasının Nüvədi, Ernəzir və Tuğut kəndlərinin Ermənistan SSR-in Mehri qəzasına aid edilməsi haqqında.

Qərara alındı: Göstərilmiş 3 kənd öz torpaqları ilə Ermənistan SSR Mehri qəzasının inzibati idarəetməsinə verilsin" *(47, s. 241)*.

Çox təəssüflər olsun ki, həmin vaxt Zəngilanın "başçıları", ona rəhbərlik edən adamlar bu kəndlərin verilməsini, onların rayon mərkəzindən xeyli aralı olması və müxtəlif səmtlərdə yerləşməsi üzündən onlarla əlaqələrin çətinliyini əsas gətirərək öz əməllərinə haqq qazandırmışdılar *(54, s. 50; 108, s. 335)*. Fikrimizcə, burada Nəriman Nərimanovun 1921-ci ildə dediyi bir fikri xatırlatmaq yerinə düşər: "Əgər Azərbaycanın müsəlman kommunistlərinin əksəriyyəti ... millətçilik əhval-ruhiyyəsində olsaydı, inanın ki, Ermənistan Zəngəzuru almazdı" *(108, s. 308)*.

9 sentyabr 1930-cu ildə Ermənistan SSR ərazisinin yeni inzibati ərazi bölgüsü yaradılarkən, başqa sözlə desək rayonlaşdırma həyata keçirilərkən burada dörd rayon – Qarakilsə (2 mart 1940-cı ildən Sisyan, ərazisi 1719 $km^2$), Qafan (ərazisi 1245 $km^2$), Gorus (ərazisi 752 $km^2$) və Mehri (ərazisi 664 $km^2$) yaradıldı *(45, s. s. 78, 83, 141, 144)*. Beləliklə, Zəngəzur bir tarixi vilayət kimi ləğv edildi və Zəngəzur toponiminin – yer adının rəsmi sənədlərdə istifadə olunmasına son qoyuldu. Bu da son olmadı. 1938-39-cu illərdə Ernəzir Nüvədi ilə, Tuğut kəndi isə ermənilər yaşayan Astazurla birləşdirildi. Birləşdirilən Ernəzir və Tuğut kəndlərinin əhalisi zorla köçürülərək Nüvədi, Əldərə və Astazur kəndlərində yerləşdirildi. 1969-cu ilin mayında isə ermənilər öz istəklərinə doğru daha bir addım atdılar. Həmin vaxt haqqında bəhs olunan qərar 26 noyabr 1968-ci ildə Azərbaycan KP MK-nin Bürosunda müzakirə edildi və Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin 7 may 1969-cu il tarixli qərarı ilə hər üç kəndin (Ernəzir, Nüvədi, Tuğut) Ermənistana verilməsi aktı təsdiq olundu *(47, s. 241; 108, s. 335)*. Bununla da 18 min hektardan çox Azərbaycan torpağı ermənilərə hədiyyə edildi *(45, s. 147)*.

Burada bir məqamı vurğulamaq istərdik. SSRİ-nin dövlət aparatında mühüm vəzifələr tutan ermənilərin müxtəlif üsullarla göstərdiyi təzyiq nəticəsində Azərbaycan SSR Ali Sovetinin Rəyasət Heyəti adı çəkilən qərarı ilə 5 may 1938-ci ildə Azərbaycanın iki min hektardan çox torpağının, o cümlədən Zəngəzur bölgəsinə daxil olan Laçın rayonundakı Qaragöl yaylağının, Qubadlıda Çayzəmin ərazisinin, Qazaxda Kəmərli kəndi torpaqlarının bir hissəsinin, Kəlbəcərdə qızıl mədəninin və s. Ermənistan

SSR-ə verilməsi haqqında qərarı da təsdiq etdi. Lakin bəhs etdiyimiz dövrdə Azərbaycan SSR Dövlət Təhlükəsizliyi Komitəsinin Sədri vəzifəsində işləyən Heydər Əliyev 1953-cü ildə erməni əsilli Kələntərov və Qabaqçiyan tərəfindən tərtib edilərək Moskvaya təqdim olunmuş xəritələrin saxtalağının üzə çıxarılmasına nail oldu. 1969-cu il iyulun 14-də Heydər Əliyevin Azərbaycan KP MK-nə birinci katib seçilməsi ilə o dövrdə Ermənistanın Azərbaycana qarşı ərazi iddialarına son qoyuldu. "Mübahisəli" hesab olunan ərazilərdə qanuni iş aparmaq üçün Heydər Əliyev tərəfindən bölgəyə ekspert qrupu göndərildi. 1898 və 1903-cü illərdə tərtib olunmuş xəritələr Ermənistan nümayəndə heyətinə təqdim olundu və 1968-ci ildə Mərkəzə təqdim olunan xəritənin ermənilər tərəfindən saxtalaşdırıldığı bildirildi. Bununla da iki min hektardan çox Azərbaycan torpaqlarının Ermənistana verilməsinin qarşısı Heydər Əliyev tərəfindən qətiyyətlə alındı *(68, s. 60-61)*.

Fikrimizcə, Zəngəzurun və onun ətrafındakı torpaqların ermənilərə hədiyyə edilməsi və bunun nəticələri ilə əlaqədar akademik R.Mehdiyevin fikrini burada xatırlatmaq yerinə düşər: "Sovet hakimiyyəti illərində Ermənistanın özünə Azərbaycanın tərkibinə daxil olan geniş torpaq sahələri verilmişdir. Ermənistanda sovet hakimiyyəti qurulandan çox keçməmiş, 1920-ci ilin dekabrında Zəngəzur Ermənistana verildi. İki ildən sonra isə artıq "erməni" Zəngəzuruna əlavə torpaqlar verildi. Azərbaycan SSR Xalq Torpaq Komissarlığı tərəfindən 1922-ci il oktyabrın 22-də hazırlanmış arayışda məlumat verilirdi: "Azərbaycan SSR-in bütün ərazisi 7.989.105 desyatin təşkil edirdi. Göstərilmiş ümumi sahədən: a) Qazax qəzasından Ermənistana 379.984 desyatin torpaq verilmişdir; b) keçmiş Zəngəzur qəzasından Ermənistana 405.000 desyatin torpaq verilmişdir".

Xalq Torpaq Komissarlığının Torpaq Quruluşu İdarəsinin 1920-1923-cü illər üçün hesabatında deyilir: "Əvvəllər Zəngəzur, Cavanşir və Qazax qəzalarının sərhədlərində olan və Azərbaycana məxsus otlaqların 150.000 desyatinə qədər hissəsi indi Ermənistana verildikdən sonra bu iki respublika arasında mübahisəli olan zonaya daxil olduğundan otlaqların əzəli istifadəçiləri – Azərbaycan maldarları buraya köçmə zamanı böyük narahatlıq keçirirlər".

1929-cu il fevralın 18-də tarixən Azərbaycan torpağı olan Zəngəzurun İranla sərhədə çıxan sonuncu parçası Ermənistana verildi. Zaqafqaziya MİK-in 1929-cu il 18 fevral tarixli qərarı ilə aran Qarabağın əraziləri – Azərbaycan SSR Cəbrayıl qəzasının Nüvədi, Eynadzor və Tuqut kəndləri, həmçinin Ordubad qəzasının Kərkivan kəndi və Kilid kəndi torpaqlarının bir hissəsi Ermənistana verildi və əhalisi azərbaycanlılar olan yeni "erməni" torpaqlarında süni yolla bu vaxtadək mövcud olmayan Ermənistan SSR-in

Meğri qəzası yaradıldı. Beləcə, Naxçıvanın Azərbaycanın böyük hissəsindən ayrılması və türk dünyasının içində süni coğrafi sədd (paz) yaradılması başa çatdırıldı. Elə həmin qərarla Naxçıvanın digər kəndləri: Qurdqulaq, Horadiz, Xaçik, Ağbin, Ağxaç, Almalı, Dağalmalı, İtqıran, Sultanbəy Ermənistana verildi. Beləliklə, 1933-cü il üçün Naxçıvan muxtariyyətinin ərazisi Qars müqaviləsi ilə müəyyən olunmuş əvvəlki 5988 kvadratkilometrdən 5329,6 kvadratkilometrədək azaldı" ***(100, 4 noyabr 2010)***.

Beləliklə, bütün bunlara yekun vuraraq demək olar ki, qədim Azərbaycan torpağı olan Zəngəzur mahalının böyük bir hissəsinin ermənilər tərəfindən 1918-ci ildən başlayaraq işğal edilməsi, 1920-ci və sonrakı illərdə "sovet rəhbərliyi" tərəfindən beynəlxalq hüquq normalarına zidd olaraq Ermənistana verilməsinin rəsmiləşdirilməsi ilə, Ermənistan SSR Xalq Komissarları Sovetinin 20 iyul 1921-ci il tarixli qərarı ilə Ermənistan SSR-in tərkibində Zəngəzur qəzası yaradıldı. Nəticədə 44-45 km enində torpaq zolağı (bu zolağın 25 kilometri Nüvədi kəndinin ərazisindən keçirdi və 8 avqust 1991-ci ilə – Nüvədinin işğalına qədər ermənilərin orada əl-qol açmasına imkan verilmirdi) cənuba – Araza doğru uzanaraq Naxçıvan bölgəsini – Naxçıvan Muxtar Respublikasını Azərbaycan Respublikasının əsas ərazisindən ayrı saldı ***(117, s. 10)***, bu bölgə ilə əlaqə çətinləşdi. Zəngəzurun bir hissəsinin ermənilərin əlinə keçməsi ilə Azərbaycan parça-parça edildi, onunla Türkiyə arasında əlaqə pozuldu, torpaqlarımızın sonrakı işğalı üçün yeni zəmin və şərait yaradıldı. Bununla da əslində XX yüzilliyin 20-ci ilindən Naxçıvan Muxtar Respublikasının blokada şəraitində yaşamasının əsası qoyuldu.

Naxçıvan Muxtar Respublikasının 90 illiyi münasibətilə 8 aprel 2014-cü ildə Naxçıvan şəhərində keçirilən təntənəli yubiley mərasimində çıxış edərkən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Zəngəzurun ermənilərə verilməsi məsələsini belə qiymətləndirmişdir: "...O vaxt xalqımıza qarşı ədalətsizlik də edilmişdir. Çünki Azərbaycanın əzəli torpağı olan Zəngəzuru Azərbaycandan ayırıb Ermənistana vermişdilər. Bu, böyük ədalətsizlik idi. Çünki Zəngəzur tarixi, əzəli Azərbaycan torpağıdır. Zəngəzurun o vaxtkı əhalisinin mütləq əksəriyyəti azərbaycanlılar idi. Zəngəzurun bütün yaşayış məskənlərinin adları Azərbaycan adları idi. Ona görə bu qərarın qəbul edilməsində Azərbaycan xalqına qarşı ədalətsizlik və qərəz əsas rol oynamışdır. Eyni zamanda bu qərarla Azərbaycan coğrafi baxımdan iki yerə bölünürdü. Eyni zamanda böyük türk dünyası iki yerə bölünürdü. Bu ədalətsizlikdir, bu, sağalmayan yaradır" ***(141, 9 aprel 2014-cü il)***.

## 2.4. NAXÇIVAN BÖLGƏSİNİN TARİXİ COĞRAFİYASI HAQQINDA QEYDLƏR

Yaradılmasının 90 illik yubileyi tamam olduğundan Naxçıvan Muxtar Respublikasında 2013-cü ilin "Muxtariyyət ili" elan edilməsi ilə əlaqədar muxtar respublikanın aid nazirlik, komitə, idarə və təşkilatlarının əməkdaşlarının, həmçinin elm adamlarının qarşısında mühüm vəzifələr dayanmaqdadır. Bu vəzifələr içərisində Naxçıvanın muxtariyyət dövrü, eyni zamanda qədim zamanlardan başlayaraq müasir dövrədək tarixinin müxtəlif problemlərinin sistemli, hərtərəfli, obyektiv şəkildə öyrənilməsi, təbliği və elmi ictimaiyyətə çatdırılması xüsusi yer tutur. Bu cəhətdən tək-tək istisnalar nəzərə alınmazsa bölgənin indiyədək sistemli tədqiqat obeyktinə çevrilməmiş tarixi coğrafiyası probleminin də öyrənilməsinə böyük ehtiyac vardır. Çünki bu mövzunun tədqiqi qədim və orta əsrlər tariximizin müxtəlif dövrlərində Naxçıvan adı altında birləşmiş ərazilər, bu ərazilərin XIX yüzillik boyu bölgəyə köçürülmüş ermənilər tərəfindən XX yüzillikdə mənimsənilməsi, sovet hakimiyyəti tərəfindən onlara hədiyyə edilməsi, nəticədə tarixi Azərbaycan torpaqlarında qondarma erməni dövləti yaradılması, Naxçıvan ərazisinin tədricən azalması və s. bu kimi məsələlərə aydınlıq gətirər, bu haqda əhalinin, beynəlxalq elmi ictimaiyyətin obyektiv və dəqiq məlumat almasına imkan verər.

Məlumdur ki, Naxçıvan konkret olaraq bir şəhərin adı olmaqla bərabər həm də böyük bir bölgənin adını özündə əks etdirir. Adını Dünya tufanı zamanı Nuh peyğəmbərin gəmisinin Ordubad rayonundakı Gəmiqaya ərazisində quruya oturması və nuhçuların quruya çıxmasından götürən (Nuh-çıxan-Naxçıvan) Naxçıvan şəhərinin adı sonralar daha geniş məna kəsb etmiş, böyük bir bölgənin adını bildirmişdir. Əlverişli təbii-coğrafi mövqedə yerləşdiyi üçün bölgə qədim və orta əsrlər zamanı istər Azərbaycan dövlət başçılarının, istərsə də ərazini tutan hökmdarların diqqət mərkəzində olmuşdur. Mühüm ticarət yollarının keçdiyi bir ərazidə yerləşməsi bölgənin ticarət-iqtisadi cəhətdən inkişaf etməsinə, inzibati mərkəz kimi formalaşmasına şərait yaratmışdır. Məhz bu inkişafın nəticəsi olaraq Naxçıvan bölgəsi hələ eramızın əvvəllərindən çox mühüm inzibati mərkəz kimi tanınmışdır. Hərbi-strateji əhəmiyyətini nəzərə alaraq ərəblər Naxçıvanı tutduqdan sonra özlərinin iqamətgahını orada yerləşdirməklə bölgəni hərbi-inzibati mərkəzə və Bizansa qarşı əsas dayaq nöqtəsinə çevirmişdilər.

Naxçıvan bölgəsinin tarixinə nəzər salarkən aydın olur ki, Naxçıvan adı keçmişdə, xüsusilə orta əsrlər zamanı daha böyük ərazilərə şamil edilmiş, bu ərazilər indiki Naxçıvan Muxtar Respublikasının ərazisindən

çox geniş olmuşdur. Azərbaycan ərazisində müxtəlif vaxtlarda yaranmış bir sıra quldar və feodal dövlətlərin tərkibində olan bu ərazidə adında Naxçıvan toponimini əks etdirən kiçik dövlət qurumları da olmuşdur. Belə dövlət qurumlarından biri tariximizdə "Naxçıvanşahlıq" adı ilə tanınan feodal dövləti olmuşdur. T.e.d. M.Şəriflinin müstəqil dövlət kimi ***(139, s. 29)***, akademik N.Vəlixanlının isə Şəddadilər dövlətinin tərkibində bir əmirlik kimi təqdim etdiyi ***(144, s. 126-127; 145, s. 77-78)*** Naxçıvanşahlıq 983-cü ildən 1066-cı ilə qədər mövcud olmuşdur. Mərkəzi Naxçıvan şəhəri olan bu dövlət qurumunun ərazisi şərqdə Dəbil (Dvin), qərbdə Ordubad da daxil olmaqla böyük bir ərazini əhatə edirdi. Bəzi vaxtlar Vaspurakanın da bir hissəsi bu feodallığın tabeliyində olmuşdur. M.Şərifli ərəb tarixçisi Kudamənin 928-ci ildə yazdığı kitaba əsaslanaraq Naxçıvan şəhərinin Vaspurakanın (Van gölünün cənub-qərbindən və Urmiya gölünün şimal-qərbindəki torpaqlardan başlayıb indiki Naxçıvan Muxtar Respublikasının cənub-qərb hissəsini əhatə edən tarixi vilayət - F.S.) paytaxtı olduğunu yazmışdır ***(139, s. 29)***.

Səlcuqların gəlişi ilə varlığına son qoyulan Naxçıvanşahlığın paytaxtı Naxçıvan şəhəri az sonra, 1136-cı ildə tarix səhnəsinə çıxan Azərbaycan Atabəyləri dövlətinin paytaxtına çevrilmişdir. 1175-ci ildə paytaxtın Həmədana köçürülməsindən sonra da, Atabəylərin hakimiyyəti illərində dövlətin siyasi və iqtisadi cəhətdən mühüm əhəmiyyətli şəhəri kimi diqqət mərkəzində olan Naxçıvan şəhəri XIII əsrin ortalarından Hülakülərin yaratdığı yeni inzibati ərazi bölgüsünə görə yaradılan "Naxçıvan tüməni"nin mərkəzi olur. 1258-ci ildə yaranan Hülakülər (Elxanilər) dövləti hökmdarları dövlətin idarə işlərini asanlaşdırmaq üçün ölkəni 9 tümənə (tümən termini orta əsrlərdə hərbi, inzibati və pul vahidi kimi işlənirdi) bölmüşdü ki, bu tümənlərdən biri də "Naxçıvan tüməni" idi. Naxçıvan tüməni çox böyük bir ərazini – Araz çayının şimalındakı indiki Naxçıvan bölgəsi ilə yanaşı Arazın cənub sahillərindəki bir sıra torpaqları da əhatə edirdi. Maku, Dvin (Dəbil), Qafan ərazisi bu tümənə daxil idi. Beləliklə, tümənin ərazisi şərqdə Həkəri çayı sahilləri, qərbdə Dvin (Dəbil) daxil olmaqla, şimalda Göyçə gölü və Göyçə mahalından, cənubda Araz çayına qədər uzanırdı. XIII-XIV əsrlərdə dövlətə 10.000 döyüşçü verən Naxçıvan tüməninə Azərbaycanın 27 şəhərindən beşi (Naxçıvan, Ordubad, Azad, Əncan və Maku) daxil idi ***(129, s. 24; 156, s. 51)***. Bu şəhərlər içərisində tümənin mərkəzi Naxçıvan şəhəri daha əhəmiyyətli olmuş, ticarət, iqtisadi əhəmiyyətinə görə nəinki Azərbaycanda, hətta Yaxın Şərqdə əhəmiyyətli mövqe tutmuşdur.

Səfəvilər dövründə (1501-1736-cı illər) yaradılan inzibati ərazi bölgüsünə görə Naxçıvan əvvəllər mərkəzi Təbriz olan "Azərbaycan" bəylərbəyliyinin,

XVII əsrdən isə mərkəzi İrəvan şəhəri olan "Çuxur-Səd bəylərbəyliyi"nin tərkibində olmuşdur. Səfəvi şahları Naxçıvan bölgəsinə xüsusi diqqətlə yanaşmış, onun idarəsini ərazinin qədim sakinlərindən olan, həm də Səfəvilər dövlətinin yaradılmasında yaxından iştirak edən Kəngərli tayfa başçılarına tapşırmışdılar. Ermənistan ensiklopediyasının məlumatları, erməni tarixçisi Kaxin Ovaonnes Şahxatunyanın dəqiq xronologiya üzrə hesablamaları təsdiq edir ki, İrəvan ərazisinə XIV əsrin sonlarından başlayaraq 438 il ərzində (1390-1828-ci illər) Naxçıvanın azərbaycanlı hakimləri rəhbərlik etmişlər *(128, s. 78)*.

Azərbaycan tarixində Naxçıvan adı ilə təqdim olunan inzibati ərazi bölgülərindən biri də bölgəni tutduqdan sonra Osmanlılar tərəfindən 1724-cü ildə yaradılan "Naxçıvan sancağı"dır. Vergi verəcək 20 yaşdan yuxarı kişilərin yaşayış məntəqələri üzrə adları qeyd olunmuş və 1727-ci ildə Osmanlıların tərtib etdiyi "Naxçıvan sancağının müfəssəl dəftər"inə görə Naxçıvan sancağı 14 nahiyədə birləşən 328 kənddən ibarət olmuşdur. Dəftərdən aydın olur ki, hazırda indiki Ermənistan ərazisinə daxil olan və 9 kənddən ibarət olan Məvaziyi Xatun nahiyəsi, 42 kənddən ibarət olan Sisyan nahiyəsi, 102 kənddən ibarət olan Dərələyəz nahiyəsi XVIII yüzilliyin 20-30-cu illərində "Naxçıvan sancağı"na daxil olmuşdur. Həmçinin, sancağa daxil olan "Qışlağat" nahiyəsinin böyük bir ərazisi Arazın cənub sahillərindəki torpaqlarda yerləşmişdir *(122)*.

"Naxçıvan sancağının müfəssəl dəftər"ində özünə yer alan yaşayış məskənləri ilə indiki Naxçıvan Muxtar Respublikasının şəhər və kəndlərini müqayisəli təhlil etdikdə aydın olur ki, "Müfəssəl dəftər"ə görə Naxçıvan sancağının inzibati ərazi bölgüsünə daxil olan 150-dən artıq yaşayış məskəninin ərazisi sonralar hissə-hissə Ermənistana verilmişdir. Təsadüfi deyildir ki, 1727-ci il tarixli "Naxçıvan sancağının müfəssəl dəftəri"ni, 1590 və 1728-ci il tarixli "İrəvan əyalətinin müfəssəl dəftəri"ni təhlil edərək tarix üzrə fəlsəfə doktoru H.Məmmədov (Qaramanlı) belə bir nəticəyə gəlmişdir ki, Naxçıvan sancağının ərazisi XVI-XVIII əsrlərdə müasir Naxçıvan Muxtar Respublikasının ərazisindən xeyli böyük olmuş, indiki Ermənistan Respublikasının bir sıra rayonlarının, o cümlədən Əzizbəyov (keçmiş Soylan), Cermuk, Sisyan (Qarakilsə) və Mehri rayonlarının ərazisini də əhatə etmişdir *(122, s. 11)*.

Naxçıvan adı ilə tariximizdə şərəfli yer tutan mühüm dövlət qurumlarından və inzibati ərazi bölgülərindən biri də "Naxçıvan xanlığı" olmuşdur. 1747-ci ildə Nadir şah Əfşarın öldürülməsi ilə Kəngərli tayfa başçısı Heydərqulu xan tərəfindən tarix səhnəsinə çıxarılan Naxçıvan xanlığı geniş bir əraziyə

malik olmuş və 9428,7 km$^2$ sahəni əhatə etmişdir. Xanlıq Zəngəzur dağlarından Araz çayınadək geniş bir ərazini tuturdu. Sonralar indiki Ermənistana verilmiş bir sıra torpaqlar, o cümlədən Qafan, Mehri, Dərələyəz və Əzizbəyov rayonlarının torpaqları da xanlığın idarəsində olmuşdur. 1930-cu ildə ermənilərə verilən, 8 avqust 1991-ci ildə Ermənistandan əhalisi deportasiya edilən son azərbaycanlı yaşayış məntəqəsi olan Nüvədi kəndi də həmin vaxtlar xanlığın ərazisinin tərkibində idi *(123, s. 30)*.

Naxçıvan xanlığı süqut etdikdən sonra Rusiya hökuməti xanlığın ərazisini 1828-ci ilin martında yaradılan qondarma "Erməni vilayəti"nin tərkibinə vermişdi. Çar I Nikolayın 10 aprel 1840-cı ildə imzaladığı qanuna əsasən "Naxçıvan qəzası" adlı inzibati ərazi bölgüsü yaradılmışdı. Qəza 1849-cu ildə İrəvan quberniyası təşkil olunarkən onun tərkibinə daxil edildi. Artıq bu zamandan etibarən, yəni işğaldan sonra, Rusiya hakimiyyəti altında olduğu zamanlarda Naxçıvan adlı inzibati ərazi bölgüsünün sahəsi bir sıra torpaqların digər inzibati ərazilərə verilməsi hesabına süni surətdə kiçildilir. Belə ki, Naxçıvan qəzasının sahəsi 1917-ci il Qafqaz təqviminin məlumatına görə 3939 kv verst (1 verst = 1,0668 km$^2$), yəni 4202 km$^2$ müəyyənləşdirilmişdi *(119, s. 89)*.

Tarixi Naxçıvan ərazisində yaradılan inzibati ərazi bölgülərindən biri də 1918-ci ilin noyabrında yaradılan və 1919-cu ilin aprelinədək mövcud olan Naxçıvan Araz-Türk Respublikası olmuşdur. Bu respublika şərqdə Sərdarabad və İqdır, qərbdə Mehri və Nüvədi daxil olmaqla, şimalda İstisudan, cənubda Araz çayınadək uzanan böyük bir ərazini əhatə edirdi. Bu əraziyə Sürməli qəzası, Üçmüəzzin qəzasının bir hissəsi, Sərdarabad, İrəvan qəzasının bir hissəsi – Uluxanlı, Qəmərli, Vedibasar, Şərur-Dərələyəz qəzası, Naxçıvan qəzası, Ordubad qəzası, Mehri bölgəsi daxil idi. Paytaxtı Naxçıvan şəhəri olan bu dövlətin 8696 kv.km-ə çatan ərazisində bir milyon nəfərdən artıq əhali yaşayırdı. Bölgəni erməni işğalından qorumaq məqsədi ilə yerli əhalinin təşəbbüsü ilə yaradılan bu respublikanın ərazisinə daxil olan torpaqlara diqqət yetirdikdə aydın olur ki, Naxçıvan Araz-Türk Respublikası tarixi Naxçıvan torpaqlarının böyük bir hissəsini əhatə etmişdir.

Azərbaycan Xalq Cümhuriyyəti hökuməti 28 fevral 1919-cu il tarixli qərarı ilə Naxçıvan əhalisinin tələbinə uyğun olaraq "Naxçıvan general-qubernatorluğu" yaratmışdı. Qubernatorluğun paytaxtı Naxçıvan şəhəri olmaqla ərazisi Naxçıvan, Ordubad, Şərur-Dərələyəz və Vedibasar torpaqlarını əhatə edirdi. Buradan görünür ki, az müddət mövcud olmasına baxmayaraq Azərbaycan Xalq Cümhuriyyəti hökuməti Naxçıvanın tarixi torpaqlarının bir hissəsini bir general-qubernatorluqda birləşdirmişdi.

28 iyul 1920-ci ildə Naxçıvanda sovet hakimiyyəti quruldu və Naxçıvan Sovet Sosialist Respublikası elan olundu. Bundan sonra əhalinin inadlı mübarizəsi sayəsində Naxçıvana Azərbaycanın tərkibində muxtariyyət statusu verildi və 9 fevral 1924-cü ildə Naxçıvan Muxtar Sovet Sosialist Respublikası yaradıldı. 18 fevral 1929-cu ildə sovet hökuməti tərəfindən 1921-ci ildə imzalanmış Moskva və Qars müqavilələrinin şərtləri kobud surətdə pozularaq Naxçıvan MSSR-in 657 $km^2$ ərazisi Ermənistan SSR-ə verildi. Beləliklə, Naxçıvanın MSSR-in ərazisi suni surətdə azaldıldı *(117, s. 11)*.

Ancaq ermənilərin Azərbaycana, o cümlədən onun ayrılmaz tərkib hissəsi olan Naxçıvana ərazi iddiası davam edirdi. Ermənilər 1969-cu ilin may ayının 7-də Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətində "Ermənistan SSR ilə sərhədlər barədə" qərar qəbul olunmasına nail oldular. Qərarda Azərbaycanın bir sıra sərhədyanı torpaqları ilə yanaşı Naxçıvanın da 191.1 hektar əkin sahəsinin Ermənistana verilməsi nəzərdə tutulurdu. Belə bir şəraitdə xalqımızın ümummilli lideri Heydər Əliyev Azərbaycanda hakimiyyətə keçdi. Bundan sonra qeyd olunan məsələnin həlli dayandırıldı. Ulu öndər sonralar xatırlayırdı ki, 1969-cu ilin may ayında Azərbaycanın Ali Soveti belə bir qərar qəbul etmişdi ki, bir sıra sərhədyanı torpaqlar guya Ermənistana mənsubdur və ona verilməlidir. Mən iyul ayında Azərbaycana rəhbər seçilən kimi bu məsələni bir ay müddətində təhlil etdim və həmin qərardan imtina etdim. Çox çalışdılar ki, bu qərar həyata keçirilsin, lakin mən buna imkan vermədim *(12, s. 541)*.

Həmiçinin, ümumilli liderin Azərbaycanda və SSRİ rəhbərliyində hakimiyyətdə olduğu illərdə (1969-1987-ci illər) də hiyləgər ermənilər Azərbaycana torpaq iddiaları irəli sürməyə cəsarət etmədilər və Ermənistana bir qarış da olsun Azərbaycan torpağı verilmədi. Ancaq çox təəssüflər olsun ki, keçən əsrin 80-ci illərinin sonlarında Azərbaycana rəhbərlik edənlərin laqeyd münasibətinin nəticəsi olaraq ermənilər 18 yanvar 1990-cı ildə muxtar respublikanın Kərki kəndini, başqa sözlə desək Naxçıvanın 950 hektar torpağını işğal etdilər.

Azərbaycan Respublikasının Konstitusiyası ilə Azərbaycan Respublikasının tərkibində muxtar dövlət kimi təsbit olunan Naxçıvan Muxtar Respublikası inzibati cəhətdən 7 rayona (Babək, Ordubad, Culfa, Şərur, Şahbuz, Sədərək, Kəngərli) bölünmüşdür. 5 şəhəri (Naxçıvan, Ordubad, Culfa, Şərur, Şahbuz), 3 şəhər tipli qəsəbəsi (Heydərabad, Babək, Parağaçay), 200-dən artıq kəndi olan muxtar respublikanın paytaxtı Naxçıvan şəhəridir.

Naxçıvan bölgəsinin tarixi coğrafiyasına bu qısa baxışdan da aydın olur ki, Naxçıvan inzibati ərazi bölgüsü orta əsrlər zamanı Azərbaycanın

tərkib hissəsi olmaqla daha geniş torpaqları əhatə etmiş, Rusiyaya birləşdirildikdən sonra, xüsusilə sovet hakimiyyəti illərində bölgə torpaqlarının bir hissəsinin ermənilərə hədiyyə edilməsi səbəbindən azalaraq 5,5 min kvadrat kilometrə yenmişdir.

Azərbaycanın tərkib hissəsi və dilbər guşəsi olan Naxçıvan diyarı hazırda intibah dövrünü yaşayır. Muxtar respublikada aparılan geniş miqyaslı işlər sırasında müstəqilliyimizin, dövlətçiliyimizin, ərazi bütövlüyümüzün qarantı olan Əlahiddə Ümumqoşun Ordusuna diqqət və qayğı ön planda durur. Məhz bu cəhəti yüksək qiymətləndirərək Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev demişdir ki, "son illər ərzində Naxçıvanın hərbi potensialı böyük dərəcədə möhkəmləndirilmiş, Naxçıvan özünü müdafiə etməyə qadirdir. Gələcəkdə Naxçıvanın hərbi potesialının inkişafı üçün əlavə tədbirlər görüləcəkdir. Bu isə əlbəttə ki, müdafiə potensialını daha da böyük dərəcədə təmin edəcəkdir". Ordumuzun bu günkü yüksək inkişaf səviyyəsi imkan verir deyək ki, bundan sonra Azərbaycan, o cümlədən Naxçıvan torpaqlarının zərrə qədər də itirilməsi təhlükəsi yoxdur. Çünki Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun vurğuladığı kimi "Azərbaycan əsgəri Ali Baş Komandanın istənilən tapşırığını yerinə yetirməyə hazırdır". Ordumuzun qüdrətinə arxalanan xalqımız, o cümlədən blokada şəraitində yaşayan Naxçıvan əhalisi rahat yaşayır və gələcəyə inamla baxır.

## 2.5. BEHBUD AĞA ŞAHTAXTİNSKİ GÖRKƏMLİ DÖVLƏT XADİMİ KİMİ

Azərbaycanın, o cümlədən onun ayrılmaz tərkib hissəsi olan Naxçıvan bölgəsinin siyasi tarixində iz buraxan şəxsiyyətlərdən biri də görkəmli dövlət xadimi və diplomat Behbud ağa Şahtaxtinski olmuşdur. Şərur-Dərələyəz qəzasının Şahtaxtı kəndində dünyaya göz açan Behbud ağa Şahtaxtinskinin gənc yaşlarından XIX əsrin sonu XX əsrin əvvəllərində Cənubi Qafqazda mühüm sənaye mərkəzinə çevrilən Bakı mühitinə düşməsi, Bakı proletariatı, xüsusi ilə onun avanqard hissəsi ilə, sonradan məşhur inqilabçılara çevrilən adamlarla ünsiyyətdə olması, "Hümmət" qrupunun fəaliyyətində yaxından iştirak etməsi, hətta bir müddət ona rəhbərlik etməsi Behbud ağa Şahtaxtinskinin siyasi xadim kimi formalaşmasında və gələcəkdə görkəmli dövlət xadiminə çevrilməsində mühüm rol oynamışdır. Azərbaycan Xalq Ədliyyə Komissarı, Azərbaycan SSR-in RSFSR-də fövqəladə və səlahiyyətli nümayəndəsi, Xalq Fəhlə-Kəndli Müfəttişliyi Komissarı, Azərbaycan SSR XKS-nin sədr müavini, Naxçıvan İnqilab Komitəsinin sədri, Naxçıvan XKS-nin sədri və s. məsul vəzifələrdə çalışan, Naxçıvanın Ermənistana verilməsinin qarşısının alınmasında böyük xidmətlər göstərən, Moskva müqaviləsinin hazırlanmasında, Qars müqaviləsinin imzalanmasında Azərbaycanı təmsil edən Behbud ağa Şahtaxtinski çox təəssüflər olsun ki, yaşadığı zamanda və öldükdən sonra öz layiqli qiymətini ala bilməmiş, Azərbaycan öz müstəqilliyini bərpa edənədək onun həyatı və fəaliyyəti tədqiq olunmamış, nəinki xalqa tanıtdırılmamış, əksinə unutdurulmuşdur.

Sovet hakimiyyəti illərində bəzi kitab və məqalələrdə onun haqqında kiçik fraqmentlər şəklində məlumatlar verilsə də, sistemli şəkildə tədqiqat obyektinə çevrilməmişdir. Azərbaycan öz müstəqilliyini bərpa etdikdən sonra onun haqqında ilk məqalələr yazılmağa *(62; 149)* və sistemli tədqiqatlar aparılmağa başlanmış, Fizuli İbrahimzadə tərəfindən tarix üzrə fəlsəfə doktoru dissertasiyası yazılaraq müdafiə olunmaqla *(82)* bərabər 2 kitab *(81; 83)*, 20-dən artıq məqalə nəşr etdirilmişdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun 21 fevral 2011-ci ildə imzaladığı "Görkəmli dövlət xadimi və diplomat Behbud ağa Şahtaxtinskinin 130 illik yubileyinin keçirilməsi haqqında" sərəncamından sonra bu iş daha sistemli xarakter almışdır. Sərəncamın imzalanmasından sonra keçən müddət ərzində Behbud ağa Şahtaxtinskinin əsərləri, onun haqqında olan arxiv materialları toplanmış, bir sıra məqalələr yazılaraq nəşr etdirilmişdir *(59; 64; 71; 34; 96; 135; 161)*.

Əvvəlcədən qeyd edək ki, Behbud ağa Şahtaxtinskinin şəxsiyyətinə və siyasi fəaliyyətinə münasibət birmənalı olmamışdır. Bəziləri onu qatı bolşevik olmaqda, Azərbaycanın gələcəyinin xoşbəxt olmasını ancaq sovet hakimiyyətində görməkdə günahlandırmışdır. Ancaq Behbud ağa Şahtaxtinskinin həyatını və siyasi fəaliyyətini izləyərkən görünür ki, o təpədən dırnağadək, qatı bolşevik olsa da, Azərbaycanın müqəddəratının sovet hakimiyyəti ilə bağlı olmaqda görsə də tutduğu vəzifədən asılı olmayaraq ümummilli məsələlərdə həmişə Azərbaycanın, onun qədim mədəniyyət mərkəzlərindən olan Naxçıvanın mənafeyi baxımından çıxış etmiş, bu işdə yorulmadan çalışmış, fəaliyyət göstərmişdir. Bu gün Azərbaycan xalqı, xüsusilə Naxçıvan əhalisi onun Naxçıvan bölgəsinin Ermənistana verilməsinin qarşısının alınmasında, Naxçıvanın Azərbaycanın tərkibində muxtar respublika kimi saxlanmasında göstərdiyi xidmətləri minnətdarlıqla yad edirlər.

Məhz Behbud ağa Şahtaxtinski kimi şəxsiyyətlərin fəaliyyətinə yüksək qiymət verərək ulu öndər Heydər Əliyev Azərbaycan Respublikası Konstitusiya Komissiyasının 14 yanvar 1998-ci ildə keçirilən iclasındakı nitqində demişdir ki, "Bu gün biz keçmişdə – Azərbaycanın müqəddəratının həll olunduğu dövrdə Azərbaycanın milli mənafelərini qoruyanların fəaliyyətinə böyük məmnuniyyət hissi ilə yüksək qiymət verərək deyə bilərik ki, çox sədaqətli, vətənpərvər insanlar da olubdur. Onların fədakarlığı, vətənpərvərliyi nəticəsində Naxçıvan Muxtar Respublikası qorunub saxlanıbdır" *(5, s. 77)*. Ona görə də hər hansı bir şəxsiyyətin fəaliyyətinə, baş verən tarixi proseslərə qiymət verərkən ona bir tərəfli yanaşmaq qətiyyən düzgün deyildir. Akademik İsmayıl Hacıyevin tarix üzrə fəlsəfə doktoru Fizuli İbrahimzadənin 2004-cü ildə nəşr etdirdiyi "Behbud ağa Şahtaxtinski" adlı kitabına yazdığı "Azərbaycan xalqına həsr edilmiş ömür" adlı ön sözdə qeyd etdiyi kimi bu zaman "tarixi hadisələri təkcə zamana görə yox, həm də zamanındakı vəziyyətə görə qiymətləndirmək lazımdır" *(81, s. 5)*.

Behbud ağa Şahtaxtinskinin siyasi fəaliyyətini şərti olaraq iki yerə bölmək olar. Birincisi Azərbaycanda sovet hakimiyyətinin qurulmasınadək olan dövr; ikincisi sovet hakimiyyətinin qurulmasından vəfatınadək (30 may 1924-cü il) olan dövr.

Behbud ağa Şahtaxtinskinin siyasi fəaliyyətinin I dövrü onun Bakı proletariatının sıralarına daxil olması ilə siyasi fəaliyyətə başlaması, "Hümmət" təşkilatındakı fəaliyyəti ilə əlaqədar olmuşdursa, ikinci dövrü onun sırf dövlətçilik fəaliyyəti, mühüm dövlət vəzifələrində çalışması ilə xarakterikdir. Behbud ağa Şahtaxtinskinin özünün yazıb imzaladığı tərcümeyi-halından məlum olur ki, o Şahtaxtı kənd məktəbindən başqa heç bir

yerdə təhsil almamışdır. Deməli, o ali təhsil də ala bilməmişdir. Ancaq o öz üzərində müstəqil işləməsi, qətiyyəti, bacarığı, fitri qabiliyyəti sayəsində dövrünün yüksək səviyyəli, nüfuzlu siyasi xadiminə çevrilmiş, Azərbaycanın tale yüklü məsələlərinin həllində mühüm rol oynamışdır.

Behbud ağa Şahtaxtinskinin dövlət xadimi kimi fəaliyyəti XX yüzillik Azərbaycan tarixinin ən böhranlı dövrünə düşmüşdür. Ermənilərin Azərbaycana ərazi iddialarının gücləndiyi, "Böyük Ermənistan" xülyasını gerçəkləşdirmək üçün Azərbaycanın müxtəlif bölgələrində xalqımıza qarşı həyata keçirilən soyqırımlar, Andronik Ozanyanın quldur dəstələrinin Naxçıvana basqını, indiki Ermənisatan ərazisindən zorla qovulan və Azərbaycana pənah gətirən qaçqınların problemi və s. çətinliklərin, vəziyyətin son dərəcə ağır olduğu bu dövrdə Behbud ağa Şahtaxtinskinin yüksək təşkilatçılıq bacarığı dövlətçilik fəaliyyətində özünü qabarıq surətdə göstərir. Dövlətçilik fəaliyyətini izləyərkən aydın olur ki, Azərbaycanda hansı sahədə böhranlı, ağır vəziyyət yaranmışdısa Behbud ağa Şahtaxtinskini həmin sahəyə göndərmişlər, o isə öz qabiliyyəti ilə həmin sahədə çətinlikləri aradan qaldırmış, vəziyyəti qaydaya sala bilmişdir.

28 aprel 1920-ci ildə Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra Behbud ağa Şahtaxtinskinin dövlətçilik fəaliyyəti başlayır. İlk zamanlar Azərbaycanın bir sıra bölgələrində partiya və sovet təşkilatlarının qurulmasında fəal iştirak edən Behbud ağa Şahtaxtinski az sonra, 1920-ci il iyunun sonlarında Azərbaycan SSR Xalq Ədliyyə Komissarı vəzifəsinə təyin edilir. Bu vəzifədə işləyərkən Behbud ağa Şahtaxtinskinin təşkilatçılıq bacarığı, tələbkarlığı, obyektivliyi, vətənpərvərliyi və s. cəhətləri özünü büruzə verir. Xalq Ədliyyə Komissarı kimi Behbud ağa Şahtaxtinski Azərbaycan SSR-in ilk hüquqi normativ aktlarının qəbul edilməsinə nail olur. Bu zaman RSFSR-in təcrübəsindən istifadə olunsa da Azərbaycanın yerli şəraiti və tələbləri də nəzərə alınır. Onun rəhbərliyi ilə Xalq Ədliyyə Komissarlığının 1920-ci ilin iyun ayında keçirilən iclasında cinayət hüququnun əsas müddəaları geniş müzakirədən sonra qəbul olunmuşdur.

Behbud ağa Şahtaxtinski Xalq Ədliyyə Komissarı işlədiyi zaman 6 noyabr 1920-ci ildə Azərbaycan İnqilab Komitəsinin Amnistiya Dekreti verildi. Oktyabr İnqilabının III ildönümü münasibəti ilə Azərbaycan İnqilab Komitəsinin sədri N.Nərimanov və Xalq Ədliyyə Komissarı Behbud ağa Şahtaxtinskinin imzası ilə elan edilən bu amnistiya 12 iyul 1920-ci ildə verilən amnistiyadan daha geniş miqyaslı idi və sovet hakimiyyətinə qarşı çıxanlardan başqa qalan digər məhbuslara aid edilmişdi. Amnistiya haqqında dekretin icrasına nəzarət İK-nin sədri N.Nərimanov tərəfindən əvvəlki am-

nistiyada olduğu kimi çox etibar etdiyi Xalq Ədliyyə Komissarı Behbud ağa Şahtaxtinskiyə həvalə olunmuşdu.

Komissarlığı dövründə Behbud ağa Şahtaxtinski Ədliyyə orqanlarının müstəqilliyi Azərbaycanda yeni məhkəmə sisteminin yaradılması, məhkəmələrin işinin təkmilləşdirilməsi və s. istiqamətində mühüm tədbirlər həyata keçirir.

Azərbaycanda sovet hakimiyyətinin ilk vaxtlarında istər mərkəzi, istərsə də yerli orqanların rəhbərliyində digər millətlərdən olan adamlar, xüsusilə erməni əsilli kadrlar çoxluq təşkil edirdi. Bu adamlar isə çox ustalıqla anti-Azərbaycan siyasəti yeridir, sovet hakimiyyətinin ilk illərində aparılan mülkiyyətdən məhrum etmə, ərazi mübahisələri, müsadirə və s. məsələlərin həllində bir sıra günahsız insanların həbsinə, cəzalandırılmasına nail olurdular. Yaranmış fürsətdən maksimum istifadə edən həmin adamlar Azərbaycan Xalq Cümhuriyyəti rəhbərlərinə, milli ordunun komanda heyətinə daxil olan adamlara, başqa partiyaların üzvlərinə qarşı sərt tədbirlər həyata keçirir, həbs edirdilər. Bu işdə Azərbaycanın sovetləşdirilməsində həlledici rol oynayan XI Qızıl Ordunun Xüsusi şöbəsi də xüsusi rol oynayırdı. Behbud ağa Şahtaxtinski Xalq Ədliyyə Komissarı kimi bütün bunlara qarşı mübarizə aparır, bu haqda etirazlarını Azərbaycan rəhbərliyinə və Moskvaya – Sovet hökuməti başçılarına çatdırır. Bu cəhətdən onun Xalq Ədliyyə Komissarı işləməklə bərabər 15 iyul 1920-ci ildən Azərbaycanın RSFSR-də fövqəladə və səlahiyyətli nümayəndəsi kimi fəaliyyət göstərərkən Rusiya XKS-nin sədri, SSRİ dövründə "proletariatın dahi rəhbəri" kimi dəyərləndirilən V.İ.Leninə 20 sentyabr 1920-ci ildə ünvanladığı məktub çox səciyyəvidir *(137)*.

Akademik İsa Həbibbəyli tərəfindən Azərbaycan dilinə çevrilərək "Şərq qapısı" qəzeti vasitəsi ilə elmi ictimaiyyətə çatdırılan məktubda ilk növbədə Behbud ağa Şahtaxtinski XX yüzillik boyu Azərbaycanın ən ağrılı məsələsi olan Ermənistanla münasibətlər məsələsinə toxunur və qeyd edirdi ki, Qızıl Ordu hətta Ermənistanla həmsərhəd ərazilərdə də müsəlman əhalisini bütün vasitələrlə silahsızlaşdırmağa çalışır. Bununla belə onu görmək çətin deyil ki, daşnakların davam edən hücumları şəraitində müsəlman əhalisinin fiziki cəhətdən mövcudluğu sözsüz təhlükə altındadır. Müsəlman əhalisi silahsızlaşdırılır, daşnakların silahlı dəstələri müsəlman kəndlərini amansızcasına doğrayıb tökür və məhv edirlər. Kəndlilər bağ-bağatlarını, əkin-tikinlərini, var-yoxlarını atıb dağlara-daşlara çəkilirlər *(137, s. 3)*.

Behbud ağa Şahtaxtinski məktubda diqqəti Azərbaycanda baş verən

proseslərə, o cümlədən XI Qızıl Ordunun bəzi hissələrinin hərəkətlərinə çəkir və göstərirdi ki, Qızıl Ordu özünü əvvələr çox yaxşı aparırdı, indi isə irticaçı kimi aparır. Yerlərdən dəhşətli məruzələr gəlir, iş qız və qadınların açıq-aşkar zorlanmasına qədər gedib çıxır *(137, s. 3)*.

Həmin məktubunda Behbud ağa Şahtaxtinski Azərbaycan ərazisinin başqa dövlətlərə verilməsinə qarşı da kəskin etirazını bildirmiş və qeyd etmişdi ki, Azərbaycan əhalisi əvvəlcə... Moskvaya inanırdı, tərəfindən müdafiə olunacağına və ona köməklik göstərəcəyinə ümid bəsləyirdi, lakin burada da ümidsizliyə düçar oldu. Belə ki, sülh müqaviləsi bağlananda Azərbaycanın xəbəri və razılığı olmadan əhalisi ucdantutma müsəlmanlardan ibarət olan (90 faizi müsəlman, 5 faizi gürcü və 5 faizi digər millətlərin nümayəndələri) Zaqatala nahiyəsi Gürcüstana güzəşt edildi. Belə bir hal müsəlmanlara məyusedici təsir bağışladı ki, Rusiya Azərbaycana aidiyyatı olan məsələləri Ermənistanla müzakirə edir, Azərbaycan hökumətinin isə bu danışıqlardan xəbəri belə olmur *(137, s. 3)*. Məktub müəllifi Naxçıvan məsələsini də unutmayaraq qeyd edirdi ki, azərbaycanlı kütlə Naxçıvan diyarının az qala bütünlüklə Ermənistana verilməsi xəbərini eşitdikdə dəhşətə gəlir *(137, s. 3)*.

Göründüyü kimi, Behbud ağa Şahtaxtinski Azərbaycanın tale yüklü məsələləri, xüsusilə ölkə ərazisinin bütövlüyü ilə bağlı məsələlərdə heç bir şeydən, hətta öz iradlarını Sovet dövlətinin banisi və başçısı V.İ.Leninə bildirməkdən belə çəkinməmişdir. Bu sözləri V.İ.Leninə demək və ya yazmaq heç də hər bir şəxsiyyətin və ya vəzifə sahibinin işi deyildi. Bunu ancaq Behbud ağa Şahtaxtinski kimi cəsarətli, qorxmaz, vətənpərvər, ölkəsi və xalqı uğrunda həyatını riskə qoyan şəxsiyyətlər edə bilərdi. Görkəmli dövlət xadiminin bu xüsusiyyətini yüksək qiymətləndirərək akademik İsa Həbibbəyli haqlı olaraq qeyd edir ki, Behbud ağa Şahtaxtinski gənc Azərbaycan bolşevik hökumətində təmsil olunanlar sırasında Sovet Rusiyasının başçısı və özünü dünya proletariatının rəhbəri elan etmiş Vladimir İliç Leninlə açıq şəkildə və yüksək səviyyədə danışmağa cəsarəti və səviyyəsi çatan, Rusiya hökuməti qarşısında Azərbaycanla bağlı ciddi, taleyüklü tələblər qoymağı bacaran dövlət xadimi idi *(137, s. 4)*.

Naxçıvan məsələsi Behbud ağa Şahtaxtinskinin siyasi fəaliyyətinin istər birinci, istərsə də ikinci dövründə xüsusi yer tutur. Bu cəhət onun sovet hakimiyyəti illərində Naxçıvanda yüksək vəzifələrdə işlədiyi dövrlərdə özünü daha parlaq göstərir. Məlumdur ki, 1 dekabr 1920-ci il bəyanatından sonra Naxçıvanda əhalinin narazılığı güclənmiş, narazılığı aradan qaldırmaq və əhalini sakitləşdirmək üçün Behbud ağa Şahtaxtinski dekabrın 15-də

Naxçıvana göndərilmişdi. Behbud ağa Şahtaxtinskinin apardığı işlər nəticəsində əhali nisbətən sakitləşmiş Azərbaycan İnqilab Komitəsinin 1 dekabr 1920-ci il bəyannaməsi, Ermənistan İnqilab Komitəsinin Naxçıvanın müstəqilliyini rədd etmək haqqında 26 dekabr 1920-ci il və Naxçıvanı Müstəqil Sovet Respublikası kimi tanıması haqqında 28 dekabr 1920-ci il tarixli bəyanatları öz hüquqi qüvvəsini itirmişdi. Bu sahədə AK(b)P Mərkəzi Komitəsi Siyasi və Təşkilat bürolarının 12 yanvar 1921-ci il tarixli qərarına əsasən Hərbi İnqilabi Şuranın mandatı ilə Naxçıvana Komissar təyin olunan Behbud ağa Şahtaxtinskinin əməyini xüsusi ilə qeyd etmək lazımdır.

Naxçıvanda vəziyyət haqqında əvvəlki vaxtlardan müəyyən məlumata malik olan Behbud ağa Şahtaxtinski Komissar statusu ilə Naxçıvan bölgəsinin müxtəlif yerlərində olaraq vəziyyəti dərindən öyrənmiş, bir sıra faktları dəqiqləşdirmiş və bununla əlaqədar geniş məruzə hazırlayaraq 19 aprel 1920-ci ildə Azərbaycan İnqilab Komitəsinin iclasında çıxış etmişdi. Məruzədə erməni quldurlarının Naxçıvanda törətdikləri vəhşiliklər geniş təsvir olunmuş, Naxçıvan, Ordubad və Şərur-Dərələyəz qəzalarında 240 kəndin viran edilməsi, əhalinin böyük bir hissəsinin qətlə yetirilməsi, aclıq və xəstəliyin tüğyan etməsi vurğulanmış, bu səbəbdən hər gün çoxlu insanın ölməsi göstərilmiş, İrəvandan, Zəngəzurdan, Vedibasardan, Dərələyəzdən didərgin salınmış 500 min nəfərdən artıq qaçqının böyük bir hissəsinin Naxçıvana pənah gətirməsi səbəbindən vəziyyətin daha da pisləşməsi diqqətə çatdırılmışdır. Məhz bu məruzədən sonra Azərbaycan İnqilab Komitəsi Naxçıvanda vəziyyəti nisbətən qaydaya salmaq üçün müəyyən tədbirlər (məsələn İrandan ərzaq almaq üçün pul ayrılması) həyata keçirmişdi.

Vəziyyətin həddindən artıq böhranlı olması nəzərə alınaraq Behbud ağa Şahtaxtinski Qafqaz Cəbhəsi Hərbi İnqilab Şurasının 23 aprel 1921-ci il əmri ilə Naxçıvan SSR-ə Fövqəladə Komissar təyin edilmişdi. Dövlətçilik fəaliyyəti sahəsində artıq müəyyən təcrübə qazanmış Behbud ağa Şahtaxtinski həmin əmrlə həm də Naxçıvan İnqilab Komitəsinin və Naxçıvan SSR XKS-nin Sədri təyin olundu.

Yeni vəzifələrdə özünü müsbət cəhətdən təsdiq etdiyi üçün Behbud ağa Şahtaxtinski AKP Naxçıvan Ölkə Komitəsinin Təşkilat və Siyasi bürolarının 11 oktyabr 1921-ci ildə keçirilən iclasında XKS-nin tərkibinə baxılarkən yenidən XKS-nin sədri təsdiq edilmişdi. Bu vəzifədə çalışarkən Behbud ağa Şahtaxtinski 13 oktyabr 1921-ci ildə Azərbaycan SSR, Ermənistan SSR, Gürcüstan SSR hökumətləri ilə Türkiyə Böyük Millət Məclisi hökuməti arasında RSFSR hökumətinin iştirakı ilə Qarsda bağlanan müqaviləni Azərbaycan hökumətinin təmsilçisi kimi imzalamış, bununla da Naxçıvanın

gələcək siyasi-hüquqi statusu müəyyənləşdirilmiş, Naxçıvan ərazisinin Türkiyə ilə sərhəddi 11 km uzunluğunda müəyyənləşdirilmişdi.

Naxçıvanda işləyərkən Behbud ağa Şahtaxtinski vəziyyəti normal hala salmaq üçün çox çalışmış, məcburən bir sıra sərt tədbirlər həyata keçirmiş, hətta bir sıra komissarların vəzifədən azad olunaraq partiya sıralarından xaric olunmasına nail olmuşdu. Naxçıvan SSR Xalq Komissarları Sovetinin Sədri təyin edildiyi ildə (1921-ci il) Naxçıvanda dəhşətli quraqlığın baş verməsi, bu səbəbdən də yaranmış qəhətlik nəticəsində onsuz da ağır olan vəziyyətin daha da ağırlaşmasına baxmayaraq Behbud ağa Şahtaxtinskinin yüksək təşkilaçılıq bacarığı sayəsində əhalinin və bölgəyə gəlmiş qaçqınların vəziyyətinin yaxşılaşdırılması sahəsində bir sıra tədbirlər həyata keçirilmişdi. Bunun üçün hətta xarici ölkələrin, beynəlxalq təşkilatların köməyindən və yardımından da istifadə edilmişdi, bir sıra yerlərdən Naxçıvana taxıl və müxtəlif ərzaq məhsulları gətirilmişdi. Bütün bu və qeyd olunmayan başqa tədbirlərin sayəsində Naxçıvan əhalisi və orada yerləşdirilən qaçqınlar qismən də olsa çətinliklərdən və məhv olmaqdan xilas olmuşdu.

Görkəmli alim, akademik İsa Həbibbəyli Behbud ağa Şahtaxtinskinin Naxçıvan SSR Xalq Komissarları Sovetinin Sədri kimi fəaliyyətini belə qiymətləndirmişdir: "Behbud ağa Şahtaxtinskinin Nəriman Nərimanovun sərəncamı ilə Naxçıvan Sovet Sosialist Respublikası Xalq Komissarları Sovetinin Sədri vəzifəsinə təyin olunması regionda siyasi sabitliyin qorunub saxlanmasına və Azərbaycan hökumətinin maraqlarına hesablanmış, düşünülmüş qərar idi. Həm də Moskvanın və Bakıdakı erməni qruplaşmasının arzu etmədiyi referendum əhvalatından sonra Behbud ağa Şahtaxtinskinin Naxçıvan SSR Xalq Komissarları Sovetinin Sədri vəzifəsinə irəli çəkilməsi Nəriman Nərimanov tərəfindən onu siyasi mühitdə baş verə biləcək sərt tədbirlərdən qoruyub saxlamaq niyyətinin ifadəsi demək idi. Behbud ağa Şahtaxtinski Naxçıvan SSR-in Xalq Komissarları Sovetinin Sədri kimi regionda dövlətin və xalqın ortaq maraqlarına uyğun gələn düşünülmüş tədbirləri həyata keçirməklə yerli əhalini sovet hakimiyyətinin başlanğıc dövrünün kor-koranə şəkildə icra olunan yersiz və haqsız repressiyalarından qorumağı bacarmışdır. O, qaçqınlarla bağlı problemlərin həllinə nail olmuş, təsərrüfat həyatını bərpa edə bilmiş, yerlərdə təşkilatlanma işini möhkəmləndirmişdir".

Azərbaycan İnqilab Komitəsi təşkilatçılıq bacarığını və dövlətçilik fəaliyyətində yüksək qabiliyyətini nəzərə alaraq Behbud ağa Şahtaxtinskini 1921-ci ilin əvvəllərində Sovet hakimiyyətinin ilk vaxtlarında hökumətin əsas strukturlarından sayılan Xalq Fəhlə-Kəndli Müfəttişliyi Komissarı,

eyni zamanda bu vəzifə ilə paralel olaraq Azərbaycan SSR Xalq Komissarları Soveti Sədrinin müavini təyin etmişdi. Yeni vəzifələrlə səlahiyyətləri daha da artmış (müəyyən səbəblərdən N.Nərimanov Bakıda olmayan zamanlarda XKS-nin işinə Behbud ağa Şahtaxtinski rəhbərlik edirdi) Behbud ağa Şahtaxtinski dövlət əhəmiyyətli bir sıra məsələlərin həllində yaxından iştirak etmişdi. O, Azərbaycanın bir sıra bölgələrinə, o cümlədən çətin vəziyyətdə olan Naxçıvana yardım göstərilməsini təşkil etmiş, Ermənistan İnqilab Komitəsinin Muravyanı özünün səlahiyyətli nümayəndəsi kimi Dağlıq Qarabağa göndərməsinə qarşı kəskin etirazını bildirmiş, həmin nümayəndənin fəaliyyətinin dayandırılmasına nail olmuşdu. Bu və bu kimi məsələlərin uğurlu həllində Behbud ağa Şahtaxtinskiyə əvvəlki vaxtlarda, xüsusilə Naxçıvanda XKS-nin sədri olarkən topladığı zəngin təcrübə çox kömək etmişdi.

Bütün bunlara baxmayaraq Behbud ağa Şahtaxtinskinin uğurlarını gözü götürməyən bəzi yerli adamlar və xüsusilə sovet rəhbərlərindən Azərbaycan xalqının düşmənləri olan S.Orcenikidze, A.Mikoyan, S.Mirzoyan kimiləri N.Nərimanovla Behbud ağa Şahtaxtinskinin arasını vurmağa nail oldu, hətta çox yaxın dost olan bu iki şəxsiyyəti bir-birinə düşmən etdilər. Buna görə də Behbud ağa Şahtaxtinski məcburən Tiflisə köçmüş, bir müddət orada yaşamış, 30 may 1924-cü ildə müəmmalı şəkildə vəfat etmişdir.

# ÜÇÜNCÜ FƏSİL

# MİLLİ DƏYƏRLƏRİMİZ - MİLLİ KİMLİYİMİZDİR

## 3.1. NAXÇIVAN MUXTAR RESPUBLİKASINDA "MİLLİ DƏYƏRLƏR İLİ" HAQQINDA QEYDLƏR

Artıq elmdə qəti surətdə sübut olunmuşdur ki, Azərbaycan, xüsusilə onun ayrılmaz tərkib hissəsi olan Naxçıvan bölgəsi bəşər sivilizasiyasının mərkəzlərindən biri olmuşdur. Bölgənin müxtəlif yerlərində aparılan arxeoloji qazıntılar zamanı əldə olunan maddi-mədəniyyət nümunələri təsdiq edirlər ki, burada tarixin erkən çağlarından məskunlaşma başlamış, Şərur rayonunun Tənənəm kəndindəki Qazma mağarasında insanlar təxminən 120 min il bundan əvvəl, Mustye dövründən yaşamışlar *(37, s. 11)*. 2011-ci ildə Şərur bölgəsindəki Ovçular təpəsi abidəsində arxeoloji tədqiqatlar zamanı aşkar olunan Alt Paleolitə aid nümunələr burada insanların 500-300 min il bundan əvvəl yaşadığını göstərir *(113, s. 3)*.

Bölgəmizdə ən qədim zamanlardan məskunlaşan insanlar həm də zəngin mədəniyyət yaratmışdır. Arxeoloqlar tərəfindən "Eneolit mədəniyyəti", "Kür-Araz mədəniyyəti", "Boyalı qablar mədəniyyəti" kimi səciyyələndirilən mədəniyyətlərin yarandığı mərkəz məhz Naxçıvan bölgəsi olmuşdur. Bölgənin mühüm ticarət yollarının qovuşduğu və keçdiyi əlverişli coğrafi mövqedə yerləşməsi bu mədəniyyətlərin bəşər mədəniyyətini zənginləşdirməsinə, öz növbəsində özlərinin də bir sıra ümumbəşəri ideyaları əxz etməsinə gətirib çıxarmışdır. Bu cəhəti yüksək qiymətləndirərək ümummilli lider Heydər Əliyev Dünya azərbaycanlılarının birinci qurultayındakı çıxışında qeyd etmişdir: "Azərbaycan xalqı böyük, qədim tarixə malikdir. Çoxəsirlik tariximizdə xalqımız bir çox sınaqlardan çıxmış, yaşamış, öz mənliyini, öz milliliyini itirməmiş, dünya sivilizasiyasına dəyərli töhfələr vermiş, dünya sivilizasiyasını zənginləşdirmişdir" *(7, s. 423)*.

Orta Tunc dövründə ikinci əmək bölgüsünün baş verməsi, yəni sənətkarlığın başqa təsərrüfat sahələrindən ayrılması və müstəqil şəkildə inkişaf etməsi, yeni sənət növlərinin meydana gəlməsi mədəniyyəti daha da inkişaf etdirmişdir. Xalqımız minilliklər boyu tədricən çox zəngin bir mədəni irs yaratmışdır və bu irs sonralar onun Milli dəyərlərinə çevrilmişdir. Bu dəyərlərə xalqımızın tarix boyu əldə etdiyi çox zəngin mədəni nailiyyətlər, o cümlədən ulu öndər Heydər Əliyevin işləyib hazırladığı Azərbaycançılıq ideologiyası, maddi-mədəniyyət abidələri, sənətkarlıq məhsulları, dil, şifahi xalq yaradıcılığı nümunələri, bayramlar, adət və ənənələr, milli mentalitet,

mətbəx, vətənpərvərlik, qonaqpərvərlik, xalq oyunları, meydan tamaşaları, rəqslər, musiqi, dekorativ tətbiqi-sənət nümunələri və s. daxildir.

Böyük alman filosofu Hegel yazırdı ki, dövləti olmayan xalqın əslində tarixi də yoxdur. Məsələyə bu baxımdan yanaşdıqda və tarixə nəzər saldıqda görürük ki, tarix boyu bir sıra xalqlar zəngin mədəni irs yaratsalar da onların dövləti olmadığı üçün, başqa xalqlara məxsus dövlətlərin təsiri altında olması səbəbindən həmin mədəniyyət hakim xalqın mədəniyyəti tərəfindən assimilyasiyaya uğradılaraq onun içərisində əriyib yox olmuşdur. Zəngin dövlətçilik ənənələrinə malik olan Azərbaycanda qədim və orta əsrlər zamanı yaranmış dövlətlər xalqımızın mədəniyyətinin, Milli dəyərlərinin qorunub saxlanmasında və inkişaf etdirilməsində mühüm rol oynamışlar.

Qədim və orta əsrlər zamanı Azərbaycan mədəniyyəti elə yüksək bir inkişaf səviyyəsində olmuşdur ki, hətta ərazimizə hücum edən bir sıra xalqlar mədəni səviyyəsinə görə xalqımızdan aşağıda dayandıqları üçün bizim mədəniyyəti, Milli dəyərləri qəbul etməyə məcbur olmuşlar. Məsələn, ərəblər Azərbaycanı istila edərkən xalqımızın qədim zamanlardan bəri yaratdığı mədəni nailiyyətləri qəbul etmək məcburiyyətində qalmışdılar. Azərbaycan isə öz növbəsində mədəni və milli dəyərləri ilə ümumislam mədəniyyəti xəzinəsinə daxil olmuş, onu xeyli zənginləşdirmişdir. Azərbaycanı tutduqdan sonra monqollar da özlərindən yüksək səviyyədə dayanan yerli xalqın mədəni nailiyyətlərindən bəhrələnməyə məcbur olmuşdular.

1813-cü il Gülüstan və 1828-ci il Türkmənçay müqaviləsinin şərtlərinə əsasən çar Rusiyasının tərkibinə qatılan Araz çayından şimaldakı torpaqlarda yaşayan Azərbaycan əhalisi çarizm tərəfindən milli və dini zülmə məhkum edildikləri üçün Milli dəyərlərimizdə, bütövlükdə mədəniyyətimizdə müəyyən aşınmalar baş vermişdir. 1918-1920-ci illərdə cəmi 23 ay mövcud olan Azərbaycan Xalq Cümhuriyyəti hökuməti Milli dəyərlərimizin bərpası və inkişafı istiqamətində müəyyən addımlar atsa da ***(14, s. 159-181)*** 28 aprel 1920-ci ildə qurulan sovet hakimiyyəti illərində Milli dəyərlərin aşınması davam etmişdir. Bütün bunlara baxmayaraq Azərbaycan xalqı öz Milli dəyərlərinə sadiq qalmış, çətinliklə də olsa onları qorumuş və yaşatmışdır. Həmin vaxtlarda güclü qadağalar olsa da ən böyük Milli dəyərimiz – Milli bayramımız Novruz gizli yolla olsa da qeyd olunmuşdur.

Azərbaycanda Milli dəyərlərin qorunub saxlanmasında və inkişaf etdirilməsində ulu öndər Heydər Əliyevin çox böyük tarixi xidmətləri olmuşdur. Azərbaycanda siyasi hakimiyyətinin ilk dövründə, sovet hakimiyyətinin çox güclü olduğu bir şəraitdə ümummilli lider bu sahədə çox böyük tədbirlər həyata keçirmişdir. Çox böyük çətinliklərin və maneələrin olmasına

baxmayaraq Azərbaycan SSR-nin 1978-ci il Konstitusiyasında Azərbaycan dilinin dövlət dili kimi təsbit olunması, "Dədə Qorqud", "Nəsimi", "Dəli Kür" və s. kimi filmlərin çəkilməsi, Akademik Milli Dram Teatrında bir sıra əsərlərin tamaşaya qoyulması, xalqın milli şüurunun oyanışında mühüm rolu olan görkəmli şəxsiyyətlərin repressiyalardan qorunması və s. tədbirlər bu qəbildəndir.

Azərbaycan öz müstəqilliyini bərpa etdikdən və 1990-1993-cü illərdə Naxçıvanda yaşayarkən Milli dəyərlərin bərpası və inkişafı sahəsində mühüm işlər görən (Azərbaycan Xalq Cümhuriyyətinin üç rəngli bayrağının Naxçıvan Muxtar Respublikasının dövlət bayrağı kimi qəbul olunması, Naxçıvan Ali Sovetin adının dəyişdirilərək Ali Məclis adlandırılması və s.) ümummilli lider Heydər Əliyevin 1993-cü ilin 15 iyununda ikinci dəfə siyasi hakimiyyətə qayıdışından sonra Milli dəyərlərimizin bərpası, inkişafı və təbliği istiqamətində əsil yüksəliş başladı. Bütün həyatı və siyasi fəaliyyəti boyunca mənsub olduğu xalqın mədəniyyətinə, Milli dəyərlərinə böyük hörmət və ehtiram bəsləyən, onların inkişafı üçün münbit şərait yaradan ulu öndər 10 oktyabr 1993-cü ildə Azərbaycan Respublikasının Prezidenti kimi and içərkən bu sözləri xüsusi vurğulamışdı: "Əlimi Qurani-Şərifə basaraq and içirəm ki, Azərbaycan xalqının milli və mənəvi ənənələrinə daim sadiq olacaq və bu ənənələrin müstəqil dövlətimizdə bərqərar olmasını, yaşamasını və inkişaf etməsini təmin edəcəyəm" *(1, s. 208)*.

Dahi şəxsiyyət ömrünün sonunadək bu andına sadiq qaldı və Milli dəyərlərimizin bərpası, qorunması və gələcək nəsillərə çatdırılması istiqamətində müstəsna tədbirlər həyata keçirdi. Ulu öndər Milli dəyərlərimizi qoruyarkən və yaşamasına zəmin yaradarkən xalqımızın və çox zəngin tariximizin səhifələrini özündə əks etdirən abidələrə, maddi-mədəniyyət nümunələrinə, şəxsiyyətlərə üstünlük verirdi. Onun məqsədi, öz sözləri ilə desək "tariximizin görkəmli səhifələrini xalqımızın bugünkü və gələcək nəsillərinə, bütün dünyaya daha yaxşı tanıtmaq idi". Məhz bu səbəbdən də dahi şəxsiyyətin Milli dəyərlərin bərpası, təbliği və xalqa qaytarılması ilə əlaqədar imzaladığı bir sıra sərəncamlar, o cümlədən "Dövlət dilinin təkmilləşdirilməsi haqqında" 18 iyun 2001-ci il tarixli, "Azərbaycan əlifbası və Azərbaycan dili gününün təsis edilməsi haqqında" 9 avqust 2001-ci il tarixli və s. sərəncamlar mühüm rol oynadı. Bu sıradan Nəsirəddin Tusi, Kitabi-Dədə Qorqud, İçərişəhər, Azərbaycan Xalq Cümhuriyyəti və s. ilə əlaqədar imzalanan sərəncamlar da mühüm əhəmiyyətə malikdir. Ümummilli liderin 14 avqust 2001-ci ildə Azərbaycan Prezidenti kimi milli-mənəvi dəyərlər və ənənələr haqqında bəyanatı çox mühüm siyasi-tarixi əhəmiyyətə malik sənəd kimi diqqəti cəlb

edir. Bəyanatda "Biz öz milli-mənəvi dəyərlərimizi, adət-ənənələrimizi bütün istiqamətlərdə qorumalıyıq, saxlamalıyıq və gənc nəsli əsrlər boyu böyük sınaqlardan keçmiş bu mənəvi, əxlaqi dəyərlər ruhunda tərbiyələndirməliyik" – deyən ümummilli lider bu dəyərlərin təhrif olunması, hər cür yad təsirlərdən qorunması üçün lazımi tədbirlərin həyata keçirilməsini də vurğulamışdı: "Azərbaycanın milli-mənəvi dəyərlərinə qarşı yönəldilmiş hərəkətlərin hamısının qarşısı alınacaqdır və qanun qarşısında lazımi ölçülər götürüləcəkdir" *(18, 14 avqust 2011-ci il)*.

Ulu öndərin və onun siyasi varisi, Azərbaycan Prezidenti İlham Əliyevin hakimiyyəti dövründə Azərbaycanda Milli dəyərlərimiz sərbəst şəkildə inkişaf etdirilmiş, dövlət qayğısı ilə əhatə olunmuşdur. Milli dəyərlərə diqqət və qayğını daim ön planda saxlayan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 28 may – Respublika günü münasibəti ilə keçirilən rəsmi qəbulda söylədiyi nitqində bu məsələyə xüsusi olaraq toxunmuş və qeyd etmişdir ki, "Biz Milli dəyərlərimizə çox sadiqik və bu dəyərlər bizim üçün hər şeydən üstündür. Dəfələrlə demişəm və şadam ki, gənc nəsil də milli ruhda böyüyür, milli ruhda tərbiyə alır. Biz Azərbaycan xalqının zəngin milli-mənəvi dəyərlərini, ənənələrini qorumalıyıq, təbliğ etməliyik. Hər bir Azərbaycan gənci, hər bir Azərbaycan uşağı bu əvval-ruhiyyədə böyüməlidir" *(18, 27 may 2012-ci il)*.

Müstəqil Azərbaycan dövləti və onun ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar dövləti də Milli dəyərlərimizin qarantı, onun inkişafının təminatçısı qismində çıxış edir. Bu yaxınlarda Naxçıvan Muxtar Respublikasının timsalında biz bunun yeni bir parlaq təzahürünün şahidi olduq. Milli dəyərlərimizə böyük diqqət, qayğı, hörmət və ehtiramla yanaşan, onun inkişafı üçün çox əhəmiyyətli işlər görən, lazımi şərait yaradan Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov 2012-ci ili "Milli dəyərlər ili" elan etdi. IV çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 29 dekabr 2012-ci ildə keçirilən IV sessiyasında hörmətli Sədr sessiyaya yekun vurarkən belə bir fikir vurğuladı: "Yaranmış ənənə üzrə Naxçıvan Muxtar Respublikasında hər yeni il başlayarkən həyata keçiriləcək tədbirlərin xarakterinə uyğun olaraq konkret məqsədlər də müəyyən edilir. 2012-ci ildə milli-mənəvi dəyərlər sahəsində tədbirlərə diqqət artırılacaq, Milli dəyərlərin bərpası, qorunması, və gələcək nəsillərə çatdırılması ilə bağlı əvvəlki illərdə başlanmış tədbirlər 2012-ci ildə daha geniş miqyasda davam etdiriləcəkdir" *(40)*.

Ali Məclis Sədrinin sözlərindən də göründüyü kimi Milli dəyərlərin bərpası, qorunması, və gələcək nəsillərə çatdırılması ilə əlaqədar əvvəlki

illərdə Naxçıvan Muxtar Respublikasında xeyli işlər görülmüşdür. Bu işə 1996-cı ilin iyulunda keçirilmiş "Uluslararası qaynaqlarda Naxçıvan" beynəlxalq simpoziumundan sonra başlanmışdır. Həmin simpoziumda "Giriş sözü" ilə çıxış edən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov demişdir: "Tariximizə, dilimizə, ədəbiyyatımıza, folklorumuza, arxeologiya və etnoqrafiyamıza dair araşdırmalar ön mövqeyə çəkilməlidir. Çünki müstəqillik dövrünə keçidin əsas xüsusiyyətlərindən biri olan milli-mənəvi özünüdərketmə prosesinin dərinləşməsi və sağlam əsaslar üzrə inkişaf etdirilməsi ilk növbədə xalqın öz keçmişinə, dilinə, milli ənənələrinə bələd olmasına, yiyələnməsinə ciddi zərurət doğurur" *(116, s. 10)*.

Məhz həmin simpoziumdan sonra tarix və mədəniyyətimizin bütün sahələrində olduğu kimi Milli dəyərlərimizin də bərpası, qorunması, inkişaf etdirilməsi, təbliği və gələcək nəsillərə çatdırılması istiqamətində mühüm əhəmiyyətli tədbirlər həyata keçirilmişdir. Belə ki, ərazidəki tarix-mədəniyyət abidələri qeydə alınaraq pasportlaşdırılmış, 50-dən artıq memarlıq abidəsi bərpa və ya təmir edilmiş, "Naxçıvan abidələri ensiklopediyası", "Naxçıvan folkloru antologiyası", "Naxçıvan milli geyimləri" kitabları və s. nəşr olunmuşdur. Milli dəyərlər sisteminə daxil olan bir sıra maddi-mədəniyyət nümunələrinin qorunması, nümayiş və təbliğ olunması üçün çox mühüm mədəniyyət ocaqlarından sayılan muzeylər (Naxçıvan Dövlət Tarix Muzeyi, rayon Diyarşünaslıq muzeyləri) təmir olunmuş, yeni muzeylər, o cümlədən Açıq Səma Altında Muzey və "Xan Sarayı Dövlət Tarix-Memarlıq Muzeyi" və s. yaradılmış, "Xalça muzeyi" yeni binaya köçürülmüşdür.

Milli dəyərlərimizin tədqiqi, xalqımıza və beynəlxalq ictimaiyyətə çatdırılması məqsədi ilə Naxçıvan şəhərində beynəlxalq və respublika miqyaslı simpoziumlar və konfranslar keçirilmişdir. Tarix və mədəniyyətimizlə, onun tərkib hissəsi olan Milli dəyərlərimizlə əlaqədar çox böyük uğurların əldə olunmasında muxtar respublika rəhbərinin imzaladığı çox əhəmiyyətli sərəncamlar istiqamətverici dövlət sənədi kimi böyük nailiyyətlərin qazanılması üçün münbit şərait, stimul yaratmışdır. Bu cəhətdən aparılan tədqiqatların, görülən işlərin effektli olmasında yüksək dövlət qayğısını da xüsusi qeyd etmək lazımdır.

Milli dəyərlərin formalaşdırılmasında, qorunub saxlanmasında, zənginləşdirilməsində və təbliğində alimlərin, ümumiyyətlə ziyalıların rolu çox böyükdür. Məhz bu cəhəti nəzərə alaraq xalqımızın ümummilli lideri Heydər Əliyev deyirdi: "Xalqımız öz böyük şəxsiyyətləri vasitəsi ilə Azərbaycanın Milli dəyərlərini formalaşdırmış, qoruyub saxlamış, zənginləşdirmiş və bu gün onu ümumbəşəri dəyərlərin bir hissəsinə çevirmişdir". Ona görə

də son 17 ildə Naxçıvan Muxtar Respublikasında aparılan geniş miqyaslı işlər içərisində alim kadrların hazırlanması sahəsində çox böyük işlər görülmüş, müxtəlif ixtisaslar üzrə çoxlu sayda alim kadrları hazırlanmışdır.

"Milli dəyərlər ili" elan edilən 2012-ci ildə bir sıra idarə və təşkilatların, həmçinin ziyalıların, ümumiyyətlə bütün vətəndaşların üzərinə böyük vəzifələr düşür. Milli dəyərlərin öyrənilməsi, sistemləşdirilməsi, nəşri və təbliği ilə əlaqədar qarşıya qoyulan bu vəzifələr Naxçıvan Muxtar Respublikası Ali Məclisində hazırlanan "Tədbirlər Planı"nda özünün dolğun əksini tapmışdır. Ona görə də Milli dəyərlər ili elan edilən 2012-ci ildə işlərimizi günün tələbləri səviyyəsində qurmalı, Ali Məclis Sədrinin qeyd etdiyi kimi "hər birimiz bu sahədə fəaliyyətimizin nəticəli olmasına çalışmalı, Milli dəyərlər ilində muxtar respublikamızın inkişafına öz töhfəmizi verməliyik" *(40)*.

Artıq keçən müddət ərzində Naxçıvan Muxtar Respublikasında Milli dəyərlərimizlə əlaqədar bir sıra işlər görülmüş, xüsusilə 2012-ci ilin aprel ayının 20-də AMEA Naxçıvan Bölməsində "Milli dəyərlər – milli kimliyimizdir" mövzusunda elmi konfrans keçirilmişdir. Konfransın plenar və üç bölmə iclasında 30 məruzə dinlənilmiş, Milli dəyərlərimizin müxtəlif problemləri müzakirə olunmuşdur. Ali Məclisin "Milli dəyərlər ili" ilə əlaqədar təsdiq etdiyi "Tədbirlər Planı"nın tələblərinə əsasən Naxçıvan Muxtar Respublikası Ali Məcslisinin təsis etdiyi "Naxçıvan" ictimai-siyasi, ədəbi-bədii, elmi-publisistik jurnalının bir nömrəsi Milli dəyərlərə həsr olunmuşdur. Həmçinin, "Milli dəyərlər ili"ndə muxtar respublikada xalq sənətkarlığının inkişafına diqqət artırılmış, bir sıra sənətkarlar və həvəskarlar üçün 3 aylıq təlim kursları təşkil edilmiş, 10 nəfər sənətkarın fərdi sərgi-satışı həyata keçirilmiş, dekorativ tətbiqi sənət və xalçaçılıq sahəsində fəaliyyət göstərən sənətkarlara güzəştli şərtlərlə kredit verilmişdir. Həyata keçirilən bu tədbirlər təkcə Naxçıvan şəhəri ilə məhdudlaşmamış, muxtar respublikanın rayon və kəndlərində də bu münasibətlə çoxlu tədbirlər keçirilmiş, xalq sənətini yaşadan qrupların və dərnəklərin fəaliyyəti bərpa olunmuşdur.

İlin sonlarında, 5 dekabr 2012-ci ildə "Duzdağ" otelinin tədbirlər zalında "Milli dəyərlər ili"nə həsr olunmuş tədbir keçirilmişdir. Tədbirdə çıxış edən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov 2012-ci ildə – "Milli dəyərlər ili"ndə muxtar respublikada həyata keçirilən bütün tədbirləri ümumiləşdirərək demişdir: "Milli dəyərlər ili"nin nəticələri təqdirəlayiqdir. Ötən bir il ərzində muxtar respublikamızda beynəlxalq rəsm, folklor və muğam festivalları, ədəbi tədbirlər, yaradıcılıq təşkilatları üzrə müsabiqələr, ailə dəyərlərinin qorunub saxlanılması ilə bağlı seminarlar ke-

çirilmiş, milli dəyərlərin əsas daşıyıcısı olan xalq yaradıcılığının müxtəlif sahələri üzrə kurslar təşkil olunmuşdur. Bu dövrdə "Naxçıvan mətbəxi" və "Naxçıvan tikmələri" kitabları çap edilmiş, xalq yaradıcılığının ən qədim qaynağını özündə yaşadan "Şərur yallıları"ndan ibarət disk buraxılmışdır. Uşaq və gənclər xalq sənəti sahələrinə cəlb olunmuş, "Milli dəyərlərimizi öyrənək və yaşadaq" rubrikası ilə teleradio verilişləri və qəzet materialları hazırlanmışdır. Aparılan tikinti-quruculuq işlərində milli ornamentlərin tətbiqinə üstünlük verilmiş, qədim milli musiqi alətlərində ifalara və milli geyimlərimizin təbliğinə diqqət artırılmışdır. Bununla yanaşı, elm, təhsil və mədəniyyət müəssisələrində mədəni-kütləvi tədbirlər keçirilmiş, xalçaçılıq, boyaqçılıq, papaqçılıq, misgərlik, dəmirçilik, taxta üzərində oyma kimi qədim xalq sənəti nümunələri canlandırılmışdır. Eyni zamanda bədii yaradıcılıq prosesində milli dəyərlərimizin öyrənilməsi və təbliği üstün istiqamət kimi götürülmüş, kitablar, jurnallar, kataloqlar çap edilmiş, televiziya filmləri hazırlanmışdır" ***(141, 6 dekabr 2012-ci il)***.

Ali Məclisin Sədri tədbirdə "Milli dəyərlər ili"ndə bu uğurları qeyd etməklə yanaşı gələcəkdə qarşıda duran vəzifələrdən də bəhs etmişdir: "Biz həyata keçirilən tədbirləri milli dəyərlərin öyrədilməsi və yaşadılması istiqamətində görülən işlərin yekunu yox, başlanğıcı hesab edirik. Bu sahədə görülən işlərlə kifayətlənmək olmaz. Milli dəyərlərimizin qorunması və gələcək nəsillərə çatdırılması hər birimizin mühüm vəzifəsi olmalıdır. Biz öz tarixi dəyərlərimizə sahib çıxmasaq, ona başqaları sahib çıxacaqdır. Xalqımızın gələcəyini düşünürüksə, bu gələcəyi möhkəm təməllər – milli dəyərlər üzərində qurmalıyıq. Tarix sübut etmişdir ki, uğurlu gələcəyin yolu milli dəyərlərin yaşadılmasından, gənclərin təhsilindən və vətənpərvər tərbiyədən keçir. Bu mənada gənclərlə aparılan işlərdə milli dəyərlərə üstünlük vermək, vətənpərvərlik və Azərbaycançılıq prinsiplərini gücləndirmək lazımdır. Müasir dövrümüzdə həyatımıza daxil olan yad təsirlərdən qorunmaq üçün gənclərimizdə milli özünümüdafiə vərdişləri formalaşdırılmalı, milli dəyərlərə sahiblik hissi günü-gündən möhkəmləndirilməlidir. Bununla yanaşı, ümumbəşəri dəyərlərdən də düşünülmüş şəkildə istifadə olunmalı, elmi-texniki inkişaf və informasiya cəmiyyətinin ən yeni nailiyyətlərindən istifadə edilməli, milli özünüdərkin daşıyıcısı olan milli dəyərlərimiz daha da zənginləşdirilməlidir. Yerli icra hakimiyyətləri və digər aidiyyatı dövlət orqanları, eləcə də ictimai və yaradıcılıq təşkilatları milli dəyərlərimizin qorunması, unudulmaqda olan dəyərlərin bərpası və təbliği istiqamətində səylərini gücləndirməli, el sənətkarlarının fəaliyyətləri bundan sonra da dəstəklənməlidir" ***(141, 6 dekabr 2012-ci il)***.

## 3.2. MİLLİ DÖVLƏTÇİLİYİMİZ XALQIMIZIN ƏN BÖYÜK MİLLİ DƏYƏRİ KİMİ

Çox qədim tarixə malik olan Azərbaycan xalqı uzaq minilliklərdən bəri, xüsusilə ictimai əmək bölgülərindən, yəni maldarlığın, sənətkarlığın və ticarətin əkinçilikdən, sənətkarlığın maldarlıqdan ayrılmasından sonra çox zəngin mədəniyyət yaratmış, saysız-hesabsız mədəni nailiyyətlər əldə etmişdir. Sələflərindən xələflərinə miras qalan bu nailiyyətlər (dil, tarix, maddi-mədəniyyət abidələri, sənətkarlıq məhsulları, şifahi xalq yaradıcılığı nümunələri, bayramlar, adət-ənənələr, xalq oyunları, meydan tamaşaları, rəqslər, musiqi, milli mentalitet, qonaqpərvərlik, mətbəx və s., ümumiyyətlə bütövlükdə xalqın və onun içərisindən yetişmiş görkəmli şəxsiyyətlərin yaratdığı, inkişaf etdirdiyi, təkmilləşdirdiyi və gələcək nəslə ötürdüyü nailiyyətlər) zaman keçdikcə, tədricən xalqımızın Milli dəyərlərinə çevrilmişdir. Bu dəyərlər içərisində xalqımızın təxminən 5000 il əvvəl nail olduğu, müəyyən zamanlarda itirsə də bu günə qədər yaşatdığı Milli dövlətçiliyimiz xüsusi yer tutur. Xalqımızın minilliklər ərzində yaratdığı Milli dəyərlər sırasında Milli dövlətçiliyimiz ön cərgədə dayanır. Müstəqil olmaq, müstəqil dövlətini yaratmaq hər bir xalqın ən böyük arzusudur. Azərbaycan xalqı da bu cəhətdən istisna təşkil etməmiş, azadlıq, müstəqillik, dövlətçiliyimizin yaranması və bərpası uğrunda illərlə mübarizə aparmış, bu yolda çoxlu şəhidlər vermişdir. Azadlıqsevər xalqımız tarixin müxtəlif dövrlərində ölkəmizə hücum edənlərə, yadelli əsarətinə qarşı ölüm-dirim mübarizəsi aparmış, böyük qələbələr qazanmışdır. Xilafət kimi güclü imperiyanın dağılmasında, parçalanmasında və yeni müstəqil dövlətlərin, o cümlədən Azərbaycan dövlətlərinin yaranmasında ölkəmizdə başlanan Milli azadlıq hərəkatının – Cavidanın, sonra isə Babəkin rəhbərliyi ilə uzun müddət davam edən Xürrəmilər hərəkatının böyük rolu olmuşdur.

Ölkəmizə qarşı əsassız ərazi iddiaları irəli sürən ermənilərin xalqımıza qarşı apardığı şər və böhtan kampaniyasında guya Azərbaycan əhalisinin heç bir dövlətçilik ənənəsinə malik olmaması, xalqımızın köçəri və ya yarım köçəri olması, indiki Azərbaycan ərazisində sonralar məskunlaşması haqqında cəfəng iddialar mühüm yer tutur. Ancaq tarixə nəzər salarkən aydın olur ki, dünyanın bir çox sivil xalqları kimi Azərbaycan xalqı da çox qədim dövlətçilik ənənələrinə və mədəniyyətə malikdir. Azərbaycanın qədim və aborigen sakinləri olan xalqımız bu ərazidə təxminən 5000 il bundan əvvəl dövlətlər (Aratta, Kutium, Lullubum) ***(24, s. 61-72)*** yaratmış, e.ə. I minillikdə dövlətçilik ənənələri Manna ***(24, s. 86-102)***, Atropatena və Albaniya ***(24, s. 131-159)*** dövlətləri tərəfindən inkişaf etdirilmişdir. Bu

dövlətlər Azərbaycan xalqının əldə etdiyi ən böyük dəyərləri – Milli dəyərləri olmuşlar. Bu dövlət qurumları, xüsusilə Manna Azərbaycan dövlətçilik tarixində mühüm mərhələ olmaqla təkamül dərəcəsinə görə qədim Şərq dövlətçiliyi tarixində dərin iz qoymuşdur. Ərəb xilafətinin dağılması ilə yaradılan feodal dövlətləri (Şirvanşahlar, Sacilər – bu dövlətin ərazisi Dərbənddən Zəncana, Xəzər sahillərindən Ani şəhərinə qədər geniş bir ərazini əhatə edirdi və bütün Azərbaycan torpaqlarını özündə birləşdirirdi, Salarilər, Rəvvadilər, Şəddadilər) *(140)*, 1136-1225-ci illərdə fəaliyyət göstərən Azərbaycan Atabəyləri dövləti, XVI yüzilliyin əvvəlində tarix səhnəsinə çıxan və 235 il mövcud olan Azərbaycan Səfəvilər dövləti *(44)* xalqımızın çox mühüm Milli dəyərləridir. Nəinki Azərbaycanın, bütövlükdə Cənubi Qafqazın, həmçinin Yaxın Şərqin dövlətçilik tarixində silinməz izlər buraxan bu dövlət qurumlarının özləri xalqımızın çox böyük nailiyyəti – Milli dəyəri olmaqla bərabər digər Milli dəyərlərimizin qorunub saxlanmasında, inkişaf etdirilməsində və zənginləşdirilməsində mühüm rol oynamışlar və onların qarantı kimi çıxış etmiş, qorunub saxlanmasının təminatçısı olmuşlar.

Buradan da aydın olur ki, hər bir xalqın Milli dəyərlərinn yaranmasında və inkişaf etdirilməsində dövlət amili çox mühüm əhəmiyyət kəsb edir. Dünya tarixinə nəzər saldıqda aydın olur ki, tarix boyu bir sıra xalqlar zəngin mədəni irs yaratsalar da onların dövləti olmadığı üçün, başqa xalqlara məxsus dövlətlərin təsiri altında olması səbəbindən həmin mədəniyyət hakim xalqın mədəniyyəti tərəfindən assimilyasiya edilərək onun içərisində əriyib yox olmuşdur. Ancaq zəngin dövlətçilik ənənələrinə malik olan Azərbaycanda qədim və orta əsrlər zamanı yaranmış dövlətlər xalqımızın mədəniyyətinin, Milli dəyərlərinin qorunub saxlanmasında və inkişaf etdirilməsində mühüm rol oynamışlar.

Qədim və orta əsrlər zamanı Azərbaycan mədəniyyəti elə yüksək bir inkişaf səviyyəsində olmuşdur ki, hətta ərazimizə hücum edən bir sıra xalqlar mədəni səviyyəsinə görə xalqımızdan aşağıda dayandıqları üçün bizim mədəniyyəti, Milli dəyərləri qəbul etməyə məcbur olmuşlar. Məsələn, ərəblər Azərbaycanı istila edərkən xalqımızın qədim zamanlardan bəri yaratdığı mədəni nailiyyətləri qəbul etmək məcburiyyətində qalmışdılar. Azərbaycan isə öz növbəsində mədəni və milli dəyərləri ilə ümumislam mədəniyyəti xəzinəsinə daxil olmuş, onu xeyli zənginləşdirmişdir.

Yaxın və Orta Şərqin bir sıra qüdrətli imperiyalarının mərkəzi olmuş, bu səbəbdən də aparıcı mədəni mərkəz rolunu oynayan Azərbaycan dövlətləri xalqımızın Milli dəyərinə çevrilməklə həm də xalqımızın əsrlərdən bəri

yaratdığı digər zəngin Milli dəyərlərimizin yad təsirlərdən qorunub saxlanmasında, inkişaf etdirilərək gələcək nəslə çatdırılmasında müstəsna işlər görmüşlər. Bu cəhətdən 1501-ci ildə tarix səhnəsinə çıxmış Azərbaycan Səfəvilər dövlətinin fəaliyyəti xüsusilə qeyd olunmalıdır. Bütün Azərbaycan torpaqlarını vahid, mərkəzləşdirilmiş dövlətdə birləşdirən Səfəvi hökmdarlarının xalqımızın ən böyük Milli dəyərlərindən biri olan Azərbaycan dilinə böyük önəm verməsi, onu ədəbi, saray, ordu, hətta dövlət dili səviyyəsinə qaldırması Milli dəyərlərimizə hörmət və ehtiramın ən böyük nümunəsi kimi xüsusi qeyd olunmalıdır *(44, s. 330)*.

XIX əsrin əvvəllərində Azərbaycan bir müddət öz müstəqilliyini itirsə də, bu hadisəni rəsmiləşdirən Türkmənçay müqaviləsindən düz 90 il sonra öz dövlətçiliyini bərpa etdi və 28 may 1918-ci ildə Şərqdə ilk demokratik və parlamentli respublika olan Azərbaycan Xalq Cümhuriyyəti yaradıldı. Xalqımızın çox böyük nailiyyəti olan bu dövlət çox az, cəmi 23 ay yaşamasına baxmayaraq xalqımıza məxsus Milli dəyərlərin qorunub saxlanması, inkişaf etdirilməsi sahəsində bir sıra tədbirlər həyata keçirdi *(14, s. 159-181)*.

1920-91-ci illərdə – sovet hakimiyyəti illərində xalqımızın Milli dəyərləri sahəsində qadağalar qoyulmasına baxmayaraq Milli dəyərlərimizin qorunub saxlanmasında, hətta inkişaf etdirilməsində uğurlar qazanan (məsələn, ulu öndər Heydər Əliyevin bütün çətinlikləri aradan qaldıraraq respublikanın 1978-ci ildə qəbul olunan Konstitusiyasında Azərbaycan dilinin dövlət dili kimi təsbit olunmasına nail olması və s.) xalqımız 1991-ci ilin 18 oktyabrında özünün Milli dövlətçiliyini bərpa etdi. Bu hadisə Azərbaycan xalqının XX yüzillikdə əldə etdiyi ən böyük Milli dəyər olsa da, 90-cı illərin əvvəllərində respublikaya rəhbərlik edən naşı adamların səriştəsizliyi, xalqımıza, hətta onun ən böyük nailiyyəti olan milli dövlətçiliyinə, başqa sözlə desək Milli dəyərinə qarşı çıxması səbəbindən müstəqilliyimizin, dövlətçiliyimizin məhv olması təhlükəsi yaranmışdı. Ancaq 15 iyun 1993-cü ildə xalqımızın ümummilli lideri Heydər Əliyevin Azərbaycanda ikinci dəfə hakimiyyətə gəlməsi ilə bütün bu çətinliklərə, narahatçılıqlara son qoyuldu. Ulu öndər müstəqil Azərbaycan dövlətini qurdu, yaratdı, inkişaf yoluna saldı və Azərbaycan xalqına miras qoydu. Ona görə də qətiyyətlə demək olar ki, ümummilli liderin bizə qoyduğu irsin ən böyüyü çox minillik Azərbaycan dövlətçilik ənənələrinin məntiqi nəticəsi olan müstəqil Azərbaycan dövlətidir. Artıq bu dövlət xalqımızın ən böyük Milli dəyərinə çevrilmişdir.

Yeni Milli dəyərlərin yaranması, formalaşması, cəmiyyətin həyatına daxil olması indi də davam edir. Məsələn, ulu öndər Heydər Əliyevin

xalqımıza mühüm töhfələrindən biri də bu oldu ki, Azərbaycan xalqının ən böyük Milli dəyərlərindən birini, müstəqil Azərbaycanın ideologiyasını – Azərbaycançılıq ideologiyasını yaratdı. Bu ideologiya ümummilli liderin bizə miras qoyduğu nəzəri irsin ən yüksək zirvələrindən biri kimi dəyərləndirilə bilər. Təşkilatçısı olduğu Dünya azərbaycanlılarının I qurultayında ulu öndər Azərbaycançılıq ideologiyasının qayəsini dövlət ideologiyası kimi xarakterizə edərək belə ümumiləşdirmə aparmışdır: "Azərbaycan dövlət müstəqilliyini əldə edəndən sonra Azərbaycançılıq aparıcı ideya kimi həm Azərbaycanda, həm də bütün dünyada yaşayan azərbaycanlılar üçün əsas ideya olubdur. Biz həmişə bu ideya ətrafında birləşməliyik. Azərbaycançılıq öz milli mənsubiyyətini qoruyub saxlamaq, milli-mənəvi dəyərlərini qoruyub saxlamaq, eyni zamanda onların ümumbəşəri dəyərlərlə sintezindən, inteqrasiyasından bəhrələnərək hər bir insanın inkişafının təmin olunması deməkdir. ... Müstəqil Azərbaycan dövlətinin əsas ideyası azərbaycançılıqdır. Hər bir azərbaycanlı öz milli mənsubiyyətinə görə qürur hissi keçirməlidir və biz azərbaycançılığı – Azərbaycanın dilini, mədəniyyətini, milli-mənəvi dəyərlərini, adət-ənənələrini yaşatmalıyıq" *(7, s.s. 432, 436)*.

Tarixdən məlumdur ki, nəinki bütün Azərbaycan, hətta onun ayrılmaz tərkib hissəsi olan Naxçıvan bölgəsi də böyük dövlətçilik ənənələrinə malik olmuşdur. Miladdan öncəki minillikdə Manna və Atropatena dövlətlərinin tərkibində olan Naxçıvan bölgəsi ilk orta əsrlər zamanı, Sasanilər dövründə çox böyük inzibati mərkəzə çevrilmişdi. Məhz bu cəhəti nəzərə alaraq ərəblər bölgəni tutduqdan sonra öz iqamətgahlarını orada yerləşdirmiş və geniş bir ərazinin idarəsi Naxçıvan şəhərindən həyata keçirilmişdi. Bu ərazidə X-XI yüzilliklərdə "Naxçıvanşahlıq" kimi feodal dövlət qurumu fəaliyyət göstərmiş *(139; 144)*, 1136-cı ildə 30 il müddətində paytaxtı Naxçıvan şəhəri, ən mühüm siyasi inzibati mərkəzi Naxçıvan bölgəsi olan Azərbaycan Atabəyləri dövləti yaranmışdı *(112, s. 319)*. Bütün Azərbaycan torpaqlarını özündə birləşdirən və Azərbaycan ərazisindən dəfələrlə böyük bir ərazini əhatə edən bu dövlət bir müddət Naxçıvan şəhərindən idarə olunmuşdu. Məhz bunun nəticəsi olaraq XII əsrin II yarısında hazırda Azərbaycan xalqının Milli dəyərləri sırasında özünəməxsus yeri olan möhtəşəm memarlıq abidələri (Yusif Küseyr oğlu və Möminə xatın türbələri, Came məscidi, Qoşa minarəli baştağ və s.) inşa edilmiş, burada Şərqin ən nüfuzlu təhsil müəssisələri ilə bir sırada dayanan mədrəsələr yaradılmış, Naxçıvan şəhəri Yaxın Şərqin mühüm elm, təhsil və mədəniyyət mərkəzinə çevrilmişdi. Həmin vaxt İntibah dövrünü keçirən Azərbaycan mədəniyyəti Xaqani, Nizami, Əcəmi zirvəsinə yüksəlmişdi. Artıq bu zamanlar Azərbaycan türk dili nəinki Azərbaycanda, həmçinin bütün

Cənubi Qafqazda əsas ünsiyyət vasitəsinə çevrilmişdi.

Dövlətçilik sahəsində əldə olunan təcrübə sonrakı vaxtlarda da feodal hökmdarlar tərəfindən nəzərə alınmış, Azərbaycan dövlətlərinin idarəsini asanlaşdırmaq üçün inzibati ərazi bölgüləri yaradılarkən bu amil ön plana çəkilmişdir. Məhz buna görə də 1258-ci ildə əsası qoyulan, mərkəzi hissəsində Azərbaycan dayanan Hülakülər dövləti yaradıldıqdan sonra təşkil olunan 9 tüməndən biri "Naxçıvan tüməni" olmuşdu *(129, s. 23-24)*. "Naxçıvan tüməni" inzibati-ərazi vahidi indiki muxtar respublikanın ərazisindən daha böyük əraziləri özündə birləşdirirdi.

1724-cü ildə Osmanlılar Azərbaycanı tutduqdan sonra yaradılan inzibati ərazi bölgülərindən biri "Naxçıvan sancağı" oldu. 14 nahiyyəyə bölünən "Naxçıvan sancağı" özündə 328 kəndi birləşdirirdi. Bu qurumun da ərazisi çox böyük olmuş, indiki Ermənistan ərazisinə daxil olan və həmin vaxt 9 kənddən ibarət olan Məvaziyi-Xatun nahiyəsi, 42 kənddən ibarət olan Sisyan nahiyəsi, 102 kənddən ibarət olan Dərələyəz nahiyəsi və digər ərazilər ona daxil olmuşdu *(122)*.

Nadir şahın qətlindən sonra parçalanan Əfşarlar dövlətinin yerində yaranan kiçik feodal dövlətlərdən biri Naxçıvan xanlığı idi. Xanlığın ərazisi hazırda Ermənistanın əlində olan Nüvədi kəndi, Qafan, Mehri, Dərələyəz, Əzizbəyov rayonları daxil olmaqla Zəngəzur dağlarından Araz çayınadək geniş bir sahəni (9428,7 km$^2$) əhatə edirdi *(123, s. 30)*. 1918-ci ilin noyabrından 1919-cu ilin aprelinədək mövcud olan "Araz-Türk Respublikası" yaradılarkən də Naxçıvanın siyasi nüfuzu, böyük dövlətçilik ənənələrinə malik olması nəzərə alınmış, çox böyük əraziləri əhatə edən və təxminən 1 milyon nəfər əhalisi olan bu dövlətin paytaxtı kimi Naxçıvan şəhəri seçilmişdi.

Göründüyü kimi Azərbaycan dövlətləri daxilində Naxçıvan adı ilə yaradılan kiçik inzibati ərazi bölgüləri indiki Naxçıvan Muxtar Respublikası ərazisindən daha böyük əraziləri əhatə etmiş, sonralar Azərbaycandan alınaraq qondarma Ermənistan dövləti yaratmaq üçün ermənilərə hədiyyə olunan Mehri, Qafan, Zəngəzur, Dərələyəz və s. torpaqlar müxtəlif vaxtlarda Naxçıvan inzibati ərazi bölgüsünə daxil olmuşdur.

Bütün bunların məntiqi nəticəsi olaraq keçən yüzilliyin 20-ci illərində düşünülmüş surətdə, suni şəkildə Azərbaycanın əsas ərazisindən ayrı salınmış Naxçıvan bölgəsinə 1924-cü il fevralın 9-da Azərbaycanın tərkibində muxtariyyət statusu verildi və Naxçıvan Muxtar Respublikası yaradıldı. Həmin vaxt Naxçıvan MSSR adlandırılan bu qurumun adından 17 noyabr 1990-cı ildə ulu öndər Heydər Əliyevin sədrliyi ilə keçirilən sessiyada "Sovet

Sosialist" sözləri çıxarıldı və Naxçıvan Muxtar Respublikası adlandırıldı *(59, s. 35-38; 102, s. 45-46)*. Ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə hazırlanan və 12 noyabr 1995-ci ildə ümumxalq səsverməsi (referendum) yolu ilə qəbul olunan Azərbaycan Respublikasının Konstitusiyasında Naxçıvan Muxtar Respublikasına Azərbaycan Respublikasının tərkibində Muxtar dövlət statusu verildi *(23, s. 51)*. Ümummilli lider Naxçıvana muxtariyyət statusu verilməsini çox yüksək qiymətləndirirdi və deyirdi ki, Naxçıvanın muxtariyyəti tarixi nailiyyətdir. Biz bunu qoruyub saxlamalıyıq. Ulu öndərin "tarixi nailiyyət" kimi qiymətləndirdiyi Naxçıvanın muxtariyyət statusu da xalqımızın Milli dəyərləri sırasında özünəməxsus layiqli yer tutur.

Azərbaycan xalqı özünün ən böyük Milli dəyərinə – Milli dövlətçiliyimizə sadiqdir və onu göz bəbəyi kimi qorumağa hazırdır. Müstəqil Azərbaycanın 20 illik tarixində xalqımız bunu dəfələrlə sübut etmişdir. 24 oktyabr 1992-ci ildə Naxçıvanda *(59, s. 53-56)*, 1994-cü ilin oktyabrında və 1995-ci ilin martında Azərbaycanda dövlət çevrilişinə cəhdlər zamanı Azərbaycan xalqı öz sözünü demiş, öz liderinin – ulu öndər Heydər Əliyevin ətrafında sıx birləşmiş, Azərbaycan dövlətçiliyini qoruyub saxlamış, ona qarşı çıxanlara ciddi etirazını bildirmişdi.

Müstəqil Azərbaycan dövləti və onun tərkib hissəsi olan Naxçıvan Muxtar dövləti xalqımızın minilliklər boyu yaratdığı və göz bəbəyi kimi qoruyaraq nəsildən-nəslə ötürdüyü Milli dəyərlərin qarantı, onun inkişafının təminatçısı qismində çıxış edir. Azərbaycan Respublikası Konstitusiyasının 40-cı maddəsi ilə tarixi, mədəni və mənəvi irsə hörmətlə yanaşılması, ona qayğı göstərilməsi, tarix və mədəniyyət abidələrinin qorunması hər bir vətəndaşın konstitusion vəzifəsi kimi təsbit olunmuşdur. Hazırkı zamanda xalqımız Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin ətrafında sıx birləşərək özünün çox çətinliklə əldə etdiyi ən böyük Milli dəyərinin – Milli dövlətçiliyimizin daha da inkişaf etdirilməsi və yeni çalarlarla zənginləşdirilməsi sahəsində həyata keçirilən tədbirlərdə fəal iştirak edir və gələcəyə doğru uğurla addımlayır.

Yekun olaraq qeyd etmək istərdik ki, Milli dövlətçiliyimiz, o cümlədən onun tərkib hissəsi olan Müstəqil Azərbaycan Respublikası bizim ən böyük Milli dəyərimizdir. Neçə ki, Milli dövlətimiz var, Milli dəyərlərimiz də qorunacaq, inkişaf etdiriləcək, neçə ki, Milli dəyərlərimiz qorunur, Milli dövlətimiz əbədi yaşayacaqdır. Milli dəyərlərimizi əbədi yaşatmaq istəyiriksə, ən birinci dövlətimizi qorumalıyıq. Gəlin dövlətimizin ətrafında sıx birləşək. Bu, həmişə var olmağımızın yeganə qarantıdır.

## 3.3. NAXÇIVANDA XALÇAÇILIĞIN İNKİŞAFINDA YENİ MƏRHƏLƏ

Naxçıvan Muxtar Respublikasında həyata keçirilən genişmiqyaslı işlər içərisində xalq yaradıcılığı, xalqın adət və ənənələrini özündə əks etdirən dekorativ tətbiqi – sənət nümunələrinə diqqət və qayğı xüsusi yer tutur. Məhz bu diqqət və qayğının nəticəsi olaraq 1998-ci ildə Naxçıvan Dövlət Xalça muzeyi yaradılmışdır. Əvvəllər Xan sarayında fəaliyyət göstərən muzey 2010-cu ildə yeni binaya köçürülmüşdür. Muzeyin ekspozisiyası yeni eksponatlarla zənginləşdirilmişdir. Həmçinin, Naxçıvan Muxtar Respublikasında bu qədim dekorativ tətbiqi sənət növünün inkişaf etdirilməsi üçün bir sıra təşkilatı işlər həyata keçirilmiş, Naxçıvan Regional Peşə Tədris Mərkəzində "Xalçaçılıq" üzrə peşə kursları açılmış, Naxçıvan Qızlar Liseyində "Tikiş, toxuculuq və xalçaçılıq" dərnəyi yaradılmış, Naxçıvan Biznes Mərkəzi Məhdud Məsuliyyətli Cəmiyyətinin xalq yaradıcılığı emalatxanasında xalça toxunması təşkil olunmuşdur. Sonralar bu sahəyə dövlət qayğısının yeni təzahürü olaraq Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov 7 fevral 2009-cu ildə xalçaçılıq sənətini də özündə birləşdirən xalq yaradıcılığı ilə əlaqədar "Naxçıvan Muxtar Respublikasında Xalq Yaradıcılığı Günlərinin keçirilməsi haqqında" Sərəncam imzaladı. Naxçıvanın qədim sənətkarlıq mərkəzlərindən biri olduğunun vurğulandığı sərəncamın preambula hissəsində xalçaçılıq sənətinə də toxunulur və qeyd olunur ki, "Naxçıvan Muxtar Respublikası ərazisində aparılmış arxeoloji qazıntılar xalq yaradıcılığının mühüm qolu olan el sənətkarlığının 5-7 minillik inkişaf yolu keçdiyini sübuta yetirir. Qədim xalq sənəti sahələri olan dulusçuluq və daşişləmə Neolit, metalişləmə isə Eneolit dövründən məlum idi. ...Naxçıvanda sənətkarlıq daha da inkişaf etmiş, xalq sənətinin ağacişləmə, misgərlik, zərgərik, ipəkçilik, boyaqçılıq, dabbaqlıq, dülgərlik, toxuculuq xüsusilə də xalçaçılıq kimi sahələri genişlənmiş, Naxçıvanın zövqlə hazırlanmış müxtəlif məişət əşyaları və zərgərlik məmulatları böyük şöhrət qazanmışdır" *(131, s. 399- 400)*.

Bu sərəncamın ardınca Naxçıvan Muxtar Respublikası Ali Məclisinin IV çağırış IV sessiyasında 2012-ci il Ali Məclis Sədri tərəfindən "Milli dəyərlər ili" elan olunmuşdur. İstər xalq yaradıcılığı günlərinin keçirilməsi haqqında sərəncam, istərsə də Milli dəyərlər ili muxtar respublikada xalçaçılığın inkişafında mühüm rol oynadı. "Azərbaycan xalçaları: Naxçıvan qrupu" xalçaları haqqında əsər yazıldı *(16)* və altı dildə nəşr olundu, bir sıra əlavə işlər görüldü. Bu yaxınlarda bu istiqamətdə daha bir uğurlu addım

atıldı. "Naxçıvan xalçaçıları" adlı möhtəşəm əsər hazırlandı *(107)*, "Azərbaycan xalçaları: Naxçıvan qrupu" jurnalı *(17)* işıq üzü gördü və 8 noyabr 2013-cü ildə Naxçıvan Dövlət Xalça muzeyinin yenidənqurmadan sonra qeyd olunan bu yeni nəşrlərin, "Naxçıvan xalçaları" sənədli filmi və Xalça muzeyinin internet saytı ilə birlikdə yüksək səviyyədə təqdimat mərasimi keçirildi. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov mərasimdə iştirak və çıxış etdi. Yığcam, ancaq proqram xarakterli çıxışında Ali Məclisin Sədri Naxçıvan bölgəsində xalçaçılığın tarixinə, bu sənət növünün inkişaf yoluna nəzər salmış və demişdir: "Xalça toxumaq sənəti tarixən Azərbaycanda, o cümlədən Naxçıvanda aparıcı peşə sahələrindən biri olmuşdur. Təbiəti, ictimai və mədəni inkişaf səviyyəsi, həyat və məişət şəraiti Naxçıvanda xalçaçılığı hələ uzaq keçmişlərdə sənətkarlığın mühüm sahələrindən birinə çevirmişdir. Bu ərazidə istehsal olunan iri ölçülü, qalın toxunuşa malik xovlu və xovsuz xalçalardan məişətdə geniş istifadə edilmişdir. Arxeoloji qazıntılar zamanı əldə olunmuş ibtidai gil cəhrələr və sümükdən hazırlanmış iy ucları Naxçıvanın qədim toxuculuq mərkəzlərindən biri olduğunu təsdiq edir. Orta əsr müəllifləri Naxçıvanda xalçaçılığın geniş vüsət alması və bu ərazidə toxunan xalçaların şöhrət qazanması barədə öz əlyazmalarında dəyərli məlumatlar vermişlər *(141, 9 noyabr 2013-cü il)"*.

Arxeoloji tədqiqatlar zamanı aşkar olunmuş maddi-mədəniyyət nümunələri və xalçaçılığın tarixi ilə məşğul olan tədqiqatçılar təsdiq edir ki, bu sənət növü Azərbaycanda eramızdan bir neçə əsr əvvəl meydana gəlmiş, erkən orta əsrlər zamanı müstəqil sənət növünə çevrilmişdir. Bu dövrdə Azərbaycanın bir sıra şəhərlərində, o cümlədən Naxçıvan şəhərində xalçaçılıq sənəti nəinki inkişaf etmiş, hətta böyük şöhrət qazanmışdı. Ona görə də tədqiqatçılar haqlı olaraq Naxçıvan bölgəsini, xüsusilə Naxçıvan şəhərini Azərbaycan xalçaçılıq məktəbinin mühüm mərkəzlərindən biri olması fikrindədirlər.

Azərbaycan xaçaçılıq sənəti çox böyük inkişaf yolu keçmiş, xalça ustaları bu sənətə çox yaradıcılıqla yanaşmış, toxucular öz işlərində yerli xüsusiyyətləri nəzərə almış, nəticədə Azərbaycan xalçaçılıq sənətinin müxtəlif qrupları sırasında Quba- Şirvan, Qarabağ, Gəncə-Qazax və Naxçıvan-Təbriz qrupları açıq-aydın seçilməyə başlamışdır.

İnsanların qidalanmasında böyük rol oynayan dadlı ətinə, südünə, toxuculuqda əvəzsiz xammal olan yüksək keyfiyyətli yununa olan tələbatla əlaqədar hələ qədim zamanlardan Azərbaycanda və onun qədim ticarət və sənətkarlıq mərkəzlərindən biri olan Naxçıvanda qoyunçuluğun əsas təsərrüfat sahələrindən birinə çevrilməsi bu ərazidə toxuculuğun, o cümlədən xalçaçılığın inkişafı üçün münbit şərait yaratmışdır.

Naxçıvanın əsas ərazilərindən olan Culfa bölgəsinin və ətrafının, sonralar Azad-Ciran adlandırılan bu ərazinin xalçaçılıqda geniş istifadə olunan təbii boyaq bitkisi olan boyaqotu (marena) ilə zənginliyi də ərazidə xalçaçılığın, ümumiyyətlə toxuculuğun inkişafını şərtləndirən amillərdən olmuşdur. Həmçinin, qeyd olunan ərazinin dünyanın digər yerlərində çox da rast gəlinməyən, boyaqçılıqda əvəzsiz xammal hesab edilən qırmızı böcəklə zəngin olması da toxuculuğun və onun əsas sahələrindən biri olan xalçaçılığın yüksək səviyyədə inkişafı üçün zəmin hazırlamışdır. El arasında "Qırmız" adlanan keyfiyyətli tünd qırmızı rəngin istehsalında əvəzsiz xammal olan qırmızı böcəyin yığılmasından bəhs edən M.Vəliyev (Baharlı) 1921-ci ildə nəşr etdirdiyi "Azərbaycan" kitabında qeyd edir ki, Gəncə və Naxçıvan quberniyalarının məhsul verməyən çöllərində, xüsusən də, Arazyanı vadinin bataqlıq və şoranlıq torpaqlarında qırmızı böcək adlanan və olduqca bahalı qırmızı boya verən xüsusi qiymətli həşərata rast gəlinir. O çox kiçikdir, boz, qırmızı və ağ rəngdə olur. Dinc vaxtlarda hər il orta hesabla göstərilən quberniyaların kənd əhalisi təxminən 500 pud qırmızı böcək yığır və boyaqçı sənətkarlara satırdı *(147, s. 117)*. Qeyd etmək yerinə düşər ki, Culfa və ətrafında toplanan boyaqotu (marena) və qırmızı böcək yerli tələbatı ödəməklə yanaşı xarici bazarlara da çıxarılırdı və həmin bazarlarda yüksək qiymətləndirilirdi. Ona görə də Culfa orta əsrlər zamanı boyaqotu və qırmız ixrac edən mühüm mərkəzə çevrilmişdi.

Həmçinin, Ordubad bölgəsinin qədim zamanlardan mühüm ipəkçilik mərkəzinə çevrilməsi, burada yüksək keyfiyyətli ipək istehsal edilməsi isə Naxçıvanda ipək xalça toxunması üçün xammal bazası olmuş və ipək xalça toxunması üçün münbit şərait yaratmışdır. Beləliklə, Naxçıvanda gözəl yun xalçalar toxunması işi genişlənmişdir. Burada qeyd etmək yerinə düşər ki, Naxçıvan bölgəsinin qədim ticarət və sənətkarlıq mərkəzlərindən sayılan Culfa şəhərinin adının izahı variantlarından biri kimi farsca "self" (əyrici) sözü ilə əlaqələndirilməsi *(109, s.s. 46, 92; 134, s 4)* faktı da burada ip əyriciliyinin, dolayısı ilə toxuculuğun inkişafından xəbər verən mühüm faktlardandır.

982-ci ildə ərəb dilində qələmə alınan "Hüdud əl-Aləm" əsərində Azərbaycan xalçalarından bəhs olunur və qeyd edilir ki, "Muğan öz çuval və palazları, Naxçıvan, Xoy, Salmas şəhərləri zili, xalça, tumanbağı (qaytan) və sairə toxuma məmulatları ilə, Ərdəbil və Şirvan isə ipək və yundan toxunmuş rəngli parçaları ilə şöhrət qazanmışdır" *(170, s.s. 326, 33a)*. XI-XII yüzilliklərdə Azərbaycanın iri iqtisadi mərkəzi olan Naxçıvan şəhəri Atabəylərin hakimiyyəti dövründə inkişaf etmiş sənətkarlıq istehsalına

malik idi. Şəhərdə müxtəlif sənət sahələrini təmsil edən mahir ustalar – toxucular, bənnalar, çini qab və ağac emaletmə ustaları, zərgərlər və başqa sənətkarlar çalışırdılar. Şəhərin sənətkarlıq istehsalında toxuculuq və onunla bağlı olan sahələr – Çin parçası (xətai), zərif örtük, xalça, keçə, çuxalıq yun parça, hamam fitələri üçün nazik şal və pambıq parça istehsalı mühüm rol oynayırdı *(26, s. 406-407)*. Burada nadir xalça növlərindən olan gözəl zili, şəddə, vərni, kilim və sair toxunurdu. Xalçaçılığın tarixi ilə məşğul olan alimlərin fikrincə şəddə və vərninin mənşəyi Naxçıvana məxsus olmuş və onlar zaman keçdikcə başqa yerlərə yayılmışdır *(86, s. 5; 103, s. 103)*.

X-XII əsrlərdə Naxçıvanda xalçaçılıq o dərəcədə yüksək inkişaf səviyyəsinə çatmışdır ki, Azərbaycan şəhərlərində toxunan müxtəlif növ xalçaların ornament və təsvirlərinin tərtibatında naxçıvanlı sənətkarların əl işlərindən istifadə olunmuşdur. Görkəmli xalça ustası və tədqiqatçısı L.Kərimov bu haqda qeyd edir ki, orta əsr Azərbaycan şəhərlərində istehsal olunan xalçaların bədii tərtibatında Əcəmi Əbubəkr oğlu Naxçıvani, Əhməd Əyyub oğlu Naxçıvani kimi görkəmli Azərbaycan sənətkarlarının yaxından iştirak etdiyini ehtimal etmək olar *(85, s. 59)*.

Zəmanəmizədək gəlib çatan qədim Azərbaycan xalçaları çox təəssüflər olsun ki, orta əsrlərdən bəri müxtəlif vasitələrlə dünyanın bir sıra yerlərinə aparıldığından ölkəmizin muzeylərində deyil, başqa ölkələrin muzeylərində saxlanmaqdadır. Məsələn, İstanbulun "Türk və İslam muzeyi"ndə tamaşaçılara təqdim olunan XIII-XIV əsrlərə aid xalça indiyədək gəlib çatan ən yaşlı Azərbaycan xalçası hesab olunur *(25, s. 354)*. Berlin İncəsənət muzeyinin Şərq bölməsində isə qədim sujetli xalçalarımızdan XV yüzilliyə aid olan "Qazax" xalçası nümayiş etdirilir.

XV yüzillik Azərbaycanda xalçaçılığın inkişafında mühüm mərhələ təşkil edir. Bu dövrdə istər ölkə daxilində, istərsə də xarici bazarlarda Azərbaycan xalçalarına böyük tələbat vardı. Bu xalçalar, onların üzərində işlənən ornament və təsvirlər, çeşnilər orta əsr miniatür ustalarının diqqətini cəlb etdiyi kimi, Qərbin İntibah dövrü rəssamlarının da marağına səbəb olmuş, onlar öz əsərlərində Azərbaycan xalçalarının surətlərini əks etdirmişlər. Məsələn, Niderland rəssamı Hans Memlinqin (1433-1494) 1472-ci ildə çəkdiyi məşhur "Məryəm öz körpəsilə" boya əsərində Quba-Şirvan tipli xovlu Azərbaycan xalçası, venesiyalı Karlo Krivellonun (1430-1493) "Müjdə" əsərində Gəncə-Qazax xalçası, başqa bir italiyalı rəssam Dominiko de Bortalonun "Findlinqin toyu" əsərində Qazax xalçası təsvir edilmişdir *(25, s. 354; 27, s. 114)*.

XVI yüzillikdə həm bədii səviyyəsi, həm də istehsal həcminin artması

baxımından öz inkişafının xüsusi mərhələsinə keçən Azərbaycan xalçaları şəhər və kənd əhalisinin geniş kütlələrinin, sarayların, feodal əyanların çadırlarının başlıca elementi olmuşdur. ...Qızılı və gümüşü saplarla işlənmiş ipək xalçalar Qızılbaş əyanlarının başlıca məişət tələbatından birinə çevrilmişdi *(27, s. 229)*. XVII əsrdə də yüksək inkişaf səviyyəsində olmuş bu sənət növü sonrakı vaxtlarda da sənətkarlığın aparıcı sahələrindən biri olmuş, Azərbaycanda xalçaçılıq üzrə iri mərkəzlər yaranmışdır.

Rus tədqiqatçısı A.Piralov 1913-cü ildə Sankt-Peterburqda nəşr etdirdiyi kitabında xalçaçılıqla əlaqədar çox maraqlı statistik məlumatlar vermişdir. Alimin məlumatına görə 1912-ci ildə Gəncə vilayətinin 222 kəndində 33069 nəfər kustar xalçaçı olmuşdur ki, bu da kəndlərdə yaşayan əhalinin 49 faizini və həmin vilayətdə olan kustarların 56 faizini təşkil edirdi. Həmin tarixdə Quba vilayətinin 111 kəndindən 97-sində 39979 xalçaçı işləyirdi ki, bu da Quba vilayətində çalışan kustarların 81 faizini təşkil edirdi *(163, s.s. 56, 59, 78)*.

Naxçıvan bölgəsinin kənd tipli yaşayış məskənlərində yaşayan yaşlı əhalinin şahidliyinə görə Naxçıvanın bütün kəndlərində qadınlar, xüsusilə qız uşaqları xalça toxumağı bacarmışlar və onlar qış dövründə, başqa sözlə desək yaz, yay, payız təsərrüfat işlərinin qurtarmasından sonra xalça toxumaqla məşğul olmuşlar. Həm də bu işi yerinə yetirərkən qohum və qonşuların qadınlarının köməyindən geniş şəkildə istifadə olunmuşdur. Bölgədə xalçaçılığın geniş yayılması səbəbindəndir ki, "Naxçıvan abidələri ensiklopediyası"nda "Naxçıvanın elə bir kəndi tapılmaz ki, orada xalçaçılıq sənətinin hansısa bir növü ilə məşğul olmasınlar" fikri xüsusi olaraq vurğulanmışdır *(112, s. 357)*. Ona görə də A.Piralovun Gəncə və Quba vilayətlərinin timsalında xalçaçılıqla əlaqədar təqdim etdiyi yüksək rəqəmləri tam mənası ilə Naxçıvan bölgəsinə də aid etmək olar.

Qədim və orta əsrlər dövründən bəri insanların rahatlığını təmin edən vasitəyə çevrilən xalça insanların məişətinə o dərəcədə çox daxil olmuşdur ki, ərə gedən qızlara cehiz kimi müxtəlif növ xalça nümunələri də verilməsi bir həyat normasına çevrilmişdi. Cehizlik xalçalar isə adətən ərə gedəcək qızın özü və ya ailə üzvləri tərəfindən toxunurdu. Orta əsrlər zamanı, hətta XX yüzilliyin ortalarına qədər xalçaçılığın xalqımızın məişətində mühüm yer tutması səbəbindəndir ki, bu sənəti bacarmaq ərə gedəcək qızların evdarlığının, iş-güc bilmələrinin göstəricilərindən biri kimi dəyərləndirilirdi. Yaşlı əhalinin dediyinə görə hər hansı bir qıza elçiliyə gələn qadınlardan biri nişanlanacaq qızdan gizlicə "qızım, gəbə toxumağı bacarırsanmı?" deyə soruşarmış.

Azərbaycan xalçaları öz gözəlliyi ilə müxtəlif vaxtlarda əraziyə gələn əcnəbilərin diqqətini cəlb etmiş, onlar orta əsr dekorativ tətbiqi sənətimizin bu gözəl nümunələrini dəyər-dəymazinə satın alaraq özləri ilə aparmış və ya başqa yollarla ölkədən çıxarılmışdır. Həmin nümunələrin bəziləri dünyanın bir sıra məşhur muzeylərinin və xüsusi adamların kolleksiyalarının bəzəyinə çevrilmişlər. Məhz bu cür satınalmaların, xəlvəti aparmaların nəticəsidir ki, bir sıra məşhur Azərbaycan xalçaları, o cümlədən 1539-cu ildə Təbrizdə Ərdəbil məscidi üçün toxunmuş 56 kvadrat metrlik "Şeyx Səfi" xalçası Londonun "Viktoriya və Albert" muzeyində saxlanır. XIII-XVIII əsrlərə aid çoxlu Azərbaycan xalçaları İstanbulun "Türk və İslam əsərləri muzeyi"ndə mühafizə edilir. XVI əsrə aid Qarabağ xalçaları ABŞ və Qərbi Avropa kolleksionerlərinin kolleksiyalarında, XVI əsrə aid Təbriz, XVII əsrə aid Qarabağ xalçaları ABŞ-ın Nyu-York şəhərindəki "Metropoliten" incəsənət muzeyində nümayiş etdirilir.

Xarici ölkələrin muzeylərində saxlanılan Azərbaycan sənət abidələrinə xüsusi məqalələr silsiləsi həsr etmiş akademik Rasim Əfəndinin tədqiqatlarından aydın olur ki, Fransanın "Dekorativ Sənətlər" və "Luvr" muzeylərində *(42, 25.01.2008)*, Moskvanın "Dövlət Şərq Xalqları muzeyi"ndə, "Elmi-Tədqiqat Bədii Sənaye İnstitutunun muzeyi"ndə *(42, 28.02.2008)*, Türkiyənin İstanbul şəhərindəki "Türk və İslam əsərləri muzeyi"ndə, "Topqapı Sarayı muzeyi"ndə, "Xalça muzeyi"ndə, Konyanın "Mövlana muzeyi"ndə *(42, 18.07.2008)*, Böyük Britaniyanın "Viktoriya və Albert muzeyi"ndə, Liverpul və Qlazko şəhərlərindəki muzeylərdə, Londonun Nyu-Bond küçəsində yerləşən qədim şərq mallarının alveri ilə məşğul olan şirkətin kolleksiyasında *(42, 01.10.2008)*, Londonda Ceyms Kristi şirkətinə məxsus olan Əntiq mallar mağazasında *(42, 17.11.2008)* və sair şəhərlərdə fəaliyyət göstərən muzeylərdə və şəxsi kolleksiyalarda çoxlu Azərbaycan xalçaları nümayiş etdirilir.

Naxçıvanda xalçaçılıq sənətinin yüksək səviyyədə inkişaf etməsini arxeoloji materiallar, orta əsr qaynaqları və bir sıra digər faktlar sübuta yetirdiyi kimi ərazidə indiyədək gəlib çatan maddi-mədəniyyət nümunələri, o cümlədən epiqrafik faktlar də təsdiq etməkdədir. Ordubad şəhərinin şərq tərəfində yerləşən və yerli əhali tərəfindən "Malik İbrahim qəbristanlığı" adlandırılan məzarlıqda keçən yüzilliyin 80-ci illərinin əvvəllərində bir ədəd başdaşı tipli qəbirüstü xatirə abidəsi üzərində ərəb dilində həkk edilmiş epiqrafik motiv-kitabə və ondan aşağıda xalça toxunuşunda istifadə edilən və bu işdə həlledici əhəmiyyətə malik olan iki ədəd həvə təsviri qeydə alınmışdır. Fəlsəfə doktoru dissertasiyasının yazılmasında istifadə etdiyimiz bu abidə üzərində həkk edilmiş kitabədən aydın olur ki, başdaşı Zeynəli adlı

adamın qəbri üzərində qoyulmuşdur *(164, s. 52)*. Xatirəsinə hazırlanmış başdaşı üzərində həvə təsvirlərinin həkk olunması, etnoqrafik məlumatların da təsdiq etdiyi kimi mərhum Zeynəlinin sağlığında – XVI-XVII yüzillikdə xalçaçılıqla məşğul olmasını göstərmək, vurğulamaq səbəbindən irəli gəlmişdir. Bu fakta – xalça toxunuşunda istifadə olunan alətin təsvirinin qəbirüstü xatirə abidəsi üzərində həkk olunmasına əsasən demək olar ki, xalçaçılıq sənəti orta əsrlər zamanı Naxçıvan bölgəsinin mühüm yaşayış məskənlərindən olan Ordubad şəhərində yüksək inkişaf səviyyəsinə çatmış, Zeynəli isə bu sənətin məşhur nümayəndələrindən biri olmuşdur.

Yaxud da tarixi daim Naxçıvan bölgəsi ilə sıx bağlı olan, hətta tarixin müxtəlif dövrlərində Naxçıvan adı ilə yaradılan inzibati ərazi vahidlərinə daxil edilən Sisyan rayonunun Urud kəndində qeydə alınaraq tədqiq olunun sənduqə tipli iki ədəd qəbirüstü xatirə abidəsi üzərində həkk edilən hana (xalça toxumaq üçün qurulan dəzgah) təsvirlərini, xalça toxuma prosesini də burada xatırlatmaq yerinə düşər. AMEA-nın müxbir üzvü M.Nemət tərəfindən 1961-ci ildə Urud qəbristanlığında tədqiq və nəşr edilən bu abidələr üzərində həkk edilən təsvirlər ərazidə xalçaçılıq sənətinin yüksək səviyyədə inkişaf etdiyini göstərir. Qeyd etmək yerinə düşər ki, həmin abidələr sonralar erməni vandalları tərəfindən məhv edildikləri üçün M.Nemətin tədqiqatları (fotoşəkillər və kitabələrin oxunuşu) həmin abidələr haqqında məlumat verən yeganə mənbələrdir.

Alimin tədqiqatlarından aydın olur ki, sənduqələrdən biri hicri-qəməri təqvimi ilə 992-ci ildə (miladi 1584-cü il) vəfat etmiş Aysoltanın xatirəsinə hazırlanmışdır *(158, s. 72)*. Abidənin sağ yanında xalça toxunuşu səhnəsi təsvir olunmuşdur. Burada sol tərəfdə oturmuş qadın sağ əlində kirgit (xalça toxunuşunda istifadə olunan, sümükdən və ya ağacdan düzəldilmiş haça ağızlı alət) tutmuşdur. Sol əli sərbəstdir. Onun başı üzərində yundan sarınmış yumaq təsvir olunmuşdur. Bu qadından sağ tərəfdə hana (dəzgah) təsviri, ondan sağda isə ikinci bir qadın təsviri həkk edilmişdir. Oturmuş vəziyyətdə olan və sol əlində həvə alətini tutan bu qadın sağ əlini xalça toxunuşunda əsas xammal olan yunu daramaq üçün istifadə olunan yun darağının üstünə qoymuşdur. Həmin qadından yuxarıda yenə də kirgit, xalça toxunuşunda tez-tez istifadə olunan qayçı, yun iplik və yumaq təsviri həkk edilmişdir. M.Nemətin fikrincə burada xalça toxuma prosesi təsvir olunmuşdur ***(158, s. s. 49, 72, 188, şəkil 1049)***.

Həmin qəbristanlıqda M.Nemət tərəfindən tədqiq olunan başqa bir sənduqə tipli qəbirüstü xatirə abidəsinin yan tərəfində isə sol tərəfdə hana (dəzgah), mərkəzdə əlində su qabı tutmuş insan, ondan sağ tərəfdə isə

buxarı qarşısında əllərini yuxarı qaldırmış vəziyyətdə olan şaman təsviri həkk olunmuşdur *(158, s.s. 49, 72-73, 188, şəkil 1054)*.

M.Nemətin fikrincə Naxçıvanın dağətəyi ərazilərinin əhalisinin xalçaçılıq sənəti ilə məşğul olması burada yun darama, paltar, xalça, palaz, xaral, cecim, xurcun və başqa məişət əşyalarının düzəldilməsi üçün yun ipliyin hazırlanması işi inkişaf etmişdi. İnkişafı burada xırda buynuzlu heyvandarlığın yayılmasına kömək etmiş xalçaçılıq Naxçıvanın dağətəyi rayonlarının əhalisinin əsas məşğuliyyət sahələrindən biri olmuşdur. Bunu həmçinin bu rayonların isti paltar və əşyalar tələb edən iqlim şəraiti də şərtləndirmişdir *(158, s. 49)*.

Çox təəssüflər olsun ki, digər maddi-mədəniyyət nümunələrimiz kimi xalçalarımız da bədnam və çörək itirən qonşularımız ermənilər tərəfindən XIX-XX yüzilliklərdə, xüsusilə XX yüzilliyin 50-60-cı illərində oğurluq və başqa vasitələrlə daşınaraq indiki Ermənistana aparılmışdır. Ermənilərin həmin vaxtlar Kirovabad adlandırılan indiki Gəncə şəhərində toxunan sintetik xalçaları gətirərək kəndlərimizdə köhnəlmiş xalçalara – dekorativ tətbiqi sənətimizin gözəl nümunələrinə dəyişərək kütləvi surətdə Ermənistana aparmalarını yaşlı nəsil yaxşı xatırlayır. Məhz bu daşımalar nəticəsində ələ keçirilən nadir xalçalarımızın bir hissəsi gizli yollarla xaricə keçirilərək baha qiymətə erməni kolleksionerlərinə satılmışdır. Məhz bu səbəbdəndir ki, nadir xalçalarımızın böyük bir hissəsi müxtəlif ölkələrdə yaşayan, əslən erməni mənşəli xarici vətəndaşların şəxsi kolleksiyalarında toplanmışdır. Ölkəmizdən aparılan xalçaların bir hissəsi isə İrəvanın və indiki Ermənistanın başqa şəhərlərinin muzeylərində mühafizə olunaraq erməni mədəniyyəti nümunələri kimi nümayiş etdirilməkdədir. Bu gün İrəvan şəhərindəki Tarix muzeyində nümayiş etdirilən qədim və məşhur "Naxçıvan" çeşnisi ilə tanınan və oxşarı Azərbaycanın digər bölgələrində də rast gəlinən xalça dünyanın müxtəlif ölkələrindən gəlmiş tamaşaçılara ermənilərin "İcevan" xalçası adı ilə təqdim olunur *(112, s. 354)*. Təəssüf ki, bu cür faktlar onlarladır.

Təqdimat mərasimində Ali Məclisin Sədri muxtar respublikada son illərdə xalçaçılığın inkişafı ilə əlaqədar aparılan genişmiqyaslı işlərdən bəhs etməklə yanaşı, bu sahədə qarşıda duran vəzifələrdən də söhbət açmış və bu münasibətlə qeyd etmişdir ki, "Naxçıvan xalçaları, sadəcə, xalça deyil, bunlar həm də xalqımızın tarixini, mədəniyyətini, incəsənətini və məişət tərzini özündə yaşadan qiymətli nümunələrdir. Ona görə də bu nümunələrin öyrənilməsi, tədqiqat işlərinin davam etdirilməsi bundan sonra da diqqət mərkəzində saxlanılmalıdır. Azərbaycan Milli Elmlər Akademiyasının

Naxçıvan Bölməsi Naxçıvan xalçaçılıq məktəbini elmi cəhətdən və sistemli şəkildə araşdırmalı, xalçaçılıq sahəsində unudulmaqda olan ənənələrin bərpasına çalışmalı, Naxçıvan Dövlət Arxiv idarəsi ilə birlikdə xalçaçılıq məktəbinə dair elmi işlər hazırlamalıdır" *(141, 9 noyabr 2013-cü il)*.

Xalçalarımızın təbliği, onların gənc nəslə tanıdılmasını vacib sayan Ali Məclisin Sədri Naxçıvan Dövlət Universitetinin və Naxçıvan Müəllimlər İnstitutunun təsviri incəsənət ixtisasında təhsil alan tələbələrinin xalçaçılıq məktəbinə aid yeni nəşrlərlə tanış edilməsi, həmin nəşrlərin tədris planlarına salınması, Xalça muzeyində açıq dərslər keçilməsi haqqında tapşırıqlar vermişdir. Həmçinin, Ali Məclisin Sədri xalçaçılıq kurslarının təşkilinin bundan sonra da davam etdirilməsi, xalçaçılıqda istifadə olunan xammalın, təbii boyaların istehsalı və tədarükü üçün müvafiq tədbirlərin görülməsi, xalça sənəti ənənələrinin yayıldığı ərazilərdə xalça istehsalının dəstəklənməsi, bölgədə yaşayan xalça toxuyanlar üçün zəruri şərait yaradılması, xalçaların təbliği işinin genişləndirilməsi, elmi əsaslarla yeni bələdçi kitablarının yaradılması və sair haqqında müvafiq nazirliklər və aid təşkilatlar qarşısında konkret vəzifələr qoymuşdur *(141, 9 noyabr 2013-cü il)*.

Muxtar respublikada Naxçıvan xalçaçılıq məktəbinin öyrənilməsi, təbliği və inkişaf etdirilməsi sahəsində həyata keçirilən tədbirlərin davamı kimi diqqəti cəlb edən təqdimat mərasimində Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri tərəfindən alimlərə, təhsil işçilərinə, müvafiq nazirlik və təşkilatların əməkdaşlarına ünvanlanan istiqamətverici fikirlərin, tövsiyyə və tapşırıqların, qarşıya qoyulan möhtəşəm vəzifələrin yerinə yetirilməsinə başlanması ilə, fikrimizcə, təqdimat mərasiminin keçirildiyi gün – 8 noyabr 2013-cü il Naxçıvan Muxtar Respublikasında xalçaçılığın tədqiqi, təbliği, inkişaf etdirilməsi və sair sahəsində yeni mərhələnin başlanğıcına çevrilmişdir. Şübhəsiz ki, bu mərhələ dekorativ – tətbiqi sənətimizin möhtəşəm nümunəsi olan xalçaçılığın Naxçıvan Muxtar Respublikasında inkişafına özünün böyük töhfələrini verəcəkdir.

## 3.4. NAXÇIVAN MEMARLIQ MƏKTƏBİNİN MÖHTƏŞƏM NÜMUNƏSİ – NUH TÜRBƏSİ

Müxtəlif vaxtlarda bölgəyə gələn bir sıra səyyahların yol qeydləri və orta əsr qaynaqlarının məlumatları təsdiq edirlər ki, Azərbaycanın, geniş miqyasda Yaxın Şərqin elm, təhsil və mədəniyyət mərkəzlərindən biri olan Naxçıvan diyarı qədim və orta əsrlər zamanı yaradılmış maddi-mədəniyyət nümunələri ilə çox zəngin olmuşdur. Ərazidə indiyədək salamat vəziyyətdə gəlib çatan, həmçinin bəzi abidələrin dağılmış vəziyyətdə qalan qalıqlarının və orta əsr qaynaqlarının da təsdiq etdiyi kimi bu nümunələr içərisində memarlıq abidələri xüsusi yer tutmuşdur. Bir qismi zaman keçdikcə təbii və sair qüvvələrin təsirindən məhv olaraq sıradan çıxmış bu abidələrin bir hissəsi də sovet hakimiyyəti illərində ateizm ideologiyasına uyğun olaraq planlı şəkildə tədricən dağıdılmışdır. Belə nümunələrdən biri də Naxçıvan şəhərində əhali arasında Nuh peyğəmbərin qəbri və məzarüstü türbəsi kimi tanınan abidədir.

Təxminən 5000 il bundan əvvəl ilkin şəhər mədəniyyətinin meydana gəldiyi Naxçıvan şəhərinin cənubunda yerləşən və hansı dövrə aid olması dəqiq bilinməyən, ancaq yerli əhalinin – müsəlman türklərin böyük hörmət və ehtiram bəslədiyi və ziyarət etdiyi, yeraltı və yerüstü hissədən ibarət olan türbənin sərdabə hissəsində yerləşən bu məzar Naxçıvanda sovet hakimiyyəti qurulanadək bölgənin məşhur ziyarətgahlarından biri idi. Ancaq sovet hakimiyyəti illərində Azərbaycanın digər məşhur inam yerləri kimi bu müqəddəs yer – qəbir də xalqa zorla unutdurulmuş, üzərindəki türbə özülünədək dağıdılmışdır. Bu səbəbdən də tək-tək yaşlı adamlar istisna olmaqla əhalinin əksəriyyətinin bu abidə haqqında məlumatı yox idi və onun yerini heç kim bilmirdi.

Ona görə də maddi-mədəniyyət nümunələrimizə, milli-mənəvi dəyərlərimizə ehtiramla yanaşan və bu sahədə qayğısını əsirgəməyən Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin tapşırığı ilə 2005-ci ildə türbənin yeri tapılıb müəyyənləşdirilmişdir. Bundan sonra AMEA Naxçıvan Bölməsinin əməkdaşları bu ərazidə arxeoloji tədqiqat işləri aparmış, türbənin ətrafı təmizlənmiş, bünövrəsi tamamilə aşkara çıxarılmışdır. Xoşbəxtlikdən türbə dağıdılarkən onun özülündən- səkkizguşəli bünövrəsindən təxminən 20 sm hündürlükdə salamat qalmışdır. Türbənin bünövrəsi aşkar olunduqdan və arxeoloji tədqiqat işləri başa çatdırıldıqdan sonra Naxçıvan MR Ali Məclisinin Sədri Vasif Talıbov 28 iyun 2006-cı il tarixdə "Nuh peyğəmbərin Naxçıvan şəhərindəki məzarüstü türbəsinin bərpa edilməsi haqqında" Sərəncam im-

zalamışdır *(131, s. 207-210)*. Sərəncamdan irəli gələn tələblərə uyğun olaraq Naxçıvan MR Nazirlər Kabineti yanında Elmi Bərpa – İstehsalat İdarəsi burada bərpa və abadlıq işlərinə başlamışdır. Artıq orada bərpa işləri başa çatdırılmış və Nuh türbəsi yenidən xalqa qaytarılmışdır.

Bundan sonra Naxçıvan və Nuh peyğəmbər bağlılığı ilə əlaqədar tədqiqatlar aparılmağa başlandı. Ona görə də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov 10 fevral 2009-cu ildə "Nuh peyğəmbər: dünya tufanı və Naxçıvan mövzusunda beynəlxalq simpoziumun keçirilməsi haqqında" Sərəncam imzaladı *(131, s. 403)*. Sərəncama uyğun olaraq 24-25 aprel 2009-cu ildə Naxçıvan şəhərində bir sıra ölkələrdən əcnəbi alimlərin də qatıldığı beynəlxalq simpozium keçirildi *(125)*.

Simpoziumda çıxış edən Muxtar dövlətin başçısı belə bir fikri xüsusilə vurğuladı ki, "...qədim dövrlərdə və orta əsrlərdə Naxçıvanın tarixindən bəhs edən tədqiqatçılar, alim və səyyahlar Nuh peyğəmbər və Naxçıvan bağlılığından danışsalar da, bu məsələ ilə bağlı yazılı mənbələr qoyub getsələr də, Sovetlər Birliyi dövründə "Nuh – Naxçıvan" mövzusu qadağan olmuş, elmi ədəbiyyatlarda işlədilməsinə icazə verilməmişdir. ...Sovet tarixşünaslığı Nuh peyğəmbər və Naxçıvan bağlılığını qətiyyətlə təkzib etməyə çalışmış, o dövrün elmi ədəbiyyatlarında, hətta Azərbaycan müstəqillik qazandıqdan sonra nəşr olunan bir sıra tədqiqat materiallarında da "Naxçıvan" sözünün mənşəyi barədə ziddiyətli fikirlər irəli sürülmüşdür" *(125, s. 12-13)*.

Bir sıra maddi-mədəniyyət abidələrimizlə bərabər bədnam qonşularımız bu türbəni də erməni mədəniyyəti nümunəsi kimi qələmə verməyə çalışır, onu özlərinə məxsus kilsə adlandırırlar. Türbə ətrafında arxeoloji tədqiqatlar, bərpa və abadlıq işləri zamanı torpağın altından əldə olunan xalqımıza məxsus bir sıra maddi-mədəniyyət nümunələri bu iddiaların cəfəngiyyat olduğunu ortaya qoyur.

İlk növbədə orta əsr qaynaqlarına və ədəbiyyat materiallarına müraciət edək. Şübhəsiz ki, Naxçıvanda Nuhun qəbri məsələsi dünənin və bu günün söhbəti deyildir. Bu fikir qədim zamanlardan nəsildən-nəsilə ötürülərək şifahi şəkildə indiyə qədər gəlib çatdığı kimi, onun haqqında orta əsr qaynaqlarında da məlumatlar verilmişdir. Bu qaynaqların bir qismi indiyədək gəlib çatmasa və bizə məlum olmasa da, məlumatlardan zəmanəmizədək çatanlar da vardır. Orta əsr – müəlliflərindən XVI əsrdə yaşamış ərəb coğrafiyaşünası əl-Şərifi Nuhun gəmisinin və qəbrinin Naxçıvanda olduğunu qeyd etmişdir *(119, s. 197)*.

Nuhun qəbrinin Naxçıvanda olması haqqında məlumatlara digər orta əsr müəlliflərinin, o cümlədən əcnəbi səyyahların əsərlərində də rast gəlinir.

1632-1668-ci illər arasında şərq ölkələrinə 6 dəfə səfərə çıxmış fransız səyyahı və taciri Jan Batist Tavernye bir neçə dəfə Azərbaycanda olmuş, 1664-cü ildə son səfəri zamanı Naxçıvana da gəlmiş və öz müşahidələrini qələmə almışdır. Bölgəyə daxil olan bir sıra yaşayış məskənləri, o cümlədən şəhərlər haqqında maraqlı məlumatlar verən səyyah Naxçıvan şəhərində olarkən orada böyük məscid binasının qalıqlarını da müşahidə etmiş və yazmışdır ki, bu Asiyanın ən yaxşı və gözəl məscidlərindən idi. Deyirlər ki, Nuhun qəbirinə yadigar olaraq inşa edilmişdir *(127, s. 90)*.

Səyyahın Naxçıvan şəhərində gördüyü və haqqında məlumat verdiyi məscid Naxçıvan memarlıq məktəbinin banisi Əcəmi Əbubəkr oğlu Naxçıvaninin XII yüzilliyin II yarısında inşa etdiyi Came məscididir. Səyyahın məlumatına görə XVII əsrin ortalarında, yəni o şəhərdə olarkən məscid yarımdağılmış vəziyyətdə olmuşdur. Onun məlumatında bir cəhət diqqəti xüsusilə cəlb edir: o, yerli əhalinin verdiyi məlumata əsaslanaraq məscidin Nuhun qəbirinə yadigar olaraq tikildiyini yazır. Deməli, hələ XVII yüzillikdə Naxçıvanın yerli əhalisi bəşərin ikinci atası sayılan Nuh peyğəmbərin qəbirini müqəddəs bir yer kimi qəbul etmiş, hətta onun şərəfinə yadigar olaraq möhtəşəm bir məscid, səyyahın sözləri ilə desək, Asiyada ən yaxşı və gözəl məscidlərdən birini inşa etdirmişdilər. Bir cəhəti xüsusilə vurğulamaq istərdik ki, bu sözləri milliyətcə fransız, ermənilərlə eyni dinə sitayiş edən səyyah yazmışdır. Həmin vaxt Naxçıvanda ermənilər yaşamadığı üçün öz yalanlarını səyyaha sırıya, onu çaşdıra bilməmişlər.

Ancaq sonrakı vaxtlarda, daha dəqiq desək, 1828-ci il Türkmənçay müqaviləsinin şərtlərinə uyğun olaraq ermənilər bu əraziyə köçürüldükdən sonra bölgəyə gələn rus məmurlarının əsərlərində erməni təsiri açıq-aydın nəzərə çarpır. Çarizmin ermənilərə rəğbəti yerli xalqın tarixini, adətini, ənənəsini, məişətini, ümumiyyətlə xarakteristikasını öyrənmək üçün bu əraziyə göndərilən məmurların ermənilərə münasibətində, yazdıqları əsərlərdə də özünü açıq-aydın biruzə verirdi. Onlar öz əsərlərini və qeydlərini qaynaqlardan daha çox onlara bələdçilik, xüsusilə tərcüməçilik edən ermənilərin dedikləri əsasında yazırdılar. Ona görə də öz yazılarında ermənilərin mənafeyinə uyğun olaraq tarixi həqiqətləri təhrif edir, səhvlərə yol verirdilər. Ümumiyyətlə, XIX yüzillikdə Naxçıvanda olan rus tədqiqatçıları öz əsərlərini ermənilərə istinad edərək yazmışlar. Məsələn, ilhaqdan az sonra Naxçıvanda olmuş və 1833-cü ildə Naxçıvan haqqında kitab nəşr etdirmiş V.Qriqoryev yazır ki, ermənilər səyyahlara Naxçıvan şəhərinin cənub tərəfində qədim olmayan hansı isə bir tikilinin kərpic divarının küncünü göstərib onu Nuhun qəbiri kimi qələmə verirlər və inandırmağa çalışırlar ki, burada, Nuhun qəbiri

üstündə nə vaxt isə yuxarı hissəsi dağılmış iki mərtəbəli kilsə olmuşdur *(153, s. 330)*. Deməli, V.Qriqoryev öz yazdığına görə, Naxçıvanda olarkən orada hansı isə bir tikilinin kərpic divarının küncünü görmüşdür. Həmin vaxt orada kilsə və yaxud başqa bir tikili olmamışdır. Göstərilən fikirdən də göründüyü kimi, müəllif özü qeydlərini ermənilərin dediklərinə istinad edərək yazdığını etiraf edir. Çox təəssüf ki, V.Qriqoryevin gözləri ilə görmədiyi, ancaq ermənilərin dediyinə istinad edərək yazdığı bu fikir, sonrakı xristian müəlliflərinin, xüsusilə rus tədqiqatçılarının əsərlərində, o cümlədən 1836-cı ildə Sankt-Peterburqda nəşr olunmuş "Обозрение Российских владений за Кавказом..." kitabında da olduğu kimi təkrarlanmışdır *(162, s. 330-331)*.

Əslində isə türbənin quruluşu, onun iki təbəqədən – yeraltı sərdabədən və yerüstü türbədən ibarət olması Naxçıvan memarlıq abidələri, ümumiyyətlə türk memarlığı üçün xarakterik cəhətdir və bunun kilsə adlandırılması cəfəngiyyatdan başqa bir şey deyildir. Əgər orada, qəbirin üstündə kilsə olsaydı, ilhaqdan təxminən iki əsr əvvəl Naxçıvanda olmuş J.Tavernye bu haqda bir xristian təəssübkeşliyi ilə səxavətlə məlumat verər, Naxçıvan şəhərində XII əsrdə tikilən Came məscidinin Nuhun qəbirinə yadigar olaraq inşa edilməsindən bəhs etməzdi. Digər tərəfdən, erməni memarlığında səkkizguşəli, eyni zamanda iki mərtəbəli kilsələr yoxdur.

Ermənipərəstliyi baxımdan xüsusi ilə seçilən İ.Şopen 1852-ci ildə nəşr etdirdiyi kitabında bu qəbirdən bəhs etməklə yanaşı, Nuhla bağlı başqa bir məlumat da verir. O qeyd edir ki, əhali Naxçıvan-İrəvan yolunun kənarında Nuhun bacısının qəbirinin olduğu yeri göstərir *(171, s. 321)*.

Naxçıvan şəhər məktəbinin müfəttiş-müəllimi K.Nikitin isə Nuhun qəbri haqqında daha geniş məlumat verir: "Nuhun qəbri şəhərin canubunda, Köhnə qalanın (Naxçıvanqalanın – F.S.) qalıqlarının yaxınlığında yerləşir. Hazırkı görünüşü VIII yüzillikdə farslar tərəfindən bərpa olunmuşdur... Nuhun bacısının qəbiri şəhərə gələn İrəvan yolunun kənarında yüksək təpənin üzərindədir. O, Nuhun qəbrindən pis vəziyyətdədir. Nuhun arvadı Nuhəmzər (ehtimal ki, Nuhəmzən olmalıdır. "Zən" fars dilində "qadın", "arvad" deməkdir. Nuhəmzər, Nuhəmzən – "Nuhun arvadı" mənasına gəlir-F.S.) və ya Nuhəmqar (Nuhun qarısı – F.S.) Mərənddə ölmüşdür" *(159, s. 112-113)*. Buna görə də tədqiqatçılar Mərənd sözünün mənasını "Ana orada" *(168, s. 106)*, "Ana burada" *(166, s. 119-120)* kimi izah edirlər. Bəzi müasir tədqiqatçılar rəvayətlərə əsaslanaraq Nuh peyğəmbərin anasının Mərənddə dəfn olunduğunu qeyd edirlər *(142, s. 96)*.

Əqidə və inamına görə xaçpərəst və ermənipərəst müəllifin əsərində

bir cəhət diqqəti cəlb edir. Bu onun qəbrin üstündə olan türbənin VIII yüzillikdə bərpa olunmasını qeyd etməsidir. Bu məlumat türbənin bərpa tarixini təyin etmək baxımından qiymətli olsa da, bərpanın farslar tərəfindən aparılmasında müəllif yanılmışdır. Çünki həmin vaxt Naxçıvan bölgəsi ərəblər tərəfindən işğal edilmiş, hətta özünün geostrateji mövqeyinə görə Naxçıvan şəhəri ərəblərin iqamətgahına çevrilmişdi. Deməli, bərpa işlərini farslar deyil ərəblər aparmışdır. Azərbaycana islamı yaymaq məqsədi ilə gələn, Nuhu 124 min peyğəmbərdən biri kimi qəbul və təbliğ edən, hətta onu "Ulul-əzm" (özündən əvvəlki şəriəti dəyişdirib yeni şəriət gətirən – F.S) peyğəmbərlərdən hesab edən ərəblərin Naxçıvan şəhərindəki türbəni bərpa etdirməsi məntiqi cəhətdən də əsaslı görünür.

Həmçinin, K.Nikitinin məlumatlarından aydın olur ki, Nuh peyğəmbər hazırda Naxçıvan şəhərinin yerləşdiyi yerdə məskən salmış, öz ailəsi ilə burada qərar tutaraq gələcək şəhərin əsasını qoyduğundan yaşayış məskəninin ilk məskunlaşma yeri mənasını verən adı da buradan meydana gəlmişdir. Müəllifin fikrincə, Nuh peyğəmbər və onun ailəsi uzun müddət Naxçıvanda yaşamışlar. Rəvayətə görə insan nəsli ətraf yerlərə buradan yayılmışdır. Nuh peyğəmbər özü, bacısı və ailənin digər üzvləri Naxçıvanda vəfat etmiş və burada da dəfn olunmuşlar. Bu fikirə əsasən demək olar ki, ərazidə Nuh peyğəmbərlə bağlı başqa yerlər də olmuşdur. Ancaq zaman keçdikcə həmin yerlərin bir hissəsi unudulmuşdur. Qeyd etmək lazımdır ki, hazırda Naxçıvan bölgəsində Nuh peyğəmbər və Dünya tufanı ilə bağlı bir sıra toponimlər, o cümlədən Naxçıvan, Nehrəm, Nəhəcir, Nuhdaban, Peyğəmbər ayağı, Nəbi yurdu, Qaranquş yaylağı, Nuhun qəbri və sair yer adları qalmaqdadır.

Rus alimi V.Sısoyev yazır ki, Naxçıvan şəhərinin cənub-şərq qurtaracağıda, türk qəbiristanlığının yaxınlığında Nuhun qəbri vardır. Alimin yazdığına görə müsəlmanlar bu yeri "Pir" adlandırır. Deməli, V.M.Sısoyev abidənin pir olduğunu və müsəlman-türklər tərəfindən ziyarət olunduğunu açıq-aşkar etiraf etmişdir ***(168, s. 104)***.

XX yüzilliyin 30-cu illərində Naxçıvanda olmuş rus alimi K.N.Smirnov isə bu abidə haqqında belə məlumat verir: qədim Abbasabad qalasının yaxınlığında Nuhun qəbri yerləşir: Nuhdaban. Bütün naxçıvanlıların bildiyi əfsanədə buranın Nuhun gəmisinin ilk dayanacağı olduğu və şəhərin adının da buradan götürüldüyü göstərilir. Nuhun qəbri öz-özlüyündə o qədər də maraq kəsb etmir. Naxçıvan arxiv sənədlərindəki məlumatlarda bu qəbrin yaşının 4900 il olması faktı o qədər də inandırıcı görünmür. Nuhdabanı ziyarət edənlər o qədər də çox deyil ***(166, s. 99)*** (K.N.Smirnovun Naxçıvanda olduğu dövr (1934-cü il) şəxsiyyətə pərəstişin, repressiyaların gücləndiyi

bir vaxta təsadüf edir. Həmin vaxt əhalinin çoxu qorxusundan oraya ziyarətə getmədiyindən müəllif belə yazmışdır – F.S.).

Vaxtilə abidənin üzərində onun təyinatı, sifarişçisi, inşa tarixi, memarı və s. haqqında dəyərli məlumat verə biləcək kitabələr olmuşdur. Ancaq zaman keçdikcə təbii qüvvələrin (isti, soyuq, yağış, qar, külək) təsirindən, yaxud da sovet hakimiyyəti illərində məhv edilməsi səbəbindən bu kitabələrin heç biri indiyədək qalmadığından onun inşa tarixi haqqında dəqiq və əsaslı fikir söyləmək mümkün deyildir.

Arxeoloji tədqiqatlar zamanı aşkar edilən türbəyə aid ornament qalıqlarına və epiqrafik fraqmentlərə əsasən dövrü haqqında tədqiqatçılar arasında müxtəlif fikirlər olan türbənin inşa tarixi haqqında müəyyən fikirlər söyləmək olar. Türbənin ətrafı təmizlənərkən torpağın altından aşkar olunan maddi-mədəniyyət nümunələri Naxçıvan memarlıq məktəbinə məxsus abidələr – xüsusilə bu məktəbin banisi Əcəmi Əbubəkr oğlu Naxçıvani yadigarları olan Yusif Küseyr oğlu (1162-ci il) və Möminə xatın (1186-cı il) türbələrinin ornamentləri ilə çox oxşardırlar. Tapıntılar göstərir ki, Nuh türbəsinin yanlarının üzlənməsində Naxçıvanın XII əsr abidələrində olduğu kimi üzləmə bloklarından istifadə olunmuşdur. Bu bloklar gəc məhlulu və bişmiş kərpiclə hazırlanmışdır.

XIII əsrdə fars dilində yazılmış "Əcaib əd-Dünya" əsərinin naməlum müəllifi Naxçıvan şəhərindəki binaların tikinti materialından danışarkən yazır ki, "bütün binalar gəcdən və bişirilmiş kərpicdən inşa edilmişdir" *(43, s. 209)*. Seysmik zona olan Naxçıvanda orta əsrlərdə memarlıq abidələrinin inşasında özünün plastikliyi, sukeçirməsi, suyadavamlılığı, möhkəmliyi ilə seçilən gəcdən geniş istifadə olunurdu. Sənətkarlar gəcə bir sıra əlavə maddələr, xüsusilə əhəng qataraq onun keyfiyyətini daha da yüksəldirdilər. Bu tikinti texnologiyasına biz Nuh türbəsinin inşasında da rast gəlirik. Qazıntılar zamanı aşkar olunan tikinti materialları təsdiq edir ki, türbə kvadrat formalı bişmiş kərpiclərlə və gəc məhlulu ilə inşa olunmuşdur. Bu kərpic tipi və tikinti texnikası Azərbaycanın X-XII əsr memarlıq abidələri üçün xarakterikdir. Burada nisbətən salamat qalan üzləmə blokları da qeyd olunan qayda üzrə bişmiş kərpic və gəc məhlulu ilə hazırlanmışdır. Ona görə də bərpa edilən türbənin yanlarının üzlənməsində abidənin ətrafından aşkar edilən həmin bloklar əhəmiyyətli qaynaq rolunu oynamış, türbənin bərpasında orijinallığı qorumağa çalışan bərpaçılar yeni üzləmə bloklarının və onlar üzərindəki ornamentlərin hazırlanmasında əsasən tapılan maddi-mədəniyyət nümunələrini əsas götürmüşlər.

Bu ornamentlərin bir hissəsi üzərinə göy rəngli kaşı çəkilmiş kərpiclərlə

hazırlanmışdır. Tərkibinə qatılan metal oksidindən asılı olaraq göy, qara, qırmızı, firuzəyi və sair rənglərdə hazırlanan kaşılardan orta əsrlərdə binaların inşasında bəzək-inşaat materialı kimi istifadə olunmuşdur. Türbədə bizədək ancaq göy rəngli kaşı nümunəsi gəlib çatdığına görə deyə bilərik ki, orada əsasən bu kaşıdan daha çox istifadə olunmuşdur. AMEA-nın müxbir üzvü Cəfər Qiyasinin fikrincə, bu cür kərpiclər Səlcuq imperiyasının başlıca memarlıq mərkəzlərində demək olar ki, eyni vaxtda – XII yüzilin I yarısında meydana gəlmişdir. Başlanğıcda belə kərpiclər çox az, tikilinin ən vacib yerlərində naxış, ya da kitabə qurşağı şəklində işlədilirdi *(95, s. 188)*.

Nuh türbəsindən üzləmə blokları vasitəsi ilə bizədək çatan ornamentləri Yusif Küseyr oğlu, Xaraba Gilan və Möminə xatın türbələrinin ornamentləri ilə müqayisə edərkən aydın olur ki, bu ornamentlər sadədən mürəkkəbə doğru inkişaf yolu keçmişdir. Belə ki, Yusif Küseyr oğlu və Xaraba Gilan türbəsinin ornamentləri nisbətən sadə, Nuh türbəsinin və Möminə xatın türbəsinin ornamentləri isə müəyyən qədər inkişaf etmiş, daha mürəkkəb və çox mükəmməldir. Məhz bunu nəzərə alaraq memarlıq namizədi Q.Əliyev qeyd edir ki, Yusif Küseyr oğlu türbəsinin memarlıq quruluşunun inkişaf edərək Möminə xatın türbəsinin mürəkkəb quruluşuna keçməsi və burada ən yüksək səviyyəyə çatması qanununa uyğun olaraq ornamentlərin quruluşları da müvafiq surətdə inkişaf edir və Möminə xatın türbəsində ən yüksək zirvəyə çatır *(56, s. 63)*.

Bu ornamentləri təhlil edərkən görünür ki, naxışlar hazırlanarkən kərpic dekorun ən mürəkkəb, ən zəngin örnəkləri olan "girih" (düyün) adlanan xüsusi həndəsi ornamentlərdən də istifadə olunmuşdur. Tədqiqatçıların fikrincə girih naxışlarını əmələ gətirən elementlər həndəsi formalardan (çoxbucaqlılar, yaxud ulduzlardan, ya da onların hissələrindən) ibarətdir. Ciddi riyazi qanuna tabe olan bu naxışlar bütünlüklə xətlərin bir-biri ilə bağlı ahəngdar birləşməsindən yaranır. Girih quruluşları XI-XIII yüzillərin Azərbaycan memarlıq bəzəyində aparıcı yer tutmuşdur *(56, s. 5)*. Türk mənşəli bu ornamentlərin Nuh peyğəmbərin qəbri üzərindəki türbənin bəzədilməsində geniş tətbiqi bədnam qonşularımız tərəfindən uydurulan, abidənin ermənilərə aid kilsə olması fikrini təkzib və alt-üst edir.

1834-cü ildə Azərbaycanda olan, Naxçıvan şəhərini "Nuh şəhəri" kimi xarakterizə edən fransız səyyahı Frederik Dyuba de'Monperyenin "səkkizbucaqlı, diametri on – on iki ayaq olan" Nuh türbəsinin "işlənmə üslubu və materialı Naxçıvanın başqa abidələrinin üzərində aparılmış eyni iş üslubundadır. Bu onu göstərir ki, türbə yerli hakimlərin hakimiyyəti illərində yenidən təmir və bərpa edilmişdir" sözləri *(148)* bu fikri daha da möhkəmləndirir.

Səyyahın verdiyi bu məlumatdan da aydın olur ki, Nuh türbəsi memarlıq-konstruktiv xüsusiyyətlərinə görə Azərbaycan memarlığının Naxçıvan məktəbinə, geniş mənada desək Səlcuq memarlığının qülləvari türbələr qrupuna məxsus abidə olmuşdur və onun erməni memarlığı ilə heç bir əlaqəsi yoxdur.

Qeyd olunduğu kimi arxeoloji qazıntılar zamanı türbənin ətrafından bir neçə ədəd epiqrafik materialın qalıqları – kitabə fraqmentləri tapılmışdır. Tapıntılar içərisində nisbətən salamat və yaxşı vəziyyətdə qalmış, üzərinə basma üsulu ilə "Allah" kəlməsi həkk edilmiş əhəng materialı da aşkar olunmuşdur *(32)*. Yusif Kuseyir oğlu türbəsində belə bir fraqmentə rast gəlinməsə də Mömünə xatın türbəsinin ornament bəzəyinə əsasən demək olar ki, bu epiqrafik motiv ümumislam mədəniyyəti tərkibində özünə məxsus yer tutan Naxçıvan memarlıq abidələri üçün xarakterik haldır. Mömünə xatın türbəsinin üzərində bu üsulla çoxlu sayda kitabə – "Allah" kəlməsi həkk edilmiş və abidənin həndəsi bəzəyi ilə üzvi surətdə əlaqələndirilmiş, onun tərkib hissəsinə, əsas ünsürünə çevrilmişdir.

Türbənin ətrafında aşkar olunan digər kitabə qalıqları gəc məhlulu və bişmiş kərpiclə kufi xətti ilə hazırlanmış fraqmentlərdən ibarətdir. Əldə edilən bu materiallar təsdiq edir ki, Nuh türbəsinin kitabələri də Naxçıvan memarlıq məktəbinə məxsus XII əsr abidələrində olduğu kimi bişmiş kərpic və gəc məhlulu ilə yerinə yetirilmişdir. Bu kitabə fraqmentləri çox kiçik, əsasən bir və ya iki hərfdən ibarət olduqları üçün onların oxunması mümkün deyildir. Yalnız bir ədəd kitabə qalığında gəlib çatan hərflərə əsasən orada "bənna" (?) sözünün yazılması ehtimal edilmişdir.

Vaxtilə türbənin üstündə olan bu kitabə fraqmentləri şübhəsiz ki, bütöv halda ilk növbədə abidənin təyinatı, sifarişçisi, inşa tarixi, memarı və sair haqqında müfəssəl məlumat vermək məqsədi ilə yazılmaqla bərabər, həm də ornamental bəzək funksiyasını yerinə yetirmişdir. Belə ki, abidənin memarı ərəb əlifbasının kufi xəttinin imkanlarından məharətlə istifadə edərək onları həndəsi ornamentlərlə bacarıqla uyğunlaşdırmış, hərflər arası boşluqları ornamentlərlə, ornamentlər arası boşluqları isə hərflərlə dolduraraq gözəl bəzək ünsürləri yaratmışdır. Ona görə də Azərbaycan memarlığının ilk inkişaf dövründə kufi xəttindən istifadə edilməsi binaların dekorunda üstün yer tutan həndəsi ornamentin inkişafı ilə sıx əlaqədar olmuşdur *(105, s. 108)*. Çünki bu xətt növü memarlıqda tətbiq olunarkən düz cizgilərdən geniş istifadə olunur, hərflər həndəsi düzgünlüklə yazılırdı və həndəsi ornamentlərlə uyğunlaşdırılırdı.

Türbəyə aid kitabə fraqmentləri ilə Yusif Küseyir oğlu və Mömünə xatın

türbəsinin kitabələrinin ətraflı müqayisəsinə əsasən deyə bilərik ki, Əcəmi barmaqlarının məhsulu olan abidələr, xüsusilə Möminə xatın türbəsinin üzərindəki kitabələr daha mükəmməldir və kufi xəttinin inkişaf etmiş mərhələsinə aiddirlər. Ancaq Nuh türbəsindən əldə olunan kitabə fraqmentləri onlara nisbətən sadədir və kufi xəttin epiqrafikada tətbiqinin bir az əvvəlki dövrlərinə aiddir. Digər abidələrlə paleoqrafik xüsusiyyətlərinə əsasən müqayisə edərək bu kitabələri təxminən XII yüzilliyin ortalarına aid etmək olar.

Bütün bunlara, o cümlədən abidənin inşasında istifadə olunan inşaat materiallarına, yan üzlərinin bəzədilməsində tətbiq edilən ornament – naxışlara, burada işlədilən kaşı nümunələrinə və tapılan kitabə fraqmentlərinin təhlilinə əsasən belə bir qənaətə gəlmək mümkündür ki, türbə Naxçıvan memarlıq məktəbinə məxsusdur və bu məktəbin çiçəklənmə prosesi keçirdiyi, Azərbaycanın aparıcı memarlıq məktəbinə çevrildiyi XII yüzilliyin ortalarında görkəmli memar Əcəmi Əbubəkr oğlu Naxçıvani tərəfindən inşa edilmişdir.

Sonda bir məqama diqqəti cəlb etmək istərdik. Yaxşı məlumdur ki, Nuh peyğəmbərin gəmisinin harada quruya oturduğunu aydınlaşdırmaq məqsədi ilə bir sıra alimlər dünyanın müxtəlif yerlərində olan yüksəkliklərdə gəminin qalıqlarını axtarırlar. Aradan uzun müddət keçməsinə baxmayaraq bu cəhdlər indiyədək heç bir nəticə vermədiyi kimi, fikrimizcə, bundan sonra da bu sahədə əsaslı uğur əldə olunmayacaqdır. Ancaq bölgəmizdə Nuh peyğəmbərlə bağlı folklor nümunələrinin, toponomik vahidlərin (yaxın və uzaq ölkələrin heç birində Naxçıvanda olduğu qədər Nuh peyğəmbərlə əlaqədar əfsanə, rəvayət, toponomik nümunə yoxdur) və sair geniş yayılması tufanın cərəyan etdiyi mərkəzi ərazilərdən birinin və Nuh peyğəmbərin gəmisinin quruya çıxdığı yerin məhz Naxçıvan ərazisi olduğu fikri üzərində təkid etməyə əsas verir. Bir sıra əcnəbi alimlər də bu fikri təsdiq edirlər. Bu cəhətdən bir müddət Naxçıvanda Beynəlxalq ADRA Təşkilatının nümayəndəsi kimi fəaliyyət göstərmiş ABŞ-nın Norvest Universitetinin professoru Marti Martincito Filips və xanımı Qabrielonun ölkələrinə qayıtdıqdan sonra Naxçıvanın tarixi, mədəniyyəti və ziyarətgahları haqqında nəşr etdirdikləri maraqlı məqalə diqqəti xüsusi ilə cəlb edir. Məqalədə onlar Nuh peyğəmbər və Naxçıvan məsələsindən bəhs edərək yazırlar: "Nuh fəlsəfəsinə, Nuh baxışına görə dünyada yer və göyün qovuşduğu yalnız bir yer var və bu yer məhz Naxçıvandır. Əgər belə olmasaydı, Nuh peyğəmbər dünya mədəniyyətinə və dünyanın tarix yaddaşına Nuh möhürünü Naxçıvanda yox, digər bir bölgədə vurmuş olardı. Bu keçən dövr ərzində Nuhun Naxçıvanla bağlı bir çox təkzibolunmaz faktları elm aləminə məlum olsa da, onun tarixi və mədəniyyət xəzinəsinin ən dərin qatları tam öyrənilməmişdir. Bu gün Naxçıvan

tarixini, mədəniyyətini, arxeologiyasını öyrənməklə Nuh irsinin zənginliklərini aşkarlamaq olar. Baxmayaraq ki, dünyanın bir sıra yerlərində Nuh izinə düşənlər və ya bu təşəbbüsdə olanlar var, lakin ən inandırıcı, elmi baxımdan ən obyektiv tədqiqat nəticələri Naxçıvanla bağlıdır. Belə ki, istənilən naxçıvanlı, istənilən ucqar kəndin sadə bir adamı Nuhla bağlı bir çox əhvalatlar deyər və saysız-hesabsız yer adlarının Nuhun şərəfinə aid olduğunu əsaslandıra bilər. Əgər belə bir sorğu digər Nuh axtaranlar ölkəsində aparılsa, şübhəsiz ki, heç bir xalq versiyası üzə çıxmayacaq" *(88)*.

Fikrimizcə, bitərəf əcnəbi alimlərinin çox sərrast şəkildə ifadə olunmuş bu fikirləri, Nuh peyğəmbər və Dünya tufanının hansı ərazi ilə daha çox əlaqəli olduğunu sübut etmək cəhətdən çox sanballı qaynaqlardan biridir.

## 3.5. “NAXÇIVANŞÜNASLIQ MƏRKƏZİ” HAQQINDA QEYDLƏR

Naxçıvan bölgəsinin qədim mədəniyyət mərkəzlərindən, ibtidai insanların məskunlaşdığı yerlərdən biri olması elmdə qəbul olunmuş faktdır. Şərur rayonunun Tənənəm kəndi yaxınlığındakı Qazma mağarasında 1987-1990-cı illərdə aparılan arxeoloji tədqiqatlar sübut etdi ki, ibtidai insanlar bu ərazilərdə ən azı 120-100 min il bundan əvvəl, Mustye mədəniyyəti dövründə məskunlaşmışlar. Gəmiqaya təsvirləri, Duzdağ mədənləri, Nuh peyğəmbərin qəbri, Əshabi-Kəhf, I və II Kültəpələr, Ovçulartəpəsi, Qədim Naxçıvan nekropolu, Şahtaxtı, Xaraba Gilan və s. kimi möhtəşəm abidələr təsdiq edir ki, bu bölgə həm də ilkin sivilizasiyanın və şəhər mədəniyyətinin formalaşdığı bir ərazi olmuşdur.

Azərbaycan tarixinin tərkib hissəsi olan Naxçıvan diyarının tarixi sovet hakimiyyəti illərində hərtərəfli, obyektiv tədqiq olunmamış, elmi-tədqiqat işləri dövrün ideologiyasına uyğun olaraq birtərəfli aparılmışdır. Azərbaycan öz müstəqilliyini bərpa etdikdən, özümüz öz ölkəmizin sahibi olduqdan sonra xalqımızın ümummilli lideri Heydər Əliyevin çoxcəhətli fəaliyyətində özünə məxsus yeri olan tariximizin öyrənilməsi, təbliği, abidələrimizin qorunması, bərpası və s. yeridilən dövlət siyasətinin prioritet istiqamətlərindən birinə çevrilmişdir. Bu siyasətin ən böyük uğurlarını Naxçıvan Muxtar Respublikasının timsalında aydın görmək olar.

Naxçıvan Muxtar Respublikası ərazisində son 15 ildə aparılan genişmiqyaslı abadlıq və quruculuq işləri sırasında tariximizə, mədəniyyətimizə, keçmiş irsimizə diqqət və qayğı mühüm yer tutumuşdur. Naxçıvanın tarixinin, tarix və mədəniyyət abidələrinin öyrənilməsi, bərpası, qorunması və təbliği sahəsində Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun imzaladığı bir sıra Sərəncamlar, o cümlədən Əshabi-Kəhf ziyarətgahının bərpa olunması, Ordubad rayonundakı Gəmiqaya abidəsinin öyrənilməsi, Naxçıvan şəhərində Açıq Səma altında muzeyin yaradılması, ərazidəki tarix-mədəniyyət abidələrinin qorunması və pasportlaşdırılması, Nuh peyğəmbərin qəbirüstü türbəsinin bərpa edilməsi, Xan Sarayı Dövlət Tarix Memarlıq muzeyinin yaradılması və s. haqqında imzalanan sərəncamlar Muxtar Respublika Ali vəzifəli şəxsinin tarix və mədəniyyətimizə diqqət və qayğısının parlaq nümunəsidir.

17 fevral 2011-ci ildə bu sərəncamların sırasına daha bir tarixi sənəd də əlavə olunmuşdur. Ali Məclisin Sədri həmin gün Naxçıvan Muxtar Respublikası Ali Məclisi kitabxanasının və Naxçıvan Muxtar Respublika kitab-

xanası "Naxçıvanşünaslıq" bölməsinin bazasında "Naxçıvanşünaslıq Mərkəzi"nin yaradılması haqqında Sərəncam imzalamışdır. Bu sərəncam Naxçıvan tarixinin, mədəniyyətinin, arxeologiyasının, folklorunun və s. öyrənilməsi və təbliği sahəsində atılan növbəti və çox böyük bir addımdır.

Sərəncamın giriş hissəsində də qeyd olunduğu kimi son illərdə Naxçıvan Muxtar Respublikasında ümummilli lider Heydər Əliyevin Naxçıvan tarixinin hərtərəfli öyrənilməsi sahəsində tövsiyə və tapşırıqlarının yerinə yetirilməsi istiqamətində çox böyük işlər görülmüş, tarix-mədəniyyət abidələrinin, ümumiyyətlə Naxçıvan tarixinin müxtəlif problemlərinin öyrənilməsi sahəsində uğurlu tədqiqatlar aparılmışdır. Aparılan tədqiqatların nəticəsi olaraq qısa müddət ərzində yüzlərlə monoqrafiya, kitab, dərslik, məqalə yazılaraq nəşr etdirilmişdir.

Cəsarətlə demək olar ki, son 15 illik zaman kəsiyində Naxçıvanşünaslıq sahəsində 70 illik sovet hakimiyyəti illərindəkindən çox əsər yazılmışdır. 26 aprel 2001-ci ildə Ordubad rayonundakı Gəmiqaya abidəsinin tədqiqi haqqında Ali Məclis Sədri tərəfindən sərəncam imzalandı. Bundan sonra ulu öndər Heydər Əliyevin tövsiyə və tapşırıqlarına, Ali Məclis Sədrinin Sərəncamına uyğun olaraq Gəmiqayada dövlət dəstəyi ilə 2001, 2002 və 2005-ci illərdə aparılan tədqiqatların nəticəsi olaraq 10-a yaxın monoqrafiya, yüzə yaxın məqalə yazılmışdır. AMEA Naxçıvan Bölməsi Xəbərlərinin bir sayı Gəmiqayada aparılan tədqiqatlara həsr olunmuşdur. 2006-2007-ci illərdə muxtar respublika ərazisində 1172 abidə qeydə alınaraq pasportlaşdırılmışdır. Alimlərimizin axtarışları nəticəsində bu siyahıya yeni abidələr əlavə olunmaqdadır (Hazırda bölgədə pasportlaşdırılmış abidələrin sayı 1202-yə çatmışdır – F.S.). Muxtar respublikada tarix-mədəniyyət abidələrinin bərpası istiqamətində də iri miqyaslı tədbirlər həyata keçirilmiş, 60-dan artıq abidə əsaslı şəkildə bərpa olunaraq xalqa qaytarılmışdır.

Ali Məclis Sədrinin Sərəncamı ilə 2009-cu ilin aprelində Naxçıvan şəhərində keçirilən "Nuh peyğəmbər: dünya tufanı və Naxçıvan" beynəlxalq simpoziumunda Naxçıvanda ilkin şəhər mədəniyyətinin yaranmasının 5000 il əvvəl baş verdiyi haqqında xarici ölkə alimləri ilə yerli alimlərin fikri üst-üstə düşdü. Simpoziumdakı çıxışlardan məlum oldu ki, Naxçıvan şəhərinin yaxınlığında yerləşən Duzdağ mədənləri dünyanın ən qədim duz mədənləri olmaqla Naxçıvan şəhərinin əhalisini duzla təmin edirmiş.

Simpoziumun materialları Ali Məclis Sədrinin himayəsi ilə ayrıca kitab şəklində, nəfis tərtibatla nəşr olundu. Bütün bunlar Naxçıvanşünaslıq elmi xəzinəsinə çox böyük töhfələr oldu. Naxçıvanlı alimlərin Naxçıvanşünaslıqla bağlı tədqiqatları ilbəil genişlənir. Bir faktı qeyd etmək kifayətdir

ki, 2010-cu ildə AMEA Naxçıvan Bölməsi Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutu əməkdaşlarının 10 monoqrafiya və kitabı, 140-a yaxın məqaləsi elmi dövriyyəyə vəsiqə almışdır. Bütün bunlar, o cümlədən çoxsaylı kitab, monoqrafiya və məqalələr, həmçinin son 15 il ərzində Naxçıvanşünaslığın müxtəlif problemlərinə həsr olunmuş çoxlu bukletlər, albomlar, jurnal və qəzet materialları, video kasetlər, sənədli filmlər, elektron daşıyıcılar və s. intibah dövründə Naxçıvanda Naxçıvanşünaslıqla bağlı aparılan dövlət siyasətinin uğurlu nəticələridir. Ümumiyyətlə, indiyədək qeyd olunanlar da daxil olmaqla Naxçıvanşünaslığın müxtəlif problemləri ilə əlaqədar çoxlu nailiyyətlər qazanılmış, böyük bir elmi xəzinə yaradılmışdır.

Məhz əldə olunan bu nailiyyətləri bir yerə toplamaq, sistemləşdirmək, qoruyub saxlamaq, yaymaq, təbliğ etmək, mükafatlandırılması ilə əlaqədar təkliflər vermək, onların arxivini və fondunu yaratmaq, müvafiq qurumlarla və beynəlxalq təşkilatlarla əməkdaşlıq etmək və s. məqsədi ilə Ali Məclisin Sədri belə bir mərkəzin yaradılmasını məqsədəuyğun hesab etmişdir. Mərkəzin Sərəncamla təsdiq olunmuş Əsasnaməsində onun funksiyası və qarşısında dayanan vəzifələr ətraflı şərh olunmuşdur.

Naxçıvanşünaslıq Mərkəzinin yaradılmasına hüquqi status verən bu sərəncam həm də Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin tariximizlə, tarix və mədəniyyət abidələrimizin qorunması, bərpası, öyrənilməsi və təbliği ilə əlaqədar əvvəlki illərdə imzaladığı sərəncamlarla birlikdə Naxçıvanşünaslıq elmi xəzinəsinə daxil olan və onu zənginləşdirən çox mühüm dövlət sənədidir.

Sərəncamın tələblərinə uğun olaraq XIX yüzillikdə Naxçıvan şəhərinin mərkəzində inşa olunmuş, həmin vaxtdan başlayaraq müxtəlif təşkilatların və idarələrin yerləşdiyi bina Naxçıvanşünaslıq Mərkəzi üçün ayrılmışdır. Zirzəmi ilə birlikdə 3 mərtəbədən ibarət olan yüksək səviyyədə yenidən qurulan və server otağı, Biblioqrafiya proseslərinin avtomatlaşdırılması, Elmi-metodik, Xidmət, Komplektləşdirmə, Kitabişləmə və Kataloqlaşdırma şöbələri, skayner otağı, Kitabsaxlayıcı fond, oxu və dövri mətbuat zalı, elektron oxu zalı, arxiv, bufet, iş və xidmət otaqları yaradılan binada yerləşən Naxçıvanşünaslıq Mərkəzinin 9 fevral 2013-cü ildə – Naxçıvan Muxtar Respublikasının yaradılmasının 89-cu ildönümü günündə açılışı olmuşdur. Açılış mərasimində iştirak və çıxış edən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov belə bir mərkəzin yaradılmasının zərurətindən bəhs edərək "Sovetlər Birliyinin mövcud olduğu 70 il ərzində Naxçıvanın tarixinə dair 50-yə yaxın ziddiyyətli məzmuna və istiqamətə malik kitab və ya broşür hazırlanmışdırsa, 1996-cı ildən ötən

dövr ərzində Naxçıvanşünaslığa dair hazırlanan monoqrafiya, kitab, elmi məqalə, dərslik və dərs vəsaitlərinin sayı mini keçmişdir", – deyən Ali Məclisin Sədri bildirmişdir ki, əldə olunan kitab, albom, elmi-kütləvi məqalə, qəzet və jurnal materiallarının, sənədli filmlərin, elektron daşıyıcıların qorunub saxlanılması, tədqiq və təbliğ edilməsi Naxçıvanşünaslıqla məşğul olan ayrıca bir mərkəzin yaradılmasını zərurətə çevirmişdir. Bu zərurət əsas götürülərək Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2011-ci il 17 fevral tarixli Sərəncamı ilə Naxçıvanşünaslıq Mərkəzi yaradılmış, mərkəz üçün bina ayrılmış və əsaslı surətdə yenidən qurulmuşdur. Mərkəz, onun kitabxanası və arxivi ən müasir informasiya avadanlıq və daşıyıcıları ilə təmin olunmuş, elektron kitabxana və elektron arxiv yaradılmışdır *(141, 12 fevral 2013-cü il)*.

Naxçıvanşünaslıq Mərkəzi ilə tanış olarkən "Naxçıvan tarixinin öyrənilməsi və tədqiqi, bütövlükdə Azərbaycan tarixinin öyrənilməsi və tədqiqi deməkdir" – fikrini vurğulayan Ali Məclisin Sədri həm də mərkəzin qarşısında mühüm vəzifələrin dayandığını bildirərək demişdir: "Biz Naxçıvanşünaslıq Mərkəzinin fəaliyyətinə ciddi tələblər veririk. Mərkəz Əsasnamə ilə ona həvalə olunmuş vəzifələri yerinə yetirməli, Naxçıvan tarixini öyrənməklə Azərbaycan tarixinin də öyrənilməsinə öz töhfəsini verməli, fəaliyyətini mədəniyyət və elm müəssisələri, o cümlədən Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsi ilə qarşılıqlı əməkdaşlıq əsasında qurmalıdır" *(141, 12 fevral 2013-cü il)*.

Fəaliyyətə başlamasından (9 fevral 2013-cü ildən) keçən müddət ərzində Naxçıvanşünaslıq Mərkəzi öz işini günün tələbləri səviyyəsində quraraq muxtar respublikanın elmi həyatında mühüm hadisəyə çevrilmişdir. Mərkəz Naxçıvanda aparılan elmi-tədqiqat işlərinə güclü təkan vermiş, yeni elmi istiqamətlərin müəyyənləşdirilməsində, tədqiqatların keyfiyyətinin artırılmasında mühüm rol oynamağa başlamışdır. Yeniyetmə və gənclərin vətənpərvərlik, keçmiş irsə hörmət və ehtiram ruhunda böyüməsinə öz töhfəsini vermək, qarşısında qoyulan vəzifələrin uğurlu həllinə nail olmaq üçün mərkəzin əməkdaşları muxtar respublikanın elmi qurumları, alimləri ilə sıx əlaqədə işləməyə, tələbələrin, magistirlərin, gənc tədqiqatçıların bəhrələnəcəyi elm ocağına çevrilməyə, aparılan tədqiqatların koordinasiya edilməsinə, alimlərin arasında sıx əməkdaşlığın yaradılmasına nail olmaq üçün səmərəli işlər aparmağa başlamışdır.

Hazırda Naxçıvanşünaslıq Mərkəzi Naxçıvan Muxtar Respublikasına həsr olunmuş çoxlu sayda kitab, albom, elmi-kütləvi məqalə, qəzet və jurnal materiallarının, sənədli filmlərin, elektron daşıyıcıların qorunub sax-

lanması, tədqiq və təbliğ olunmasını təmin edən, həmçinin Azərbaycanşünaslığın üzvi tərkib hissəsi olan Naxçıvanşünaslığa dair irsin, xüsusilə Naxçıvan Muxtar Respublikasının tarixi, elmi, ədəbi mühiti, incəsənəti, təbii sərvətləri və mədəniyyətini, habelə bölgənin yetirdiyi görkəmli şəxsiyyətlərin həyatı və fəaliyyətini öyrənən və təbliğ edən mühüm elmi qurum və mədəniyyət mərkəzi kimi fəaliyyət göstərir.

Mərkəzin kitabsaxlayıcı fondunda 2000-dən artıq elmi ədəbiyyat, qəzet, jurnal, müxtəlif elm sahələrinə aid 100-dən artıq miniatür kitablar toplanmışdır. Bütün bu çap materiallarının hamısının elektron kataloqu hazırlanmış və skayner vasitəsilə surətləri köçürülərək mərkəzin elektron saytına (e-merkez.alimeclis.az) yerləşdirilmişdir. Arxiv fondunda Naxçıvan Muxtar Respublikasına aid bir sıra nadir xəritələr, sənədlər, audio-video materiallar və s. qorunub saxlanılır.

Elmi mərkəz kimi səlahiyyətində olan funksiyaları icra edən Naxçıvanşünaslıq Mərkəzinin arxivindən, kitabsaxlayıcı fondundan, dövri mətbuat və oxu zalından, elektron oxu zalından Azərbaycan Respublikasının və xarici ölkələrin vətəndaşları istifadə edirlər. Mərkəzdə oxucuların Naxçıvanşünaslıqla bağlı biliklərini zənginləşdirmək və elmi tədqiqatlar aparmaları üçün hər cür şərait yaradılmışdır. Oxucu burada təqdim olunan kitab, jurnal, xəritə və digər vasitələrlə yanaşı İKT-dən istifadə etməklə həm mərkəzin, həm də digər kitabxanaların ehtiyatlarından yararlana bilirlər.

Beləliklə, tam qətiyyətlə demək olar ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Naxçıvanşünaslıq Mərkəzi Naxçıvanın tarixinin, mədəniyyətinin, ədəbi mühitinin, təbii sərvətlərinin, fauna və florasının və s. tədqiqi ilə məşğul olan tədqiqatçıların, həmçinin tələbələrin tez-tez müraciət və istinad etdiyi mühüm elmi mərkəz kimi öz fəaliyyətini uğurla davam etdirir.

## 3.6. NAXÇIVAN TARİXİNİN ÖYRƏNİLMƏSİNDƏ YENİ MƏRHƏLƏ

1996-cı ildə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun Sərəncamı ilə keçirilən "Uluslararası qaynaqlarda Naxçıvan" beynəlxalq simpoziumu Naxçıvan bölgəsi tarixinin müxtəlif problemlərinin yeni təfəkkür baxımından öyrənilməsində dönüş nöqtəsi oldu. Bundan sonra müstəqilliyin yaratdığı imkanlardan istifadə olunaraq elmi-tədqiqat işlərində Naxçıvan bölgəsində şəhərlərin meydana gəlməsi ilə əlaqədar aparılan tədqiqatlar genişləndi. 2002-ci ildə Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin Sərəncamı ilə AMEA Naxçıvan Bölməsi və onun tərkibində Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutu yaradıldıqdan sonra bölgə tarixinin, o cümlədən ilk şəhərlərin yaranması probleminin öyrənilməsi istiqamətində aparılan tədqiqatlar sistemli xarakter aldı və bir sıra nailiyyətlər əldə edildi. Aparılan elmi-tədqiqat işləri göstərdi ki, Naxçıvanda ilkin şəhər mədəniyyəti təxminən 5000 il bundan əvvəl yaranmağa başlamışdır. 2009-cu ildə yenə də Ali Məclis Sədrinin Sərəncamı ilə keçirilən "Nuh peyğəmbər: dünya tufanı və Naxçıvan" beynəlxalq simpoziumu bu istiqamətdə aparılan tədqiqatların yekunu oldu.

Simpoziumda iştirak edən xarici və ölkə alimlərinin çıxışlarından əldə olunan ən mühüm nəticə ondan ibarət oldu ki, Naxçıvan bölgəsinin ən böyük yaşayış məskəni olan Naxçıvan şəhərinin bir yaşayış məskəni kimi əsası Dünya tufanı, Nuh peyğəmbər və tərəfdarlarının ilk dəfə bu ərazidə quruya çıxması ilə əlaqədar qoyulmuş, Naxçıvan şəhərinin adında məhz bu məsələ (Nuhçıxan – Naxçıvan) dayanmış, yaxınlıqdakı duz mədənlərinin istismarına bu zamanlardan başlanmış, elə həmin vaxtlarda emal mədəniyyəti və alətləri yaranmış, nəticədə yaşayış məskəni mühüm ticarət və sənətkarlıq mərkəzinə çevrilmişdir. Şəhər mədəniyyətinin ən mühüm elementləri olan bu və digər amillər Naxçıvanın tədricən şəhər kimi formalaşmasına gətirib çıxarmışdır. Mühüm ticarət yollarının keçdiyi bir coğrafi mövqedə yerləşməsi də bölgənin bu cəhətdən yüksək dərəcədə inkişafını şərtləndirən amillərdən olmuşdur. Tədqiqatlar göstərir ki, Naxçıvan şəhəri ilkin şəhər mədəniyyətinin yarandığı ən mühüm mərkəz olmuşdur. Həmin vaxtlar artıq tərəqqi dövrünü keçirən Naxçıvan duz mədənləri şəhər əhalisini duzla təmin etmiş, həmçinin ətraf yerlərə də buradan duz göndərilmişdir. Beləliklə, demək olar ki, Naxçıvanda ilkin şəhər mədəniyyəti təxminən 5000 il bundan əvvəl yaranmağa başlamışdır. Bu fikri bölgədə son illərdə Tarix, Arxeologiya, Etnoqrafiya, Folklor, Toponomika və s. sahəsində aparılan tədqiqatlar daha da möhkəm-

ləndirmişdir.

İlkin şəhər mədəniyyətinin yaranması prosesi təkcə Naxçıvan şəhərində deyil, bölgənin digər yaşayış məskənlərində (II Kültəpə, Şahtaxtı, Oğlanqala, Qızılburun, Qarabağlar və s.) də baş vermişdir. Bu abidələrdə aparılan arxeoloji tədqiqatlar zamanı qədim şəhər – dövlətlər üçün xarakterik olan xüsusiyyətlər aşkar olunmuşdur. E.ə. II minillikdə artıq şəhərləşmə prosesi gedən bu yaşayış məskənlərinin bəzilərinin ətrafı etibarlı və möhkəm qala divarları ilə əhatə olunmuşdur. Hətta Şahtaxtı yaşayış yeri bir neçə cərgə divarla əhatə olunmuşdur. Zaman keçdikcə bu yaşayış məskənləri müxtəlif səbəblərdən şəhər kimi öz əhəmiyyətini itirsə də, bölgədə şəhərsalma işləri orta əsrlər dövründə də davam etmişdir. Orta əsr qaynaqları və arxeoloji tədqiqatlar sübut edir ki, orta əsrlərdə Naxçıvan bölgəsində bir sıra şəhərlər mövcud olmuşdur. Bu şəhərlər içərisində qaynaqlarda "Nəqşi-cahan" (Dünyanın bəzəyi) kimi xarakterizə edilən Naxçıvan özünün möhtəşəmliyi, gözəlliyi ilə seçilmişdir. Həmin vaxtlar, Culfa, Kiran, Azad, Qarabağlar, Ordubad, Əylis və s. şəhərlər də mühüm ticarət və sənətkarlıq mərkəzləri kimi Azərbaycanın siyasi, iqtisadi, və mədəni həyatında mühüm rol oynamışlar.

Əldə olunan tarixi, arxeoloji, etnoqrafik və yazılı qaynaqlara əsasən qətiyyətlə demək olar ki, Naxçıvan bölgəsi istər qədim dövrdə, istərsə də orta əsrlər zamanı şəhərsalma mədəniyyətinin geniş yayıldığı yerlərdən biri olmuşdur.

Bütün bunları nəzərə alaraq tarix və mədəniyyətimizə yüksək diqqət və qayğı ilə yanaşan Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov 7 iyun 2011-ci ildə "Naxçıvan: ilk yaşayış və şəhərsalma yeri kimi" mövzusunda beynəlxalq simpoziumun keçirilməsi haqqında Sərəncam imzalamışdır. Sərəncamın preambula hissəsində qeyd olunur ki, əlverişli iqlim şəraiti, gözəl təbiəti, əkin üçün yararlı torpaqları, həmçinin əhəmiyyətli coğrafi mövqedə yerləşməsi insanların Naxçıvan ərazisində məskunlaşmasına şərait yaratmışdır. Bu ərazidəki Qazma, Kilit, Daşqala, Ərməmməd mağaralarında yaşayan ibtidai insanlar Neolit dövründən başlayaraq I Kültəpə (VII-I minilliklər), Sədərək (VII-III minilliklər), Ovçulartəpəsi (V-III minilliklər), Xələc (V-III minilliklər), Duzdağ (V-III minilliklər), Şahtaxtı (III-I minilliklər), Nəhəcir (III-I minilliklər) kimi yaşayış yerləri salmışlar. Eramızdan əvvəl IV-I minilliklərə aid olan Gəmiqaya abidəsi, həmçinin III-I minilliklərə aid Əshabi-Kəhf dini və tarixi memarlıq kompleksi bu ərazinin ilkin məskunlaşma, eləcə də zəngin mədəniyyət mərkəzlərindən biri kimi əhəmiyyətini daha da artırır. Təsadüfi deyil ki, ilkin şəhər mədəniyyəti də

məhz bu ərazidə meydana gəlmiş, bölgənin ən iri yaşayış məskəni olan Naxçıvan 5 min il bundan əvvəl şəhər kimi formalaşmağa başlamışdır.

Ali Məclis Sədrinin imzaladığı bu Sərəncam şübhəsiz ki, Naxçıvan tarixinin bütün problemlərinin, xüsusilə bölgədə şəhərsalma mədəniyyətinin öyrənilməsi sahəsində yeni mərhələnin başlanğıcı olmuş, muxtar respublika ərazisində tarixi, arxeoloji, etnoqrafik, folklor və s. sahədə aparılan elmi-tədqiqat işlərinin daha da genişləndirilməsi və intensivləşməsi üçün böyük imkanlar yaratmışdır.

Sərəncamla təsdiq olunan "Tədbirlər planı"nda bir sıra tədbirlər, o cümlədən muxtar respublika ərazisindəki bir sıra arxeoloji abidələrdə tədqiqatların davam etdirilməsi, yeni ilkin yaşayış məskənlərinin tədqiqatlara cəlb olunması, Naxçıvan Duzdağı ilə əlaqədar tarixi, arxeoloji və etnoqrafik materialların toplanması və nəşr olunması, "Tarixi mənbələrdə Nuh" sənədlər toplusunun hazırlanması, Naxçıvanda şəhər mədəniyyətinin tarixi inkişaf yoluna həsr olunmuş albom-kitabın hazırlanması və s. sahəsində müəyyən işlər görülmüşdür.

Ali Məclis Sədrinin Sərəncamına əsasən 20-24 iyul 2011-ci ildə Naxçıvan şəhərində "Naxçıvan: ilk yaşayış və şəhərsalma yeri kimi" mövzusunda beynəlxalq simpozium keçirilmişdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov simpoziumun Naxçıvan şəhər İcra hakimiyyətinin Akt zalında keçirilən plenar iclasında iştirak etmiş və proqram xarakterli çıxış etmişdir. Çıxışında 1996-cı ildə keçirilən "Uluslararası qaynaqlarda Naxçıvan" beynəlxalq simpoziumundan keçən 15 il ərzində Naxçıvan Muxtar Respublikasında tariximizlə bağlı aparılan işlərə, o cümlədən Naxçıvan barədə qədim qaynaqların, tarixi mənbələrin tədqiq olunmasına, elmi forumların keçirilməsinə, bölgə ərazisindəki tarix-mədəniyyət abidələrinin bərpasına, xarici ölkələrin aparıcı elmi müəssisə və mütəxəssislərinin iştirakı ilə Naxçıvan tarixinə, arxeologiyasına və folkloruna dair tədqiqatlar aparılmasına, ekspedisiyalar təşkil olunmasına, çoxlu sayda kitab, monoqrafiya, dərslik və elmi məqalələrin hazırlanaraq nəşr olunmasına diqqəti çəkən Ali Məclisin Sədri demişdir: "Adından da göründüyü kimi beynəlxalq simpozium öz qarşısında Naxçıvan tarixinin ən qədim dövrünə dair elmi baxış və nəticələrin sistemləşdirilməsi, vahid elmi fikrin formalaşması kimi konkret məqsəd qoymuşdur.

Müəyyən dövrlərdə bu sahədə aparılmış elmi tədqiqatlar onu göstərir ki, Naxçıvan bəşər sivilizasiyasının mühüm ocaqlarından biri olmuşdur. Naxçıvanın relyefi, coğrafi mövqeyi, təbii sərvətlərinin bolluğu ən qədim dövrlərdən bu ərazidə insanların məskunlaşmasına şərait yaratmışdır. ...

Naxçıvanda öz işinə başlayan "Naxçıvan: ilk yaşayış və şəhərsalma yeri kimi" mövzusunda beynəlxalq simpoziumu təkcə regional yox, eyni zamanda qlobal bir məsələni müzakirə etmək əzmindədir. Bununla biz Azərbaycan tarixini daha da zənginləşdirər və dünya tarixinə öz töhfəmizi verə bilərik" *(114, s. 8)*.

Plenar iclasdan sonra simpozium öz işini dörd bölmə (1. Naxçıvan diyarı bəşər sivilizasiyasının ilk beşiklərindən biri kimi; 2. Naxçıvan: ilkin şəhər mədəniyyətinin yarandığı yer; 3. Naxçıvanın arxeoloji abidələri; 4. Naxçıvan mədəniyyəti və əlaqələri) iclasında davam etdirilmişdir. Bölmə iclaslarında Naxçıvanın qədim dövr tarixi ilə əlaqədar məruzələr dinlənilmiş, müzakirələr aparılmış, bölgədə ilkin şəhər mədəniyyətinin yaranması ilə əlaqədar fikirlər söylənilmişdir.

23 iyul 2011-ci ildə simpozium iştirakçıları Ordubad rayonundakı Gəmiqaya abidəsinə səfər etmiş və orada Gəmiqaya təsvirləri ilə tanışlıqdan sonra açıq səma altında simpoziumun yekun iclası keçirilmişdir. İclasda bölmə rəhbərləri bölmə iclaslarının gedişi, edilən məruzələr və əldə olunan nəticələr haqqında məlumat vermişlər.

Qeyd olunmuşdur ki, əlverişli coğrafi mövqedə yerləşdiyi və münasib iqlim şəraitinə malik olduğu üçün Naxçıvan ərazisi insanların ən qədim zamanlardan məskunlaşdığı yerlərdən biri olmuşdur. Əvvəllər Qazma, Kilit, Daşqala, Ərməmməd və s. kimi təbii mağaralarda yaşayan insanlar tədricən həmin mağaralardan çıxmış, bu isə öz növbəsində ərazidə ilk yaşayış məskənlərinin yaranmasına səbəb olmuşdur. Mübadilənin, bunun əsasında ticarətin, sənətkarlığın inkişafı və digər amillər bölgədə ilkin şəhər mədəniyyətinin yaranması üçün münbit şərait yaratmışdır. Nəticədə bölgədə ilkin şəhər mədəniyyəti yaranmağa başlamış və ən qədim yaşayış məskənlərindən biri olan Naxçıvan təxminən 5000 il bundan əvvəl şəhər kimi formalaşmağa başlamışdır.

Simpoziumun materialları 2012-ci ildə Naxçıvan şəhərindəki "Əcəmi" nəşriyyatında nəşr olunmuşdur *(114)*.

## 3.7. NAXÇIVAN DUZDAĞINDA DUZ HASİLATI TARİXİNDƏN

İnsanın, ümumiyyətlə canlıların həyatı üçün vacib olan komponentlərdən biri də duzdur. İsti iqlim şəraitinə malik olan ölkələrdə yaşayan insanlar hərəkət edərkən, yaxud da işləyərkən daha çox tərləyir, bu zaman orqanizimdə müxtəlif fizioloji proseslərdə daim sərf olunan duz tərlə birlikdə bədəndən xaric olur. Əgər bu itkinin yeri doldurulmasa sağlamlıq üçün böyük fəsadlar törənə bilər. Bu səbəbdən də insanlar qədim zamanlardan duzdan istifadə etmişlər. Duz insan həyatında o dərəcədə mühüm rol oynamışdır ki, onunla bağlı inamlar və deyimlər yaranmış, duza and içilmiş, duz mübadilə vasitəsi olmuş, bir sıra ölkələrdə (Çin, Efiopiya və s.) "duz pullar" işlənmiş, bəzi yerlərdə vergilər duzla ödənilmiş, duzla bağlı narazılıqlar baş vermiş (məsələn, 1648-ci ildə Moskvada baş verən "Duz qiyamı"), duz uzunömürlülüyün, sarsılmazlığın, sadiqliyin, müdrikliyin rəmzinə çevrilmişdir. Ona görə də duza olan tələbatı ödəmək üçün ayrı-ayrı yerlərdə təbii proseslər nəticəsində yaranmış duz süxurlarından istifadə olunmuş, nəticədə duz mədənləri meydana gəlmişdir. Belə duz mədənlərindən biri də Naxçıvan şəhərindən 12 km şimal-qərbdə yerləşən duz mədənləridir. Burada duz yataqları şimalda Cəhri və Sust kəndlərinə qədər uzanır. İstismarına nə vaxtdan başlanması dəqiq məlum olmayan Naxçıvan duz mədənləri haqqında orta əsr qaynaqlarında elə bir geniş məlumat yoxdur. Ancaq Naxçıvan Muxtar Respublikası əhalisi arasında geniş yayılan şifahi xalq ədəbiyyatı nümunələrində və XIX əsrə aid rus dilli qaynaqlarda bu haqda mühüm məlumatlar vardır.

Bölgə əhalisi arasında Naxçıvanda və Kulp (hazırkı adı Tuzluca olan Kulp Türkiyə Respublikasının İğdır vilayətində bir ilçədir. P.Nadejdin Kulpun coğrafi mövqeyindən bəhs edərkən onun Arazın sağ sahilində, çaydan 3,5 verst aralı, İrəvanın 60 verstliyində yerləşdiyini yazır *(157, s. 232)* -F.S.) ərazisində duz çıxarmanın Nuh peyğəmbərlə əlaqədar başlandığı haqqında rəvayətlər vardır. Naxçıvan bölgəsində Nuh peyğəmbərlə əlaqədar yayılan rəvayətlərdən birində deyilir ki, Tufandan sonra Naxçıvanda məskunlaşan Nuh peyğəmbər xalqa bir sıra sənətkarlıq sahələrini, o cümlədən Duzdağda duz çıxarmanı öyrətmişdir *(94, s. 73)*. Həmin rəvayətlərə əsaslanaraq Naxçıvan şəhər məktəbinin müfəttiş-müəllimi K.A.Nikitin 1882-ci ildə yazırdı ki, Nuh Naxçıvan və Kulp duz mədənlərində ilk işçi olmuşdur *(160, s. 110)*. Rəvayətlərdə, həmçinin Nuh peyğəmbərin Tufandan sonra burada üzümçülüyün əsasını qoyması haqqında da məlumatlar vardır

*(165, s. 1; 169, s. 32).*

Duzdağda XIX yüzilliyin II yarısından etibarən təsadüfi tapıntılar nəticəsində başlanan və sonralar kiçik miqyasda da olsa davam etdirilən tədqiqatlar nəticəsində aydın olmuşdur ki, burada duz hasilatına qədim zamanlardan başlanmışdır. XIX yüzilliyin 70-ci illərində Duzdağda mədənlərin rəisi vəzifəsində çalışmış Beyer buradan bir neçə ədəd daş balta və iskənə tapmış, onun ardınca 1879-cu ildə İ.Polyakov duz mədənlərinin ətrafında bir neçə daş balta aşkar etmişdir. İ.Polyakov həmin tapıntıları təhlil edərək bu baltlardan duzu parçalamaq və əzmək üçün istifadə edilməsi fikrinə gəlməklə onları ilk metal dövrünün, bəlkə də daha qədim dövrün insanlarına məxsus alətlər olduğunu qeyd etmişdir *(103, s. 14)*. S.Zelinski 1880-ci ildə nəşr etdirdiyi məqaləsində Duzdağda tez-tez rast gəlinən konusvari, ortasında haşiyə şəklində girintilər olan daş alətlərə istinad edərək burada duz istehsalının daş dövründən başlandığını ehtimal edir *(155, s. 215)*. F.A.Brokqauz və V.A.Efronun nəşr etdirdikləri "Энциклопедический словарь"da da Duzdağda köhnə mədən yerlərindən tapılmış daş alətlərin şahidliyinə əsaslanaraq Naxçıvan duz mədənlərində daş dövründən etibarən duz çıxarılması haqqında məlumat verilir *(172, s. 705)*. P.Nadejdin və İ.Şopen Duzdağda duz istehsalının başlanması tarixindən bəhs edərkən yazırlar ki, burada duz istehsalının başlanması zamanın qaranlıqlarında itib yox olmuşdur: duz çıxaranlar ancaq onu xatırlayırlar ki, onlar indi öz uşaqlarını göndərdikləri kimi, ataları da onları ora duz çıxarmağa göndərirmişlər. Bir çox əlamətlər, dağ yamacları boyunca uçqunlar, keçmişin bütün əlamətlərini özündə əks etdirən mədənlər burada istehsalın qədimliyi haqqında şahidlik edirlər *(157, s. 234; 171, s. 834)*. P.Nadejdin Duzdağdan tapılan alətləri daş çəkic hesab etmişdir *(52, s. 355-356)*.

Duzdağdan tapılmış daş alətləri tədqiq edən ilk azərbaycanlı arxeoloq İ.Cəfərzadə də bu alətlərin daş dövrünə aid çəkiclər olduğunu yazmışdır *(154, s. 68)*. Daş dövrü üzrə görkəmli mütəxəssis M.Hüseynov da Duzdağda əvvəllər və 1936-cı ildə aşkar olunmuş alətlər üzərində tədqiqat işləri aparmış, onların bir qismini Yeni Daş dövrünün axırlarına və metal dövrünün əvvəllərinə, bəzilərini isə Tunc dövrünə aid etmişdir *(76, s. 144)*. M.Vəliyev (Baharlı) də duz mədənlərinin tarixindən bəhs edərək yazır ki, indiyə qədər Naxçıvanın bəzi qədim duz mədənlərində duz çıxarma aləti olan müxtəlif formalı və ölçülü daş alətlər çox qədim dövrdə – daş dövründə duzun çıxarılmasını sübut edir *(147, s. 141)*.

Bir məsələ ilə əlaqədar fikir və mülahizələrimizi bildirmək istərdik. Məlumdur ki, qədim insanlar daşdan həm silah, həm də əmək aləti kimi

istifadə etmişlər. Zaman keçdikcə cəmiyyətin inkişafı sayəsində daş silah və alətlər insanın tələbatını ödəyə bilmədiyi üçün onlar silah və alətlərini daha əlverişli bir materialdan hazırlanmış alətlərlə əvəz etmək istəmişdir. Bu məqsədlə misdən silah və alətlər hazırlansa da mis yumşaq olduğu üçün insanların arzusunu yerinə yetirə bilmədi. Mis daş silah və əmək alətlərini əvəz edə və onu insan həyatından sıxışdırıb çıxara bilmədiyindən daşla birlikdə insanların istifadəsində qaldı. E.ə. IV minillikdə kəşf onunan tunc insanların tələbatını bu cəhətdən ödədi və bir sıra sahələrdə daşı əvəz etməyə başladı.

Bir sıra tədqiqatçıların fikrincə Duzdağda aşkar olunan daş alətlər e.ə. IV-III minilliklərdə istifadə olunmuşdur. Bizcə, həmin vaxtlar artıq tunc insanların həyatına daxil olduğundan və duzun çıxarılması üçün daş çəkiclərə, baltalara nisbətən tuncdan hazırlanmış əmək alətləri daha əlverişli olduğundan insanlar tuncdan istifadə etməli idilər. Ancaq Duzdağda mis və dəmir alətlərin qalıqlarına rast gəlinsə də *(33, s. 8)*, indiyədək tunc əmək alətlərinə və ya qalıqlarına təsadüf edilməmişdir. Ancaq bu, heç də o demək deyildir ki, Duzdağda duz hasilatında tuncdan hazırlanmış əmək alətlərindən istifadə olunmamışdır. Burada duz hasilatının Tunc dövründə çox yüksək səviyyədə olması faktına əsaslanaraq demək olar ki, gələcəkdə Duzdağda geniş arxeoloji tədqiqat işləri aparılarsa orada tunc alətlərin aşkar olunacağına şübhə yoxdur. Ona görə də demək olar ki, Duzdağda aşkar olunan daş alətlərin çoxundan Tunc dövründən əvvəlki dövrlərdə istifadə olunmuşdur.

Bütün bunlar heç də belə bir təsəvvür yaratmamalıdır ki, Duzdağ ərazisində - istər qədim duz mədənlərində, istərsə də ətraf yerlərdə aşkar olunan daş çəkiclər, baltalar, çapacaqlar və guppanlar hamısı Daş dövründə duz çıxarılması və emalı üçün istifadə olunan alətlərdir. Burada Daş dövründən sonrakı vaxtlarda duz hasilatında istifadə olunan daş alətlər də vardır. Çünki, daş əmək alətləri bütün dövlərdə insanın həyatında mühüm rol oynamışdır. Hətta indinin özündə də məişətdə sal duzu əzmək üçün daşdan istifadə edilir, buğdadan yarma hazırlamaq üçün kiçik əl dəyirmanından – daşdan hazırlanmış kirkirədən yararlanırlar.

Duzdağdan aşkar olunan daş alətlərin bəzilərinin daş dövründən sonrakı vaxtlara aid olmasını XIX yüzilliyin II yarısından üzü bəri bir sıra tədqiqatçılar da təsdiq etməkdədirlər. Məsələn, S.Zelinski bu haqda məlumat verərək yazır ki, hazırkı vaxtda tarixi dövrlər istisna olunmaqla yeni dövrə aid daş alətlərə rast gəlinir *(155, s. 245)*. Beləliklə, belə bir nəticəyə gəlmək olar ki, məişətdə ən qədim dövrlərdən başlayaraq indiyə qədər daş alətlərdən istifadə olunduğu kimi Duzdağda da duz hasilatında daş alətlərdən bütün dövrlərdə

istifadə edilmişdir.

Duz çıxarılmasında və emalında dəmir alətlərdən də istifadə olunmuşdur. XIX yüzillikdə Duzdağda duzu dövrünə görə müasir üsulla çıxarırdılar. 1836-cı ilə aid bir mənbədə qeyd olunur ki, duzu qırmaq üçün dəmir lomlarla deşir və barıtla partladırdılar. Bu iş yüngül olmaqla uğurlu idi. Belə ki, bir adam gündə iki xalvar (40 pud) duz çıxarırdı *(162, s. 312)*. Həmin yüzilliyin 70-80-ci illərində duz mədəni 16 şaxtadan ibarət olmuşdur *(155, s. 215)*.

S.Zelinski vaxtilə duz mədənlərinin rəisi işləmiş Beyerin ona verdiyi və 1857-1866-cı illərdə Duzdağda hasil olunmuş və iltizamçılara (XIX əsrdə Rusiyada dövlətə müəyyən miqdarda pul vermək müqabilində xüsusi şəxslərə verilən vergi toplamaq hüququ olan şəxslərə) verilmiş məhsulun miqdarını əks etdirən aşağıdakı cədvəli öz məqaləsinə daxil etmişdir *(155, s. 215)*.

| | **Hasil olunmuşdur** | | | **İltizamçılara verilmişdir** | | |
|---|---|---|---|---|---|---|
| **İllər** | **Sal duz** | **Narın duz** | **Cəmi** | **Sal duz** | **Narın duz** | **Cəmi** |
| 1857.... | 135 421 | 19 250 | 154 671 | 135 421 | 250 | 154 671 |
| 1858.... | 230 500 | 43 400 | 273 900 | 212 441 | 820 | 248 261 |
| 1859.... | 312 521 | 23 600 | 236 121 | 283 421 | 400 | 307 821 |
| 1860.... | 164 927 | 38 860 | 203 787 | 164 927 | 860 | 203 787 |
| 1861.... | 209 753$^1/_2$ | 23 204 | 232 957$^1/_2$ | 209 753$^1/_2$ | 204 | 232 957$^1/_2$ |
| 1862.... | 307 383 | 32 800 | 340 183 | 307 383 | 800 | 340 183 |
| 1863.... | 298 779 | 59 750 | 358 529 | 132 068 | 550 | 168 618 |
| 1864.... | 122 851$^1/_2$ | 43 225 | 166 076$^1/_2$ | 44 271 | 225 | 81 496 |
| 1865.... | 95 820 | 24 791 | 120 611 | 141 097 | 385 | 204 482 |
| 1866.... | 153 091$^1/_2$ | 239 992 | 393 083$^1/_2$ | 276 986 | 47 301 | 324 287 |
| Cəmi | 2 031 047$^1/_2$ | 548 872 | 2 579 919 | 1 907 768$^1/_2$ | 358 795 | 2 266 563$^1/_2$ |
| | 2 579 919$^1/_2$ pud | | | 2 266 563$^1/_2$ pud | | |

Cədvəldən aydın olur ki, XIX yüzilliyin 1857-1866-cı illərində (10 ildə) Duzdağda 2.579.919,5 pud duz hasil olunmuşdur.

1967-ci ildə Duzdağda uçqun nəticəsində qədim insanların istifadə etdikləri mədən aşkar olunmuşdur. 1976-cı ildə isə duz çıxarmaq üçün partlayış aparılarkən başqa bir mədən üzə çıxmışdır. İstər birinci, istərsə də çox maraqlı quruluşa malik olan ikinci mədəndə əldə olunan maddi mədəniyyət nümunələri, həmçinin 2007-ci ildə tədqiqatlar zamanı aşkar olunmuş arxeoloji materiallar (daş çəkiclər, ocaq izləri, keramika məmulatları, ağac pazlar, maral buynuzunun qalıqları və s.) təsdiq edir ki, bu duz mədənlərindən insanlar e.ə. VI-II minilliklərdə istifadə etmişlər *(112, s. 269-270)*.

Naxçıvan duz mədənlərində yerli arxeoloqlarla birgə tədqiqat işləri aparan Fransa Milli Elmi Araşdırmalar Mərkəzinin əməkdaşları 2008-ci ildə tədqiqatları nəticəsində əldə olunmuş maddi mədəniyyət nümunələrini, Şərur rayonundakı Ovçulartəpəsi abidəsindən tapılmış və radio-karbon analizləri aparılmış nümunələrlə müqayisə edərək çox uğurlu nəticələr aşkar etmişlər. Bu nəticələr əsasında müəyyən olunmuşdur ki, Naxçıvan duz mədənləri dünyanın ilk duz ocaqlarından biridir ***(173, s. 230)***. Onlar Türkiyədə nəşr olunan "Tuba-AR" jurnalında nəşr etdirdikləri məqalədə Naxçıvan duz mədənlərində əldə olunan maddi mədəniyyət nümunələrinin çoxluğuna istinad edərək bu mədənlərdən çox geniş şəkildə istifadə olunması fikrini irəli sürmüşlər ***(173, s. 230)***.

AMEA-nın müxbir üzvü Vəli Baxşəliyev, Fransa Milli Elmi Araşdırmalar Mərkəzinin əməkdaşlarından Katerina Morro və Severine Sanz Naxçıvan Duzdağında apardıqları tədqiqatların nəticələri haqqında Fransanın müxtəlif qəzetlərində məqalələr dərc etdirmişlər. Həmin məqalələrdə dünayanın ən qədim duz mədəninin Azərbaycanda tapıldığı haqqında beynəlxalq elmi ictimaiyyətə xəbər verilmişdir ***(141, 4 dekabr 2010-cu il)***. Həmçinin, Duzdağ haqqında məqalələr həm də www.cnrs/presse/communique internet saytında da yerləşdirilmişdir ***(141, 4 dekabr 2010-cu il)***. "Şərq qapısı" qəzetinə verdiyi müsahibədə bu haqda bəhs edən arxeoloq V.Baxşəliyev bildirir ki, əldə etdiyimiz nəticələr təsdiq edir ki, Duzdağ dünayanın ən qədim duz mədənidir. Mədənçilik işi Duzdağda Eneolit dövründən başlanmışdır. Dünyada mədənçilik tarixində bundan qədim tapıntı yoxdur ***(141, 29 sentyabr 2011-ci il)***.

Duzdağda qədim dövrlərdən başlanan duz hasilatı orta əsrlər zamanı da intensiv şəkildə davam etmişdir. Qaynaqlarda X-XIV əsrlərdə Duzdağda əla növlü duz istehsal olunması və hazır məhsulun müəyyən hissəsinin bir sıra ölkələrə ixrac edilməsi haqqında məlumatlar vardır ***(103, s. 84)***. Yaşayış üçün çox zəruri olduğu üçün duz yüksək dərəcədə gəlirli olmuşdur. Bu səbəbdən də duz istehsalçıları hasil olunan duzun müqabilində vergi ödəmişlər. Akademik Ə.Əlizadənin yazılı qaynaqlara əsaslanaraq orta əsrlər zamanı şəhər əhalisindən - tacirlərdən və sənətkarlardan alınan və nəqd şəkildə pulla ödənilən tamğa vergisinin duz istehsalçılarından da alındığı fikrinə söykənərək R.Məmmədov Naxçıvan duz mədənlərindən də tamğa vergisinin alındığı qənaətinə gəlmişdir ***(103, s. 89-90)***.

Qədim və orta əsrlər dövründə Duzdağla birlikdə ondan şimalda yerləşən, duz yataqlarının uzanıb getdiyi Sust kəndində də duz hasil edilmişdir. 2011-ci ildə aparılan tədqiqatlar zamanı Sustda Eneolit və Erkən

Tunc dövrünə aid abidələr aşkar olunmuşdur *(141, 29 sentyabr 2011-ci il)*. Buna əsasən belə bir nəticəyə gəlmək olar ki, Sust duz mədənlərində duz istehsalı həmin vaxtdan başlanmışdır. Sust kəndində duz istehsalı orta əsrlər zamanı da davam etdirilmişdir. "Naxçıvan sancağının müfəssəl dəftərin"də Xıncav (Xıncab) kəndindən bəhs edilərkən ondan əvvəl duz kəsənlər haqqında məlumat verilir. Burada ehtimal ki, Xıncav kəndi ilə çox yaxın (təxminən 1 km) olan Sust duz mədənlərindən söhbət açılmışdır. Dəftərdə qeyd olunur ki, bu mədən üç ocaqdan ibarətdir. Bu ocaqlara duz kəsmək üçün yüksək göstəriş verildiyi halda, onlar başqa yerə köç edib, yeni ocaq yaradaraq, orada (ehitmal ki, Naxçıvan duz mədənlərində – F.S.) duz kəsməkdə davam edirlər. Ona görə əvvəlki vəziyyət nəzərə alınaraq [dəftərdə] qeyd olundu. Gəlir – 210000 (ağça) *(121, s. 20,133)*.

Müstəqillik dövründə Naxçıvan Muxtar Respublikası ərazisində aparılan arxeoloji tədqiqatlar xüsusilə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun Sərəncamı ilə 2011-ci ilin iyulunda Naxçıvan şəhərində "Naxçıvan: ilk yaşayış və şəhərsalma yeri kimi" mövzusunda keçirilən Beynəlxalq Simpoziumda səslənən fikirlər təsdiq edir ki, Naxçıvanın əsası bir yaşayış məskəni kimi daha əvvəllər qoyulsa da, təxminən 5000 il bundan əvvəl orada ilkin şəhər mədəniyyəti yaranmış və Naxçıvan bir şəhər kimi formalaşmağa başlamışdır. Azərbaycanda son zamanlar əldə olunan elmi nəticələr bu fikri bir daha təsdiq edir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 12 aprel 2012-ci ildə Tovuz rayonunda olarkən Göytəpə Neolit dövrü arxeoloji abidəsi ilə tanış omuşdur. Həmin vaxt Prezidentə məlumat verilmişdir ki, dünya arxeologiyasında Göytəpə yaşayış məskəni tipli Neolit dövrünə aid arxeoloji abidələr ilkin sivilizasiyanın başlanğıc nöqtəsi, protoşəhər, yəni insanların yığcam yaşayış tərzinin bərqərar olduğu ilkin şəhər mədəniyyətinin formalaşması dövrü kimi dəyərləndirilir. Məlumatda abidədən götürülmüş kömür qalıqlarının üzərində Fransanın Milli Araşdırmalar Mərkəzində aparılmış radio-karbon analizlərinin nəticələrinə əsasən Tovuzun 8 minillik şəhər mədəniyyəti tarixinin olması xüsusi vurğulanmışdır *(18, 14 aprel 2012-ci il)*.

Deməli aparılan son tədqiqatlar zamanı əldə olunan nəticələrə əsasən Azərbaycanda ilkin şəhər mədəniyyətinin yaranmasının 8 min illik tarixindən bəhs olunur. Belə olan halda nəinki Azərbaycanın, bütövlükdə Yaxın Şərqin ən qədim mədəniyyət mərkəzlərindən biri olan Naxçıvanda ilkin şəhər mədəniyyətinin 5000 il əvvəl yaranması fikri çox tutarlı görünür.

Naxçıvanın bir şəhər kimi formalaşmasında bir sıra sənətkarlıq sahələrinin inkişafı ilə yanaşı yaxınlıqdakı duz mədənlərinin tarixin erkən çağlarından

başlanan istismarı da mühüm rol oynamışdır. Burada açıq və yeraltı qazmalar vasitəsilə hasil edilən duz mədənlərin yaxınlığında ilkin emal olunmuş və Naxçıvan şəhərinin əhalisinin duza olan tələbatını ödəmişdir. Şübhəsiz ki, burada hasil olunan duz bölgənin digər yaşayış məskənlərinin əhalisinin də duza olan tələbatını ödəmişdir. Bu məqsədlə hətta bəzi inkişaf etmiş yaşayış məskənlərində duzu ətraf yerlərə yaymaq və paylamaq məqsədilə xüsusi mərkəzlər yaradılmışdır. Ordubad bölgəsindəki Sumbatan-Dizə qədim şəhər yerində 2010-cu ildə aparılan arxeoloji tədqiqatlar zamanı aşkar olunan küp qırıqlarından birinin içərisində daş duz parçaları tapılmışdır. Arxeoloq Bəhlul İbrahimlinin fikrincə bu daş duz parçaları qədim zamanlarda Naxçıvan mədənlərindən gətirilərək ətrafdakı yaşayış məskənlərinə paylanmış və ya satılmışdır *(80, s. 140)*. Sumbatan-Dizə şəhər yeri e.ə II minilliyin sonu – I minilliyin əvvəllərinə aid olduğu üçün demək olar ki, Naxçıvan Duzdağının duzu oraya ən azı üç min il əvvəl aparılmışdır. Sözsüz ki, bu iş daha qədim zamanlardan başlanan işin davamı kimi üç min il əvvəl də davam etmişdir. Etnoqraf-alim H.Q.Qədirzadənin fikrincə sal duzun Sumbatan-Dizə şəhərində küplərdə, yaxud da xüsusi yerlərdə – "Duz damı"nda saxlanması onun nəmlikdən, yağışa düşməkdən qorunması və ticarəti ilə bağlı olmuşdur *(94, s. 64)*.

Qeyd etmək lazımdır ki, Duzdağda Naxçıvan şəhərinin və yaxınlıqdakı digər yaşayış məskənlərinin əhalisinin tələbatından artıq tədarük edilən duz mübadilə məqsədi ilə buradan qonşu ölkələrə də aparılmışdır. Şöhrəti dünyaya səs salan "İpək yolu"ndan əvvəl Naxçıvan ərazisindən Yaxın Şərq ölkələrinə "Duz yolu" uzanıb (Rusiyada knyazlıqlar dövründə Kiyevdən Qaliç-Volın knyazlığında və Şimali Krımda duz hasil edilən yerlərə gedən yol da "Duz yolu" adlanırdı – F.S.) *(167, s. 1249)*. Duzdağdan duz çıxarılmasında qədim zamanlardan mühüm rol oynayan Babək rayonundakı Cəhri kəndinin əhalisi indi də Cəhridən qədim duz mədənlərinə gedən yolu "Duzdağ yolu" adlandırır). Naxçıvandan keçərək Şərqə və Qərbə hərəkət edən ticarət karvanlarının yüklərindən biri də Naxçıvan duzu olurdu. AMEA-nın müxbir üzvü V.Əliyev bu haqda yazır ki, duz yerli əhalinin tələbatını ödəməklə yanaşı, qonşu Cənubi Qafqaz regionlarına və Yaxın Şərq ölkələrinə ixrac olunmuşdur *(52, s. 17)*. Naxçıvanın digər ölkələrlə ticarət əlaqələrini genişləndirən bu hal ənənəyə çevrilmiş, XIX yüzillikdə, hətta XX yüzilliyin oratalarınadək fərdi üsulla da olsa davam etdirilmişdir. Məsələn, XVIII əsrin sonlarınadək Naxçıvanda duz istehsalı ilə istisnasız olaraq məşğul olan yaxınlıqdakı Cəhri kəndinin əhalisi *(138, s. 84)*, həmçinin digər kəndlərin sakinləri Duzdağ duzunu qatır və ulaqlar vasitəsi ilə fərdi

qaydada yaylaqlara, dağ və dağətəyi kəndlərə, hətta Kəlbəcər, Laçın, Gorus, Sisyan və Dərələyəzin kəndlərinə aparılır, onu satır və ya kənd təsərrüfatı, heyvandarlıq məhsulları, toxuculuq məmulatı, Naxçıvanda az tapılan mallar ilə mübadilə edirdilər *(94, s. 84)*. Beləliklə, Duzdağ duzu həm də əhalinin dolanışıq vasitəsinə, qazanc mənbəyinə çevrilmişdi.

Duzdağ Naxçıvanda əhalinin həyatında o dərəcədə mühüm rol oynamışdır ki, insan ömrü onunla müqayisə olunmuş, o dua, alqış yerinə çevrilmişdir. Belə ki, Naxçıvanda indi də xeyirxah, xalq içərisində hörmət və nüfuz sahibi olan adamlara "ömrün duz dağına dönsün" duası edilir. Bununla da insanlar həmin adama, min illərdir duzu kəsilən, ancaq bitib tükənməyən Duzdağın ömrü kimi faydalı və uzun ömür arzulayırlar *(94, s. 79-80)*. Göründüyü kimi neçə min illərdir ki, xalqın duza olan tələbatını ödəyən Duzdağ əhali arasında uzunömürlülük, tükənməzlik simvoluna çevrilmişdir. Bu mövzuda hətta poeziya nümunələri də yaranmışdır. Məsələn, tarix üzrə fəlsəfə doktoru, şair – publisist Vaqif Məmmədov "Naxçıvan nəğməsi" şeirində bu xüsusda yazır:

Dağın yaz dağı olsun,
Nəğmən söz dağı olsun.
Ömrün duz dağı olsun,
Naxçıvanım, Naxçıvan *(104, s. 52)*.

Yaxud başqa bir şeirində şair belə yazır:

Həsrətin saçımda qırovdu-dəndi,
Əbədi yandıran göz dağı olub...
Vüsalın necə tez bitdi, tükəndi...
Həsrətin tükənmir-duz dağı olub *(104, s. 57)*.

Məhz bütün bunları, Duzdağın Naxçıvanda ilkin şəhər mədəniyyətinin yaranmasında əhəmiyyətini nəzərə alaraq Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun 20 aprel 2012-ci il tarixdə imzaladığı "Naxçıvan: ilkin şəhər və Duzdağ" mövzusunda Beynəlxalq Simpoziumun keçirilməsi haqqında" Sərəncamın preambula hissəsində qeyd olunur ki, "Duzdağda aparılan araşdırmalar sübut edir ki, Eneolit dövründən başlayaraq Naxçıvanda mədənçilik mövcud olmuş, eradan əvvəl IV minillikdə bu proses daha geniş miqyas almış, mübadilə məqsədi ilə tələbatdan artıq duz tədarük olunmuş, bu isə, öz növbəsində şəhərlərarası əlaqələrə və ticarətin inkişafına, eləcə də insanların Duzdağ ətrafında məskunlaşmasına gətirib çıxarmışdır" *(141, 21 aprel 2012-ci il)*.

Sərəncamın tələblərinə uyğun olaraq 27-28 iyul 2012-ci ildə Naxçıvan şəhərində "Naxçıvan: ilkin şəhər və Duzdağ" mövzusunda beynəlxalq

simpozium keçirilmişdir. Bir sıra ölkələrdən, o cümlədən Amerika Birləşmiş Ştatlarından, Fransadan, Rusiyadan, Ukraynadan, Türkiyədən, İrandan, Gürcüstandan, Macarıstandan, eyni zamanda Bakıdan və Naxçıvandan çoxlu alimlərin iştirak etdiyi simpoziumun Heydər Əliyev sarayında keçirilən plenar iclasında Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov iştirak və çıxış etmişdir. Ali Məclisin Sədri proqram xarakterli çıxışında demişdir: "Düşünürük ki, Azərbaycan, o cümlədən Naxçıvan tarixinin öyrənilməsinə həsr olunmuş digər simpoziumlar kimi "Naxçıvan: ilkin şəhər və Duzdağ" beynəlxalq simpoziumu da mühüm elmi nəticələri ilə yadda qalacaqdır. ... Əminik ki, sizin – Azərbaycan alimlərinin və dünyanın müxtəlif ölkələrindən gəlmiş mütəxəssislərin fikirləri Naxçıvan şəhər mədəniyyəti məsələsini maraqlı elmi nəticələrlə daha da zənginləşdirəcəkdir".

Plenar iclasdan sonra dörd bölmədə (1. Naxçıvan: bəşər sivilizasiyasının ilk beşiklərindən biri, ilkin şəhər mədəniyyəti; 2. Arxeoloji-toponimik abidələr: tarixin ilk mənbələri; 3. Duzdağ: şəhərətrafı mədəniyyət; 4. Naxçıvan Duzdağı və duzun əhəmiyyəti) işini davam etdirən simpoziumda Naxçıvanın tarix və mədəniyyətinin müxtəlif problemləri ilə əlaqədar məruzələr dinlənilmiş, fikir mübadiləsi aparılmışdır. Simpoziumda əldə olunan yekun elmi nəticə bundan ibarət olmuşdur ki, Naxçıvan bölgəsi ilkin şəhər mədəniyyətinin yarandığı ən mühüm mərkəzlərdən biri olmuş, əsası bir yaşayış məskəni kimi daha əvvəllər qoyulmuş Naxçıvan təxminən 5000 il bundan əvvəl şəhər kimi formalaşmağa başlamışdır. Bu işdə Naxçıvan şəhərinin yaxınlığında yerləşən və qədim zamanlardan insanın yaşayışı üçün ən mühüm amillərdən biri olan duzun istehsal edildiyi duz mədənlərinin böyük rolu olmuşdur.

Simpoziumun materialları 2013-cü ildə Əcəmi NPB-də yüksək poliqrafik səviyyədə nəşr olunmuşdur *(115)*.

## 3.8. NAXÇIVAN TARİXİNƏ DAİR İLK ÜMUMİLƏŞDİRİCİ ƏSƏR

Azərbaycan öz müstəqilliyini bərpa etdikdən, xüsusilə 1996-cı ildə keçirilən "Uluslararası qaynaqlarda Naxçıvan" beynəlxalq simpoziumundan sonra Naxçıvan tarixinin öyrənilməsi sistemli xarakter almış, müstəqilliyin verdiyi imkanlardan istifadə edərək Naxçıvan tarixinin müxtəlif dövr və problemlərinə dair geniş tədqiqat işləri aparılmışdır. Yüksək dövlət qayğısı ilə əhatə olunmuş naxçıvanlı alimlər bölgə tarixinin tədqiqi ilə əlaqədar müəyyən uğurlar qazanmışlar. Bu işdə dövlət tapşırıqları, xüsusilə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun imzaladığı sərəncamlar istiqamətverici dövlət sənədləri kimi çox mühüm əhəmiyyət kəsb etmişdir. Alimlərimiz tərəfindən Ordubad rayonundakı Gəmiqaya abidəsi ətraflı tədqiq olunmuş, bununla əlaqədar çoxlu kitablar, monoqrafiyalar, məqalələr yazılmış, muxtar respublika ərazisindəki tarix-mədəniyyət abidələri pasportlaşdırılmış (1202 ədəd), bu abidələr əsasında Azərbaycan və ingilis dillərində "Naxçıvan abidələri ensiklopediyası" hazırlanmış, Naxçıvan bölgəsinin tarixi coğrafiyasını, qədim zamanlardan Azərbaycan ərazisi olduğunu aydın şəkildə əks etdirən "Naxçıvan tarixi atlası", Azərbaycan və ingilis dillərində "Naxçıvan: tarixi və abidələri" və s. sanballı nəşrlər elmi ictimaiyyətin ixtiyarına verilmişdir. Naxçıvanın tarixi, arxeologiyası, etnoqrafiyası, epiqrafikası, numizmatikası və s. ilə əlaqədar elmlər doktoru və fəlsəfə doktoru dissertasiyaları müdafiə olunmuş, çoxlu sayda monoqrafiyalar, kitablar və məqalələr nəşr etdirilmişdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamları ilə AMEA Arxeologiya və Etnoqrafiya İnstitutuna əlavə vəsaitlər ayrılması nəticəsində bütün Azərbaycanda, o cümlədən Naxçıvan Muxtar Respublikasında aparılan arxeoloji tədqiqatlar geniş miqyas almışdır. Artıq bir neçə ildir ki, bölgədə yerli tədqiqatçıların iştirakı ilə 10-a yaxın arxeoloji ekspedisiya, o cümlədən ABŞ və Fransa arxeoloqlarının iştirakı iki beynəlxalq ekspedisiya tədqiqatlar aparır. Ali Məclis Sədrinin dəstəyi ilə 2013-cü ildən isə AMEA Naxçıvan Bölməsinin arxeoloji ekspedisiyası fəaliyyətə başlamışdır. Aparılan son tədqiqatlar sübut etmişdir ki, Naxçıvanda insanlar ən qədim zamanlardan – Ovçular təpəsində 500-300 min il, Qazma mağarasında 120 min il bundan əvvəl yaşamış, bölgə ilkin şəhər mədəniyyətinin yarandığı ərazilərdən biri olmuş, əsası bir yaşayış məskəni kimi daha əvvəllər qoyulmuş Naxçıvan 5000 il bundan əvvəl şəhər kimi formalaşmağa başlamışdır. Yüksək inkişaf yolu keçən Naxçıvan bölgəsi "Eneolit mədə-

niyyəti"nin, "Kür-Araz mədəniyyəti"nin və "Boyalı qablar mədəniyyəti"nin yarandığı mərkəzə çevrilmişdir. Naxçıvanın orta əsrlər, yeni və ən yeni dövr tarixinə aid də geniş tədqiqatlar aparılmış, uğurlu nəticələr əldə olunmuşdur.

Tariximizin müxtəlif problemləri ilə əlaqədar Naxçıvan şəhərində keçirilən Respublika və Beynəlxalq miqyaslı yığıncaqlarda Naxçıvan tarixi ilə əlaqədar çoxlu sayda məruzələr dinlənilərək müzakirə olunmuş, əldə olunan nəticələr təhlil edilmiş, bundan sonra qarşıda duran vəzifələr müəyyənləşdirilmiş, həmin elmi məclislərin materialları ayrıca kitab şəklində nəşr olunmuşdur.

Ancaq bütün bu əsərlər Azərbaycan tarixinin tərkib hissəsi kimi Naxçıvan tarixinin ayrı-ayrı problemlərinə həsr olunmuşlar və bütövlükdə bölgə tarixi haqqında ümumi təsəvvür yarada bilmirlər. Təəssüflə qeyd etmək istərdik ki, indiyədək Naxçıvan tarixinin bütün dövrlərini və problemlərini özündə əks etdirən akademik nəşr işıq üzü görməmişdir. Muxtar respublikanın hərtərəfli inkişafı, həmçinin Dağlıq Qarabağ problemi ilə əlaqədar yaranmış şərait belə bir əsərin nəşr olunmasını aktual bir məsələ kimi qarşıya qoyur. Ermənilərin Naxçıvan bölgəsinə ərazi iddialarının gücləndiyi hazırkı dövrdə bölgə tarixi ilə bağlı erməni alimlərinin beynəlxalq elmi ictimaiyyəti saxtakarlıqla dolu kitab və məqalələri, yalan informasiyaları ilə aldatmaları məsələnin aktuallığını daha da artırır. Ona görə də Naxçıvan tarixi ilə əlaqədar aparılan bütün tədqiqatların sistemləşdirilməsi və onun obyektiv şəkildə xalqa, beynəlxalq ictimaiyyətə çatdırılması üçün sanballı ümumiləşdirici əsərin yaradılmasına böyük ehtiyac var idi.

Məhz bütün bunları, xüsusilə muxtar respublikada yaradılan zəngin elmi- tədqiqat bazasının və kadr potensialının belə bir əsərin hazırlanmasına və nəşrinə imkan verməsini nəzərə alaraq Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov 06 avqust 2012-ci ildə ""Naxçıvan tarixi" çoxcildliyinin hazırlanması və nəşr olunması barədə" Sərəncam imzalamışdır. Çox mühüm dövlət sənədi olan sərəncamda 2012-2015-ci illərdə "Naxçıvan tarixi" çoxcildliyinin hazırlanması və nəşr edilməsi nəzərdə tutulmuş və bu işin həyata keçirilməsi AMEA Naxçıvan Bölməsi və Naxçıvan Dövlət Universitetinə tapşırılmışdır. Sərəncamın imzalanması ilə Naxçıvan tarixinin öyrənilməsi istiqamətində yeni, məsul bir mərhələnin başlanmasına start verilmişdir. Sərəncamın kütləvi informasiya vasitələrində elan olunmasından və dərcindən sonra AMEA Naxçıvan Bölməsində çoxcildliyin hazırlanması ilə əlaqədar tədbir keçirilmiş, qarşıda duran vəzifələr müzakirə olunmuşdur. İlk növbədə çoxcildliyin planı hazırlanmış, redaksiya

heyəti və müəlliflər qrupu təsdiq edilmiş, hər cildin əhatə etdiyi dövr, hər kəsin işləyəcəyi fəsil və ya yarım fəsillər müəyyən edilmişdir.

"Naxçıvan tarixi" çoxcildliyinin hazırlanması və nəşri ilə əlaqədar 15 yanvar 2013-cü ildə Naxçıvan Muxtar Respublikası Ali Məclisində müşavirə keçirilmiş, müşavirədə qarşıda duran vəzifələr müəyyən edilmiş, konkret tapşırıqlar verilmişdir. Müşavirədə diqqəti Naxçıvan Muxtar Respublikasında aparılan tarixi tədqiqatlar nəticəsində əldə olunan uğurlara yönəldərək "Naxçıvan tarixinin müxtəlif dövrlərinə və problemlərinə dair xeyli sayda elmi-tədqiqat materiallarının nəşr olunması və keçirilmiş arxeoloji ekspedisiyalar nəticəsində yeni materialların əldə edilməsi "Naxçıvan tarixi" çoxcildliyinin hazırlanması üçün əsas yaratmışdır" – fikrini söyləyən Ali Məclisin Sədri həm də vurğulamışdır ki ""Naxçıvan tarixi" çoxcildliyində yalnız etibarlı mənbələr və öz elmi təsdiqini tapmış nəticələrə istinad olunmalıdır".

Ali Məclisdə keçirilən müşavirədən sonra çoxcildliyin hazırlanması işi daha sistemli şəkil almış, aparılan işlər gücləndirilmişdir. Müəlliflər heyəti kitabı ilkin variantda hazırlayaraq müzakirə üçün təqdim etmişlər. Bununla əlaqədar Bölmədə müəlliflərin iştirakı ilə yığıncaqlar keçirilmiş, fəsillər ayrı-ayrılıqda təhlil olunmuş, çatışmazlıqlar qeyd olunmuş, cildin səviyyəsini yüksəldəcək təklif və qeydlər verilmişdir. Nəhayət Naxçıvan tarixinin I cildi hazırlanaraq 2013-cü ilin sonunda "Əcəmi" nəşriyyatında yüksək poliqrafik səviyyədə 2000 nüsxə tirajla nəşr olunmuşdur.

Giriş, müəlliflər haqqında məlumat, Naxçıvanın təbii-coğrafi şəraitinin izahı, 7 fəsil və əlavələrdən ibarət olan, ən qədim zamanlardan XVIII əsrin ortalarınadək, başqa sözlə desək Xanlıqlar dövrünədək zaman çərçivəsini əhatə edən kitabın əvvəlində – 6-7-ci səhifədə ""Naxçıvan tarixi" çoxcildliyinin hazırlanması və nəşr olunması barədə" Naxçıvan MR Ali Məclisi Sədrinin Sərəncamı verilmişdir.

Girişdə Naxçıvanın ən qədim zamanlardan xanlıqlar dövrünə qədər olan tarixi ilə əlaqədar indiyədək görülən işlərdən bəhs edilir, ayrı-ayrı tədqiqatçıların bu sahədə xidmətləri qeyd olunur, həmçinin müstəqillik dövründə Naxçıvanda aparılan tədqiqatlar şərh olunur və kitabın hər fəslində bəhs olunacaq məsələlər qısa şəkildə təhlil edilir.

Kitabın əvvəlində Naxçıvanın təbii-coğrafi şəraiti haqqında geniş məlumat verilir və qeyd edilir ki, müxtəlif landşaft kompleksləri və iqlim tiplərinə, zəngin təbii sərvətlərə malik olan qədim Naxçıvanın tarixinin formalaşmasında coğrafi amillər mühüm rol oynamışdır.

Kitabın ilk fəsli Naxçıvanın qədim dövr tarixinə həsr olunmuşdur.

Burada ilk növbədə fəslin mənbəşünaslıq bazası (arxeoloji, yazılı, etnoqrafik mənbələr) təhlil edilmiş, ərazinin Daş dövründən başlayaraq Son Tunc, Erkən Dəmir dövrünə qədər olan tarixindən bəhs olunmuşdur. Fəsildə bölgənin XIX əsrin 70-ci illərindən başlanan və indiyədək davam edən arxeoloji tədqiqinə, xüsusilə Gəmiqaya təsvirlərinə, qədim duz mədənlərinə, ilkin şəhər mədəniyyətinin yaranmasına geniş yer ayrılmışdır. Elmin son nailiyyətlərinə əsaslanaraq Naxçıvanda ilkin şəhər mədəniyyətinin 5000 il bundan əvvəl yaranması, Naxçıvan şəhərinin isə bu sahədə ilk mərkəz olduğu fikri vurğulanmışdır.

II fəsildə e.ə. IX – b.e. II əsrlər dövründən bəhs olunmuşdur. Arxeoloji tədqiqatlar nəticəsində sübut olunmuşdur ki, Dəmir dövründə Naxçıvan güclü müdafiə sisteminə malik olmuşdur. Burada diqqəti çəkən əsas məsələlərdən biri indiyədək elmə ancaq müdafiə qalası kimi məlum olan Oğlanqalanın e.ə. I minilliyin əvvəllərində şəhər dövlətin mərkəzi olmasından, bu dövlətin urartulara qarşı mübarizəsindən bəhs olunmasıdır. Fəsildə qeyd olunur ki, Oğlanqala, bütövlükdə Naxçıvan ərazisi heç bir vaxt Urartunun tabeliyinə düşməmiş, ərazi e.ə. IV – b.e. III əsrlərində mövcud olan Atropatenanın tərkibində olmuşdur.

III fəsil "Naxçıvan əhalisinin etnogenezi" tarixinə həsr olunmuşdur. E.ə. VI – b.e. I minilliklərini əhatə edən bu mövzu ilə əlaqədar indiyədək sistemli tədqiqat aparılmamışdır. Fəsildə As, Naxər, Türükkü, Kuti, Lulubi, Kas, Su, Subər, Tal, Koman, Tur, Pal, Tus və s. tayfalar, onların yayıldığı ərazilər, Azərbaycan xalqının formalaşmasında bu tayfaların rolu nəzərdən keçirilir və qeyd olunur ki, prototürk inanc və tayfa adlarını özündə yaşadan bu qədim torpaq 8 min illik bir tarixi dövrdə protoazərbaycanlıların ana yurdu olmuşdur. Fəsildə həmçinin Naxçıvan sözünün mənşəyi nəzərdən keçirilir, bu haqda mövcud olan fikirlər təhlil olunur və toponimin Nuh peyğəmbərin adı ilə əlaqədar yarandığı əsaslandırılır.

Təxminən 700 illik bir dövrü əhatə edən və "Naxçıvan erkən orta əsrlər dövründə" adlanan IV fəsildə Naxçıvanda feodal münasibətlərinin yaranması, türk tayfalarından hunların, xəzərlərin, kəngərlərin, bulqarların, neçeneqlərin və s. buraya yeni axınlarından və ərazidə məskunlaşmalarından və Sasanilərin hakimiyyəti altına düşməsindən, islamaqədərki dövrdə Naxçıvan və çevrəsində etnik mədəni münasibətlərdən bəhs olunur. Həmçinin, fəsildə ərəblərin bu ərazini tutmasından, əhalinin islamlaşdırılmasından, xilafət dövründə Naxçıvanın idarə sistemindən, şəhərlərdən, sənətkarlıq və ticarətdən, ərəblər dövründə Naxçıvanın mühüm inzibati mərkəz olmasından, epiqrafik abidələrdən bəhs olunur. Ərazidə indiyədək qalan toponimlər

(Babək qalası, Babəki kəndi, Babəki qəbiristanlığı və s.) əsasında bölgənin Xürrəmilər hərəkatının mərkəzlərindən olması fikri əsaslandırılır.

Kitabın "Naxçıvan X-XIII əsrin I rübündə" adlanan V fəslində xilafətin parçalanması ilə əlaqədar yaranan Azərbaycan feodal dövlətləri, Naxçıvanın Sacilər, Salarilər və Rəvvadilər dövlətinin tərkibində olmasından söhbət açılır. Fəsildə həmçinin Rəvvadilər dövlətinin tərkibində olarkən ondan yarımasılı vəziyyətdə olan və 80 ilə yaxın yaşayan Naxçıvanşahlıq adlı kiçik feodal dövlət qurumundan bəhs olunmuşdur. Fəsildə maraqlı məsələlərdən biri Səlcuq türklərinin bu əraziləri tutması, bölgənin 1136-1225-ci illərdə mövcud olan və paytaxtı bir müddət Naxçıvan şəhərində yerləşən Azərbaycan Atabəyləri dövlətinin tərkibində olmasından bəhs olunmasıdır. Sənətkarlıq, ticarət və şəhərlərdən bəhs olunan fəsildə həmçinin, tədqiq olunan dövrdə iqtisadi həyat və mədəniyyət haqqında məlumat verilir, Azərbaycan memarlığının şah əsərləri olan Naxçıvan memarlıq abidələrindən, onların təsir dairəsindən söhbət açılır.

Kitabın VI fəsli Naxçıvanın XIII-XV əsrlər tarixinə həsr olunmuşdur. Burada Azərbaycan Atabəyləri dövlətinin son dövrlərindən, Xarəzmşah Cəlaləddinin Naxçıvanı ələ keçirməsindən, monqol hücumlarından, hücumların nəticələrindən, 1258-ci ildə Hülakülər dövlətinin yaranması ilə Naxçıvanın bu dövlətin tərkibinə daxil olmasından, "Naxçıvan tüməni" inzibati-ərazi vahidinin yaradılmasından bəhs olunur. Naxçıvan bölgəsinin Çobanilər və Cəlairilərin hakimiyyəti dövründəki vəziyyətindən söhbət açılan fəsildə, həmçinin Əmir Teymurun və Toxtamış xanın Azərbaycana, o cümlədən Naxçıvana hücumlarından, Əlincəqalanın Teymur qoşunlarına qarşı müqavimətindən, Naxçıvanda fəaliyyət göstərən sufiliklə bağlı mərkəzlərdən, Hürufilik təlimi və onun Azərbaycanda – Naxçıvanda yayılmasından bəhs olunur. Fəsildə eyni zamanda XV əsrdə – Qaraqoyunlular, sonra isə Ağqoyunlular dövlətinin tərkibində olan Naxçıvanın vəziyyəti, ictimai-iqtisadi həyatı təhlil edilir. Burada mədəniyyətə (maarif, elm, ədəbiyyat, epiqrafik abidələr, memarlıq və s.) də ayrıca yer ayrılmışdır.

Kitabın Naxçıvanın Səfəvilər dövrü tarixinə həsr edilmiş VII fəslində qeyd olunur ki, Naxçıvan ərazisi Səfəvilər dövləti yarandığı andan onun tərkibinə keçmiş və çox böyük tarixi yol keçmişdir. Fəsildə diyarın siyasi tarixindən, onun müharibələr meydanına çevrilməsindən, böyük dağıntılara məruz qalaraq, xüsusilə "Böyük sürgün" zamanı güclü zərər çəkməsindən, buna baxmayaraq müharibələrarası fasilələr zamanı iqtisadi cəhətdən müəyyən dərəcədə inkişaf etməsindən, kənd təsərrüfatının, sənətkarlığın, ticarətin vəziyyətindən, şəhərlərdən (Naxçıvan, Culfa, Azad, Ordubad, Əylis

və s.), aparılan quruculuq işlərindən bəhs olunmuşdur. Fəslin sonunda Səfəvilər dövlətinin süqutu ilə əlaqədar Naxçıvanın Əfşarlar dövlətinin tərkibinə keçməsindən bəhs olunur. Burada həmçinin bəhs olunan dövrdə Naxçıvanda mədəniyyət, onun müxtəlif sahələri və epiqrafik abidələr haqqında məlumat verilmişdir.

Kitabın sonunda tarixi-siyasi xronologiya və fəsillər üzrə istifadə olunmuş mənbə və ədəbiyyatların, bundan sonra bəhs olunan dövrə aid ümumi ədəbiyyatın siyahısı verilmişdir. Axırda verilən əlavələr, o cümlədən Naxçıvan tarixinin müxtəlif dövrlərinə aid rəngli xəritələr, arxeoloji maddi-mədəniyyət nümunələrinin, memarlıq, epiqrafik və s. abidələrin foto-şəkilləri, qrafik təsvirləri, görkəmli şəxsiyyətlərin rəsmləri Azərbaycan tarixinin tərkib hissəsi kimi Azərbaycançılıq ideologiyası əsasında yazılan əsərin dəyərini daha da artırır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun dəstəyi ilə "Əcəmi" Nəşriyyat Poliqrafiya Birliyində yüksək poliqrafik şəkildə nəşr olunan, Naxçıvan bölgəsinin tarixinə dair ilk ümumiləşdirici əsər – akademik nəşr olan bu kitab muxtar respublika rəhbərinin Azərbaycan tarixşünaslıq elminə çox layiqli bir hədiyyəsidir.

# DÖRDÜNCÜ FƏSİL

## MONOQRAFİYALAR, RƏYLƏR

### 4.1. ƏLİYEVŞÜNASLIĞA DƏYƏRLİ TÖHFƏ

2013-cü il may ayının 10-da Azərbaycan xalqının böyük oğlu, görkəmli dövlət xadimi və diplomat, ümummilli lider Heydər Əlirza oğlu Əliyevin anadan olmasının 90 ili tamam oldu. Bu münasibətlə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 21 yanvar 2013-cü ildə "Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 90 illik yubileyi haqqında" mühüm tarixi əhəmiyyətə malik Sərəncam imzalamışdır. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Prezident sərəncamının Naxçıvan Muxtar Respublikasında icrasını təmin etmək məqsədi ilə 14 fevral 2013-cü ildə imzaladığı xüsusi sərəncamla "Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 90 illik yubileyinin Naxçıvan Muxtar Respublikasında keçirilməsinə dair Tədbirlər Planı" təsdiq etmişdir. Tədbirlər planına uyğun olaraq ulu öndərin yubileyi münasibəti ilə Naxçıvan Muxtar Respublikasında geniş miqyaslı tədbirlər həyata keçirilmiş, müxtəlif təyinatlı sərgilər, idman yarışları təşkil olunmuş, ümumtəhsil məktəblərində "Heydər Əliyev və Azərbaycan" mövzusunda inşalar yazılmış, Heydər Əliyev Muzeyində silsilə dərslər keçirilmiş, müəssisə və təşkilatlarda fəaliyyət göstərən lektoriyalarda "Heydər Əliyev dövlətçilik dərsləri" keçirilmiş, kütləvi informasiya vasitələrində bu böyük şəxsiyyətin həyatı və siyasi fəaliyyətinin müxtəlif məqamlarını əks etdirən verilişlər yayımlanmış, yazılar işıq üzü görmüş və s. tədbirlər həyata keçirilmişdir.

Yaxın vaxtlarda muxtar respublikanın ictimai-siyasi və mədəni-ideoloji həyatında çox mühüm bir hadisə baş vermişdir. Elmi fəaliyyətinin böyük bir hissəsini xalqımızın ümummilli lideri Heydər Əliyevin həyatı və siyasi fəaliyyətinin tədqiqinə həsr etmiş akademik İsmayıl Hacıyevin uzun illərdən bəri apardığı gərgin axtarışların nəticəsi kimi meydana çıxan "Heydər Əliyev siyasəti: tarixdə və günümüzdə" adlı monoqrafiyası "Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyində yüksək poliqrafik səviyyədə nəşr olunaraq elmi ictimaiyyətin və oxucuların ixtiyarına verilmişdir. Bəri başdan qeyd edim ki, ulu öndər haqqında bir sıra əsərlərin müəllifi olan akademik İsmayıl Hacıyev kimi kamil bir alimin qələmindən çıxan bu əsər artıq müstəqil elm sahəsinə çevrilmiş "Əliyevşünaslıq" elmi xəzinəsini zənginləşdirəcək çox sanballı bir tədqiqat işidir. Əsərdən əldə olunan qənaət bir daha təsdiq edir ki, İsmayıl Hacıyev Əliyevşünas alimlərin sırasında ön

yerdə dayanan tədqiqatçılardandır.

AMEA A.Bakıxanov adına Tarix İnstitutunun "Əliyevşünaslıq" şöbəsinin müdiri, tarix elmləri doktoru Ədalət Qasımovun redaktorluğu ilə nəşr edilən və ilk səhifələrində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 21 yanvar 2013-cü ildə imzaladığı "Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 90 illik yubileyi haqqında" sərəncamının mətni verilən monoqrafiya ön söz, 5 fəsil, 22 yarım fəsil, nəticə və ədəbiyyat siyahısından ibarətdir. Heç şübhəsiz ki, müasir dövr tariximizin 30 ildən artıq bir dövrünün adı ilə sıx bağlı olduğu ümummilli lider Heydər Əliyev kimi görkəmli şəxsiyyətin həyatı və siyasi fəaliyyəti haqqında bir və ya bir neçə kitabda bəhs etmək mümkün olası bir iş deyil. Ona görə də ulu öndərin həyatı, onun geniş miqyaslı titanik fəaliyyəti haqqında bir kitab vasitəsi ilə oxucuda ümumi və aydın təsəvvür yaratmaq tədqiqatçıdan böyük bacarıq, yüksək peşəkarlıq tələb edir. Xüsusilə əhalisinin çoxu ulu öndərin müasiri olan, onun Azərbaycan Prezidenti kimi fəaliyyətini öz gözləri ilə görən və izləyən, həyata keçirilən geniş miqyaslı tədbirlərin iştirakçısı və şahidi olan adamlara ulu öndər haqqında söz demək, onun siyasi portretini yaratmaq bu işə girişən tədqiqatçıdan böyük səriştə, məsuliyyət, geniş dünyagörüşü, yüksək təfəkkür, siyasi proseslərin mahiyyətinə varmağı bacarmaq və s. müsbət keyfiyyətlərin olmasını tələb edir. Tam qətiyyətlə demək olar ki, akademik İsmayıl Hacıyev öhdəsinə götürdüyü bu işin öhdəsindən layiqincə gələ bilmiş, haqqında çoxlu, saysız-hesabsız monoqrafiyalar, kitablar, məqalələr, xatirələr və s. yazılan ümummilli lider Heydər Əliyev haqqında yeni söz deməyi bacarmış, əsərin yazılmasında qarşıya qoyduğu məqsədə tam nail olmuşdur. Əsərlə tanış olarkən açıq-aydın görünür ki, müəllif ulu öndər Heydər Əliyevin çox zəngin həyatı və siyasi fəaliyyətinin əsas məqamlarına nüfuz etməyi bacarmış, ulu öndər haqqında bitkin və tamamlanmış tədqiqat əsəri yaza bilmişdir.

Əsərin "Heydər Əliyev şəxsiyyəti və siyasəti" adlanan I fəslində akademik İsmayıl Hacıyev ulu öndərin şəxsiyyətini öyrənilməmiş bir dünya kimi dəyərləndirmiş, onu müstəqil Azərbaycan dövlətinin memarı, dünya miqyaslı siyasətçi kimi səciyyələndirmiş, görkəmli dövlət xadiminin siyasi fəaliyyətində türk dünyası məsələlərini və türk dünyasının iki nəhəng şəxsiyyətinin – Mustafa Kamal Atatürk və Heydər Əliyevin tarixi missiyalarında oxşarlığı təhlil edərək işıqlandırmışdır. Fəsli oxuyarkən ümummilli liderin şəxsiyyətinin, siyasi fəaliyyətinin heç də hamıya məlum olmayan məqamları ilə tanış olur, dünyanın aparıcı dövlət rəhbərlərinin, görkəmli diplomatların və başqa görkəmli şəxsiyyətlərin fikirləri ilə xalqımızın içərisindən çıxmış

bu dahi şəxsiyyətə əcnəbilərin gözü ilə baxır, haqlı olaraq qürur hissi keçirirsən. Dünya siyasətində söz sahibi olan və bu siyasəti müəyyən edən ABŞ kimi super dövlətin Prezidenti Bill Klintonun "O nəinki Azərbaycanı və Amerikanı, bütün dünyanı idarə edə bilən dövlət xadimidir" sözləri ulu öndərin dünya siyasətinin hansı pilləsində dayandığını parlaq şəkildə əks etdirir.

Monoqrafiyanın ikinci fəslini "Heydər Əliyevin dövlətçilik təlimi"nə həsr edən müəllif burada Heydər Əliyevin elm və təhsil siyasətindən bəhs etmiş, onu Azərbaycan elminin, mədəniyyətinin himayədarı kimi xaraterizə etmiş, ulu öndərin dövlətçilik təlimində milli-mənəvi dəyərlərin yeri və gənclər siyasətindən söhbət açmışdır. Müəllifin fikrincə Azərbaycan ulu öndərin birinci və ikinci hakimiyyəti dövründə yüksək inkişaf yolu keçmiş, ölkə, o cümlədən Naxçıvan Muxtar Respublikası inkişaf etmiş elm, təhsil və mədəniyyət mərkəzinə çevrilmişdir.

"Heydər Əliyev: tarix və tarixi günlər" adlanan III fəsildə monoqrafiya müəllifi ilk növbədə ulu öndərin milli tarix konsepsiyasını ön plana çəkmiş, onun milli-tarixi yaddaşın bərpasında rolunu açıqlamış, tarixi keçmişimizə diqqət və qayğının ifadəsi kimi Azərbaycan Xalq Cümhuriyyətinin tarixi rolunun qiymətləndirilməsindən söz açmış, taleyimizə yazılan bir gün – Azərbaycan Respublikası Milli Məclisinin 27 iyun 1997-ci il tarixli qərarı ilə "Qurtuluş günü" kimi rəsmiləşdirilən, ulu öndərin Azərbaycanda ikinci dəfə siyasi hakimiyyətə qayıdışı günü, 15 iyun haqqında bəhs etmişdir.

Müəllifin bu fəsildə ümummilli lider Heydər Əliyev və xalqımızın tarixində ən faciəli günlərdən biri olan 1990-cı il 20 yanvar faciəsi məsələsinə xüsusi yer ayırması diqqəti cəlb edir. Məlumdur ki, ulu öndərədək 20 yanvar faciəsinə hüquqi-siyasi qiymət verilməmiş, faciənin baş verməsinin səbəbkarları və günahkarları elan olunmamışdı. Monoqrafiyadan da məlum olduğu kimi bu işi ilk dəfə ulu öndər Heydər Əliyev Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri işləyərkən həyata keçirmiş, Azərbaycanda ikinci dəfə siyasi hakimiyyətə qayıdışından sonra 20 yanvar faciəsinə hüquqi-siyasi qiymət verilməsinə nail olmuşdu.

Müəllif əsərin IV fəslini "Heydər Əliyev və Naxçıvanın inkişaf strategiyası"na həsr etmişdir. Fəsli işləyərkən İ.Hacıyev 10 may 1923-cü ildə Naxçıvanda dünyaya göz açan Heydər Əliyevin tərcümeyi-halına nəzər salmış, onun həyatının və fəaliyyətinin Naxçıvan dövründə, xüsusilə 22 iyul 1990 – 09 iyun 1993-cü illərdə Naxçıvanda yaşadığı və işlədiyi dövrdəki fəaliyyətinə xüsusi yer ayırmış, Heydər Əliyev və Naxçıvan tarixi məslələri, onun Naxçıvanda elmin inkişafındakı rolundan bəhs etmiş, ulu

öndəri Naxçıvanın xilaskarı kimi xaraterizə etmişdir. Həmçinin fəsildə ulu öndərin Naxçıvan bölgəsinin yetişdirdiyi görkəmli şəxsiyyətlərə diqqət və qayğısına ayrıca yarımfəsil ayrılmışdır. Naxçıvanın yetirmələri içərisində görkəmli dövlət xadimlərinin xüsusi yeri olduğunu vurğulayan alim digər görkəmli şəxsiyyətlərlə yanaşı 1995-ci ilin dekabrında Naxçıvan Muxtar Respublikasına uğurla rəhbərlik edən Ali Məclisin Sədri Vasif Talıbov haqqında da bəhs etmiş və göstərmişdir ki, 17 illik fəaliyyəti onun yetkin dövlət xadimi, bacarıqlı və qurucu rəhbər olduğunu təsdiq etmişdir. Müəllifin fikrincə bu illərdə Vasif Talıbovun qətiyyətli mövqeyi, məqsədyönlü fəaliyyəti blokada şəraitində yaşamasına baxmayaraq Naxçıvanın uğurlu inkişafını təmin etmişdir.

Nəhayət əsərin sonuncu, "Heydər Əliyev ideyaları Azərbaycanın uğurlarının əsasıdır" adlanan V fəslində aparılan təhlillər nəticəsində Heydər Əliyev ideyalarının, irsinin, onun hazırladığı inkişaf strategiyasının respublikamızın dayanıqlı inkişafının əsası olduğu qənaətinə gəlinmişdir. Burada, həmçinin ümummilli lider Heydər Əliyevin Yeni il, yeni əsr və üçüncü minillik münasibətilə Azərbaycan xalqına müraciəti haqqında bəhs edilmiş, bu sənəd "Azərbaycanın tarixi salnaməsi" kimi dəyərləndirilmişdir. Qeyd olunmuşur ki, son on ilin gerçəklikləri əminliklə söyləməyə əsas verir ki, ümummilli lider Heydər Əliyevin ideyaları əsasında ölkəni irəli aparıb sivil ölkələr səviyyəsinə çatdırmaq məqsədi daşıyan strateji inkişaf kursu cənab İlham Əliyev tərəfindən məharətlə və böyük uğurla davam etdirilmişdir. Böyük bir dövrü əhatə edən müraciətdə Azərbaycanın keçdiyi tarixi yol dərindən təhlil edilmiş, yeni yüzillikdə Azərbaycanın müstəqil dövlət olaraq inkişafının əsas istiqamətləri müəyyənləşdirilmişdir. Ulu öndər çox yüksək səviyyəli peşəkar tarixçi kimi müraciətdə Azərbaycanın XX əsr tarixini dörd mərhələyə bölmüş, hər bir mərhələnin dərin təhlilini vermişdir.

Monoqrafiyanın "Nəticə" hissəsində ümummilli lider Heydər Əliyevi "Siyasət nəhəngi", "Siyasət qrossmeysteri", "Siyasət patriarxı", "Kompyuter insan", "Canlı əfsanə", "Dahi prezident" kimi səciyyələndirən akademik İsmayıl Hacıyev qeyd edir ki, "Heydər Əliyevin idarəetmə keyfiyyətləri, qarşıya çıxan ən çətin vəzifələrdən optimal yol seçmək bacarığı, qibtə ediləsi dəmir iradə, iti ağıl, yüksək intellekt, geniş dünyagörüş... onu dünyamiqyaslı siyasətçiyə çevirmişdir".

Fikrimizcə, çox zəngin materiallar əsasında yazılmış və elmi dövriyyəyə yenicə daxil olunmuş "Heydər Əliyev siyasəti: tarixdə və günümüzdə" monoqrafiyası görkəmli Əliyevşünas alim, akademik İsmayıl Hacıyevin çox böyük uğurudur. İnanırıq ki, bu əsər Heydər Əliyev haqqında yazılan

əsərlərin sırasında öz layiqli yerini tutacaq və Heydər Əliyev irsini öyrənənlərin, bütövlükdə Əliyevsevərlərin stolüstü kitabına çevriləcəkdir. Bu dəyərli əsər münasibəti ilə hörmətli alimimizi ürəkdən təbrik edir, ona yeni yaradıcılıq uğurları arzulayır və yeni əsərlərini gözləyirik.

Sonda bir məsələni xüsusi qeyd etmək istərdim. Naxçıvan Muxtar Respublikasında aparılan geniş miqyaslı işlər içərisində elmin müxtəlif sahələrinə aid yazılmış fundamental əsərlərin nəşri də xüsusi yer tutur. İndiyədək Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin qayğısı və dəstəyi ilə çoxlu belə əsər, o cümlədən 2 cildlik "Naxçıvan Ensiklopediyası", "Naxçıvan Abidələri Ensiklopediyası", "Naxçıvan Tarixi Atlası", "Naxçıvan Muxtar Respublikasının Qırmızı Kitabı", "Naxçıvan Muxtar Respublikasının Ampeloqrafiyası", 3 cildlik "Naxçıvan Folkloru Antologiyası", "Azərbaycan Xalq Cümhuriyyəti və Naxçıvan" və s. bu kimi sanballı əsərlər işıq üzü görmüşdür. Haqqında bəhs etdiyimiz monoqrafiya bu sıradan olan növbəti nəşrdir. Xalqımızın yetişdirdiyi şəxsiyyətlər içərisində yeganə olaraq ümummilli lider səviyyəsinə yüksələn Heydər Əliyev şəxsiyyəti, onun həyatı və siyasi fəaliyyəti haqqında oxucuda aydın təsəvvür yaradan "Heydər Əliyev siyasəti: tarixdə və günümüzdə" monoqrafiyası Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin haqqında bəhs olunan sərəncamından irəli gələn vəzifələrin yerinə yetirilməsinə, Naxçıvan Muxtar Respublikasında elan edilən "Heydər Əliyev ili"nə, bütövlükdə "Əliyevşünaslıq" elmi xəzinəsinə çox dəyərli bir töhfədir.

## 4.2. HEYDƏR ƏLİYEV DÖVLƏTÇİLİK TƏLİMİ VƏ SİYASİ KURSUNA HƏSR OLUNMUŞ MONOQRAFİYA

Xalqımızın ümummilli lideri Heydər Əliyevin 90 illik yubileyi ərəfəsində ulu öndərin nəzəri irsinin öyrənilməsi sahəsində yeni bir uğurlu addım atılmış, akademik İsa Həbibbəylinin "Heydər Əliyev dövlətçilik təlimi və müasir dövr" adlı monoqrafiyası "Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyində yüksək poliqrafik səviyyədə nəşr olunaraq elmi dövriyyəyə daxil edilmişdir. Professor Məmməd Rzayevin elmi redaktorluğu, dosent Vaqif Məmmədovun redaktorluğu ilə çap olunmuş 272 səhifədən ibarət əsərdə Azərbaycan xalqının ümummilli lideri, görkəmli dövlət xadimi Heydər Əliyevin, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin böyük xidmətlərindən, yeni epoxada Naxçıvan Muxtar Respublikasında gedən ictimai-siyasi proseslərdən və elmi-mədəni hadisələrdən bəhs olunur.

Ulu öndərin 90 illik yubileyi və Naxçıvan Muxtar Respublikasında elan olunmuş "Heydər Əliyev ili" ilə əlaqədar həyata keçirilən genişmiqyaslı tədbirləri xalqımızın ümummilli lider Heydər Əliyev qarşısında mənalı bir hesabatı, onun parlaq adı və ideyaları ilə bağlı olan bütün məsələlərin qətiyyətlə və yaradıcılıqla davam etdiriləcəyinə böyük bir təminat kimi dəyərləndirən İsa Həbibbəylinin bu kitabı, fikrimizcə, akademikin özünün də ulu öndərin xatirəsi qarşısında bir hesabatı kimi səciyyələndirilə bilər. Heydər Əliyev nəzəri irsinə dərindən bələd olan, bu sahədə bitkin və yüksək səviyyəli əsərlərin müəllifi kimi tanınan akademik İsa Həbibbəylinin yenicə çapdan çıxan bu əsəri Əliyevşünaslıq elmi xəzinəsinə sanballı töhfədir. Ümummilli lider Heydər Əliyev şəxsiyyəti, onun həyatı və siyasi fəaliyyəti haqqında silsilə əsərlər müəllifi kimi tanınan akademik İsa Həbibbəylinin qələminin, düşüncə və təfəkkürünün məhsulu olan bu əsərin ulu öndərə sonsuz məhəbbət və ehtiramla yazıldığı açıq-aşkar görünməkdədir.

Giriş, üç bölmə və ədəbiyyat siyahısından ibarət olan monoqrafiyanın "Dahilik və zaman" adlanan birinci bölməsində görkəmli dövlət xadimi Heydər Əliyevin böyük xilaskarlıq missiyasından, ulu öndərin Azərbaycançılıq siyasətini ədəbi düşüncədən dövlət ideologiyası səviyyəsinə qaldırmasından, dahilik və zaman anlayışından, Yeni Azərbaycan Partiyasının Heydər Əliyev və İlham Əliyev zamanında cəmiyyət həyatındakı rolundan, Heydər Əliyev dövlətçilik təlimi və bu təlimdə ədəbiyyat siyasəti və müasirlikdən bəhs edilmişdir. Müəllifin fikrincə, ulu öndərin Azərbaycan xalqı qarşısında ən böyük xidmətlərindən biri də Azərbaycançılıq ideyasını müstəqil Azərbaycan dövlətinin siyasi ideologiyası səviyyəsinə qaldırmasıdır. Ümummilli liderimiz

Heydər Əliyev tərəfindən yaradılan və dünya azərbaycanlılarını vahid ideologiya ətrafında birləşdirən, böyük siyasi-ideoloji və tarixi əhəmiyyətə malik olan Azərbaycançılıq ideologiyasının işıqları Müstəqil Azərbaycan Respublikasının bu gününə də, sabahına da gur işıq salır.

Müstəqil Azərbaycan dövlətinin, bütövlükdə, xalqın həyatında mühüm rol oynayan Yeni Azərbaycan Partiyasının Azərbaycan cəmiyyətində yerini və mövqeyini yüksək qiymətləndirən müəllif bu partiyanı qruplaşdırdığı altı faktor əsasında Heydər Əliyev partiyası kimi səciyyələndirir. Qeyd edir ki, ulu öndərin bizi cismən tərk etməsindən sonra Azərbaycan Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə zəngin ənənələrə malik olan Yeni Azərbaycan Partiyasının daha da inkişaf etdirilməsinə, fəaliyyətinin təkmilləşdirilməsinə ciddi əhəmiyyət verilir, Yeni Azərbaycan Partiyası yenə də Azərbaycan siyasi mühitinin ən mütəşəkkil, aparıcı qüvvəsi kimi çıxış edir.

"Heydər Əliyev dövlətçilik təlimi və müasir dövr" əsərinin böyük bir hissəsi, adından da göründüyü kimi, ulu öndərin işləyib hazırladığı dövlətçilik təliminə və onun Azərbaycanda təntənəsinə həsr olunmuşdur. Müstəqil dövlətini yaratmaq, azad yaşamaq hər bir xalqın ən böyük arzusudur. Bu baxımdan ulu öndər Heydər Əliyevin müstəqil Azərbaycan dövlətini yaratması, onu inkişaf etmiş bir dövlətə çevirərək Azərbaycan xalqına miras qoyması ümummilli liderin Azərbaycan xalqı qarşısında ən böyük xidmətidir.

Əsərin ikinci bölməsi Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin genişmiqyaslı və çoxcəhətli fəaliyyətinə həsr olunmuşdur. "Yalnız İlham Əliyevlə", "İlham Əliyevin dövlətçilik strategiyası: çoxaspektli yanaşma, dinamik inkişaf və modernləşmə", "İlham Əliyev körpüləri: həyatda və siyasətdə", "Böyük quruculuğun və vətənpərvərliyin uğurlu hesabatı", "Xəzərdən Ceyhana və Cahana" başlıqları ilə təqdim olunan bu bölmədə ölkə Prezidentinin uğurlu fəaliyyətindən söhbət açılır. Monoqrafiya müəllifinin qənaətinə görə, Prezident İlham Əliyevin siyasi fəaliyyətinin ana xətlərini Azərbaycançılıq, millətlərarası münaqişələrin həlli, neft siyasəti, enerji təhlükəsizliyi, bəşəriyyətin taleyində çoxaspektli dialoqun rolu, tolerantlıq fəlsəfəsi, dövlətçilikdə xalq faktorunun üstün mövqeyi və sair kimi aktual, xüsusi çəkiyə malik məsələlər təşkil edir.

Monoqrafiyanın "Naxçıvan Muxtar Respublikası: Heydər Əliyevdən İlham Əliyevə" adlanan üçüncü bölməsində "Möhkəm bünövrə strategiyası", "Tarixi gedişatın dönüş məqamı və müasir dövr", "Yeniləşən Naxçıvan: inkişafdan intibaha", "Böyük qayıdışın bəhrələri", "Heydər Əliyev və Naxçıvan Dövlət Universiteti" və "Milli ziyalılığın qüdrətli təminatçısı" başlıqlı

yazılar özünə yer almışdır. Burada Azərbaycan Respublikasının müstəqil dövlətçilik taleyində görkəmli dövlət xadimi Heydər Əliyevin həyatı və fəaliyyətinin Naxçıvan dövrünün xüsusi yer tutduğunu vurğulayan müəllif qeyd edir ki, 1990-1993-cü illərdə Naxçıvan Muxtar Respublikasında həyata keçirilən tədbirlər müstəqil dövlətçiliyimizin möhkəm və etibarlı bünövrəsinə çevrilmişdir. 17 noyabr 1990-cı ildə, başqa sözlə desək, Azərbaycanda 18 oktyabr 1991-ci ildə Müstəqillik haqqında Konstitusiya Aktının qəbul olunmasından on bir ay əvvəl Naxçıvanda ulu öndər Heydər Əliyevin sayəsində Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağının dövlət bayrağı kimi rəsmiləşdirilməsini tarixdə analoqu olmayan hadisə kimi dəyərləndirən akademik İsa Həbibbəyli həmçinin həmin gün Naxçıvan MSSR-in adından "Sovet Sosialist" sözlərinin çıxarılmasını, "Ali Sovetin" "Ali Məclis" adlandırılmasını həmin sessiyaya rəhbərlik edən xalqımızın böyük oğlu Heydər Əliyevin Azərbaycanın dövlət müstəqilliyinə sanballı, böyük siyasi-tarixi əhəmiyyətə malik töhfələri kimi qiymətləndirmişdir. 3 sentyabr 1991-ci ildə naxçıvanlıların təkidli tələbi ilə ulu öndər Heydər Əliyevin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri vəzifəsinə seçilməsini akademik İsa Həbibbəyli "Tarixi gedişatın dönüş məqamı" kimi xarakterizə edir və göstərir ki, Heydər Əliyevin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri seçilməsi Azərbaycan tarixinin mühüm və əlamətdar hadisəsidir. Məhz bu böyük siyasi hadisə ilə ölkəmizdə tarixi gedişatın istiqaməti qəti şəkildə müəyyən olunmuş, müstəqil dövlətçilik uğrunda mübarizənin möhkəm və əsaslı təməlləri atılmışdır. 16 dekabr 1995-ci ildə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri seçilən cənab Vasif Talıbov məhz bu etibarlı təməllər üzərində, Heydər Əliyev siyasi kursunu uğurla davam etdirməsi sayəsində Naxçıvan Muxtar Respublikasını əsl inkişaf yoluna çıxarmışdır. Artıq tarixi ədəbiyyatda İntibah dövrü kimi səciyyələndirilən bu müddət ərzində Naxçıvan Muxtar Respublikası inkişaf etmiş sənaye və kənd təsərrüfatı regionuna, Azərbaycanın çox mühüm elm, təhsil və mədəniyyət mərkəzinə çevrilmişdir.

Əsərdə "Heydər Əliyev və Naxçıvan Dövlət Universiteti"ndən bəhs edən müəllif qeyd edir ki, Naxçıvan Dövlət Universitetinin formalaşma və inkişafında görkəmli dövlət xadimi Heydər Əliyevin əvəzsiz xidmətləri vardır. Ulu öndər bir neçə dəfə universitetdə olmuş, onun 25 illik yubileyində iştirak və çıxış etmiş, bu ali məktəbin inkişafı üçün lazımi tədbirlər həyata keçirmişdir. Yüksək dövlət qayğısı sayəsində Naxçıvan Dövlət Universiteti Azərbaycanın inkişaf etmiş ali məktəblərindən birinə çevrilmişdir.

Naxçıvanda sıravi vətəndaş kimi yaşadığı və işlədiyi dövrdə ümummilli

lider Heydər Əliyevlə görüşmək üçün Naxçıvana gəlmiş bir sıra görkəmli elm və mədəniyyət xadimlərinin ulu öndərlə söhbətlərində iştirak etmiş akademik İsa Həbibbəyli bu görüşləri də, aparılan söhbətlər zamanı aldığı təəssüratları da monoqrafiyada bölüşmüşdür.

Şübhəsiz ki, "Heydər Əliyev dövlətçilik təlimi və müasir dövr" mövzusunda yazılmış monoqrafiya haqqında bir məqalədə ətraflı bəhs etmək, onun məziyyətlərini geniş şəkildə təhlil etmək imkan xaricindədir. Ancaq tam cəsarətlə demək olar ki, bu əsər çox məhsuldar yaradıcılıqla məşğul olan, elmin müxtəlif sahələri, o cümlədən artıq müstəqil elm sahəsinə çevrilmiş Əliyevşünaslıq sahəsində çox dəyərli məqalələr, kitablar və monoqrafiyalar müəllifi İsa Həbibbəylinin elmi yaradıcılığında xüsusi bir mərhələ təşkil edir. İnanırıq ki, akademikin bu əsəri ulu öndər haqqında yazılmış, yazılmaqda olan və gələcəkdə yazılacaq əsərlər sırasında öz layiqli yerini tutacaq, tədqiqatçıların, bütövlükdə, oxucuların tez-tez istinad etdiyi kitaba çevriləcəkdir.

## ƏDƏBİYYAT


1. Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. Birinci kitab. Bakı: Azərnəşr, 1997, 608 s.
2. Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. Səkkizinci kitab. Bakı: Azərnəşr, 1998, 488 s.
3. Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. Doqquzuncu kitab. Bakı: Azərnəşr, 2000, 466 s.
4. Heydər Əliyev. Azərbaycan XXI əsrin və üçüncü minilliyin ayrıcında. Naxçıvan: Əcəmi, 2001, 192 s.
5. Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. Ön dördüncü kitab. Bakı: Azərnəşr, 2005, 520 səh.
6. Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. İyirmi ikinci kitab. Bakı: Azərnəşr, 2007, 528 səh.
7. Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. Otuz altıncı kitab. Bakı: Azərnəşr, 2011, 512 səh.
8. Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. Otuz doqquzuncu kitab. Bakı: Azərnəşr, 2012, 480 səh.
9. Abdullazadə F.H. Heydər Əliyev: siyasi portret. Bakı: XXI – Yeni Nəşrlər Evi, 1998.
10. Ağamalı F. Dövlətçiliyimizin İlham Əliyev mərhələsi. Bakı: Oskar NPM, 2005, 304 s.
11. Axundova E.H. Heydər Əliyev. Şəxsiyyət və zaman. 6 cilddə (1923-2003). Bakı: Ozan, CBS 2007-2014.
12. Axundova E.H. Heydər Əliyev. Şəxsiyyət və zaman. 6 cilddə (1923-2003). Bakı: Ozan, 2007, 784 s.
13. Atnur İbrahim Ethem. Osmanlı idarəçiliyindən Sovet idarəçiliyinə qədər Naxçıvan (1918-1921). Naxçıvan: Əcəmi, 2013, 496 s.
14. Azərbaycan Cümhuriyyəti. Bakı: Elm, 1998, 336 s.
15. Azərbaycan Xalq Cümhuriyyəti və Naxçıvan. Tərtib edəni və ön sözün müəllifi İsmayıl Hacıyev. Naxçıvan: Əcəmi, 2010, 384 s.
16. Azərbaycan xalçaları: Naxçıvan qrupu. Bakı: Elm, 2012, 80 s.
17. "Azərbaycan xalçaları" jurnalı. 2013, cild 3, № 8, 144 s.
18. "Azərbaycan" qəzetinin müxtəlif sayları.
19. AMEA N.Gəncəvi adına Azərbaycan Ədəbiyyatı Muzeyi. Heydər Əliyev və Azərbaycanda muzey işi. Milli Elmlər Akademiyası bizim milli sərvətimizdir – onu qoruyub saxlamalıyıq. "Elm" qəzetinin xüsusi buraxılışı. Bakı: Nurlan, 2003, 288 s.

20. Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsi. Tərtib edən: İsmayıl Hacıyev. Bakı: Nurlan, 2005, 156 s.
21. Azərbaycan MEA Naxçıvan Bölməsinin Xəbərləri. 2005, № 1, 154 s.
22. Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin 2010-cu il elmi və elmi-təşkilati fəaliyyəti haqqında hesabat. Naxçıvan: Tusi, 2010, 106 s.
23. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı: Qanun, 2011, 64 s.
24. Azərbaycan tarixi. Akademik Ziya Bünyadov və t.e.d., professor Yusif Yusifovun redaktəsi ilə. Bakı: Azərnəşr, 1994, 688 s.
25. Azərbaycan tarixi. S.Əliyarlının redaktorluğu ilə. Bakı: Azərbaycan nəşriyyatı, 1996, 872 s.
26. Azərbaycan tarixi. 7 cilddə, II cild. Bakı: Elm, 1998, 596 s.
27. Azərbaycan tarixi. 7 cilddə, III cild. Bakı: Elm, 1999, 584 s.
28. Azərbaycan tarixi. 7 cilddə. Yeddinci cild. Bakı: Elm, 2003, 676 s.
29. Bəhramov C. Buraxılmış səhvin bağışlanmaz acı nəticələri. I-II məqalə. "Xalq qəzeti", 8, 10 fevral 2008.
30. Baxşəliyev V. Gəmiqaya təsvirlərinin poetikası. Bakı: Elm, 2002, 128 s.
31. Baxşəliyev V. Gəmiqaya təsvirləri. Bakı: Çaşıoğlu, 2003, 168 s.
32. Baxşəliyev V. Naxçıvanda Nuhla bağlı əfsanələr. "Şərq qapısı" qəzeti, 08 dekabr 2005-ci il.
33. Baxşəliyev V., Morro C., Homon C., Alıyev N., Dessaint P., Sanz S. Naxçıvan Duzdağının qədim duz mədənləri. Naxçıvan: Əcəmi, 2012, 80 s.
34. Behbud ağa Şahtaxtinskinin Leninə məktubları. "Şərq qapısı" qəzeti, 6 oktyabr 2011-ci il.
35. Cabbarlı Ə. Heydər Əliyev və Naxçıvan tarixi məsələləri. Tarix üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın avtoreferatı. Naxçıvan: Qeyrət, 2013, 25 səh.
36. Cəfərli E. Naxçıvanda erməni – Azərbaycan münaqişəsi. Bakı: Nurlan, 2009, 280 s.
37. Cəfərov Ə. Naxçıvanın Daş dövrü düşərgələri. Azərbaycan arxeologiyası. 2010, cild 13, № 7, s. 9-14.
38. Cəfərov F. Naxçıvan polisi: fəaliyyətinin əsas istiqamətləri və mərhələləri. Bakı: Nurlan, 2011, 388 s.
39. Cəfərov F. XIX-XX əsrlərdə Naxçıvanda hüquq-mühafizə orqanlarının (polis) yaranması və fəaliyyəti (1828-2000-ci illər). Tarix üzrə elmlər doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın avtoreferatı. Naxçıvan, 2013, 54 s.
40. Dördüncü çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin dördüncü sessiyasında Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif

Talıbovun yekun nitqi. “Şərq qapısı” qəzeti, 30 dekabr, 2011-ci il.
41. “Dövran” qəzeti, 16 dekabr 1998-ci il.
42. “Elm” qəzetinin müxtəlif sayları
43. Əcaib əd-Dünya. Azərbaycan MEA Tarix İnstitutunun Elmi Arxivi. Foto surət, inv. № 3831.
44. Əfəndiyev O. Azərbaycan Səfəvilər dövləti. Bakı: Şərq-Qərb, 2007, 344 s.
45. Ələkbərli Ə. Qədim türk-oğuz yurdu – “Ermənistan”. Bakı: Sabah, 1994, 208 s.
46. Ələsgərov S., Babayev N., Qurbanov Ə. Qayaların açılmamış sirləri. Elm və həyat, 1985, № 12, s. 10-11.
47. Əliyev İ., Musayev R. Nüvədi sonuncu Azərbaycan kəndiydi. Deportasiya. Toplu. Bakı: Azərbaycan Ensiklopediyası NPB, 1998, s. 240-260.
48. Əliyev M.B. Qanlı günlərimiz (1918-1920, Naxçıvan). Bakı: Azərnəşr, 1993, 142 s.
49. Əliyev V. Naxçıvan MSSR-də 1971-ci ildə aparılan arxeoloji tədqiqatlar. Археологические и этнографические изыскания в Азербайджане (1971). Баку: Элм, 1972, с. 9-10.
50. Əliyev V. Tarixin izləri ilə. Bakı: Gənclik, 1975, 77 s.
51. Əliyev V. Gəmiqaya abidələri. Bakı: Azərnəşr, 1993, 79 s.
52. Əliyev V. Naxçıvan – Azərbaycanın qədim diyarıdır. Bakı: XXI – YNE, 2002, 320 s.
53. Əliyev V. Heydər Əliyev və maddi mədəniyyətimiz. NDU-nin Elmi Əsərləri. Naxçıvan: Qeyrət, 2002, № 9, s. 10-13.
54. Əliyev V. Zəngəzurda qalan izimiz. Bakı: Nurlan, 2004, 295 s.
55. Əliyev V. Gəmiqaya. Bakı: “Əbilov, Zeynalov və oğulları”, 2005, 148 s.
56. Əliyev Q. Memar Əcəmi Naxçıvani yaradıcılığında ahəngdarlıq. Bakı: Şərq-Qərb, 2007, 160 s.
57. Fərzəli Ə. Gəmiqaya – Qobustan əlifbası. Bakı: “Azərbaycan Milli Ensiklopediyası” Nəşriyyat Poliqrafiya Birliyi, 2003, 292 s.
58. General Veysəl Ünüvar. Naxçıvan: təlatüm və burulğanlar (1920-1921). Naxçıvan: Əcəmi, 2006, 104 s.
59. Hacıyev İ. Behbud ağa Şahtaxtinski və Naxçıvanın ərazi taleyi. “Şərq qapısı” qəzeti, 7 sentyabr 2001-ci il.
60. Hacıyev İ. Azərbaycanın tarixi salnaməsi. NDU-nun əsərləri. Naxçıvan: Qeyrət, 2002, № 9, s. 6-10.
61. Hacıyev İ. Heydər Əliyev və milli-tarixi yaddaşın bərpası. Bakı: Elm, 2003, 164 s.

62. Hacıyev İ. Behbud ağa Şahtaxtinski və Naxçıvanın taleyi. "Dirçəliş" jurnalı, 2004, № 76-77.
63. Hacıyev İ. Naxçıvan Muxtar Respublikasının misilsiz inkişaf yolu. "İntibahın 15 ili" kitabında, s. 29-88. Naxçıvan: Əcəmi, 2010, 280 s.
64. Hacıyev İ. Qars müqaviləsi: Naxçıvanın ərazi taleyi və muxtariyyət məsələsi. "Şərq qapısı" qəzeti, 27 sentyabr 2011-ci il.
65. Hacıyev İ.M. Naxçıvan Muxtar Respublikasının ictimai-siyasi həyatı, sosial-iqtisadi və mədəni inkişafı (1991-2011-ci illər). Naxçıvan: Əcəmi, 2011, 272 s.
66. Hacıyev İ. Heydər Əliyev siyasəti: tarixdə və günümüzdə. Naxçıvan: Əcəmi, 2013, 296 s.
67. Hacıyev İ. Əhalinin qətiyyətli mövqeyi Naxçıvan diyarını xilas etdi. "Şərq qapısı" qəzeti, 25, 28 yanvar 2014-cü il.
68. Hacıyev Q. Heydər Əliyevin Dağlıq Qarabağa erməni iddialarına qarşı mübarizəsi. Bakı: Təknur, 2014, 400 s.
69. Həbibbəyli İ.Ə. Heydər Əliyevin həyatı və fəaliyyətinin Naxçıvan dövründə Naxçıvan Dövlət Universiteti. Naxçıvan: Qeyrət, 1998.
70. Həbibbəyli İ. Yeniləşən Naxçıvanın möhtəşəm hesabatı. "İntibahın 15 ili" kitabında, s. 5-28. Naxçıvan: Əcəmi, 2010, 280 s.
71. Həbibbəyli İ. Behbud ağa Şahtaxtinskinin xidmətləri və aqibəti. "Azərbaycan" qəzeti, 18-19 mart, 2011-ci il.
72. Həbibbəyli İ. Heydər Əliyev dövlətçilik təlimi və müasir dövr. Naxçıvan: Əcəmi, 2013, 272 s.
73. "Həyat" qəzeti, 28 avqust 1991-ci il.
74. Hüseyni Ə. Əfsanədən həqiqətə. Qobustan, 1973, № 1, s. 49-52.
75. Hüseyni Ə. Xalqımızın mənlik heykəli. "Sovet Naxçıvanı" qəzeti. 30 yanvar, 1986-cı il.
76. Hüseynov M. Naxçıvanın qədim daş çəkicləri. Azərbaycan SSR EA Məruzələri, XII cild, 1956, № 2.
77. Hüseynova İ.M. Müstəqil Azərbaycan dövlətinin yaranmasında və möhkəmləndirilməsində Heydər Əliyevin rolu: Tarix elmləri doktoru alimlik dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyasının avtoreferatı. Bakı, 2003.
78. Hüseynova İ.M. Müstəqil Azərbaycan dövlətinin qurucusu. Bakı, 2004.
79. "Xalq qəzeti"nin müxtəlif sayları
80. İbrahimli B. Sumbatan-Dizə yaşayış yerində arxeoloji tədqiqatlar. Azərbaycanda arxeoloji tədqiqatlar, 2010, s. 135-142.
81. İbrahimzadə F. Behbud ağa Şahtaxtinski. Bakı: Elm, 2004, 68 s.

82. İbrahimzadə F. Behbud ağa Şahtaxtinski (siyasi və diplomatik fəaliyyəti). Tarix elmləri namizədi alimlik dərəcəsi almaq üçün təqdim olunmuş dissertasiya. Naxçıvan, 2006, 157 s. AMEA Naxçıvan Bölməsinin elmi kitabxanası.
83. İbrahimzadə F. Behbud ağa Şahtaxtinskinin siyasi və diplomatik fəaliyyəti. Bakı, RDS-Nəşriyyat-poliqrafiya müəssisəsi. 2007, 232 s.
84. Kazımov M. Heydər Əliyev bütün dünyanı idarə etməyə qadir olan siyasi xadim idi. AMEA Naxçıvan Bölməsinin Xəbərləri. Xüsusi buraxılış. Naxçıvan: 2013, s. 36-45.
85. Kərimov L. Azərbaycanda xalça incəsənətinin öyrənilməsinə dair. Azərbaycan incəsənəti, I cild. Bakı, 1959.
86. Kərimov L. Azərbaycan xəlçəsi. I. Bakı-Leninqrad: Azərbaycan SSR EA nəşriyyatı, 1961.
87. Köçərli T. Yaddan çıxmaz Qarabağ. Nəqşi-Cahan Naxçıvan. Bakı: Elm, 1998, s. 458-459.
88. Qabrielo və Martincito Filips. Allah yurdu Naxçıvan. "Şərq qapısı" qəzeti, 28 may 2008-ci il.
89. Qasımov Ə.Q. Heydər Əliyevin inkişaf strategiyası və Naxçıvan Muxtar Respublikası (XX əsrin 70-80-ci illəri). Bakı: Təhsil, 2009, 320 s.
90. Qasımov Ə.Q. Heydər Əliyev və Naxçıvan Muxtar Respublikasının inkişaf tarixi (1969-2003-cü illər). Tarix elmləri doktoru alimlik dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyasının avtoreferatı. Naxçıvan, 2011.
91. Qasımov Ş. Xalq qəhrəmanı Sultan bəy. Bakı: Elm, 2011, 385 s.
92. Qayıdış (1990-1993). Təkmilləşmiş və yenidən işlənmiş ikinci nəşr. Tərtib edəni Əli Həsənov. Bakı: Azərbaycan, 2008, 840 s.
93. Qətiyyətin təntənəsi (sənədli xronika). Müəllif – tərtibçi Şakir Yaqubov. Bakı: "Səhər" qəzetinin nəşri, 1995, 848 s.
94. Qədirzadə H.Q. Naxçıvan: Nuh baba və Türk atadan gələn yol. Naxçıvan: Əcəmi, 2011, 192 s.
95. Qiyasi C. Nizami dövrü memarlıq abidələri. Bakı: İşıq, 1991, 264 s.
96. Quliyev M. Görkəmli dövlət xadimi və diplomat Behbud ağa Şahtaxtinski haqqında bəzi qeydlər və əldə edilən yeni məlumatlar. "Şərq qapısı" qəzeti, 23 avqust 2011-ci il.
97. Mahmudov Y.M. Azərbaycan dövlətçiliyinin xilaskarı. Bakı: BDU-nun nəşriyyatı, 1998.
98. Mahmudov Y.M. Azərbaycan tarixində Heydər Əliyev şəxsiyyəti. Bakı: Təhsil, 2002, 328 s.
99. Mehdiyev R.Ə. Azərbaycan: Tarixi irs və müstəqillik fəlsəfəsi. Bakı:

Azərbaycan Milli Ensiklopediyasının nəşriyyatı, 2001.
100. Mehdiyev R. Gorus – 2010: Absurd teatrı mövsümü. "Azərbaycan" qəzeti, 4 noyabr 2010, s. 4-7.
101. Məmmədov İ., Əsədov S. Ermənistan azərbaycanlıları və onların acı teleyi. Bakı: 1992.
102. Məmmədov M. Naxçıvan Muxtar Respublikasında ictimai-siyasi proseslər (1988-2005-ci illər). Bakı: Şirvannəşr, 2005, 208 s.
103. Məmmədov R. Naxçıvan şəhərinin tarixi oçerki. Bakı: Elm, 1977, 160 s.
104. Məmmədov V. Dənizə qar yağırdı. Bakı: Şirvannəşr, 2012, 160 s.
105. Məmmədzadə K. Azərbaycanda inşaat sənəti. Bakı: Elm, 1978, 210 s.
106. Milli Elmlər Akademiyası bizim milli sərvətimizdir – onu qoruyub saxlamalıyıq. "Elm" qəzetinin xüsusi buraxılışı. Bakı: Nurlan, 2003, 288 s.
107. Muradov V. Naxçıvan xalçaçıları. Bakı: Elm, 2013, 156 s.
108. Musayev İ. Azərbaycanın Naxçıvan və Zəngəzur bölgələrində siyasi vəziyyət və xarici dövlətlərin siyasəti (1917-1921-ci illər). Yenidən işlənmiş, təkrar – ikinci nəşri. Bakı: BDU, 1998, 385 s.
109. Musəvi T. Orta əsr Azərbaycan tarixinə dair farsdilli sənədlər. Bakı: Elm, 1977, 240 s.
110. Müseybli N. Gəmiqaya rəsmləri. Bakı: XXI – Yeni Nəşrlər Evi, 2002, 48 s.
111. Müseybli N. Gəmiqaya. Bakı: Çaşıoğlu, 2004, 320 s.
112. Naxçıvan abidələri ensiklopediyası. Naxçıvan, 2008, 521 s.
113. Naxçıvan dünyanın ən qədim yaşayış məskənlərindən biridir. AMEA-nın müxbir üzvü V.Baxşəliyevlə müsahibə. "Şərq qapısı" qəzeti, 29 sentyabr, 2011-ci il.
114. "Naxçıvan: ilk yaşayış və şəhərsalma yeri kimi" (20-24 iyul 2011-ci ildə keçirilmiş beynəlxalq simpoziumunun materialları). Naxçıvan: Əcəmi, 2012, 398 s.
115. Naxçıvan: ilkin şəhər və Duzdağ (27-28 iyul 2012-ci ildə keçirilmiş beynəlxalq simpoziumun materialları). Naxçıvan: Əcəmi NPB, 2013, 360 s.
116. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov cənablarının "Uluslararası qaynaqlarda Naxçıvan" beynəlxalq simpoziumundakı giriş sözü: Tarix boyunca Naxçıvan və müasir dövr. Naxçıvan tarixinin səhifələri ("Uluslararası qaynaqlarda Naxçıvan" beynəlxalq simpoziumunun materialları). Bakı: ADPU-nun mətbəəsi,

1996, s. 10-16.
117. Naxçıvan Muxtar Respublikası. Bakı: Elm, 2001, 222 s.
118. Naxçıvan Muxtar Respublikası Dövlət Arxivi.
119. Naxçıvan ensiklopediyası. 2 cilddə, cild 2. Naxçıvan, 2005, 381 s.
120. Naxçıvan Muxtar Respublikası Ali Məclisi. Rəsmi sənədlər. 1996-2011. Naxçıvan: Əcəmi, 2012, 536 s.
121. Naxçıvan sancağının müfəssəl dəftəri. Giriş və tərcümənin müəllifləri akademik Ziya Bünyadov və tarix elmləri namizədi Hüsaməddin Məmmədov (Qaramanlı). Bakı: Sabah, 1997, 336 s.
122. Naxçıvan sancağının müfəssəl dəftəri. Araşdırma, qeyd və şərhlərin müəllifi Hüsaməddin Məmmədov (Qaramanlı). Tərcümə edənlər Ziya Bünyadov və Hüsaməddin Məmmədov (Qaramanlı). Bakı: Elm, 2001, 376 s.
123. Naxçıvan tarixi atlası. Bakı: Bakı Kartoqrafiya Fabriki, 2010, 55 s.
124. Naxçıvan tarixinin səhifələri ("Uluslararası qaynaqlarda Naxçıvan" beynəlxalq simpoziumunun materialları). Bakı: ADPU-nun mətbəəsi, 1996, 222 s.
125. Nuh peyğəmbər, Dünya tufanı və Naxçıvan (24-25 aprel 2009-cu ildə keçirilmiş beynəlxalq simpoziumun materialları). Naxçıvan: Əcəmi, 2010, 300 s.
126. "Ordubad rayonundakı Gəmiqaya abidəsinin tədqiq edilməsi haqqında" Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun 26 aprel 2001-ci il tarixli Sərəncamı. Naxçıvan MR Ali Məclisi. Rəsmi sənədlər (1996-2011). Naxçıvan: Əcəmi, 2012, 524 s.
127. Onullahi S.M. Jan Batist Tavernye Naxçıvan haqqında. Naxçıvan Muxtar Respublikası. Bakı Universiteti Xəbərlərinin xüsusi buraxılışı. Bakı: BDU, 1999, s. 87-93.
128. Piriyev V. Azərbaycanın tarixi coğrafiyası. Bakı: Araz, 2002, 152 s.
129. Piriyev V. Naxçıvan tarixindən səhifələr. Bakı: Müəllim, 2004, 126 s.
130. "Respublika" qəzeti, 8 iyun 2013-cü il
131. Rəsmi sənədlər. 1996-2011. Naxçıvan: Əcəmi, 2012, 536 s.
132. Seyidov A. Gəmiqaya (toponimlər, qədim köç yolları). Bakı: Azərbaycan Dövlət İqtisad Universiteti, 2003, 130 s.
133. Seyidov H. Böyük qurtuluşun başlanğıcı. "Respublika" qəzeti, 8 iyun 2013-cü il.
134. Səfərli H.F. Culfa bölgəsinin epiqrafik abidələri. Bakı: Elm, 2002, 80 s.
135. Səfərli H. Behbud ağa Şahtaxtinski: görkəmli dövlət xadimi və

diplomat. "Şərq qapısı" qəzeti, 25 fevral 2011-ci il.
136. "Səs" qəzetinin müxtəlif sayları.
137. Şahtaxtinski B. Xalq Komissarları Sovetinin sədri yoldaş Leninə. "Şərq qapısı" qəzeti, 6 oktyabr 2011-ci il.
138. Şahverdiyev Z. Naxçıvan bölgəsi XIX – XX əsrin əvvəllərində. Bakı: Elm, 2008, 264 s.
139. Şərifli M. Naxçıvanşahlıq. Azərbaycan SSR EA Xəbərləri. Tarix, fəlsəfə və hüquq seriyası. 1966, № 4, s. 27-32.
140. Şərifli M. IX əsrin II yarısı – XI əsrdə Azərbaycan feodal dövlətləri. Bakı: 1978, 344 s.
141. "Şərq qapısı" qəzetinin müxtəlif sayları.
142. Tağıyeva Ş., Rəhimli Ə., Bayramzadə S. Güney Azərbaycan. Bakı: Orxan, 2000, 516 s.
143. Ülki İ. Qızıl ulduzdan hilala doğru: Heydər Əliyevin fırtınalı həyatı. Bakı, 1994.
144. Vəlixanlı N. X əsrin II yarısı – XI əsrdə Azərbaycan feodal dövlətlərinin qarşılıqlı münasibətləri və bir daha "Naxçıvanşahlıq" haqqında. Azərbaycan MEA Xəbərləri. Tarix, fəlsəfə və hüquq seriyası. 2001, № 4, s. 120-129.
145. Vəlixanlı N. Naxçıvan - ərəblərdən monqollaradək (VII-XII əsrlər). Bakı: Elm, 2005, 152 s.
146. Vəliyev İ. Deportasiya. Deportasiya. Toplu. Bakı: Azərbaycan Ensiklopediyası NPB, 1998, s. 69-91.
147. Vəliyev M. (Baharlı). Azərbaycan (fiziki-coğrafi, etnoqrafik və iqtisadi oçerk). Bakı: Azərbaycan, 1993, 192 s.
148. Zaman Ş. Naxçıvan fransız mənbələrində. "Azərbaycan müəllimi" qəzeti. 13-19 may 1999-cu il.
149. Hacıyev İ., İbrahimzade F. Behbud ağa Şahtahtinski ve Moskova antlaşması. "Atatürk" dərgisi, cild IV, sayı 1, yanvar. Erzurum, 2004, s. 1-15.
150. Алиев В. Гемигая – сокровищница тайн. Газ. "Вышка", № 228, 28 сентября, 1968 г.
151. Алиев В. Петроглифы Гемигая. Баку: Типография ВДНХ СССР, 1985, 17 с.
152. Андриянов В., Мираламов Г. Гейдар Алиев. Москва: Молодая гвардия, 2006.
153. Григорьев В. Статистическое описание Нахичеванской провинции. Санкт-Петербург, 1833, 264 с.

154. Джафарзаде И. Следы древнейшей культуры человека на территории Азербайджана. Известия Аз. ФАН СССР, 1944, № 9.
155. Зелинский С. Три магала: Нахичеванский, Ордубадский и Даралагезский. Географическо – статистическое и сельско – хозяйственное описание. Сборник сведений о Кавказе. Том VII. Тифлис, 1880, с. 209-275.
156. Казвини Х. Нузхат ал-кулуб. Перевод с английского. З.М.Буниятова, перевод с персидского И.П.Петрушевского. Баку: Элм, 1983, с. 37-65.
157. Надеждин П. Природа и Люди на Кавказе и за Кавказом. СПб, 1869, 413 с.
158. Неймат М.С. Корпус эпиграфических памятников Азербайджана. Том III. Баку: XXI –Yeni Nəşrlər Evi, 2001, 216 с.
159. Никитин К. Город Нахичевань и Нахичеванский уезд. Сборник материалов для описания местностей и племен Кавказа. Тифлис, 1882, вып. II, отдель I, с. 109-142.
160. Никитин К.А. Народная предания в Нахичеванском уезде, Эриванской губернии. Сборник материалов для описания местностей и племен Кавказа. Тифлис, 1882, вып. II, отдель II, с. 107-120.
161. Нифталиев И. Первый польномочный представитель Азербайджанской ССР в Советской России. "İrs" jurnalı. Moskva, 2011, sayı 3 (51), с. 12-16.
162. Обозрение Российских владений за Кавказом в статистическом, этнографическом, топографическом и финансовом отношениях. Часть IV, Санкт-Петербург, 1836, 401 с.
163. Пиралов А.С. Кустарные промысла Кавказа. СПБ., 1913.
164. Сафаров Ф.Я. Арабо-персоязычные надписи Нахичеванской АССР (XVI-XIX вв) как историко-культурные памятники. Диссертация на сосискание ученой степени канд. ист. наук. Баку, 1987, 179 с. НАИИ НАН Азербайджана. Инв. № 8383.
165. Сборник материальов для описание местностей и племен Кавказа. Выпуск второй. Тифлис, 1882.
166. Смирнов К.Н. Материалы по истории и этнографии Нахичеванского края. Баку: Озан, 1999, 159 с.
167. Советский энциклопедический словарь. Москва: Изд.-во "Советская энциклопедия", 1980, 1600 с.
168. Сысоев В.М. Нахичевань на Араксе и древности Нах. ССР (отчет о поездке летом 1926 г.). Известия "Азкомстарис"а, вып. 4 (тетрадь

2). Баку, 1929, с. 87-121.
169. Сысоев В. Краткий путеводитель наиболее известным памятником древности и природы в Азербайджане. Баку, 1930.
170. Худут ал-Алем (рукопись Туманского). Ленинград, 1930.
171. Шопен И. Исторический памятник состояния Армянской области в эпоху ее присоединения к Российской империи. Санкт-Петербург // Типография императорской АН, 1852, 1231 с.
172. Энциклопедический словарь. Том XX^. Издатели: Ф.А.Брокгауз, И.А.Ефрон. С.-Петербург, 1897, 960 с. s. 705.
173. Morro C., Bakhsalıyev V., Sanz S., Alıyev N. Archaelogical investigations on the salt mine of Duzdağı (Nakhchivan, Azerbeycan). Tüba – Ar. Turkish Akademy of Sciences Journal of Archaeology. 2010, № 13, s. 229-239.

## MÜNDƏRİCAT

Ön söz......................................................................................................3

Müəllifdən..................................................................................................6

**I FƏSİL. ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEV İRSİ ƏBƏDİYAŞAR TƏLİMDİR**..............................................................8

1.1. Heydər Əliyevin Naxçıvan dövr fəaliyyəti *(22 iyul 1990 – 03 sentyabr 1991-ci illər)*.............................................. 8

1.2. Azərbaycanı müstəqilliyə hazırlayan və bərpadan sonra müstəqilliyi qoruyub əbədiləşdirən ümummilli lider...........................................17

1.3. Böyük qurtuluşun banisi..........................................................25

1.4. Heydər Əliyev irsi – əbədiyaşar təlim........................................35

1.5. Heydər Əliyev və Naxçıvanın erməni işğalından xilas edilməsi........ 42

1.6. Heydər Əliyev və milli-mənəvi dəyərlərimiz.................................50

1.7. Heydər Əliyev və Naxçıvanda tarixçi kadrların hazırlanması...........56

1.8. Müstəqilliyin möhkəmləndirilməsi dövründə Naxçıvanda tarix elminin inkişafı *(1991-2011-ci illər)*.......................................... 62

1.9. Heydər Əliyev və Azərbaycan tarixi məsələləri ............................ 66

1.10. Ümummilli lider Heydər Əliyev və Gəmiqaya abidələri..................77

**II FƏSİL. NAXÇIVAN MUXTAR RESPUBLİKASI – 90** ................84

2.1. Muxtariyyət ərəfəsində Naxçıvanda vəziyyət (1918-1924-cü illər)..................................................................84

2.2. Muxtariyyət ərəfəsində Naxçıvanın erməni təcavüzündən qorunmasında əhalinin rolu..................................................... 92

2.3. Naxçıvanın blokadası Zəngəzurun Ermənistana bağışlanması ilə başlandı.....................................................100

2.4. Naxçıvan bölgəsinin tarixi coğrafiyası haqqında qeydlər............... 109

2.5. Behbud ağa Şahtaxtinski görkəmli dövlət xadimi kimi.................115

**III FƏSİL. MİLLİ DƏYƏRLƏRİMİZ - MİLLİ KİMLİYİMİZDİR**....123

3.1. Naxçıvan Muxtar Respublikasında "Milli dəyərlər ili" haqqında qeydlər....123

3.2. Milli dövlətçiliyimiz xalqımızın ən böyük milli dəyəri kimi....130

3.3. Naxçıvanda xalçaçılığın inkişafında yeni mərhələ....136

3.4. Naxçıvan memarlıq məktəbinin möhtəşəm nümunəsi – Nuh türbəsi....145

3.5. "Naxçıvanşünaslıq mərkəzi" haqqında qeydlər....155

3.6. Naxçıvan tarixinin öyrənilməsində yeni mərhələ....160

3.7. Naxçıvan Duzdağında duz hasilatı tarixindən....164

3.8. Naxçıvan tarixinə dair ilk ümumiləşdirici əsər....173

**IV FƏSİL. MONOQRAFİYALAR, RƏYLƏR**....179

4.1. Əliyevşünaslığa dəyərli töhfə....179

4.2. Heydər Əliyev dövlətçilik təlimi və siyasi kursuna həsr olunmuş monoqrafiya....184

Ədəbiyyat....188

# FƏXRƏDDİN SƏFƏRLİ

## HEYDƏR ƏLİYEV İRSİ – ƏBƏDİYAŞAR TƏLİM

Yığılmağa verilmiş 21.07.2014.
Çapa imzalanmış 22.09.2014.
Formatı 70X100 1/16. "Tayms" qarnituru.
Ofset çap üsulu. Ofset kağızı. Həcmi 12.5 ç.v.
Sifariş № 814 Tiraj 300 nüsxə.

Naxçıvan şəhəri, Təbriz küçəsi, 1